**Azərbaycan Milli Elmlər Akademiyası**
**A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu**

**ELÇİN QARAYEV**

# AZƏRBAYCANLILARLA ERMƏNİLƏR ARASINDA KEÇİRİLƏN "BARIŞDIRICI QURULTAY"

(Qafqaz Canişinliyi, 20 fevral- 6 mart 1906-cı il)

**Bakı 2025**

***AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının 28 yanvar 2025-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür***

**Elmi redaktor:** **Cəbi Bəhramov**
tarix üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər:** **Nazim Mustafa**
tarix üzrə fəlsəfə doktoru

**Bəxtiyar Həsənov**
tarix üzrə fəlsəfə doktoru, dosent

Elçin Qarayev. Azərbaycanlılarla ermənilər arasında keçirilən "Barışdırıcı qurultay" *(Qafqaz Canişinliyi, 20 fevral- 6 mart 1906-cı il)*. Bakı, Füyuzat, 2025.

*Monoqrafiya 1906-cı ilin fevral-mart aylarında Qafqaz Canişinliyində azərbaycanlılarla ermənilər arasında keçirilən "barışdırıcı qurltay"ın ətraflı tədqiqinə həsr edilmişdir. Burada qurultayın məqsədi, təşkilatı məsələləri, hər iki millət nümayəndələri tərəfindən irəli sürülən proqramlar, bu proqramların bənd-bənd müzakirəsində hər iki millət nümayəndələrinin, səlahiyyətli hakimiyyət orqanlarının geniş çıxışları, qəbul edilmiş qətnamə və Xüsusi Komissiyanın protokolları işıqlandırılmışdır. Eyni zamanda əsərdə bütün çıxışlar rus dilindən Azərbaycan türkcəsinə tərcümə edilmişdir*

***©Elçin Qarayev, 2025***

# GİRİŞ

XX yüzilliyin əvvəllərində Azərbaycan xalqına qarşı ermənilərin törətdiyi qırğınların, soyqrım cinayətlərinin tarixinin öyrənilməsi və onun səbəblərinin araşdırılması Vətən tarixşünaslığı qarşısında duran aktual məsələlərdən biridir. Qeyd etmək lazımdır ki, XIX yüzilliyin əvvəllərində Azərbaycanın şimal hissəsini işğal edən çar Rusiyası, bu bölgəni daimi nəzarətdə saxlamaq üçün  müstəmləkə mahiyyəti daşıyan cinayətkar ”**parçala və hökm sür**” siyasətini həyata keçirmişdir. Xalqımıza qarşı olan ən böyük cinayətlərdən biri  Şimali Azərbaycanın müxtəlif bölgələrinə- keçmiş İrəvan, Naxçıvan, Qarabağ və digər xanlıqların ərazilərinə ermənilərin köçürülməsi, gələcəkdə öz planlarını həyata keçirmək üçün onlara hərtərəfli güzəştlərin edilməsi, bu xalqın nüfuzlu şəxslərinə siyasi hüquqların verilməsi və yerli Azərbaycan xalqı ilə buraya köçürülən  xalqlar, xüsusən də ermənilər arasında ayrı-seçkiliyin aparılması idi. Şimali Azərbaycan torpaqlarında məskunlaşan ermənilər çar Rusiyasının hakim dairələrinin  köməyi ilə son iki əsr ərzində xalqımıza məxsus maddi-mədəniyyət abidələrini məhv etmiş, bölgənin tarixini saxtalaşdırmış və guya bu torpaqların ermənilərə məxsus olması haqqında saxta tarix yaratmağa çalışmışdılar. Bundan əlavə, Şimali Azərbaycan ərazilərinə köçürülən ermənilər çar Rusiyasının hakimiyyət orqanlarına soxularaq hər vasitə ilə, fürsət düşən kimi yerli Azərbaycan xalqının nümayəndələrini sıxışdırmışdılar. Onların məqsədi etnik çoxluğa nail olmaqla Şimali Azərbaycan torpaqlarında erməni dövlətini yaratmaq idi.

XX yüzilliyin əvvəllərində dünyada və çar Rusiyasında baş vermiş bir çox hadisələr ermənilərə öz planlarını həyata keçirmək üçün fürsət vermişdi. Onlar öz məqsədlərinə çatmaq

üçün qanlı yollardan istifadə etmiş və yerli Azərbaycan türklərinə qarşı soyqrımları həyata keçirmişdilər. Yaradılan gizli erməni təşkilatları- "Hnçaq"(1887-ci il İsveçrə) və "Daşnaksutyun" (1890-cı il Tiflis) kimi terror təşkilatları əvvəl Osmanlı Türkiyəsi ərazisində, sonra isə Şimali Azərbaycanda və hətta Cənubi Qafqazın digər bölgələrində "erməni dövləti" yaratmaq üçün terror planlarına əl atdılar. Bu terror təşkilatlarının törətdikləri əməllər müəyyən tarixi məqamda təkcə çar Rusiyasının hakimiyyət orqanlarının  deyil, həm də Azərbaycanın sərvətlərində gözü olan Avropanın imperialist dövlətlərinin planlarına uyğun gəldiyi üçün olar tərəfindən  tam dəstəklənmiş və bu qırğınlar onların hərbi və maliyyə köməyi ilə həyata keçmişdir. Belə ki, 1905-1907-ci illərdə Rusiya imperiyasında baş vermiş inqilab onun ucqar hissəsi olan  Şimali Azərbaycana da təsir göstərmişdir. Hələ inqilabdan əvvəl Bakıda və Şimali Azərbaycanın ayrı-ayrı ərazilərində hakimiyyətə qarşı narazılıqların, nümayişlərin və qaçaq hərəkatlarının artması bunu sübut edirdi. Lakin Şimali Azərbaycanda siyasi və milli ayrı-seçkiliyə qarşı hərəkatın genişlənməsinin qarşısını almaq üçün çar Rusiyasının hakimiyyət orqanları gəlmə ermənilərlə Azərbaycan türkləri arasında ədavəti qızışdıraraq, daha da dərinləşdirmişdir. XIX yüzilliyin əvvəllərində Çar Rusiyasının hakim dairələri Şimali Azərbaycan ərazilərini işğal etdikdən sonra, bura köçürülən ermənilərin Azərbaycan xalqına necə nifrət etdiklərini ətraflı öyrənmiş və lazım gəldikdə bu amili daha da qızışdırmışdılar. Nəticədə, çar hakimiyyət orqanlarının planı əsasında ermənilərlə Azərbaycan türkləri arasında qanlı qırğın başlamışdı. Bu hadisələrə daha yaxşı hazırlaşan və hakimiyyət orqanlarının dəstəyini alan ermənilər xalqımıza qarşı soyqrım həyata keçirməyə başladı.

1905-1906-cı illər gəlmə ermənilərlə Azərbaycan türkləri arasında baş vermiş qırğınlara biganə yanaşan hakimiyyət orqanları, sonradan bu qırğınları dayandırmaq üçün hadisələrə müdaxilə etməyə başladılar. Bunun bir neçə səbəbi var idi. Əvvəla, 1905-ci il 17 Oktyabr Manifestindən sonra imperiyada inqilabi hadisələrin yavaş-yavaş səngiməsi, ikincisi, Cənibi Qafqazda iki millət arasında qırğınların çar Rusiyasının siyasətinə daha uyğun gəlməməsi idi. Digər tərəfdən, bu hadisələrin bölgə üçün iqtisadi və siyasi nəticələri çox ağır olmuşdu. Bölgənin iqtisadiyyatı böhran vəziyyətinə düşmüş, tətbiq edilmiş qanunlar demək olar ki, işləməmiş, hüquq-mühafizə orqanlarının işi tamamilə iflic olmuşdu.

Oxuculara təqdim olunmuş "Azərbaycanlılarla ermənilər arasında keçirilən "Barışdırıcı qurultay" (Qafqaz Canişinliyi, 20 fevral - 6 mart 1906-cı il)" adlı monoqrafiya 1905-1906-cı illərdə baş vermiş ermənilərlə Azərbaycan türkləri arasında olan qırğınları dayandırmaq üçün Tiflis şəhərində Qafqaz Canişinliyində hər iki millətin nümayəndələrindən ibarət "barışdırıcı qurultay"a, onun gedişinə, burada müzakirə edilmiş məsələlərə həsr olunmuşdur. Qeyd etmək lazımdır ki, 1905-1906-cı illər ermənilərlə Azərbaycan türkləri arasında olan qırğınlara, ermənilərin Azərbaycan türklərinə qarşı soyqrım siyasətinə və Qafqaz Canişinliyinin yanında olan "barışdırıcı qurultay"a həsr olunmuş tarixi əsərlər kifayət qədərdir[1]. Hətta həmin əsərlərdə

[1] Ordubadi M.S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi) / Bakı: Qarabağa Xalq Yardımı Komitəsi, 1991, 144 s.; M.M.Nəvvab. 1905-1906-cı illər erməni-müsəlman davası / Bakı: "Azərbaycan" 1993, 128 s. ; İ.Məmmədov. Tariximiz, torpağımız, taleyimiz, 700 s.; Səməd Sərdariniya. İrəvan müsəlman sakinli vilayət olmuşdur / Bakı: «Zərdabi" nəşriyyatı, 2014, s.119-141.; M.Qasımlı. "Erməni məsələsi"ndən "Erməni soyqrımı"na: Gerçək tarix axtarışında (1724-1920) / Bakı: "Mütərcim", 2014, s.89-162; Kazımbəyli İ.

Canişinliyin yanında olan iki xalqın iştirak ilə baş tutmuş qurultayın iclaslarına da toxunulmuşdur. Lakin təqdim olunan əsərdə əsas məqsəd heç də təkrarçılığa yol vermək deyil, sadəcə Qafqaz Canişinliyinin yanında təşkil olunmuş, iki xalq arasında 1906-cı ilin fevral-mart aylarında baş tutmuş "barışdırıcı qurultay"ın iclaslarının gedişini tam işıqlandırmaq, burada müzakirə edilən məsələlərə münasibət bildirən nümayəndələrin və digər səlahiyyətli şəxslərin açıq çıxışlarını mənbələr əsasında təsvir etməkdir. Ermənilərlə Azərbaycan türkləri arasında baş tutmuş "barışdırıcı qurultay"ın iclasları fevralın 20-dən martın 6-a qədər davamlı keçirilmiş, "Qafqaz", "Kaspi", "Həyat", "İrşad" qəzetlərinin nömrələrində dərc olmuş və "Qafqazda İmperator Əlahəzrətlərinin Canişinliyi Şurasının jurnalı"da isə onun qısa mətni verilmişdır. Monoqrafiyada ayrı-ayrı nümayəndələrin qurultayda rus dilindən Azərbaycan türkcəsinə tərcümə edilmiş geniş çıxışları işıqlandırılmış və ilk öncə qurultayın qısa şərhi verilmişdir.

Eyni zamanda monoqrafiyada "barışdırıcı qurultay"ın sonunda həm Azərbaycan, həm də erməni nümayəndələrindən seçilərək yaradılmış Xüsusi Komissiyanın tərkibi, bu Komissiyanın ilk iclasları və tərtib etdiyi protokolların məzmumu da işıqlandırılmışdır.

---

Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri) / Bakı: "Turxan" NPB, -2017, s. 242-282; Джаббаров Ф. Армянский экстремизм на Южном Кавказе: вторая половина XIX-начало XX вв. / Баку: Издательский дом TEAS Press, 2018, с.768; Mustafa N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906) / Bakı: Elm və təhsil, 2022, 400 s.; Azərbaycanın əzəli və əbədi torpağı İrəvan xanlığı (4 cilddə), 2-ci cild / Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, s.301-381; Муса Уруд. Зангезур. Из далекого прошлого до наших дней / Баку: AVE Print, 2024, с.187-200.

## I FƏSİL. 1905-1906-cı illərdə baş vermiş Azərbaycan türkləri ilə ermənilər arasında olan qırğınlar ərəfəsində Azərbaycanda siyasi vəziyyət haqqında qısa məlumat

XX yüzilliyin əvvəllərində Rusiya imperiyasında sosial-iqtisadi, siyasi vəziyyətin gərgin, böhranlı olması onun bütün bölgələrinə, o cümlədən Cənubi Qafqaza mənfi təsir göstərmişdir. Qeyd etmək lazımdır ki, 1900-1903-cü illərdə baş vermiş dünya iqtisadi böhranı xalqlar həbsxanası olan çar Rusiyasının heç də yaxşı olamayan iqtisadiyyatına mənfi təsir göstərmiş, iqtisadi böhran yaranmışdır[2]. Digər tərəfdən, 1904-1905-ci illər Rusiya-Yaponiya müharibəsi Rusiya imperiyasının böhranlı olan siyasi-iqtisadi vəziyyətini daha da gərginləşdirmiş, böhranı daha da dərinləşdirmişdir. Mərkəzi Rusiyada baş vermiş bu vəziyyət onun müstəmləkələrinə də böyük təsir göstərmişdir. Rusiya imperiyasında baş vermiş bu iqtisadi və siyasi böhran tezliklə 1905-1907-ci illər inqilabına səbəb olmuş, bu inqilab Cənubi Qafqazı, o cümlədən onun böyük bir ərazisini təşkil edən Şimali Azərbaycanı da əhatə etmişdir[3].

XX yüzilliyin əvvəllərində Azərbaycanın müxtəlif şəhər və bölgələrində milli-azadlıq hərəkatının tərkib hissəsi olan fəhlə tətilləri, nümayişlər, qəzalarda kəndli çıxışları və qaçaq hərəkatları genişlənmişdi. Tətillər, nümayişlər müxtəlif sahələri- neft sənayesini, dəmir yollarını, mis mədənlərini, balıq vətəgələrini, ipək, pambıq istehsalı sənayesini əhatə etmiş, belə çıxışlar Bakıda, Gəncədə Ağstafada, İrəvanda, Hacıqabulda,

---

[2] Azərbaycan tarixi, V cild, s.17-24.

[3] Hüseyn Baykara. Azərbaycan istiqlala mübarizəsi tarixi / Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1992, s.107-112; Zeyaloğlu C. Müxtəsər Azərbaycan tarixi (elmi-publistik və tarixi kitab / Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992, s.106-107; İsmayılov R. Azərbaycan tarixi / Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.124-126.

Yevlaxda və s. yerlərdə geniş vüsət almışdır. Xalq sosial tələb-lər-əmək haqlarının artırılması, iş şəraitinin yaxşılaşdırılması və mənzil probleminin həllini tələb edirdilər. Eyni zamanda kəndli çıxışları və qaçaq hərəkatı Nuxa, Yelizavetpol, Qazax, Cavanşir, Quba, Göyçay qəzalarını və Zaqatala dairəsini əhatə etmişdir[4]. Lakin hökumətin güc vasitəsi ilə bu çıxışların qarşısını almaq cəhdi heç bir nəticə vermədi[5].

Qeyd etmək lazımdır ki, çar Rusiyası Azərbaycanın şimal hissəsini işğal etdikdən sonra rus iqtisadiyyatının inkişafı üçün uzun illər buranı xammal bazasına çevirmiş, xalqımıza qarşı milli, dini ayrı-seçkilik siyasəti həyata keçirmiş, nəticədə xalqımızın bütün təbəqələri- kəndlilər, fəhlələr, ziyalılar və milli burjua nümayəndələri bu siyasətdən narazı qalmışdılar. 1905-1907-ci illər inqilabının başlanması Azərbaycanda hakimiyyətə, milli və dini əsarətə qarşı azadlıq mübarizəsinə təkan verdi. Bu inqilab XIX yüzilliyin 70-ci illərin ortalarından başlayan milli oyanış mərhələsinin başa çatması demək idi və Azərbaycan ziyalıları bu inqilabdan xalqımızın xeyri üçün islahatlar gözləyirdi.

Qeyd etmək lazımdır ki, XX yüzilliyin əvvəllərində Azərbaycanda çox güclü və çoxsaylı ziyalı təbəqəsi yetişmişdi. Bu ziyalılar xalqımızın maariflənməsi üçün çalışmış və hər hansı bir hadisədən xalqımızın xeyrinə istifadə etməyə çalışmışdılar. Azərbaycanın görkəmli ziyalılarından H.Zərdabi,

---

4 Azərbaycan tarixi, V cild, s.120-141; Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов 1801-1917. / Составитель Т.Х.Акопян. - Ереван: Изд-во Ериванского Универ-та, -1978, с.248-250.

5 Hüseyn Baykara. Azərbaycan istiqlala mübarizəsi tarixi / Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1992, s.107-112; Zeyaloğlu C. Müxtəsər Azərbaycan tarixi (elmi-publistik və tarixi kitab / Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992, s.106-107; İsmayılov R. Azərbaycan tarixi / Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.124-126.

C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, M.A.Şahtaxtinski, Ə.Hüseynzadə, Ö.F.Nemanzadə, Y.V.Çəmənzəminli, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Ə.Ağayev, Ü.Hacıbəyov, F.Köçərli, Ə.Qəmküsar, Ə.Haqverdiyev, M.S.Ordubadi və başqaları öz yazılarında xalqı maarifləndirməyə çalışmış və xalq kütlələrini çarizmin müstəmləkə siyasətinə qarşı mübarizəyə çağırmışdılar. Bundan əlavə, 1905-ci il 17 Oktyabr Manifestindən sonra Azərbaycanda siyasi partiyaların, kiçik təşkilatların və milli mətbuat orqanlarının yaranması geniş vüsət aldı. Bu manifestin verdiyi siyasi azadlıqdan istifadə edən Azərbaycan ziyalıları daha da fəallaşdılar. Onlar mətbuat oraqnları- qəzet və jurnallar nəşr etməyə başlayır, siyasi təşkilatlar yaradır və siyasi fəaliyyətlə məşğul olur, Dövlət Dumasında təmsil olunur və onun tribunalarından xalqmızın acınacaqlı vəziyyətini yüksək hakimiyyət orqanlarına çatdırırdılar. "Şərqi-Rus" (1903-cü il-1905-ci il yanvar), "Hümmət" (1904-cü il oktyabr-1905-ci il fevral), "Həyat" (1905-ci il iyunun 7-1906-cı il sentyabrın 3), "İrşad" (1905-ci il dekabr-1908-ci il iyun), "Təkamül" (1906-cı il), "Dəvət Qoç" (1906-cı il iyun-avqust), "Yoldaş" (1907-ci il), "Kaspi" (1881-1919-cu illər) qəzetləri, "Füyuzat" (1906-cı il noyabr-1907-ci il noyabr), və "Molla-Nəsrəddin" (1906-cı il aprel 7 (20-də) Tiflisdə çapdan çıxmışdır. 1906-1917-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr olunmuşdur) kimi jurnalları xalğımızın oyanışında böyük rol oynamışdır[6].

XX yüzilliyin əvvəllərində Azərbaycan ziyalıları eyni zamanda siyasi təşkilatlar, siyasi partiyalar yaradır və milli-azadlıq hərəkatını bu partiyaların qəbul etdiyi planlar əsasında həyata keçirirdilər. Həmin dövrdə yaradılan "Qeyrət" (1905-1908-ci illər), "Difai" (1905-1909), "Müdafiə" (1907-1909-cu

[6] Azərbaycan tarixi, V cild, s.247-255.

illər) partiyaları nəinki xalqımızın siyasi fəallığının artmasında, erməni qırğınlarına, soyqrımına qarşı mübarizəsini, eyni zamanda Azərbaycan türkləri içərisində maarif və mədəniyyət işçilərinin qayğısına qalmağı, habelə kəndlilərin vəziyyətinin yaxşılaşdırmasını və s. özlərinin məqsəd və vəzifəsi hesab edirdilər[7].

Azərbaycanın bəzi ziyalıları 1905-ci il 17 Oktyabr Manifestində verilmiş siyasi azadlıqlardan istifadə edərək Dövlət Dumasına seçkilərdə iştirak etmiş, bu ali tribunadan xalqımızın acınacaqlı vəziyyətini ali dövlət orqanlarına çatdırmış, siyasi tələblər irəli sürmüş, hətta səlahiyyətli orqanlara müraciətlər ünvanlamışdılar. Azərbaycan nümayəndələrindən Ə.Topçubaşov, İ.Ziyadxanov, X.Xasməmmədov, A.İrəvanski, Ə.Muradxanov, M.Əliyev Dövlət Dumasına deputat seçilmişdilər. Bu deputatların Dumadakı çıxışları, onların tələbləri, imperiyada yaşayan digər müsəlmanlarla birlikdə hərəkətləri və s. hakimiyyət orqanlarını heyrətləndirmiş, onların cəsarətli fəaliyyətlərinin qarşısını almaq üçün planlar düşünməyə vadar etmişdir[8].

Rusiyasının hakimiyyət orqanları Azərbaycanda milli oyanışın, inqilabi hərəkatın qarşısını almaq üçün müxtəlif vasitələrə əl atır, bölgədə hakimiyyət üsul-idarəsini gücləndirir və ermənilərlə Azərbaycan türkləri arasında milli ədavəti qızışdırmağa çalışırdılar. Çar Rusiyası Qafqazda inqilabi hərəkatın qarşısını almaq, bu regionu ciddi nəzarətdə saxalamq üçün ilk növbədə 1905-ci il fevralın 26-da Canişinlik sistemini bərpa etdi. Canişinə böyük səlahiyyətlər- həm mülki, həm də hərbi səlahiyyətlər verildi. Canişinin ən başlıca vəzifəsi hər cür vasitə ilə Qafqazda sabitlik yaratmaq, buranı nəzarətdə saxlamaq, in-

---

[7] Hüseyn Baykara. Azərbaycan istiqlala mübarizəsi tarixi, s.120-122; Azərbaycan tarixi, V cild, s.146-157.

[8] Yenə orada, s.112-130; Yenə orada, s.158-171.

qilabi hərkatın qarşısını almaq idi[9]. Qatı ermənipərəst İ.İ.Vorontsov-Daşkov canişin təyin olundu.

İnqilab zamanı Azərbaycanda siyasi vəziyyət imperiyanın digər bölgələrinə nisbətən fərqli cərəyan etməyə başlamışdı. Belə ki, 1905-1907-ci illər inqilabından müxtəlif sahələri əhatə etməklə islahatlar gözləyən Azərbaycan türkləri hakimiyyət orqanlarının dəstəyi ilə ermənilər tərəfindən qırğınlara və soyqrımına məruz qalmışdı. Azərbaycanda inqilabi, demokratik hərəkatın yüksəlişindən ehtiyat edən çar hakimiyyət orqanları ermənilər və Azərbaycan türkləri arasında ədavəti qızışdırmağa baladı. Bunun bir neçə səbəbi var idi. Əvvəla, bu zaman kəsiyində çar hakimiyyət orqanları Azərbaycanda inqilabi çıxışların qarşısını almaq, vəziyyətdən çıxmaq üçün əla fürsət əldə edə bildilər. Xüsusilə, XIX yüzilliyin axırlarında erməni terror təşkilatları olan "Hnçak" (Zəng-1887-ci ildə təşkil olunub) və "Daşnaksutyun" (İttifaq-1890-cı ildə təşkil olunub) terror təşkilatları yarandıqdan sonra Azərbaycan türklərinə qarşı soyqrım siyasəti həyata keçirməyə başlamışdılar. Düzdür, bu terror təşkilatlarının əsas fəaliyyəti Osmanlı Türkiyəsinin ərazisi olmuş, lakin onlar burada müəfəqiyyət qazana bilməmişdilər. XX yüzilliyin əvvəllərində onlar, xüsusən də "Daşnaksutyun" terror təşkilatı öz fəaliyyətini Azərbaycan türklərinə qarşı çevirmiş, bu vaxtdan etibarən əsl soyqrım siyasəti həyata keçirmişdilər[10].

---

[9] Полное собрание законов Российской империи, собрание третье, т.XXV, 1905 / СПб: 1908, отделение I, с.149; Azərbaycan tarixi, 7 clddə / Bakı: Elm, 2008, V cild, s.105.

[10] Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi / Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, s.119-120; Ordubadi M.S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi) / Bakı: Qarabağa Xalq Yardımı Komitəsi, 1991, s.8; История Азербайджана по документам и публикациям, с.108-117; İ.Məmmədov.

1905-1906-cı illərdə ermənilərlə Azərbaycan türkləri arasında baş vermiş qırğınların əsas səbəbkarı erməni terror komitələri, əsasən də "Daşnaksutyun" terror təşkilatı olduğundan, mənbələrdə bu terror təşkilatı və onun fəaliyyəti haqqında xeyli faktlar öz əksini tapmışdır. Fəaliyyətlərini Qafqaza, xüsusən də Azərbaycana köçürən "Daşnaksutyun", "Hnçak" terror təşkilatlarının Bakıda, Tiflisdə, Şuşada, Gəncədə, İrəvanda, Qarsda, Təbrizdə, Tehranda, Ərzurumda və Vanda şöbələri fəaliyyət göstərmişdi. 1904-cü ilə aid bir arxiv sənədində qeyd olunmuşdu ki, "Cənubi Qafqazda inqilabi təbliğat üç əsas istiqamətdə getmişdi: 1. Sosial-demokratik hərəkatı; 2. Quriya hərəkatı; 3. Erməni hərəkatı. (Sənəddə erməni hərəkatı adı altında erməni terror təşkilatlarından- "Daşnaksutyun" və "Hnçaq"dan bəhs edilmişdi-E.Q.). Tiflis, Yelizavetpol, İrəvan quberniyalarında və Qars əyalətində erməni hərəkatına əsasən bu terror təşkilatları başçılıq etmişdi... Təşkilatlar vəzifəsindən asılı olmayaraq təkcə məmurlara və casusluqda şübhəli bilinənlərə deyil, həm də bu və ya digər səbəbdən ermənilərə xoş olmayan hər kəsə qarşı amansız terror həyata keçirirdilər. Onların fəaliyyəti getdikcə daha cəsarətli olur və həyasızlaşırdılar. İnqilabi ehtiyacları üçün nağd pul əldə etmək səbəbindən izdihamlı yerlərdə erməni komitələrinin sifarişi ilə gündüz qətllər törətmək adi bir hadisəyə çevrilmişdi. Və bu cinayətlər əksər hallarda cəzasız qalırdı, çünki təkcə hərəkata rəğbət bəsləyənlər və ya terrora məruz qalan şahidlər deyil, həm də qurbanların özləri ifadə verməkdən imtina edirdilər. 1903-cü il iyunun 1-dən oktyabrın 1-dək erməni komitələrinin sifarişi ilə törədilmiş 48 adam öldürmə və qəsdən adam öldürməyə cəhdlə bağlı işlərin 18-i hələ də

---

Tariximiz, torpağımız, taleyimiz, s.175-176; Mustafa N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906) / Bakı: Elm və təhsil, 2022, s.69-74.

davam edir, 23-ü cinayətkarların şəxsiyyəti müəyyən edilmədiyinə görə artıq bağlanıb, 5 nəfərə bəraət verilib, 2 nəfər şəxsin məhkum edilməsi ilə nəticələnib. Bu işlərdə ədalət məhkəməsinin nə dərəcədə çətin olduğu aydın görünür”[11].

“Daşnaksutyun” təşkilatı haqqında hakimiyyət orqanlarının məlumatları 1906-cı il fevral-mart aylarında Qafqaz Canişinliyində keçirilən qurultayda Azərbaycan nümayəndələrinin verdikləri məlumatlarla üst-üstə düşmüşdü. Bu qurultayda Azərbaycan nümayəndələri hakimiyyət orqanlarını xəbərdar edərək, “Daşnaksutyun” terror təkilatının qorxulu bir təşkilat olduğunu qeyd etmiş, bu təşkilatı ifşa etmiş və qırğınların başında bu təşkilatın olduğunu dönə-dönə bidirmiş, bu təşkilat ləğv olunmadan bölgədə sülhün bərqərar olnmasını qeyri-mümkün hesab etmişdilər[12]. Lakin bu məlumatları ciddi qəbul etməyən hakimiyyət nümayəndələri, sonralar bu təşkilatın hakimiyyət üçün qorxulu olması haqqında faktlarla üzləşməli olmuşdular. 1912-ci il yanvarın 17-də Senatın iştirakı ilə “Daşnaksutyun” terror təşkilatının 150 nəfərdən çox üzvünün Peterburqda məhkəməsi zamanı məlum olmuşdur ki, “gəlirlərə nəzarət etmək məqsədi ilə erməni kilsə əmlakının xəzinənin xeyrinə müsadirə edilməsi haqqında çıxarılan 1903-cü il 12 iyun tarixli qanunu, kilsənin gəlirlərindən öz məqsədləri üçün istifadə etmək üçün ruhani hakimiyyətinin icazəsindən istifadə edən partiya (Daşnaksutyun-E.Q.) rəhbərlərinin narazılığına səbəb olmuşdu. Silahlı müqavimət təşkil etdiklərindən hakimiyyətin sö-

[11] Рапорта и доносение Наместнику на Кавказе о революционных выступлениях в разных губерниях Кавказского края, о фактах армяно-татарских столкновениях и др. переписки. ГИААР, ф.1, оп.1, ед.хр. №1, л.3 об., л.6-6 об., л.7.
[12] Qafqaz, 25 Fevral 1906-cı il, №46, s.2-3

zügedən əmlakı müsadirə etməsini çətinləşdirmişdi"[13]. Bu hadisədən sonra "Daşnaksutyun" terror təşkilatı fəaliyyətini Rusiyaya, xüsusən də onun tərkib hissəsi olan Qafqaza yönəltmişdi. Partiyanın mərkəzi orqanı olan, Cenevrədə fransız və erməni dillərində nəşr olunan "Droşak" (Bayraq) qəzetində Rusiya hökumətinin ermənilərə qarşı törətdiyi "zorakılıq"la bağlı "Avropa ictimai rəyinə" təsir göstərmək üçün bir sıra müraciətlər dərc edilmişdi. Hətta Qafqazdakı erməni əhalisi arasında hakimiyyətə qarşı mübarizəyə çağıran külli miqdarda bəyannamələr yayılmış və bu mübarizəyə rəhbərlik etmək üçün Qafqazda məsul komitə yaradılmışdı. 1905-ci ildən başlayaraq olmuş bir neçə terrorda "Daşnaksutyun"un əli oduğu məlum olmuşdur. Bu terror təşkilatına pul lazım olduqda müxtəlif üsullardan istifadə edirdi. Məsələn, bu təşkilat hər hansı bir ticarət firmasını baykot edir. Bu baykotu götürmək üçün firmadan 20 və yaxud 30 min rubl pul tələb edirdi. Yaxud, hər hansı bir şəxs rus hakimiyyətinin tərafdarı olmasından şübhələndikdə, onun sonu çatırdı. Onlar nə uşağa, nə qadına və nə də xəstəyə yazıqları gəmirdi[14].

"Daşnaksutyun" ayrı-ayrı yerlərdə müstəqil şöbələri, ordusu, silah-sursatı olan güclü bir terror təşkilatı idi. 1909-cu il aprel 17-də İmperator Əlahəzrətinin Qafqazdakı canişininin dəftərxanasının xüsusi şöbəsi "Daşnaksutyun terror təşkilatı, onun ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərən şöbələri haqqında geniş məlumat vermişdi. Məlumatdan görmək olar ki, hər bir şöbə xüsusi nəzarət altında müstəqil fəaliyyət göstərmiş, heç bir yüksək komitəyə tabe olmamışdı. Bu məlumatda yazılmış-

---

[13] Департамент духовных дел. Обзор печати, января 16, 1912 г./ ЦГИАРФ, ф.821, опис 7, ед.хр. №370, л.7.
[14] Департамент духовных дел. Обзор печати, января 18, 1912 г./ ЦГИАРФ, ф.821, опис 7, ед.хр. №370, л.8.

dı: “1909-cu ildə Daşnaksutyunun Mərkəzi Komitələrinin yerləşdiyi yerlər qismən müəyyən edilib. Digərlərinin yerləşdiyi yerə gəlincə, heç bir sənəd olmasa da, demək olar ki, onların mövcud olduğu şəhərlər göstərilə bilər. Bu şəhərlər, Qafqaz üçün: Bakı - "Voskanapad" (yer adı), Tiflis - "Böyük şəhər", "Medz-Kaqak (Böyük şəhər)", Batum – Navaqankist (Gəmiçi), Qars - "Jarapert" (?), İrəvan - "Mirkastan (Meyvəlik, bağ)", Aleksandropol - "Kar (Daş)” və Şuşa - "Aparaj (?)", cəmi 7. Qacar dövlətində-Tehran və Təbrizdə. Kiçik Asiyada- Ərzurum və Vanda. Bütün bu 13 və ya 14 (və ya daha çox) mərkəzi komitələr xüsusi nəzarət altında idi, bu qurumlar Tiflisdə yerləşən ali komitə olan "Şərq Bürosu"na tabe deyildilər. Hər bir Mərkəzi Komitə, əlbəttə ki, rəhbər tutduğu proqramın hüdudlarından kənara çıxmadan sanki məhkəmə ilə birlikdə bütün quberniya qurumlarının tam səlahiyyəti ilə, yəni ölüm cəzası da daxil olmaqla muxtariyyətə malik idi. Partiyanın vərəqəsi məhz onun (komitənin) nəzarəti altında çap olunurdu”[15]. Bu təşkilatın Qafqazdan əlavə Odessada, Həştərxanda da komitələri fəaliyyət göstərmişdi[16].

“Daşnaksutyun”un əsas orqanları ilə yanaşı, əlavə, əsasən xüsusi təyinatlı orqanlar da mövcuddur ki, onlar öz əhəmiyyətinə görə, partiyanın baxışlarına uyğun olaraq, bu və ya digər əsas orqanın rəhbərliyi altında idi. Onlara daxildir: "Peşəkar və kənd birlikləri", "Qırmızı Xaç", "Tələbə təşkilatı", "Beynəlxalq orqan", "Tədqiqat orqanı", "Mətbuat təşkilatı", "Mədəni-maarif

---

[15] Сведения об организации и деятельности армянской революционной парти «Дашнакцутюн, с подлинным верно: Делопроизводитель Особого Отдела Канцелярии Наместника Его императорского величества на Кавказе 17 апреля 1909 г. / См: История Азербайджана по документам и публикациями- Баку: Элм, 1990, с.109.

[16]Департамент духовных дел. Обзор печати, января 18, 1912 г./ ЦГИАРФ, ф.821, опис 7, ед.хр. №370, л.8.

cəmiyyəti", "Patorik", "Yardımçı təşkilatlar", "Özünümüdafiə Komitələri", "Dehli Təşkilatı", "Terror Fəaliyyəti Komitəsi", "Qorxutma Təşkilatı" və iki "Tələbə Təşkilatları"[17]. Bu orqanların hər birinin öz fəaliyyət sahəsi vardı.

"Daşnaksutyun" terror təşkilatı müxtəlif komitə və şöbələrə malik olmaqla bərabər, güclü silahlanmış orduya malik idi və bu ordu hər cür növdən olan silah-sursatla təchiz olunmuşdu. 1912-ci il məlumatında göstərilmişdi: "1905-1907-ci illər arasında partiya on minlərlə hər növ silaha, milyonlarla patrona və hər cür partlayıcıya sahib idi. Bu dövrdə Rusiyanın bütün guşələrindən Qafqaza hər cür silah göndərilirdi ki, onların da böyük hissəsi erməni əhalisinə paylanmış, bir hissəsi isə partiya komitələrinin sərəncamında olan anbarlarda saxlanılırdı"[18]. Belə anbarlardan biri Qarakilsə kəndində tapılmışdı. 1907-ci il aprelin 27-ə olan məlumata görə, "məhkəmə müstəntiqi Qarakilsədən İrəvan məhkəməsinin prokuroruna teleqrafla müraciət edir: "Silah, döyüş sursatı, silah hazırlamaq üçün ləvazimatlar anbarı aşkarlanıb. Mən növbəti axtarışlar aparıram. Mən polis əməkdaşı göndərdim ki, hadisə yerində olan məlumatlardan asılı olaraq, istintaq işinə başlansın. Hadisə yerindən polis idarəsinə məlumat veriləcəkdir"[19].

Daşnaksutyun" terror təşkilatının günahı, cinayəti üzün-

---

[17] Сведения об организации и деятельности армянской революционной парти «Дашнакцутюн, с подлинным верно: Делопроизводитель Особого Отдела Канцелярии Наместника Его императорского величества на Кавказе 17 апреля 1909 г. / См: История Азербайджана по документам и публикациями, с.109.

[18] Департамент духовных дел. Обзор печати, января 18, 1912 г./ ЦГИАРФ, ф.821, опис 7, ед.хр. №370, л.8 об.

[19] Рапорта и доносение Наместнику на Кавказе о револиционных выступлениях в разных губерниях Кавказского края, о фактах армяно-татарских столкновениях и др. переписки. ГИААР, ф.1, оп.1, ед.хр. №1, л.63.

dən Cənubi Qafqazda qırğınların və soyqrımların həyata keçirilməsi məsələsi haqqında Qafqaz Canişinliyi tərəfindən Naxçıvan qəzasına ezam edilən general-mayor Maqsud Əlixanov-Avarski də faktlarla sübut edilmişdir. Hər iki millət arasında gərginliyin artdığı bir anda sakitliyi bərpa etmək üçün Qafqaz Canişinliyi tərəfindən Naxçıvan qəzasına ezam edilən general-mayor Maqsud Əlixanov-Avarski 1905-ci il iyunun 6-da İ.İ.Voronsov-Daşkova yazdığı məlumatda bildirmişdi ki, "İrəvan quberniyasında tatarlarla (Azərbaycan türkləri-E.Q.) ermənilər arasında yaranan düşmənçiliyin əsas səbəbi, şübhəsiz ki, son illərdə ermənilər arasında sistemli şəkildə təbliğ edilən siyasi hərəkat idi. Ermənilərin kilsə əmlakı müsadirə edildikdən sonra Bakıda və Qafqazın digər yerlərində gizli erməni komitələri yarandı, onların agentləri öz həmvətənləri arasında inqilabi çağırışlar yaymağa, xalqı öz milli maraqları naminə mübarizəyə çağırmağa başladılar. Məhz bu məqsədlə Türkiyədən özlərini mübarizəyə, təbliğata məhkum etmiş "fədai"lər (daşnaklar-E.Q.) gəlib, ehtiyatla əhali arasında gizlənir, edam zamanı məxfi qətllərlə bağlı komitə qərarlarını toplayırlar. Bunun nəticəsi o oldu ki, bütün Zaqafqaziya (Cənubi Qafqaz-E.Q.) erməniləri hər cür qızğın şəkildə silah və bombalar əldə etməyə başladılar, başqa şeylərlə yanaşı, hökumət tərəfindən verilmiş güllələri oğurlamağa və hərbi hissələrdə xidmət edən öz soydaşlarından silah götürərək qaçmağa başladılar"[20]. 1905-ci ilin fevral-mart aylarında baş tutmuş "Barışdırıcı qurultay"da iştirak etmiş Azərbaycan nümayəndə heyətinin qurultaya təqdim etdikləri proqramın birinci bənddində Azərbaycan türkləri ilə ermənilər arasında baş vermiş qırğınların səbəbi kimi, erməni inqilabi təşkilatlarında, xüsusən də "Daşnaksutyun" terror təşki-

---

[20] Наместнику его Императорского Величества на Кавказе, Рапорт /ЦГАГ, фонд 13, опис 15, дело 127, л.34-34[об].

latında görürdülər. Azərbaycan nümayəndə heyəti qeyd edirdilər ki, bu terror təşkilatı buraxılmadan tərəflər arasında süh mümkün olmayacaqdır[21].

1905-ci ildə Bakıda erməni soyqrımına qarşı Əhməd bəy Ağayev tərəfindən yaradılan "Difai" (Müdafiəçi-E.Q.) partiyasının bəyannamələrində "Daşnaksutyun" terror təşkilatının məqsəd və məramı ifşa edilmişdi. "Difai" partiyasının 1912-ci il 16 mart bəyannaməsində deyilir: "Mütəşəkkil hərbi qüvvəyə malik, eyni zamanda yeni silahlarla, hətta toplarla təchiz edilmiş Daşnak partiyası, bir tərəfdən cilah gücü ilə bütün erməniləri, digər tərəfdən də Qafqaz hökumətini özünə tabe edib ən ümdə məqsədlərinə nail olmağa çalışır. Onların əsas məqsədləri Qafqazda yaşayan bütün müsəlmanları (əsasən də Azərbaycan türklərini-E.Q.) qırdıqdan sonra onların torpaqlarını işğal etməkdir. Ermənilər məqsədlərinə nail olduqdan sonra fikirləri Qafqazda erməni xalqı üçün milli, müstəqil bir dövlət yaratmaqdır[22]. M.S.Ordubadi "Qanlı illər" əsərində Bakı (Bakı şəhərində), İrəvan (İrəvan şəhərində, Naxçıvanda, Üçmüəzzində), Yelizavetpol (Gəncə, Qaryagin, Şuşa, Cavanşir) və Tiflis (Tiflis, Qazax qəzası) quberniyalarında baş vermiş erməni-Azərbaycan türkləri arasında qırğınlar haqqında ətraflı məlumatlar verməklə bərabər, bu qırğınların səbəblərini göstərərək yazırdı: "erməni "Daşnaksutyun" komitəsinin müstəbid bir idarə üslunu təşkil etməsidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı (qanlı terrorlar həyata keçirildi-E.Q.)...Mənə yetişmiş 245 məktub Daşnaksutyun partiyasının fəaliyyərinə dair dörd yüzdən

---

[21] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГАГ, фонд 13, опис 15, дело 353, лист 41.
[22] Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi, s.121.

artıq məlumatlar yazı stolumun üstündə durur"[23]. Hətta, M.S.Ordubadi əsərində "Daşnaksutyun" terror təkilatının minlərlə Azərbaycan türklərinin qanına əli batmış bəzi terrorçuların- Hamazasp, Aram, Murad, Bedo, Ağabəylərin, Baqratların, Soqrad kimi qaniçənlərin adlarını çəkmişdir. Gürcü sosialistlərindən olan Qaribi "Qızıl kitabı"nda bütün qanlı qırğınların səbəbkarının və iştirakçısının məhz "Daşnaksutyun" terror təşkilatında olduğunu açıqca bildirmiş və bu haqda yazırdı: "Erməni inqilabçılarının, xüsusilə "Daşnaksutyun partiyasının yaradılmasına qədər Zaqafqaziyada (Cənubi Qafqazda-E.Q.) sülh və dostluq hökm sürürdü... daşnaklar gəldilər və sıfır ermənilərdən ibarət müstəqil Ermənistan dövləti yaratmaq istədilər. Patriarxal Qafqaz kəndlilərinə milli ədavət və qarşılıqlı nifrət hissləri doldu. Ermənilərin silah oynatmalarına türklər də qarşılıqlı cavab verdilər"[24].

İ.Məmmədov "Tariximiz, torpağımız, taleyimiz" əsərində 1905-1906-cı illərdə baş vermiş qırğınlara toxunaraq "Daşnaksutyun" terror təşkilatının hər yerdə komitələr yaratdığını və bu komitələrin qırğınlara səbəb olduğunu qeyd etmişdi. Müəllif yazırdı: "Daşnak partiyasının başçılığı altında ordu birləşmələri silah gücünə "milli azadlıq əldə etməyə" çalışmalı idi. "Milli azadlıq" şüarı altında silahlı erməni dəstələri qəzadan-qəzaya kənddən-kəndə keçir, doğma diyardan qovur, beləliklə "erməni dövləti" üçün ərazi "hazırlayırdılar". İrəvan, Naxçıvan, Zəngəzur, Yelizavetpol, Şuşa, Bakı azərbaycanlılarına qarşı törədilən qanlı ədavətin təşkilatçısı və icrası da daşnakların bu hərbi bir-

---

23 Ordubadi M.S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.8.

24 Кариби, Красная книга. История Азербайджана по документам и публикациям, с.159.

ləşmələri idi”.[25]

Qeyd etmək lazımdır ki, “Daşnaksutyun” terror təşkilatının qurbanları siyahısına nəinki Azərbaycan türkləri, eyni zamanda ermənilərə münasib olmayan bir çox rus hakimiyyət nümayəndələri və ayrı-ayrı şəxslər də daxil idi. Azərbaycan nümayəndələrinin “barışdırıcı qurultay”da təqdim etdiyi proqramın 7-ci bəndi “Bütün vəzifəli şəxslərin öz xidməti vəzifələrini lazımi və maneəsiz yerinə yetirməsinə təminat verən tədbirlər görülməsi” haqqında idi. Azərbaycan nümayəndələri məmurların terrorun qorxusundan öz vəzifə borclarını düzgün yerinə yetirməkdən yayındıqlarını diqqətə çatdıraraq qeyd etmişdilər ki, xüsusi mütəşəkkil erməni ordusu yaradılıb ki, bu da, Rusiya dövlətində erməni dövləti kimi bir şeydir. Bu təşkilat hədə-qorxu gəlməklə məmurları erməni proqramına zidd heç bir hərəkətə yol verməməyə məcbur etməyə çalışır. Bu tələblərə əməl etməyənlər erməni gizli komitələri tərəfindən ölümə məhkum edilir və öldürülür. Cinayətlərin tez aşkar olunduğu və günahkarların cəzalandırıldığı böyük mərkəzlərdə məmurların vəziyyəti nisbətən yaxşıdır. Uzaq yerlərdə isə onlar tamamilə müdafiəsizdirlər. Özləri və ailələri üçün qorxu onları vəzifələrindən yayınmağa məcbur edir ki, bu da hakimiyyətin nüfuzuna xələl gətirir, həm ona, həm də digər millətlərə inamsızlıq yaradır. Asayişi bərpa etmək üçün mütləq şəkildə məmurları terrorun təsirindən qorumaq lazımdır[26]. Bu bənd heç də təsadüfən ortaya atılmamışdı. Çünki, bəzi məmurlar “Daşnaksutyun” terror təşkilatının sui-qəsdinin qurbanı olmuş, bəziləri isə qorxusundan xidməti vəzifələrini obyektiv yerinə yetirmir və ermənilərə kömək edirdilər. General Maqsud Əlixanov-Avarski, Bakı qu-

---

[25] İ.Məmmədov. Tariximiz, torpağımız, taleyimiz, s.308-309.

[26] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГАГ, фонд 13, опис 15, дело 353, л.58-58[об].

bernatoru Mixail Nakaşidze, Yelizavetpol quberniyasının vitse-qubernatoru Andreyev, qəza rəisləri Boquslovski, Şmerlinq, Neşanski, Pavlov, Polismeyster (Polis rəisi-E.Q.) Saxarov, pristavlar (kiçik nahiyənin polis idarəsi rəisi-E.Q.) Cavaxov və Şumakeviç, sərhəd mühafizə dəstəsinin polkovniki Bıkov və başqa dövlət məmurları "Daşnaksutyun"un terroruna məruz qalmışdı"[27].

Nazim Mustafa 1905-1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzurda Azərbaycan türklərinə qarşı ermənilərin törətdikləri soyqrımlarından bəhs edən monoqrafiyasında səbəbkarları göstərməklə bərabər, Cənubi Qafqazı əhatə edən qırğınların coğrafiyasını, miqyasını və qırğnlarda həlak olmuş insanların sayını da göstərmişdir. O, yazır: "Ümumiyyətlə, ermənilər 1905-1907-ci illərdə Cənubi Qafqazın 15 qəzasında (İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Üçmüəzzin, Novo-Bəyazid, Aleksandropol, Sürməli, Şuşa, Yelizavetpol, Cavanşir, Cəbrayıl, Zəngəzur, Qazax, Ərəş, Borçalı) və 8 şəhərində (Bakı, İrəvan, Naxçıvan, Gümrü, Şuşa, Gəncə, Qazax, Tiflis) kütləvi qırğınlar törətmişlər. Rəsmi sənədlərə əsasən 1905-1906-cı il qırğınları zamanı Cənubi Qafqazda 286 kənd viran edilmiş və 8 şəhər dağıntılara məruz qalmışdır. Hesablamalarımıza görə, dağıdılan kənd və şəhərlərin təqribən 200-ü azərbaycanlı yaşayış məntəqələlərinin payına düşür. Həmin illərdə ermənilərin yeni ərazilər əldə etmək niyyətlərini silahlı müdaxilə yolu ilə həyata keçirmələri nəticəsində Cənubi Qafqazın 15 qəzasında 1,3 milyon nəfər bir-birinə düşmən kəsilərək iki cəbhəyə bölünmüşdü. 15 mindən artıq ailə (təqribən 100 min nəfər) ev-eşiyindən di-

---

[27] Сведения об организации и деятельности армянской революционной парти «Дашнакцутюн, с подлинным верно: Делопроизводитель Особого Отдела Канцелярии Наместника Его императорского величества на Кавказе 17 апреля 1909 г. / См: История Азербайджана по документам и публикациями.- Баку: Элм, 1990, с.108.

dərgin düşmüşdür. İnsan tələfatı 10 mindən artıq olmuşdur. Dağıntılara məruz qoyulan azərbaycanlı yaşayış məntəqələrinin bir qismi həmin vaxtdan etibarən xarabalığa çevrilmişdir”[28].

Beləliklə, istər mənbələrdə, istərsə də tarixi ədəbiyyatda 1905-1906-cı illərdə ermənilərlə Azərbaycan türkləri arasında baş vermiş qırğınlarda əsas səbəbkarının ermənilər, onların “Daşnaksutyun” və “Hnçak” kimi terror təşkilatlarının olduğu göstərilmişdir.

Bir tərəfdən erməni millətçi, şövnist təşkilatlarının, xüsusən də “Daşnaksutyun” və “Hnçak” kimi terror təşkilatlarının separatist meyilləri, erməni dövləti yaratmaq xülyası, digər tərəfdən bu təşkilatların hadisələri qızışdırmaqla günahı bir mənalı olaraq Azərbaycan türklərinin üstünə atmaq siyasəti hakimiyyət orqanları üçün əla fürsət olmuşdu. Belə bir vaxtda hakimiyyət orqanları bu iki xalq arasında münasibətlərin gərgin olmasından bəhrələnmək qərarına gəlmişdi. Beləliklə, çar hakimiyyət orqanları Azərbaycanda ictimai-siyasi gərginliklə əlaqədar olaraq hakimiyyətə qarşı olacaq hər bir çıxışların qarşısını almaq, vəziyyətdən çıxmaq, hadisələri daimi nəzarətdə saxlamaq üçün ermənilərlə Azərbaycan türkləri arasında qarşıdurmanı daha da qızışdırmaq siyasətini həyata keçirmək planını işə salmağa başladı. Bu “parçala və hökm sür” siyasəti bu günə qədər davam etdirilir.

Ermənilərlə Azərbaycan türkləri arasında baş vermiş qırğınlar həm də, çar məmurlarının köməyi ilə həyata keçirilirdi. Mənbə və tarixi ədəbiyyatda bu haqda kifayət qədər məlumatlar vardır. Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalında ordu və polis orqanlarının hər iki millət arasında olan milli qırğınları soyuqqanlılıqla seyr etdiyini ifşa edərək yazırdı: “Bu

---

[28] Mustafa N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.73.

nə sirdir? Erməni-müsəlman davası düşən kimi hökumət əsgərləri elə bir mərəzə mübtəla oldular ki, həkimlər onların küçəyə çıxmalarını rəva bilmirlər”[29]. Səməd Sərdariniya “İrəvan müsəlman sakinli vilayət olmuşdur” əsərində fransız Jan Mari Karzunun “Ermənistan 1915” adlı kitabına istinadən yazırdı ki, “1905-ci ildə Bakıda ermənilərlə azərbaycanlılar arasında qanlı çarpışmalar oldu. Bu çarpışmaların kökünü Rusiya imperiyası üçün təhlükəli ola biləcək milli oyanışda axtarmalıyıq. Rusiya hakim dairələri Qafqazın oyanışında güclü millətçilik tendensiyasının olduğunu iddia edirdilər. Bu tendensiya böyük Rusiya imperiyasının planlarının ziyanına idi. Ona görə də çar hökuməti bu oyanışı hansı vasitə ilə olur olsun beşiyində boğmağa çalışırdı. 1894-cü ildə hakimiyyətə yiyələnmiş Rusiyanın sonuncu çarı II Nikolay Romanovlar sülaləsinin ömrünü uzatmaq üçün bütün hiylələrə əl atırdı. Rusiyada yaşayan xalqların arasında qırğın salmaq da bu fəndlərdən biri idi. Çarizmin fikrincə, daxili müharibələrə meydan verməklə, xalqları bir-birinə qarşı qoymaqla öz zəifliyini gizlədə və hakimiyyətdə qala bilər”[30].

Hətta Osmanlı mənbələri də ermənilərin müsəlman əhalisi üzərinə hücumlarının Rusiya hakimiyyət orqanları tərəfindən təşkil etdiyini təsdiq edirdi. Məsələn, Osmanlı dövlətinin Tiflis şəhbəndərliyindən (konsulluq-E.Q.) İstanbul hökumətinə göndərilən 18 iyul 1905-ci il tarixli məlumatında açıq şəkildə göstərirdi ki, Qafqazda ermənilərlə müsəlmanlar arasında nifaq salan, toqquşmaların baş verməsinə rəvac verən məhz Rusiya hökumətidir, hökumət bu yolla Cənubi Qafqazı inqilabi çıxışlar-

---

[29] Azərbaycan tarixi. V cild, s.150.
[30] Səməd Sərdariniya. İrəvan müsəlman sakinli vilayət olmuşdur / Bakı: «Zərdabi” nəşriyyatı, 2014, s.121-122.

dan kənarda saxlamaq istəyirdi[31].

C.Zeynaloğlu, R.İsmayılov və H. Baykara öz əsərlərində ermənilərin rus məmurları tərəfindən silahlandırılması və Azərbaycan türklərinə qarşı soyqrım həyata keçirməsi haqqında ətraflı məlumat vermişdilər. C.Zeyaloğlu ermənilərlə Azərbaycan türkləri arasında olan qırğınların planı haqqında yazırdı ki, "Qafqazda da ermənilər qiyam edərək, öz kilsə və vəqflərini ələ aldılar, hətta ötədən bəri Osmanlı dövləti əleyhinə hərakat etmək üçün Rusiya tərəfindən təchiz və himayə edilən daşnak firqəsi bu fürsəti qaçırmayaraq, Rusiyadan ayrılmağa və müstəqil bir Ermənistan dövləti vücuda gətirməyə təşəbbüs eylədi... Yalnız Azəri türkləri hətta qəflətdə idilər və ixtişaşlarda çar tərəfini saxlayırdılar. Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviq və əsrlərcə yaxşı keçinən iki milləti biri digərinə qırdırdı...Bu toqquşmada yalnız iki millət vuruşdular və sairləri bitərəf qaldılar"[32]. Rəşid bəy İsmayılov "Azərbaycan tarixi" əsərində erməni-Azərbaycan türkləri arasında baş verən hadisədə məhz çar hökumətinin günahı olduğunu təsdiq edərək yazırdı ki, "Çar hökuməti Qafqazda yaşayan millətlərin diqqətini və gücünü inqilab cəryanından kendi halına münhəsir etmək qəsdilə ermənilər ilə müsəlmanların arasında vuruşma və infaq salıb, "Ayır və hakimiyyət sür" şüarı-zalimanəni icra etdi və bu su-

[31] Kazımbəyli İ. Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), 244-245; Azərbaycanın əzəli və əbədi torpağı İrəvan xanlığı (4 cilddə), 2-ci cild / Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, s.322-323.

[32] Zeyaloğlu C. Müxtəsər Azərbaycan tarixi (elmi-publistik və tarixi kitab), s.106-107; Kazımbəyli İ. Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri), 244-246

rətlə minlərcə nüfusun qətlinə, evlərin və kəndlərin inhidamına bais oldu”[33]. H.Baykara “Azərbaycan istiqlal mübarizəsi tarixi” əsərində erməni-Azərbaycan türkləri arasında baş vermiş qanlı qırğınların səbəbkarının çar hakimiyyət orqanlarının olduğunu çox dəqiq, konkret və açıq bildirərək yazırdı: “İnqilaba qədər bütün hüquqlardan məhrum olan türklər artıq nümayəndələrini imperatorluğun daxili işlər nazirliyinin qəbuluna göndərir, öz haqlarının, hüquqlarının tanınmasını israrala tələb edirdilər. Bu nə deməkdir? Bunu II Nikolay, saray əyanları, nazirlər, generallar... necə dözürdülər? Necə səbr edirdilər? Bu hadisələr Qafqaz müsəlmanlarının apardıqları açıq bir milli azadlıq mübarizəsi idi... Rus imperiyasının zəiflədiyi bir vaxtda Qafqaz xalqlarını inqilabdan uzaqlaşdırmaq üçün tezliklə tədbir düşünmək lazım idi. Beləliklə, onlar belə bir tədbirə nail oldular. Çar Qafqazda olan yüksək məmurlarına gizli şəkildə göstəriş verir. 1905-ci ildə erməniləri müsəlmanlara qarşı qırğına sövq etdirir”[34]. Daha sonra müəllif rus məmurlarının erməniləri silahlandırılmasını və onlara gizli tapşırıqlar verilməsini belə qeyd etmişdi: “...Türkiyədəki məğlubiyyətlərindən dərs almayan, Qafqazda olan rus məmurları tərəfindən silahlandırılan və gizli tapşırıqlar alan ermənilər İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Şuşa, Gəncə, Bakı və Şirvanda yaşayan silahsız türklərə, dinc əhaliyə qarşı hücum edib onları öldürməyə, qılıncdan keçirməyə başladılar. Beləliklə, onlar türkləri öldürərək bu ərazilərdə çoxluq əldə etmək istəyirdilər. Öldürə bilmədikləri türkləri isə nəyin bahasına olursa-olsun öz torpaqlarından qovurdular”[35]. Daha sonra əsərində Gəncə hadisələrindən bəhs edən H.Bayka-

---

[33] İsmayılov R. Azərbaycan tarixi / Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, s.125.
[34] Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi, s.111-112.
[35] Yenə orada, s.120.

ra hakimiyyət orqanlarının ermənilərə açıq şəkildə kömək etməsindən bəhs edərək yazırdı ki, “rus əsgərləri, polislər və jandarmlar türklərin qırılmasını kənardan seyr edirdilər. Elə ki, ermənilər türklər tərəfindən sıxışdırılırdı, başlayırdılar onlara kömək etməyə”[36]. Hətta müəllif 1905-1906-cı illərdə ermənilərlə Azərbaycan türkləri arasında baş vermiş qırğınlarda ermənilərə kömək etmiş bəzi rus məmurlarının adını çəkməklə bərabər, onların Azərbaycan milli hərəkatında əvəzsiz rol oynamış “Difai” partiyasının cəzasına məruz qalmasından bəhs etmişdir. Bunlardan Şuşada ermənilərin törətdikləri qırğın zamanı onlaraköməklik edən general Qoloşanovu, Gəncə qubernatorunun müşaviri Kreşçinskini, Gəncə həbsxanasının imamı Molla Atakişini, Şuşada rus hərbi məhkəməsinin prokroru Lunyakini, Gəncə polis rəisi Bannikovu, Tərtər polis rəisi Felikinskini və b., qeyd etmək olar[37].

Lakin buna baxmayaraq hakimiyyət orqanları günahı birmənalı olaraq Azərbaycan türklərində görürdülər. Hətta Qafqaz Canişini bu hadisələrdə Azərbaycan türklərini günahlandırmışdı. Buna görə də, 1905-ci il iyunun 10-da Yelizavetpol, Bakı quberniyalarından, Tiflis quberniyasının Borçalı qəzasından, Dağıstan və Batumi dairələrindən olan 9 nəfər Azərbaycan türklərindən (A.M.Topçubaşov, Rəşid xan Şirvanlı, A.B.Səlimxanov, M.R.Vəkilov, A.Ziyadxanov, Q.B.Zülqədarov, Q.B.İsgidarov, Q.B.Vəkilov, M.B.Sancanzadə Abaşidze) ibarət olan heyət Qafqaz canişini qraf İ.İ.Voronsov-Daşkovun qəbulunda oldular, onlar baş verən hadisələrin səbəbkarının Azərbaycan türkləri olmadığını, bütün baş verən hadisələrin qəsdən onların üstünə atıldığını açıqca bildirmişdilər[38].

---

[36] Yenə orada, s.123.
[37] Yenə orada, s.124-125.
[38] Кавказ, 18-го июня 1905, №156.

İlk belə qırğınlar Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qazaxda, Tiflisdə və digər yerlərdə başladı. Bu ermənilərlə Azərbaycan türkləri arasında baş vermiş qırğınlar haqqında M.S.Ordubadinin, Mir Möhsün Nəvvabın, İsrafil Məmmədovun, Səməd Sərdariniyanın, Musa Qasımlının, İbrahim Kazımbəylinin, Fərhad Cabbarovun, Nazim Mustafanın, Bəxtiyar Həsənovun, Musa Urudun əsərlərində və bəzi kollektiv monoqrafiyalarda ətraflı işıqlandırılmışdır[39].

İlk dövrlərdə bu qırğınlara göz yuman, hətta erməni təşkilatlarının Azərbaycan türklərinə qarşı yeritdikləri soyqırımına biganə yanaşan çar hakimiyyət orqanları hadisələrin artıq məcərasından çıxdığını görərək tədbirlər görmək məcburiyyətində qalmışdı. Bunun bir səbəbi, 1905-ci il Oktyabrın 17-də çar tərəfindən verilmiş manifest idi. Bu qanundan sonra Rusiyanın

---

[39] Ordubadi M.S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi) / Bakı: Qarabağa Xalq Yardımı Komitəsi, 1991, 144 s.; M.M.Nəvvab. 1905-1906-cı illər erməni-müsəlman davası / Bakı: “Azərbaycan” 1993, 128 s. ; İ.Məmmədov. Tariximiz, torpağımız, taleyimiz, s.285-292; Səməd Sərdariniya. İrəvan müsəlman sakinli vilayət olmuşdur / Bakı: «Zərdabi” nəşriyyatı, 2014, s.119-141.; M.Qasımlı. “Erməni məsələsi”ndən “Erməni soyqrımı”na: Gerçək tarix axtarışında (1724-1920) / Bakı: “Mütərcim”, 2014, s.89-162; Kazımbəyli İ. Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri) / Bakı: “Turxan” NPB, -2017, s. 242-282; Джаббаров Ф. Армянский экстремизм на Южном Кавказе: вторая половина XIX-начало XX вв. / Баку: Издательский дом TEAS Press, 2018, 768 s.; Cabbarov F. Qarabağda və Zəngəzurda ilk erməni-azərbaycanlı münaqişəsi (1905-1906) / Bakı: Təhsil, 2022, 200 s.Mustafa N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906) / Bakı: Elm və təhsil, 2022, 400 s.; Azərbaycanın əzəli və əbədi torpağı İrəvan xanlığı (4 cilddə), 2-ci cild / Bakı: “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, s.301-381; Həsənov Bəxtiyar. Qarabağ bölgəsi XX əsrin əvvəllərində / Bakı: “İdeal-Print” MMC, 2024, s. 35-99; Муса Уруд. Зангезур. Из далекого прошлого до наших дней / Баку: AVE Print, 2024, c.187-200.

özündə inqilabi çıxışlar zəifləməyə başladı. İnqilabi hadisələrin qızışdığı dövrlərdə ucqarlarda, xüsusən də Azərbaycanda ermənilərlə Azərbaycan türkləri arasında qırğınları qızışdıran və bu iki xalq arasında qarşıdurma vasitəsilə inqilabdan yayınmağa çalışan carizm tədbirlərə əl atmağa məcbur oldu. İnqilabi çıxışların səngidiyi bir dövrdə iki millət arasında olan qırğınlar hakimiyyət orqanlarının planına daxil deyildi. Digər tərəfdən, hakimiyyət orqanlarının biganəliyindən, ermənilərin qırğnlarından cana gəlmiş Azərbaycan türkləri bu hadisədə artıq təşəbbüsü ələ almış və ermənilərə lazımı cavab verməyə başlamışdılar. Daha yaxşı təşkilatlanmış, daha yaxşı silahlanmış ermənilər sonda səfərbər olunmuş Azərbaycan xalqı tərəfindən bütün bölgələrdə məğlubiyyətə düçür olmuşdular. Belə bir anda, bölgədə bu qarşıdurmanı dayandırmaq üçün erməni nümayəndələrinin hakimiyyət orqanlarına, xüsusən də canişinə yalvarışları da müəyyən rol oynamışdı. Məhz bu səbəblərdən Qafqaz canişini İ.İ.Voronsov-Daşkovun göstərişi ilə həm erməni, həm də Azərbaycan türklərinin səlahiyyətli nümayəndələri Tiflis şəhərində görüşdülər.

# II FƏSİL. Azərbaycanlılarla ermənilər arasında keçirilən "Barışdırıcı qurultay"

## 2.1. "Barışdırıcı qurultay"ın qısa şərhi

Ermənilərlə Azərbaycan türkləri arasında baş vermiş qanlı qırğınların qarşısını almaq üçün Qafqaz Canişinliyi tədbir görmək məcburiyyətində qaldı. Nəticədə, 1906-cı il fevralın 20-də Qafqaz Canişini İ.İ.Voronsov-Daşkovun təhriki və səyi ilə Tiflisdə ermənilərlə Azərbaycan türk nümayəndələri arasında danışıqlar başladı. Bu danışıqlar gələcəkdə Azərbaycan türkləri ilə ermənilər arasında olacaq qırğınların və toqquşmaların qarşısını almaq üçün tədbirlərin hazırlaması məqsədi daşıyırdı. Qafqaz Canişinliyi hələ 1905-ci il dekabrın 4-də danışıqlara həm Azərbaycan türklərindən, həm də ermənilərdən ibarət səlahiyyətli nümayəndələr yığmaq üçün Cənubi Qafqazda Ali Dini idarələrə məktubla müraciət etmişdi. Belə müraciətlər müsəlmanların Tiflis şəhərində yerləşən Şiə dini idarəsi olan Cənubi Qafqaz Şeyx-ül İslamlığına və Sünni dini idarəsi olan Cənubi Qafqaz Müftisinə də göndərilmişdi. Hər iki dini idarə danışıqlarda iştirak etmək üçün öz namizədlərini Canişinliyə təqdim etmişdilər. Cənubi Qafqaz Şiə Dini İdarəsinin Şeyx-ül-islamı **Axund Əbdülsəlam Axundzadə (V Şeyx-ül-islam-1895-1907-ci illər)** Qafqaz Canişininin hərbi işlər üzrə köməkçisi general-leytenant Yakob Dimitriyeviç Malamaya 1905-ci il dekabrın 15-də göndərdiyi məktubda danışıqlarda iştirak edəcək səlahiyyətli nümayəndələrin siyahısını vermiş, həmin siyahıda Tiflis, Bakı, İrəvan, Naxçıvan, Yelizavetpol (Gəncə-E.Q.), Şuşa, Nuxa, Aleksandropol (Gümrü-E.Q.) şəhərlərindən, Yelizavetpol, Bakı və İrəvan quberniyalarından olan ziyalıların və imtiyazlı təbəqələrin adlarını göstərilmişdir. Həmin şəxslər bunlar idi: 1. **Tiflis şəhərindən-** Rəhim bəy Axundov, Məhəm-

məd ağa Şaxtaxtinski, Qazi Axund Mollazadə, Mirzə Şərif Mirzəyev və Borçalı qəzasından Hüseyn bəy Yegiazarov; 2. **Yelizavetpol quberniyasından- Yelizavetpol şəhərindən-** Adil xan Ziyadxanov, Ələkbər bəy Xasməmmədov, **Şuşa şəhərindən** Qasım bəy Vəzirov, **Nuxa şəhərindən-** Şirəli bəy Əmircanov, **Qazax qəzasından** Həmid bəy Zülqədarov; **Bakı quberniyasından- Bakı şəhərindən**- Əlimərdan bəy Topçubaşov, Kərbalayı İsrafil Hacıyev, İsmayıl bəy Səfərəliyev, Qazi Ağa Mir Kərim Hacı Mir Cəfərzadə, Əsəd bəy Səlimxanov; **İrəvan quberniyasından- İrəvan şəhərindən**- Abbasqulu xan İrəvanski, Kərbalayı Məmməd ağa Əliyev, Axund Məmmədbağır Qazizadə, **Naxçıvan şəhərindən-** Cəfərqulu xan Naxçıvanski, **Aleksandropol şəhərindən-** Hacı Molla Əli Tanrıverdiyev[40].

**Cənubi Qafqaz Sünni Ruhani İdarəsinin Müftisi Mirzə Hüseyn Qayıbov (V müfti, 1883-1917-ci illər)** da 1905-ci il dekabrın 15-də Azərbaycan türkləri ilə ermənilər arasında danışıqlarda iştirak etmək üçün öz namizədlərinin adlarını və yaşadıqları ünvanları göstərməklə, Canişinliyin dəftərxanasına məktub göndərmişdir. Məktubda göstərilən həmin namizədlər bunlar idi: **Tiflis şəhərindən-** Tiflis-Kutaisi sünnü quberniya məclisinin sədri Qazi Ələddin Əfəndi Sübhanqulov; **Şamaxı şəhərindən-** Bakı Sünni Quberniya Məclisinin sədri Qazi Hacı Abdulməcid Əfəndi Əfəndizadə; **Nuxa şəhərindən**- Yelizavetpol Sünni Quberniya Məclisinin sədri Qazi Abdulrəhim Əfəndi Hacı Abdulla Əfəndizadə; **Tiflis şəhərindən-** Hərbi Mətbəə bölməsindən podpolkovnik İbrahim bəy Vəkilov; **Axalkələki**

[40]Его Превосходительства Якову Димитриевичу Маламе помощнику Наместника на Кавказе от Закавказский Шейх-ул-Ислам Закавказского Шитского Духовнаго правления Ахунд Авдулсалам Ахундзаде, 15 декабря 1905 г. / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист 4-4 об.

**şəhərindən-** Məmmədəli bəy Palavandov; **Yelizavetpol qəzasının Şişqaya kəndindən-** Şirin bəy Şahmalıyev; **Nuxa şəhərindən-** Adil xan İlusulu; **Cavad qəzasının Xanlıq kəndindən-** Rəşid xan Şirvanlı; **Bakı şəhərindən-** Həsən bəy Məlikov; **Sürməli qəzasının Ramazan kəndindən-** Polkovnik Əliəşrəf bəy Şəmşaddinov[41]. Lakin Cənubi Qafqaz Sünni Ruhani İdarəsinin Müftisi M.H.Qayıbov 1906-ci il fevralın 18-də Qafqaz Canişinliyinin dəftərxanasına göndərdiyi ikinci məktubunda siyahıda olan bəzi nümayəndələrin adlarında dəyişiklik etmiş və həmin adlar bunlardır: Ələddin Əfəndi Sübhanqulov, Ahalkələki qəzasının köməkçisi Məmmədəli bəy Palavandov, Tiflis Qubernatorluğu kollej katibliyi yanında xüsusi tapşırıqlar üzrə məmuru Məmməd bəy Şaxmalıyev, Mustafa bəy Eminov və Borçalı qəzasının Arıxlı kənd sakini Abdurrəhman Haqverdi oğlu (Tiflis quberniyasından), Hərbi Mətbəə bölümündən podpolkovnik İbrahim bəy Vəkilov, Ərəş qəza rəisinin köməkçisi Sultan bəy Sultanov və Nuxa şəhər sakini Hacı Cəlil Mustafayev (Yelizavetpol quberniyasından), mühəndis Zivər bəy Əhmədbəyov (Bakı quberniyasından) və Sürməli qəzasının Xıdırlı kənd sakini Əli Mirzə oğlu Akitov (Hakimov-E.Q.) (İrəvan quberniyasından)[42].

Beləliklə, uzun hazırlıqdan sonra fevralın 20-də Qafqaz Canişinliyində hər iki millət nümayəndələrindən ibarət "barış-

---

[41] Список лиц избранных от мусульманскаго Суннитскаго населения Тифлисской, Елисаветполской, Вакинской и Эриванской губерний для участя в упрежденном при совета Наместника особом совещаний для выработкаи меропрятии к предупреждений случаей вооруженияx столкновений между армянами и мусулманами / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист 6-6 об.

[42] В канцелярию Наместника его Императорского Величества на Кавказе от Закавказский Муфти и пресидатель Закавказского Суннитского Духовнаго правления, 18 февраля 1906 г. / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист 18-18 об.

dırıcı qurultay" başladı. Əslində qurultayın iclasları fevralın 15-dən başlamalı idi, lakin ermənilərin gəlməməsi səbəbindən qeyd edilən vaxta keçirilmişdi. Qeyd etmək lazımdır ki, "İmperator Əlahəzrətlərinin Qafqazdakı Canişin Şurasının jurnalı"nda, "Qafqaz" qəzetinin 1906-cı il fevralın 21-dən başlayaraq martın 10-a qədər və "Kaspi" qəzetinin 1906-cı il fevralın 22-dən martın 23-ə qədər çıxan nömrələrində Qafqaz Canişininin yanında keçən bu qurultayın iclasları, burada iştirak edən hər iki millət nümayəndələrinin çıxışları və burada qəbul edilən qərarlar haqqında ətraflı məlumat verilmişdir. Qeyd etmək lazımdır ki, "Qafqaz" qəzetində Azərbaycan türkləri ilə erməni nümayəndələri arasında olan bu görüş konfrans, "Kaspi" qəzetində isə qurultay adlandırılmışdır. Əsərdə "Kaspi" qəzetində göstərilən qurultay adı saxlanmış və "barışdırıcı qurultay" adlandırılmışdır. Bundan əlavə, Qafqaz Canişinliyi Şurasının "jurnalı"nda bu qurultayın gedişi, iştirakçıların çıxışlarının qısa şərhi verilsə də, "Qafqaz" və "Kaspi" qəzetlərində bu qurultayın gedişi və hər bir nümayəndənin çıxışları geniş göstərilmişdir.

Qafqaz Canişinliyində baş tutmuş "barışdırıcı qurultay"ın iclaslarında ayrı-ayrı nümayəndələrin açıq çıxışlarını göstərməzdən əvvəl, iclaslarda qaldırılan məsələlərə onların münasibətini və bir-birinə olan ittihamlara qısa toxunmaq istərdik. İlk növbədə qurultayın keçirildiyi yer və burada iştirak edən bütün heyətin tərkibini işıqlandıraq. Qeyd etmək lazımdır ki, 1906-cı il fevralın 20-də canişin İ.İ.Voronsov-Daşkovun iştirakı ilə başlayan qurultayın iclasları sarayın bütün uzunluğu boyunca qırmızı süfrə ilə örtülmüş bir masası olan böyük "Ağ zal"da və yaxud "Bəyaz zal"da keçirilmişdir[43]. Qafqaz Canişinliyi Şurasının jurnalında qurultayın iclasının keçirilməsi, onun sədri,

[43] Кавказ, 21-го февраля 1906, №42, с.4

Məsləhət Şurasının üzvləri, hər iki səlahiyyətli nümayəndələrin haqqında geniş məlumat verilmişdir. Jurnalda göstərilmişdir:

**İclasa sədrlik edən** İmperator Əlahəzrətlərinin Qafqazdakı Canişininin hərbi işlər üzrə köməkçisi, general-leytenant Malama;

**İştirak edən Qafqaz Canişininin digər köməkçiləri**: İmperator Əlahəzrətlərinin Qafqazdakı Canişininin mülki işlər üzrə köməkçisi, gizli müşavir Sultan Krım Girey; İmperator Əlahəzrətlərinin Qafqazdakı Canişininin köməkçisi, polis rəisi general-leytenant Şirinkin;

**Şura üzvləri**: Gizli müşavir, gəlir (maliyyə-E.Q.) üzrə (ad göstərilməmişdir-E.Q.)- vakansiya; Qafqazda Torpaq Təsərrüfatı və Kənd Təsərrüfatı Baş İdarəsinin müvəkkili, gizli müşavir Medvedyev; Canişin dəftərxanasının müdiri, mülki müşavir Peterson;

**Xüsusi dəvət edilənlər**: İrəvanın qubernatoru, gizli müşavir qraf Tizenhauzen; Tiflis qubernatoru, Əlahəzrət İmperatorun sarayında Ştalmeyster rütbəsində (çar Rusiyasında saray rütbələrindən biri-E.Q.), həqiqi mülki müşavir baron Rauş fon Traubenberq; Yelizavetpol qubernatoru, həqiqi mülki müşavir Kalaçyev və Qafqaz Mülki İdarəsinin baytarlıq şöbəsinin müdiri, kollegial məsləhətçi Zolotaryev[44].

Tarixi ədəbiyyatda həm Azərbaycan türklərindən, həm də ermənilərdən bu qurultayda iştirak edən səlahiyyətli nümayəndələrin sayı haqqında müxtəlif rəqəmlər göstərilmişdir. F. Cabbarov öz əsərində bu tarixi qurultayda Azərbaycan türklərindən 29, ermənilərdən isə 28, N.Mustafa hər iki millətdən 30, İ.Kazımbəyli isə Azərbaycan türklərindən 31, ermənilərdən isə 30

[44] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГАГ, фонд 13, опис 15, дело 353, лист 50-50 об.

nəfərin iştirak etdiklərini qeyd etmişdilər[45]. Hətta “Kaspi” qəzetində qurultayda iştirak edən həm Azərbaycan türklərinin, həm də ermənilərin sayının ayrı-ayrılıqda 29 nəfər olduğu bildirilmişdir. Lakin İmperator Həzrətlərinin Qafqaz Canişini Şurasının jurnalında qurultayda iştirak edən həm Azərbaycan türklərindən, həm də erməni millətindən müvəkkil edilmiş səlahiyyətli nümayəndələr, onların sayı, hansı şəhər və quberniyadan olmaları haqqında fərqli məlumat göstərilmişdir. Jurnalda qurultayda Azərbaycan türklərindən 27, ermənilərdən isə 30 səlahiyyətli nümayəndə iştirak etdiyi bildirilmişdir. Azərbaycan türklərindən iclasda iştirak edən səlahiyyətli nümayəndələr və onların ünvanları bunlar idi:

**Yelizavetpol şəhərindən**: Adil xan Ziyadxanov, Ələkbər bəy Xasməmmədov;

**Bakı şəhərindən:** Kərbalayı İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev və Qara bəy Qarabəyov;

**Tiflis şəhərindən:** Qazi Axund Movlazadə, Qazi Ələddin Əfəndi Sübhanqulov, Məmməd bəy Şaxmalıyev, Şərif bəy Mirzəyev, Hüseyn bəy Yeqizarov, Mustafa bəy Emilov, Rəhim bəy Axundov;

**İrəvan şəhərindən:** Ağa xan İrəvanski, Şahzadə Şahqulu Mirzə, Abbasqulu bəy Hacıbəyli;

**Naxçıvan şəhərindən:** Eynalı bəy Sultanov, Məmməd ağa Şahtaxtinski;

**İrəvan quberniyasının Sürməli qəzasından:** Əliağa Akitov (Hakimov-E.Q.);

**Şamaxı şəhərindən:** Zivər bəy Əhmədbəyov;

---

[45] Джаббаров Ф. Армянский экстремизм на Южном Кавказе: вторая половина XIX- начало XX вв. с.639; Mustafa N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.252.

**Yelizavetpol quberniyasının Qazax qəzasından:** Podpolkovnik İbrahim bəy Vəkilov;

**Yelizavetpol quberniyasının Şuşa qəzasından:** Cahangir xan Nurubəyov,

İsmayıl bəy Qalabəyov və İsa Quliyev;

**Zəngəzur qəzasından:** Cəlil bəy Sultanov;

**Nuxa qəzasından:** Hacı Cəlil Mustafayev;

**Ərəş qəzasından:** Sultan bəy Sultanov[46].

Beləliklə, iclasda Azərbaycan türklərindən 27 nəfər səlahiyyətli nümayəndə iştirak etmişdir.

Erməni əhalisinin səlahiyyətli nümayəndələri isə bunlar idi:

**İrəvan şəhərindən:** Levon Muşeqyans, Avetik Ter-Avetikyanç

**Naxçıvan şəhərindən:** Levon Sarkisyanç, Ambarsum Arakelyanç;

**Aleksandropol şəhərindən (Gümrü-E.Q.):** Geqam Ter-Petrosyanç;

**Qars şəhərindən:** Arximandrit Yeqişe Muradyan;

**Tiflis şəhərindən:** Aleksandr Xatisyanç, Aleksandr Məlik Azaryanç, Aleksandr Kələntər, Karapet Stepanyanç, İohannes Spendiyarov;

**Yelizavetpol şəhərindən (Gəncə-E.Q.):** İosif Məlik Bəyləryanç, İsaak Hocayanç, Mixail Lazaryanç, Levon Məlik Mnasakanyanç;

**Şulaver kəndindən:** Vaxtanq Mehrabyanç;

**Qazax şəhərindən:** Samson Arşyunyanç;

**Batum şəhərindən:** Sarıbəy Artronyanç;

**Bakı şəhərindən:** Konstantin Xatisyanç, Stepan Taqıa-

---

[46]Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГАГ, фонд 13, опис 15, дело 353, лист -51 об.

nosyanç, Arşak Quqasyanç;

**Nuxa şəhərindən:** General Selikyanç;

**Şuşa şəhərindən:** Arximandrit Nerses, Cavad İşxanov, Levan Quliyev

**Axalsıx şəhərindən:** Poqos Qurgenyanç;

**Cəlaloğlu yaşayış yerindən:** Poqos Qara Murza;

**Aleksandropol şəhərindən:** Petros Xrımyanç;

**Artvin şəhərindən:** Arakel Saruxanyanç;

**Tiflis şəhərindən:** Qabriel Naxapetyanç[47].

Beləliklə, iclasda iştirak edən erməni səlahiyyətli nümayəndələrinin sayı 30 nəfərdən ibarət olmuşdur.

"Ağ" zalda yerləşən "Qırmızı" stolun sağ tərəfində Azərbaycan türk nümayəndələri, sol tərəfində isə erməni nümayəndələri əyləşmişdilər[48].

Qeyd edildiyi kimi, Canişinin yanında keçən qurultay iclaslarının bütün gedişi "Qafqaz" və "Kaspi" qəzetlərində nəşr edilmişdir. Bu çıxışları ətraflı işıqlandırmazdan əvvəl, konfransın qısa şərhinə toxunmaq istərdik. Beləliklə, fevralın 20-də, iclas başlamamışdan əvvəl Qafqaz canişini, general-adyutant **Qraf İ.İ.Voronsov-Daşkov** erməni və müsəlman nümayəndələri qarşısında aşağıdakı qısa nitqlə çıxış etmişdi: "Bir ildir ki, ermənilərlə müsəlmanlar arasında şiddətli qırğın gedir. Bütün bir il ərzində gördüyüm bütün tədbirlər yalnız qismən, müvəqqəti sakitliyə səbəb oldu. Mən dəfələrlə döyüşən millətlərin ruhanilərinə zorakılığa təsir etmək, müharibə edənləri sakitləşdirmək, davamlı sülh bağlamaq üçün bütün təsir imkanlarından is-

---

[47] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист -50 об-51.

[48] Кавказ, 21-го февраля 1906, №42, с.4; Ordubadi M.S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi), s.105; Mustafa N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.252.

tifadə etmək xahişi ilə müraciət etmişəm. Sülh bağlandı, and, vədlər verildi, amma sonra bəzən eyni gündə yenə mənasız qırğın başladı. İndi mən sizə, ermənilərin və müsəlmanların seçilmiş nümayəndələrinə müraciət edirəm ki, öz nüfuzunuzla sülhə kömək edin və daimi nizamın bərpasına gətirib çıxara biləcək tədbirləri müzakirə edin. Köç vaxtıdır. Bu dövr həmişə cinayətlərin sayının artması ilə səciyyələnir və indi təhlükə yaradan fəlakətlərin qarşısını necə almaq barədə düşünmək lazımdır. Xahiş etdiyim, əsas məsələ odur ki, işin uğurlu olması, görüşlərinizin səmərəli keçməsi üçün məsələyə tam obyektiv yanaşmaq lazımdır. Keçmişi narahat etməyə, günahkar axtarmağa ehtiyac yoxdur. Bütün tərəfkeşliyi, bütün əvvəlki narazılıqları unudun və yalnız bölgənin maddi rifahını məhv edən pislikləri həqiqətən dayandırmaq üçün vasitələr tapmaq haqqında düşünün. İğtişaşların davam etməsi ancaq soyğunçuların və inqilabi təşkilatların xeyrinədir. Mən general Malamadan xahiş etdim ki, iclaslarınıza sədrlik etsin, iş başa çatdıqdan sonra o, fikirlərinizi mənə təqdim edəcək. Sizə sürətli və məhsuldar iş arzulayıram[49]".

**Arximandrit Yeqişe Muradyan** Zati-alilərinin hələ regiona gəlməmişdən əvvəl elan etdiyi humanist proqramının daimi həyata keçirilməsinə görə bütün seçilmiş rəsmi nümayəndələr adından Canişinə ürəkdən təşəkkür edərək, əmin olduğunu bildirdi ki, Allahın və canişinin köməyi ilə iclas bölgənin sakitliyinə nail ola biləcəkdir.

İclası açan **general-leytenant Malama** dedi: "Cənablar, Zati-aliləri, bizim görüşlərimizin məqsədini sizə göstərdi və sizə həvalə edilmiş vəzifənin nə qədər vacib və ciddi olduğunu, əlbəttə ki, yaxşı bilirsiniz. Kədərli hadisələrin səbəbkarlarının kim olduğu sualına toxunmağa ehtiyac yoxdur, biz kimsəni cə-

---

[49] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист -51 об.

zalandırmaq məqsədi ilə araşdırma aparmırıq. Bizim vəzifəmiz pozulmuş sülhü bərpa edəcək tədbirlər tapmaq, əziyyət çəkən əhalini sakitləşdirmək, iğtişaşların vurduğu yaraları sağaltmaq, ötən ilin 17 oktyabr manifestinin verdiyi azadlıqları sülh və məmnunluqla qəbul etmək imkanı yaratmaqdır. Təbii ki, ilk növbədə iğtişaşları şərtləndirən səbəbləri tam səmimiyyətlə araşdırmaq və sonra bu səbəbləri aradan qaldırmaq, müharibə edən tərəflər arasında etimadlı və davamlı sülhü bərpa etmək üçün tədbirlər görməyə başlamaq lazımdır”[50].

Daha sonra nümayəndələr iclasın qaydası və baxılacaq məsələlərin müzakirəsinə başladı. İclas uzun müzakirələrdən sonra belə bir qənaətə gəldi ki, iğtişaşların doğurduğu ehtirasların hələ də səngimədiyi indiki dövrdə ermənilərlə müsəlmanlar (Azərbaycan türkləri-E.Q.) arasında qanlı toqquşmaları törədən səbəblər məsələsi çox kəskindir. Bunu hərtərəfli müzakirə etməmək, hələ sağalmamış yaralara toxunmamaq, münasibətlərin kəskinləşməsinə və tərəflərin davamlı barışması üçün əlverişsiz nəticələrə səbəb ola bilər. Bunu nəzərə alaraq, səbəblər məsələsinə yalnız o dərəcədə toxunmaq məqsədəuyğun olardı ki, bu, davamlı sülhün bərqərar olmasına gətirib çıxara biləcək tədbirlərin aydınlaşdırılmasına xidmət edə bilər.

İclasın qaydası məsələsində nümayəndələr qərara gəldilər ki, milliyyətə görə təkbətək görüşlərdə erməni və müsəlman nümayəndələri ayrı-ayrı proqramlar işləyib hazırlasınlar, sonra onları təkbətək görüşlərdə elə müzakirə etsinlər ki, bəlkə də tərəflər bəzi məsələlərdə razılığa gəlsinlər. Daha sonra hər iki tərəfin proqramının fevralın 22-si saat 14-də keçiriləcək qurultayın növbəti iclasında müzakirəyə çıxarılacağı qərara alındı.

Bu iclaslarda hər iki millətin nümayəndələri ayrı-ayrılıq-

---

[50] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.52.

da 12 bənddən ibarət proqram layihəsi təqdim etmişdilər. Bu proqramlarda qeyd edilən bəndlərin bəzisi üst-üstə düşmüş, bəzisi fərqlənmişdir. Qeyd etmək lazımdır ki, bir neçə gün keçən iclaslarda danışıqlar çox gərgin keçmiş, nümayəndələr bu və ya digər bəndlərə münasibətlərdə bəzən fərqli, bəzən də ümumi razılığa gəlmiş və hətta bir-birini ittiham da etmişdilər.

1906-cı il fevralın 22-də iclasın açılışında məlum oldu ki, erməni nümayəndələrinin iclasa təqdim edəcəkləri proqramın hazırlanması başa çatmamış, Azərbaycan nümayəndələri isə təqdim etdikləri hazır proqramın müzakirə edilməməsini təkidlə xahiş etmişdilər. Azərbaycan nümayəndələri bildirmişdilər ki, əgər erməni nümayəndələri öz proqramlarını təqdim etməsə, onlar da öz proqramlarının müzakirə edilməsinə etiraz edirlər. Buna görə də, erməni nümayəndələri görüşün təxirə salınmasını xahiş etdilər[51].

**Fevralın 23-də başlayan iclas** zamanı hər iki tərəf öz proqramlarını təqdim etmiş və hər iki proqram bənd-bənd müzakirə edilmişdir. İlk əvvəl təqdim edilmiş proqramın 1-ci bəndi-ermənilərlə Azərbaycan türkləri arasında baş vermiş qırğınların səbəbi müzakirə edilmişdir. Hər iki millətin nümayəndələri bu məsələyə fərqli yanaşmışdılar. **Müsəlman nümayəndələri (Azırbaycan türkləri-E.Q.) bu bəndə belə münasibət bildirmişdilər:** Bakıda iğtişaşlar erməni inqilab komitələrinin sifarişi ilə həyata keçirilən gizli qətllər nəticəsində baş vermişdir. Ermənilərin sui-istifadə etdikləri kütlənin məlumatsızlığı, müsəlmanların hüquqlarının olmaması kimi başqa səbəblər də təbii ki, var idi. İğtişaşların baş verməsinin əsas səbəbi erməni inqilabçı Daşnaksutyun partiyasının fəaliyyəti idi. Rusiya ərazisində bu partiya dar milli məqsədlər güdürdü, buna nail olmaq

[51]Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист, 52 об.

üçün ordusunu təşkil etdi, gizli qətllərdən və ümumiyyətlə terrorla öz proqramını həyata keçirmək üçün bütün vasitələrdən istifadə etdi. Savadsız müsəlman kütləsi Daşnaksutyun partiyanın bu fəaliyyətini onunla izah edirdi ki, ermənilər müharibənin, sonra isə iğtişaşların hökumətin başına gətirdiyi çətinliklərdən sui-istifadə edərək müsəlmanları məhv etməklə özlərinə bir ərazi hazırlayaraq müstəqilliklərini təmin edə bilsinlər. Bu inanc müsəlman kütlələri arasında möhkəm kök salmışdır. Yaxşı silahlanmış xüsusi erməni ordusunun təşkili hökumətin müsəlmanları müdafiə edə bilməyəcəyi fikrini doğurdu və bu, onların özünümüdafiə üçün silahlanmaq istəyinə səbəb oldu və sonra həm ermənilərə və həm də müsəlmanlara, hər ikisinə eyni dərəcədə zərərli olan dəstələrin yaranmasına səbəb oldu. Nə qədər ki, Daşnaksutyun partiyası var, onun fəaliyyəti əhalinin sakitləşməsinə imkan verməyəcək və davamlı sülh mümkün olmayacaqdır[52].

**Erməni nümayəndələr isə bu məndə münasibətdə fərqli mövqe tutaraq bildirmişdilər:** İğtişaşların yaranması və inkişafının əsas səbəbinin yerli hakimiyyət orqanlarının cinayətkar hərəkəti və hadisələrə səhlənkar münasibətidir. Daşnaksutyun kimi təşkilatların yaranması vəziyyətlə əlaqədardır. Partiyanın yaranmasına məhz rus qoşunlarının Türkiyə sərhəddini keçməsi və türklərlə döyüşlərdə fədakarcasına qan tökməsi ideyası səbəb olub. Partiyanın fəaliyyəti heç bir dövlətə və ya hansısa millətə qarşı yönəlməyib, onun fəaliyyəti yalnız Türkiyə ermənilərinin həyat şəraitinin yaxşılaşdırmasına nail olmaqdır. Sonra Qafqaz bölgəsində ermənilərə qarşı təqiblər başlayanda, əvvəlcə kilsə- məhəllə məktəbləri, sonra isə kilsə əmlakı onların əlindən alındıqda, Daşnaksütyun partiyası öz dindarla-

[52]Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист, 53.

rını qorumaq üçün fəaliyyətini Qafqaza keçirdi. Lakin partiyanın fəaliyyəti müdafiə xarakteri daşımış, ermənilər hücum etməmiş, yalnız müdafiə olunmuşdular. Qraf Voronsov-Daşkov canişin təyin edildikdən sonra ermənilər nə istədilərsə ona nail oldular[53].

**Fevralın 24-də iclas daha gərgin keçmişdir.** Həmin gün Bakı şəhərindən nümayəndə seçilmiş Əhməd bəy Ağayev "İntibah" qəzetində erməni qəzeti olan "Araç" qəzetindən götürülmüş, Azərbaycan türk nümayəndələri haqqında dərc edilmiş, böhtanla dolu bir parçanı oxumuş, həmin məqalədə Azərbaycan nümayəndələri fırıldaqçı, öz xalqı tərəfindən seçilməmiş və səlahiyyəti olmayan bir heyət kimi ittiham edilmişdi. Ə.Ağayev və digər Azərbaycan nümayəndələri elan etdilər ki, erməni nümayəndələri "Araç"da dərc olunmuş bu fikrə və burada göstərilən böhtana münasibətlərini bildirsinlər. Əgər erməni nümayəndələri burada göstərilən fikirlə razıdılarsa, Azərbaycan türk nümayəndələrinin iclasda iştirakı mümkün deyildir. Lakin erməni nümayəndələri elan etdilər ki, onlar məqalədə deyilən fikirlə razı deyillər və ona rəğbət bəsləmirlər. Erməni nümayəndələrinin bu bəyanatından sonra iclas davam etmiş və proqramdakı sonrakı bəndlərə münasibət bildirilmişdir. İclasda Azərbaycan nümayəndələrinin proqramının 2-ci, 3-cü və 4-cü bəndlərinə, erməni proqramının isə 2-ci və 3-cü bəndlərinə münasibət bildirilmişdir. Azərbaycan nümayəndələrinin təqdim etdiyi proqramın 2-ci bənddi Cənubi Qafqazda icbari, ümumi və pulsuz ibtidai məktəblərin tətbiqinə həsr edilmişdir. Həmin bənddə ümumi, icbari və pulsuz ibtidai məktəblərin açılması məsələsindən bəhs edilirdi. **Azərbaycan türk nümayəndələri öz çıxışlarında** bu iğtişaşların geniş yayılmasının səbəblərindən bi-

[53] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист, л.53-53 arx.

rinin müsəlman əhalisinin savadsız olmasını, digər millətlərlə müqayisədə mədəni geriliyini etiraf etdilər. Bunu nəzərə alaraq, nümayəndələr hökumətdən xahiş edirlər ki, ibtidai məktəblərdə ümumi, icbari və pulsuz təhsil tətbiq edilsin. Hətta qeyd etdilər ki, bu işin uğurlu olması üçün  dərslər doğma dildə tədris olunmalıdır. Azərbaycan nümayəndələri bu tədbiri həyata keçirmək üçün xüsusi məktəb vergisinin tətbiqi ilə də razılaşırdılar. Müsəlmanlar arasında xalq maarifinin inkişafına mane olan amil kifayət qədər təlim keçmiş müəllimlərin və mənəvi tərbiyəçilərin olmamasıdır. Bunları nəzərə alaraq, müsəlmanlar üçün tez bir zamanda müəllimlər və ilahiyyat seminariyalarının yaradılmasının zəruri olduğu bildirildi. Qori şəhərində müəllimlər seminariyasında tatar şöbəsi fəaliyyət göstərir, lakin o, ümumiyyətlə müsəlman olmayan yerdə yerləşdiyindən öz məqsədinə çatmır. Ona görə də bu şöbənin bağlanması və onun yerində müsəlmanların sıx məskunlaşdığı ərazidə müəllimlər seminariyasının açılması arzuolunandır[54]. Məktəblərin açılmasına əhəmiyyətli maneə həm də müsəlman əhalinin səpələnmiş halda yaşamasıdır ki, bu da məktəbdə kifayət qədər şagirdin ola biləcəyi yer seçimini çətinləşdirir. Azərbaycan nümayəndələri bu maneəni aradan qaldırmaq üçün əhalinin daha çox məskunlaşdığı kəndlərdə qruplaşma yaradılmasını zəruri hesab etdiklərini və bununla da, hər bir məktəbi kifayət qədər şagirdlə təmin edəcəklərini dərk edirlər. Belə qruplaşmanın mümkün olmadığı hallarda səyyar məktəblərin tətbiq edilməsini xahiş edirdilər. Əhalisi qarışıq olan yerlərdə millətlərin bir-birinə yaxınlaşması üçün qarışıq məktəblərin yaradılması arzulandı.

Beləliklə, məktəb işinin uğurunun əhalinin ona olan münasibətindən çox asılı olduğunu dərk edən müsəlman nümayən-

---

[54] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.54- 54 об.

dələri cəmiyyətə məktəb işinin idarə edilməsində həm iqtisadi, həm də təhsil baxımından daha çox yer verilməsinin vacibliyini vurğuladılar.

Bu bəndin müzakirəsində erməni nümayəndələri Azərbaycan türk nümayəndələrinin arzu və istəklərini dəstəkləmiş və onların fikirlərinə qoşulmuşdular. Beləliklə, bu bənd hər iki millətin nümayəndələri tərəfindən qəbul edilmişdir[55].

Bundan sonra iclas iştirakçıları Azərbaycan nümayəndələrinin proqramında göstərilən 3-cü bəndin müzakirəsinə başladılar. Həmin bənddə əhalinin bütün təbəqələrinin və eyni zamanda həm xristianların, həm də müsəlmanların qanun qarşısında bərabər olması məsələsindən bəhs edilmişdir. **Azərbaycan türk nümayəndələri bildirdilər ki,** qanun müsəlmanların hüquqlarına heç bir məhdudiyyət qoymamalıdır. Bununla belə, son təcrübə və müxtəlif sərəncamlar yəhudilərlə bağlı qanunun müddəalarının düzgün yayılmaması yolu ilə hakimiyyət orqanlarının xristianlara və müsəlmanlara münasibətində kəskin fərq yaratmışdır. Beləliklə, müsəlmanların müəllimlik və peşə fəaliyyətini, dövlət idarəçiliyində iştirakını və hətta andlı vəkil kimi pulsuz peşəyə malik olmasını çətinləşdirir. Bütün bu kimi şəxsi sifarişləri ləğv etmək və dini fərqləri aradan qaldırmaqla, qanunvericilik yolu ilə müsəlmanların digər millətlərlə tam hüquq bərabərliyini təmin etmək lazımdır.

**Bu bəndə münasibət bildirən erməni nümayəndələrindən biri dedi ki**, əhalinin ziyalı və burjua hissəsində milli istəklər daha çox inkişaf edir ki, bu da sırf ictimai özünüidarədə iştirak etməklə onu milli mübarizəyə aparır. Seçki senzinin aşağı salınması bu vəziyyəti aradan qaldırmasa da, əhəmiyyətli dərəcədə yumşaltmalıdır. Bu bəyanat bütün nümayəndələrin icti-

[55] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.55

mai özünüidarə seçkiləri üçün müəyyən edilmiş senzin aşağı salmaq istəyinə səbəb oldu[56].

Müsəlmanların proqramında bu bənddə göstərilən istəklərə erməni nümayəndələri də qoşuldular. Beləliklə, bu bənd də, hər iki millətin nümayəndələrinin razılığa gəlməsi nəticəsində qəbul edildi.

**Azərbaycan nümayəndə heyətinin təqdim etdiyi proqramın 4-cü bəndi** "Bölgədə asayiş yradılana qədər Canişinliyin nəzdində, hər iki millətin seçilmiş nümayəndələrindən ibarət "Xüsusi Komissiyanın yaradılması"ndan bəhs edilmişdi.

Bu bəndə münasibət bildirən **Azərbaycan türk nümayəndələri qeyd etdilər ki,** bu görüşdə səslənəcək arzular həyata keçirilərkən, eləcə də ümumilikdə müsəlmanlarla ermənilərin barışdırılmasına yönəlmiş bütün tədbirlər görülərkən bu millətlərin həyatı, xarakteri və müasir əhval-ruhiyyəsi ilə yaxından tanış olmaq çox vacibdir. Bunu nəzərə alaraq, bölgədə sakitlik yaranana qədər canişinliyin nəzdində hər iki millətin seçilmiş nümayəndələrindən ibarət xüsusi komissiyanın yaradılması və erməni-tatar qırğınlarının bütün məsələləri ilə bağlı rəylərin həmim komissiyaya verilməsi çox arzuolunan olardı[57].

Erməni nümayəndələri Azərbaycan nümayəndələrinin bu istəklərinə qoşuldular. Beləliklə, 4-cü bənd də hər iki millətin nümayəndələri tərəfindən qəbul edildi.

Azərbaycan nümayəndələrinin proqramında olan bəndlər müzakirə edilib qəbul edildikdən sonra, erməni nümayəndələrinin təqdim etdikləri proqramın 2-ci və 3-cü bəndlərinin müzakirəsinə başlandı. Erməni nümayəndələrinin proqramında gös-

---

[56] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист, л.54 об-л.55.

[57]Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.55-55 об.

tərilən **2-ci bənd "Quberniya, qəza və polisin yenidən təşkil edilməsi", 3-cü bənd isə "Erməni-tatar münasibətləri ilə bağlı məsələləri həll etmək üçün yerli inzibati və polis orqanları yanında əhalidən seçilmiş nümayəndələrdən ibarət yerli şuraların təşkili"** məsələlərinə həsr edilmişdir.

**Erməni nümayəndələri bildirdilər ki**, iğtişaşların yaranması və inkişafının əsas səbəbi yerli hakimiyyət orqanlarının fəaliyyətsizliyi, səhlənkarlığı və pozuculuq siyasəti olmuşdur. Yerli hakimiyyət orqanlarının və polisin tərkibi son dərəcə qənaətbəxş deyildir və hakimiyyətdə tez-tez hərəkətləri ilə əhalinin etibarını tamamilə itirmiş, hakimiyyətdə şübhəli keçmişi olan insanlara rast gəlmək olar. Belə şəxsləri kənarlaşdırmaq, quberniya və qəza inzibati idarələrini və polis orqanlarını yenidən təşkil etmək, idarə və polis orqanlarına daxil olmaq üçün təhsil və mənəvi keyfiyyət, qüsursuz keçmiş, əlbəttə ki, işçilər üçün daha yaxşı təminat yaratmaq lazımdır. Vəzifəli şəxslərin seçimi milli mənsubiyyətindən asılı olmayaraq tamamilə qərəzsiz və bütün himayədarlığın aradan qaldırılması ilə aparılmalıdır. Kiçik polis məmurları və digər polis məmurları da böyük seçki ilə təyin edilməlidir. Təhlükəsizliyi daha yaxşı təmin etmək üçün onların müavinətini artırıb, eyni sayda rus, müsəlman və erməni olmaqla, onları bu vəzifələrə təyin etmək lazımdır[58]. Erməni-tatar münasibətləri məsələsi ilə bağlı tədbirin böyük məqsədəuyğunluğu və uğurunu nəzərə alaraq, sakitlik yaranmamışdan əvvəl **Qubernatorlar, qəza və sahə başçıları yanında hər iki millətdən seçilmiş nümayəndələrdən məşvərət hüququ ilə şuraların yaradılması** məqsədəuyğundur, bütün bu kimi məsələlərə səs verilsin. Elə həmin şuralara da çox faydalı olardı ki, onların seçimini daha əsaslı aparsınlar, səla-

---

[58] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.55 об.

hiyyətli şəxslərin vəzifəyə təyin və vəzifədən azad edilməsinə rəy vermək hüququ verilsin. Şəhər polisinin yenidən təşkili onun saxlanması xərclərinin əhəmiyyətli dərəcədə artırılmasını tələb edəcək, eyni zamanda şəhər özünüidarəsinin polisin ehtiyacları üçün vəsait ayırmaqdan çox çəkindiyi qeyd edilib. Digər tərəfdən, şəhər özünüidarəsi də şəhərin əhəmiyyətsiz yer tutduğu bəzi müəssisələrə həvəslə vəsait ayırır. Bunu nəzərə alaraq, şəhər polisini siyasi işlərdə bütün məsuliyyətlərdən azad etmək və polisə şəhər özünüidarəsində iştirak etmək imkanı vermək çox arzuolunan və faydalı olardı. Onda şəhər özünüidarəsi həvəslə polisin xərclərinə daha çox pay alacaqdır.

Polisin yenidən təşkili və kadrların lazımi səviyyədə saxlanılması məsələlərində vəzifəli şəxslərin vəzifə cinayətlərinə görə məsuliyyətə cəlb edilməsi proseduru məsələsi çox mühümdür. Hazırda vəzifə cinayətləri ilə bağlı məsələlər onların istiqamətləndirilməsində və həllində rəhbərliyin iştirakı sayəsində bir neçə il uzanır və bütün bu müddət ərzində cinayətkarlar xidmətdə saxlanılır ki, bu da şəxsi heyət üçün son dərəcə zərərlidir. Belə ləngliyi aradan qaldırmaq lazımdır ki, bunun üçün vəzifəli şəxslərin məsuliyyəti ilə bağlı məsələlərə baxılması və həlli müstəsna olaraq məhkəmə orqanlarının səlahiyyətinə verilsin[59].

Azərbaycan nümayəndələri bu iki bənddə ermənilərin bütün istəklərinə qoşuldular. Sonra iclas Tiflis qubernatorunun təklif etdiyi aşağıdakı qətnaməni ümumi alqışlarla qəbul etdi: “İclas öz yazılarının məzmunu və keyfiyyəti ilə mətbuatın müqəddəs sülh işinə töhfə verməsini ürəkdən arzulayır”[60].

---

[59] Yenə orada, v.56-56 arx.

[60]Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.56 об.

**Fevralın 26-da keçirilən iclasda** Azərbaycan nümayəndələrinin təqdim etdiyi proqramın 5-ci bəndi, erməni nümayəndələrinin proqramının 8-ci bəndi müzakirə edildi. **Proqramın 5-ci bəndində göstərimişdi**: köçərilərin əmlak və məişətini təmin etmək üçün tədbirlər: hər iki millətin nümayəndələrindən yerlərdə xüsusi komissiyalar yaradılır, lazımi məntəqələrdə yerli hakimiyyət orqanlarının rəhbərliyi ilə yerli sakinlərdən mühafizə təşkil edilir. **Erməni proqramının 8-ci bəndində** isə "Köç məsələsi haqqında" problemdən bəhs edilmişdi. Beləliklə, hər iki bənddə elatların taleyi məsələsinə toxunulmuşdur.

Qeyd etmək lazımdır ki, bu iclasdan başlayaraq sonrakı iclasların gedişində Canişin Şurasının üzvü, mülki müşavir Cunkovski də iştirak etməyə başlamışdır.

**Erməni nümayəndələri bildirdilər ki**, köçərilik müsəlmanların həyat tərzinin yadigarıdır, xalq təsərrüfatına, yüksək əkinçilik mədəniyyətinə keçidi ləngidir və ona ziyan vurur. Müsəlmanların özləri də geri qaldıqlarını başa düşdükləri üçün yavaş-yavaş köçəriliyi tərk edirlər, bu prosesin sürətləndirilməsi arzuolunan olardı. Bir çox kəndlər köç məsələsini tamamilə dayandırıb, digərləri isə vərdişlərini itiriblər. İqtisadiyyatında köç məsələsi yalnız yardımçı rolunu oynayır. Çoxlu sayda köçərilər bütün mal-qara və əşyaları ilə ermənilərin yaşadığı ərazilərdə məskunlaşıblar. Hazırda ehtiraslar o qədər qızışıb ki, kiçik bir toqquşma çox geniş miqyasda qırğına səbəb ola bilər. Belə bir kütləvi hərəkət zamanı toqquşmaların qarşısını almağın çox çətin olduğunu bildirən erməni nümayəndələri, bunun qarşısını almaqda aciz olduqlarını bildirmiş və ona görə də bu il köç məsələsinə qadağa qoyulmasını zəruri hesab edirlər.

**Azərbaycan nümayəndələri buna etiraz edərək bildirdilər ki,** müsəlmanların oturaqlığa və yüksək əkinçilik mədəniyyətinə keçidi, əlbəttə, arzuolunandır, lakin bu, dərhal və zo-

rakı tədbirlərlə baş verməməlidir. Müsəlmanlar üçün köç məsələsi şıltaqlıq və ya sadə vərdiş deyil, mütləq zərurətdir. Qars bölgəsində köçə çıxan təkcə müsəlmanlar deyil, onlarla eyni şəraitdə olan molokanlar və yunanlar da çıxırlar. Məsələ burasındadır ki, müsəlmanlar aran və düzənliklərdə məskunlaşmışdılar ki, yayda qızmar isti, su çatışmazlığı, ilanların meydana çıxması və malyariya xəstəliyinin inkişafı səbəbindən orada mal-qara ilə qalmaq mümkün deyil. Xüsusən də qoyun sürüsü yayın istisinə dözə bilmir. Köçü dayandırmaq müsəlmanları dəhşətli bir fəlakətlə üz-üzə qoymaq deməkdir. Amma bundan başqa, köçün dayandırılması nəzərdə tutulan məqsədə çatmayacaq, əksinə, müsəlman kütlələri arasında ermənilərə qarşı daha böyük qəzəb yaradacaqdır[61]. Bunu nəzərə alaraq müsəlman nümayəndələr bu il köçün fəaliyyətini dayandırmamağı və inzibati orqanlardan həm elatların, həm də oradan keçən əhalinin şəxsi və əmlak təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirlərin görməsini xahiş etdilər.

Uzun müzakirələrdən sonra iclas belə bir qənaətə gəldi ki, bu il köç məsələsinə məhdudiyyət qoyulmaması arzuolunandır, çünki bu, dağlıq ərazilərin əhalisinin maraqlarına toxunmayacaqdır. Köç zamanı əhalinin şəxsi və əmlak təhlükəsizliyinin qorunması üçün lazımi tədbirlərin görülməsi hökumətin ixtiyarındadır[62].

**Fevralın 27-də keçirilən iclasda** İrəvan şəhərinin erməni əhalisindən olan nümayəndə Leon Muşeqyans mühəndis Arşaq Babov ilə əvəzləndi. Belə ki, Gürcüstan-İmeretiya Erməni-Qriqorian Yeparxiyasının rəhbəri, arxiyepiskop Qaraginin məktubunda, Leon Muşeqyanın təcili işlə əlaqədar Tiflisi tərk etdiyi-

[61] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.57.
[62] Yenə orada, v.57 arx.

ni və buna görə də onun səlahiyyətlərinin indi cənab Babova keçəcəyini bildirmişdi.

İclasın açılışında sədr general-leytenant Malama bildirdi ki, canişin köç məsələsi ilə bağlı bir gün əvvəl səslənən nəticədən razı deyil və Zati-aliləri görüşdə köç təhlükəsizliyini təmin edə biləcək tədbirlərin görülməsi haqqında daha əlverişli çıxış etməyi arzulayır. Bu məsələni müzakirə etdikdən sonra qərara alındı ki, köç məsələsinin təfərrüatlı işlənməsi İrəvan qubernatoru, gizli müşavir, qraf Tizenhauzenin sədrliyi ilə mövcud olan, nümayəndələr arasından seçilmiş xüsusi komissiyaya həvalə edilsin. Eyni zamanda, hər iki tərəfin nümayəndələri köçərilərin oturaq həyata keçməsini asanlaşdıra biləcək tədbirlərin ümumi məsələsini müzakirə etmək üçün Canişinlik nəzdində təcrübəli şəxslərin iştirakı ilə xüsusi iclasın təşkil edilməsini məqsədəuyğun hesab etdilər[63].

Daha sonra iclasda hər iki tərəfin proqramlarının müzakirəsi davam etdirildi. Bu günün iclasında Azərbaycan nümayəndələrinin təqdim etdikləri proqramın 6-cı, 7-ci , 8-ci və 9-cu bəndləri müzakirə olundu. **Proqramın 6-ci bəndi "Quberniya və qəza inzibati idarələrində hər iki xalqın nümayəndələrindən ibarət əhali arasında dinclik yaratmaq üçün komissiyaların yaradılması"ndan** bəhs edilirdi. Bu arzu və istək erməni nümayəndələrinin proqramının 3-ü bəndində qeyd olunduğuna görə yeni müzakirələrə səbəb olmadı.

Azərbaycan nümayəndələrinin təqdim etdiyi **proqramın 7-ci bəndi "Bütün vəzifəli şəxslərin öz xidməti vəzifələrini lazımi və maneəsiz yerinə yetirməsinə təminat verən tədbirlər"ə** həsr olunmuşdur.

---

[63]Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.57 об, л.58.

**Azərbaycan nümayəndələri** məmurların terrorun qorxusundan öz vəzifə borclarını düzgün yerinə yetirməkdən yayındıqlarını diqqətə çatdırdılar. Xüsusi mütəşəkkil erməni ordusu yaradılıb ki, bu da, Rusiya dövlətində erməni dövləti kimi bir şeydir. Bu təşkilat hədə-qorxu gəlməklə məmurları erməni proqramına zidd heç bir hərəkətə yol verməməyə məcbur etməyə çalışır. Bu tələblərə əməl etməyənlər erməni gizli komitələri tərəfindən ölümə məhkum edilir və öldürülür. Cinayətlərin tez aşkar olunduğu və günahkarların cəzalandırıldığı böyük mərkəzlərdə məmurların vəziyyəti nisbətən yaxşıdır. Uzaq yerlərdə isə onlar tamamilə müdafiəsizdirlər. Özləri və ailələri üçün qorxu onları vəzifələrindən yayınmağa məcbur edir ki, bu da hakimiyyətin nüfuzuna xələl gətirir, həm ona, həm də digər millətlərə inamsızlıq yaradır. Asayişi bərpa etmək üçün mütləq şəkildə məmurları terrorun təsirindən qorumaq lazımdır.

**Erməni nümayəndələri** bu məsələ ilə bağlı müzakirələrin heç bir nəticə verməyəcəyinə etiraz etdilər. Terror sistemini gizli inqilab komitələri tətbiq edir, onlarla ancaq hökumət mübarizə apara bilər, lakin bu görüş yalnız bir istəyi ifadə edə bilər ki, bütün məmurlar terrora tab gətirsinlər və öz mövqelərində qalmaqla vəzifələrini yerinə yetirsinlər.

**Müzakirələrə yekun vuran sədr bildirdi ki,** buna görə də iclasda məmurların terrorun təsirindən qorunması arzusu ifadə olunub. Bu məqsədə nail olmaq üçün tədbirlər inzibati idarələrə həvalə olunub ki, o da, qubernatorlar yanında yaradılmış, seçilmiş şuraların köməyindən istifadə edilə bilər.

Hər iki tərəfin nümayəndələri bununla razılaşdılar.

7-ci bənd də müzakirə olunub qəbul edildikdən sonra 8-ci bəndin müzakirəsinə başlanıldı. **Bu bənd "Əhalisi müsəlman olan ərazilərdə daha aşağı rütbəli ermənilərdən ibarət hərbi hissələrin saxlanılmaması"** haqqında idi.

Sədr qeyd etdi ki, bu məsələ tamamilə canişinin ixtiyarına buraxılmalıdır. Hər iki tərəfin nümayəndələri bu qeydlə razılaşdılar.

Azərbaycan nümayəndələrinin proqramının **9-cu bəndi "Tərəflər milli zəmində, qarşı tərəfə qarşı yönəlmiş cinayət əməli törətmiş cinayətkarların təhvil verməyə borcludurlar və yerli komissiyanın mülahizəsinə əsasən həlak olanların ailələrinin təmin edilməsi"** məsələsindən bəhs etmişdir. **Azərbaycan nümayəndələri qeyd etdilər ki**, bütün erməni-tatar iğtişaşları tək-tək qətllərlə başlayıb, sonradan ümumi qırğınlara çevrilib. Bakıda fevral iğtişaşlarının əsas səbəbi budur. Əgər Bakıda iğtişaş olmasaydı, başqa yerlərdə də olmazdı, çünki ondan sonra baş verənlər sadəcə Bakı hadisələrinin nəticəsi idi. Bakıda tam əminliklə demək olar ki, əgər Babayevin qatili hakimiyyətə təhvil verilsəydi, heç bir iğtişaş baş verməzdi. Gizli qətllərin cəzasız qalması kütlələr arasında qıcıq yaratmışdı. Ona görə də, bu bəndə böyük əhəmiyyət verən Azərbaycan nümayəndələri hesab edirlər ki, cəmiyyətin özü əmin-amanlıq naminə və vətəndaşlıq məsuliyyətini dərk edərək etnik zəmində cinayət törədənlərin müəyyən edilməsində hakimiyyət orqanlarına hərtərəfli köməklik göstərilməlidir. Mövcud vəziyyətin həddindən artıq ciddiliyini və sülh və əmin-amanlığın bərqərar edilməsinin təcili zərurətini nəzərə alaraq, müsəlmanlar hər iki tərəfin öz vətəndaşlıq borcunu yerinə yetirərək və sakitlik yaratmaq məsələsində hakimiyyət orqanlarına kömək etmək istəyən şəxslərin milli zəmində cinayət əməlləri törətmiş və qurbanların ailələrini təmin edəcək cinayətkarların ekstradisiyasını öhdələrinə götürmələrini zəruri hesab edirlər[64].

---

[64] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.58 об, л.59.

**Erməni nümayəndələri bu bənddə** təklif edilən tədbirin zərərli və həyata keçirilməsi praktiki olaraq qeyri-mümkün hesab etdilər. İlk növbədə, bu tədbir hər bir fərdi halda cinayətin milli zəmində törədildiyinin aydınlaşdırılmasını tələb edir. Bu arada, cinayətin səbəbləri çox vaxt tamamilə anlaşılmaz olaraq qalır. Hətta cinayətləri açmaq üçün bütün vasitə və səlahiyyətlərlə təchiz edilmiş məhkəmə orqanları belə bunları anlaya bilmir. Sonra hər bir cinayətə görə yalnız cinayətkar cavab verməlidir. Korporasiya sahibinin cinayətə görə məsuliyyət daşımağı son dərəcə təhlükəlidir və buna görə də arzuolunmazdır. Nəhayət, polis araşdırması və xəbərçilik məsuliyyətini cəmiyyətə yükləmək tamamilə əlverişsiz və arzuolunmazdır. Erməni nümayəndələri itkin düşənlərin ailələrinin təmin olunmasının zəruriliyini tam dərk edirlər.

Beləliklə, fevralın 27-də keçirilən iclas bununla da yekunlaşdı.

**İclas səhəri gün, fevralın 28-də davam etdi**. Həmin gün erməni nümayəndələrinin iclasa təqdim etdikləri proqramın 4-cü, 5-ci, 6-cı, 7-ci və 8-ci bəndləri müzakirə edildi. **4-cü bənd "Ədalət məhkəməsinin yaradılması məsələsinə, yerli arbitraj məhkəmələrinin təşkili"nə** həsr edilmişdir. **Erməni nümayəndələri hesab edirlər ki,** məhkəmələrin ləngliyi və çox vaxt uğursuz olması iğtişaşların yaranmasına təsir göstərir. Sürətli mühakimə yalnız nəzəri cəhətdən mövcuddur, amma praktikada məhkəmə çox uzun çəkir və hətta günahkarların layiqli cəzasını çəkdiyi hallarda belə, məhkəmənin insanlara verə biləcəyi təsiri yoxdur. Mülki proses xüsusilə uzun çəkən və mürəkkəbdir. Ədalətin qarşıya qoyduğu məqsədlərə tam nail olmaq üçün məhkəmənin həqiqətən də sürətli olması lazımdır. Andlılar məhkəməsinin tətbiqi arzu edilir. Təcrübəli müstəntiqlərin, barışdırıcı məhkəmə proseslərində iştirak edən barışdırıcı ha-

kim köməkçiləri ilə əvəz oluna bilməyən, hakim vəzifələrinə tam təcrübəsiz namizədlərin olması məhkəmə icrasına çox mənfi təsir göstərir. Ən azı mərkəzi quberniyalara müvəqqəti təyinatlar hesabına onların sayının artırılması ilə təcrübəli məhkəmə-tibb ekspertləri sisteminin tətbiqi arzuolunandır.

Yerli məhkəmə hakimlərini yerli dilləri bilən seçilmiş hakimlərlə əvəz etmək, müəyyən bir ixtisasla seçilmək hüququnu şərtləndirmək məqsədəuyğundur. Seçilmiş hakimlər barışdırıcı məhkəmə işlərinə böyük kömək edə bilər. Məhkəmə təhqiqatlarının ən böyük uğurunu və düzgünlüyünü təmin etmək üçün məhkəmə polisi sisteminin yaradılması və vəkillik peşəsinə ibtidai istintaqın aparılmasında iştirak etmək hüququnun verilməsi arzuolunandır. Tərcüməçilərin işlərdə iştirakı çox vaxt prosesin gedişinə mənfi təsir göstərir. Buna görə də, təhsil keyfiyyətinə malik etibarlı tərcüməçilərin ciddi seçimi arzuolunandır.

Azərbaycan nümayəndələri də bütün bu arzulara qoşuldular.

**Erməni nümayəndələrinin proqramının 5-ci bəndi "Kənd cəmiyyətləri rayonlarının yeni bölgüsü"ə həsr edilmişdir**. Bu bənd hər iki millət nümayəndələri tərəfindən müzakirəsiz qəbul edildi və bir xəbərdarlıqla ki, yeni bölgünün kənd icmalarının özlərinin göstərişi ilə edilməsinin məqsədəuyğun olduğu qeyd edildi[65].

Erməni proqramının **6-cı bəndi "İnzibati hakimiyyət orqanları tərəfindən qətiyyətli addımların atılmasına ehtiyac"** məsələsi haqqında idi. Hər iki tərəf sülhün və əmin-amanlığın təmin edilməsi mənafeyinə uyğun olaraq inzibati hakimiyyət orqanlarının hər hansı iğtişaşın qarşısını almaq və da-

[65]Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.59 об- л.60.

yandırmaq üçün qətiyyətli tədbirlərə əl atmasını tamamilə arzuolunan kimi qəbul etdi.

Proqramın **7-ci bəndi "Hökumət nümayəndələrindən və əhalinin seçilmiş nümayəndələrindən ibarət xüsusi komissiyalar vasitəsilə şəhər və kəndlərdə itkilərin müəyyən edilməsi və ödənilməsi"ndən** bəhs edilmişdir. **Erməni nümayəndələrinin fikrincə,** törədilmiş cinayətlərin cəzasız qalması iğtişaşların daha da böyüməsinə çox kömək edir. Mülki əhaliyə dəyən itkilər son dərəcə böyükdür və qurbanlar itkilərə görə layiqli mükafat və günahkarlar isə layiqli cəzalarını almayana qədər təmin edilmiş sülh təhlükəsiz sayıla bilməz. Məhkəmə prosesinin mürəkkəbliyini və formallığını nəzərə alaraq, dəymiş ziyanın məhkəmə qaydası ilə ödənilməsi qeyri-mümkün görünür və ona görə də dövlət nümayəndələrinin iştirakı ilə əhalinin seçdiyi xüsusi komissiyalar vasitəsilə dəymiş ziyanın inzibati qaydada müəyyən edilərək ödənilməsi məqsədəuyğundur.

**Azərbaycan nümayəndələri** hər iki tərəfin demək olar ki, eyni dərəcədə maddi zərər çəkdiyini bildirdilər. Dəymiş ziyanın inzibati qaydalarla ödənilməsi əhalinin var-yoxdan çıxmasına və o qədər kütləvi sui-istifadə hallarına gətirib çıxaracaq ki, bu, sülh ilə yanaşı, tərəflərin daha da qəzəbinə səbəb olacaqdır. Buna görə də, onlar mülki əhalinin onlara dəymiş itkilərə görə mükafatlandırılmasının məqsədəuyğunluğunu inkar etmədən hesab edirlər ki, zərərin müəyyən edilməsi və ödənilməsi qanunvericiliyə uyğun olaraq yalnız məhkəmə yolu ilə həyata keçirilməlidir[66].

Erməni proqramının **8-ci bəndi "Köç ilə bağlı məsələ"yə** həsr edilmişdir. Bu bənd Azərbaycan nümayəndələrinin

[66]Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.60- л.60 об.

proqramının 5-ci bəndində göstərilmiş və xüsusi komissiyanın müzakirəsinə verilmişdir.

Beləliklə, yuxarıda göstərilən erməni nümayəndələrinin proqramının bəndləri müzakirə edildikdən sonra iclas həmin gün üçün yekunlaşmışdır.

**Martın 2-də iclas öz işini erməni nümayəndələrinin proqramının 9-cu bəndində göstərilmiş "Əvvəlki yaşayış yerinə qayıda bilməyən kəndlilərə təhlükəsiz yerlərdə torpaqların ayrılması"** məsələ ilə bağlı müzakirə ilə işini davam etdirdi. **Erməni nümayəndələri bildirdilər ki,** iğtişaşların baş verdiyi ərazilərdə əvvəllər erməni və Azərbaycan türklərinin qarışıq kəndləri olub. Azərbaycan kəndlərinin əhatəsində əhəmiyyətli sayda ermənilərin kiçik kəndləri də var idi. Hazırda iğtişaşlar zamanı viran qalan belə kəndlərin sakinləri qarşı tərəfdən yeni hücumlardan ehtiyat edərək əvvəlki yaşayış yerlərinə qayıtmağa qorxurlar. Erməni nümayəndələri anlayırlar ki, yaradılmış komissiyaların köməyi ilə belə sakinlər üçün torpaq sahələrinin könüllü mübadiləsini asanlaşdırmaq məqsədəuyğundur. Bunun qeyri-mümkün olduğu hallarda, əvvəlki yerlərinə qayıda bilməyən şəxslərə dövlət torpaqları ayrılsın.

Azərbaycan nümayəndələri də bu arzuya qoşuldular.

Bu bənd də müzakirə edilib qəbul edildikdən sonra erməni proqramının 10-cu bəndin müzakirəsi başladı. **Bu bənd "Qırğınlar baş verən ərazilərdə vergilərin yığılmasının asanlaşdırılması, kənd təsərrüfatının bərpası üçün dövlət krediti"ə** həsr edilmişdir.

Bu bənd Azərbaycan nümayəndələri tərəfindən mübahisəsiz qəbul edildi.

İclas 10-cu bəndin müzakirəsindən sonra erməni proqramının **11-ci bəndinin "Yelizavetpol şəhərinin (Gəncə-E.Q) viran edilmiş məhəllələrində torpaq mübadiləsinə köməklik**

**göstərilməsi üçün erməni nümayəndələrinin müraciəti"nin** müzakirəsinə başladı. Bu bəndə toxunan erməni nümayəndələri bildirdilər ki, Yelizavetpol şəhərində sıx erməni əhalisi arasında müsəlmanların məskunlaşdığı məhəllələrdə və əksinə sıx Azərbaycan türklərinin yaşadığı məhəllələrdə ermənilər yaşamışdır. Bu məhəllələr viran olub, sakinlər qaçıblar. Qarşılıqlı torpaq mübadiləsində onlara köməklik etmək məsləhətdir.

Azərbaycan nümayəndələri bu istəyə qoşularaq, torpaq mübadiləsinin yalnız könüllü ola biləcəyini şərtləndirdilər.

Beləliklə, martın 2-də olan iclas da başa çatdı[67].

Səhəri günü martın 3-də iclas öz işini davam etdirdi. Bugünkü iclas erməni proqramında qeyd edilən 12-ci bəndin müzakirəsi ilə başladı. **Həmin bənddə "Rabitə yolllarının təhlükəsizliyinin təşkili" məsələsinə toxunulmuşdur**.

**Erməni nümayəndələri bildirdilər ki,** son iğtişaşlar zamanı iyul ayından Şuşaya və Gorusa gedən yol tamamilə kəsilib, hətta ilkin tələbat mallarının belə təchizatı dayandırılıb, Şuşa rayonunun erməniləri dəhşətli əziyyətlərə məruz qalıb. Yoldan keçənlər qarət edilmiş və bəzən axtarışla və silahları alınmaqla hərəkətləri məhdudlaşdırılmış, bu da çox vaxt qanlı toqquşmalara səbəb olurdu. Bunu nəzərə alaraq, onlar inzibati hakimiyyət orqanlarının rabitə yollarının təhlükəsizliyini qorumaq üçün ən qətiyyətli tədbirlərin görməsinin zəruriliyini, habelə hər hansı bir bəhanə ilə axtarış aparan fərdi şəxslərin qeyd-şərtsiz hərəkətlərini qadağan edilməsini qəbul edirlər.

Azərbaycan nümayəndələri də bu istəyə qoşuldular[68].

---

[67] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.61- л.60 об.

[68] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.61- л.61 об.

Erməni nümayəndələrinin proqramında göstərilən bənddlər müzakirə edildikdən sonra iclas Azərbaycan nümayəndələrinin proqramının 10-cu, 11-ci və 12-ci bəndlərinin müzakirəsinə başladı. Proqramın **10-cu bəndinə, "Hərbi və inzibati tədbirlər, məsələn, edam, inzibati qaydada qovulma və s. yalnız yerli barışıq komissiyasının razılığı ilə tətbiq oluna bilər"** məsələlərinə həsr olunmuşdur. Bu məsələ ilə bağlı müzakirələrdən sonra hər iki tərəf yuxarıda qeyd olunan tədbirlərin yalnız əhalidən seçilmiş yerli şuraların razılığı ilə həyata keçirilməsini arzuladılar. Belə şuralar general-qubernatorların, hərbi vəziyyətin ləğvindən sonra isə qubernatorların yanında yaradılmalıdır.

Beləliklə, bu bənd də hər iki millətin nümayəndələri tərəfindən qəbul edildi.

Azərbaycan nümayəndə heyətinin proqramının **11-ci bəndi "Dağılmış yerlərə qayıtmaq istəyənlərin köçürülməsi üçün tədbirlərin görülməsi"** adlanırdı. Azərbaycan nümayəndələri bildirdilər ki, bu bənd qismən erməni proqramının 9-cu bəndinə oxşardır. Lakin onların fikrincə, torpaqları, xüsusən də müsəlmanlardan torpaqlarını dəyişdirmək istəyənlər azdır, əksəriyyət isə əvvəlki yaşayış yerlərinə qayıtmaq istəyir. Həmin şəxslərin geri qayıtmalarına köməklik göstərmək və onların təhlükəsizliyini təmin etmək üçün tədbirlər görmək məqsədəuyğundur.

Erməni nümayəndələri də bu arzuya qoşuldular[69].

Beləliklə, bu bənd də hər iki tərəf nümayəndələri tərəfindən qəbul edildi.

Nümayəndələr sonra Azərbaycan nümayəndələrinin təqdim etdiyi proqramın 12-ci bəndinin müzakirəsinə başladılar. **Proqramın 12-ci bəndi "Göstərilən şərtləri qəbul etdikdən**

---

[69] Yenə orada, v.61 arx, v.62.

**və bu tədbirləri faktiki həyata keçirildikdən sonra bütün əhalinin tərksilah edilməsi”** məsələsinə həsr edilmişdir.

Azərbaycan nümayəndələri izah etdilər ki, bu bəndlə onlar əhali sakitləşənə qədər müvəqqəti tərksilahın dayandırılmasını xahiş edirlər. Yalnız tam sakitləşmə baş verdikdən sonra ümumi tərksilahın başlanması məqsədəuyğun olacaq. Onlar bu bəndlə yuxarıdakı bəndlərin zəruriliyini qəbul etdilər, ona görə ki, bu, görüşdə ifadə olunan arzuların həyata keçirilməsi yolunda belə davamlı sülhə nail olunacaqlarını əminliklə bildirdilər.

Erməni nümayəndələri bu bəndin proqramdan tamamilə çıxarılmasının ən yaxşı variant olduğunu bildirdilər. Əgər tərksilahın xüsusi qeyd edilməsi zəruri hesab edilərsə, onlar bəndin belə redaktə edilməsi ilə razılaşırlar: sakitləşməyə qədər əhalinin tərksilahının müvəqqəti dayandırılması məqsədəuyğundur.

Bakı şəhərinin deputatı İsrafil Hacıyev isə bu məsələdə fərqli mövqeydə qalaraq, əhalinin artıq tərksilah edilməsinə başlanılmasının vacibliyini təkid etdi.

Hər iki millətin təqdim etdiyi proqramın müzakirəsinin sonunda nümayəndə Məlik Bəylərov əhalinin öz yaşayış yerlərinə qayıtması və tarla işlərinə başlaması üçün müvafiq tədbirlərin görülməsinin zərurətindən danışdı.

İclas bu məsələnin ətraflı müzakirəsinin köç məsələsini hazırlayan komissiyaya verilməsini faydalı hesab etdi.

Beləliklə, bugünkü iclas belə yekunlaşdı[70].

Nümayəndələr **martın 4-də** yenidən iclasa toplaşdılar. İclasın açılışında köçlə bağlı məsələlərin işlənib hazırlanması və əhalinin təhlükəsiz şəkildə tarla işlərinə cəlb olunmasının təmin edilməsi məsələsinə görə həvalə edilmiş komissiyadan

---

[70] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.62 об.

protokolların və icrası məcburi olan qərarların qəbulu haqqında məlumat verildi.

İclasda Komissiya tərəfindən tərtib edilmiş qaydalar və icrası məcburi olan əsasnamələr təsdiq edildi.

Sonra Sədr iclasların başa çatdığını elan etdi, lakin o, iclası canişinin açdığına görə, zati-alilərinin də onu bağlamaqdan məmnun oldğunu bildirdi, sədr bunun üçün nümayəndələrdən son dəfə görüşmələrini xahiş etdi. O, elan etdi ki, nümayəndələr 6 mart bazar ertəsi günü, saat $14^{30}$-da yekun iclası üçün görüşəcəklər.

1906-cı il martın 6-da nümayəndələr sonuncu dəfə iclasa toplaşdılar. İclasda **Qafqaz canişini qraf Voronsov-Daşkov iştirak etdi. O, nümayəndələrə müraciət edərək dedi**: "Görüşlərimizdə siz bir sıra məsələlər qaldırdınız ki, onların da əksəriyyəti indiki vaxtın aktual tələblərini həll etmir. Ev alovlananda yeni odadavamlı binanın hansı materialdan və hansı plana uyğun tikilməli olduğunu düşünməyin vaxtı deyil. Yanğının ocağının harada olduğunu müəyyən etmək və ona bütün söndürmə vasitələrini tətbiq etmək lazımdır. Baxmayaraq ki, hər birimiz hazırda yanğını alovlandıran səbəblərdən kifayət qədər xəbərdarıq, ancaq siz bir həqiqəti müəyyən etməmisiniz. İğtişaşlar bir tərəfdən qeyri-qanuni silahlı təşkilatlar, digər tərəfdən isə çox vaxt gizli şəkildə güclü şəxslərin rəhbərlik etdiyi quldur dəstələri tərəfindən dəstəklənir. Hakimiyyət belə hadisələrə dözə bilməz və nizam-intizamı pozanların təqib edilməsi üçün ən qəti tədbirlər artıq görülüb və görüləcək. İmperator istəyir ki, erməni-müsəlman davası bitsin və o, bitməlidir. Cənablar, sizə müraciət edirəm ki, öz nüfuzunuzdan istifadə edərək hücumları və quldurları dayandırasınız və həm hökmdarın iradəsini, həm də şərin kökü kəsilənə qədər davam edəcək ciddi tədbirləri xalqa çatdırasınız. Sizin razılığa gəldiyiniz əməli tədbirlər arasın-

da bəzilərini məqbul hesab edirəm və onlar sizə elan olunacaqdır. İndi bir məqama diqqət yetirmək istərdim. Ümumi tərksilah məsələsini müzakirə edərkən, iclasın üzvlərindən biri A.İ.Xatisov bu mövzuda fikrimi bildirdi. Düşünürəm ki, bir qələm yazısı ilə xalqı min il gəzdirdiyi silahlardan əl çəkməyə məcbur etmək mümkün deyil. Əksər insanların özünümüdafiə üçün silahları var, onları zərurətdən gəzdirirlər. Amma mən bu tədbirin həyata keçirilməsinin real mümkünlüyünə əmin olmasaydım, ümumi tərksilahın faydaları ilə razılaşardım. Lakin mən əminəm ki, silahı yalnız dinc insanlar təhvil verəcək, silahı cinayət məqsədilə saxlayanlar isə gizlədəcəklər. Buna görə də mən, ümumi tərksilahın faydalarına inanmıram, lakin bütün silahlı təşkilatlardan, cəmiyyətlərdən və silahdan sui-istifadə edən şəxslərdən silahların tərki-silah edilməsi zəruriliyini təkid edirəm. Düşünürəm ki, vaxt gələcək, Qafqaz xalqları lazımsız bir yük kimi silahlarını atacaq. Bu zaman gələcək, qonşusuna məhəbbət, qanuna hörmətə əsaslanan əsl mədəniyyət Qafqazın bütün ərazilərinə nüfuz edəcək və böyükdən-kiçiyə kimi hamının malı olacaq. Yekunda bildirmək istəyirəm ki, mən sizin görüşünüzdən daha realist tədbirlərin işlənib hazırlanmasını gözləyə bilərdim, lakin əminliyi onda götürürəm ki, siz hamınız sülh yolu ilə razılaşmaya çalışırsınız. Bu arzunu öz xalqınıza aşılayın və sülh gerçəkləşsin”[71].

Arximandrit Yeqişe Muradyan ata qayğısı göstərdiyinə görə canişinə minnətdarlığını bildirdi.

Canişin ona belə cavab verdi: “Mən bu bölgəyə və onun əhalisinə olan sevgimi rəhbər tutaraq və İmperatorun əmrlərini yerinə yetirərək Qafqaza getməyə və burada canişin olmağa razı oldum. Siz də bu məclisdə, nümayəndələri olmayan millətlər

[71] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, лист, л.62 об- л.63-63 об.

mənim sevgimi bərabər hiss edirsiniz. Sizdən tək xahişim mənə güvənməyinizdir”[72].

Bu sözdən sonra canişin iclas zalını tərk etmişdi. **Bundan sonra iclasın qətnaməsini mülki müşavir Peterson oxunmuşdu. Qətnamənin mətni belə idi**: “Nümayəndələrin müddəaları arasından bu kəskin dövrə uyğun ən praktiki maddələri seçərək, canişin bunu mümkün hesab edir: 1) Bu il köç məsələsini tənzimləmək və əhalinin çöl işlərində məşğul olmaq imkanını təmin etmək üzrə komissiyanın rəyi təsdiq edilsin; 2) Ermənilərin və tatarların (Azərbaycan türkləri-E.Q.) barışdırılması üzrə canişinin rəhbərliyi altında hər iki millətdən seçilmiş nümayəndələrin xüsusi müşavirəsi təsdiq edilsin; 3) yerli hakimiyyət orqanlarının erməni-tatar münasibətlərinin bütün mövzularda məsləhət almaq üçün lazımi hallarda onlara müraciət edə bilməsi üçün eyni əsasda qubernatorlar və qəza rəisləri yanında əlaqə komissiyaları yaratmaq; qəza komissiyaları mahal kəndlərinə səfər edərkən hər kəsin arzuladığı məsələlərin güclənməsinə hər cür töhfə verməlidir.

Bundan asılı olmayaraq, canişin dərhal yerli inzibati hakimiyyət orqanlarına həm iğtişaşların qarşısının alınması, həm də onun yatırılması, günahkarların ciddi şəkildə cəzalandırılması, habelə əhalinin rabitə yollarının və dinc fəaliyyətlərinin təhlükəsizliyinin təmin edilməsi, əgər istəsələr, sakinlərin viran olmuş kəndlərə qayıtması üçün ən qətiyyətli tədbirlərin görülməsi barədə göstəriş verəcəkdir. Silahdan cinayət məqsədilə istifadə edən şəxslər tərkisilah ediləcəkdir. Sakinləri iğtişaşlara görə məsuliyyət daşıyan kəndlər inzibati qaydada cəzalandırılacaq. Keçmiş qırğınlara görə itkilər əhalinin seçilmiş nümayəndələrinin iştirakı ilə komissiyalara təqdim ediləcək və hökumətin Rusiyanın mərkəzi əyalətlərində törədilən oxşar talan halla-

[72] Yenə orada, v.63- v.63 arx.

rına tətbiq edəcəyi cəzaya uyğun olaraq kompensasiya ediləcək. Soyqırımların baş verdiyi ərazilərin əhalisi üçün vergilərin yığılmasında qanunla müəyyən edilmiş qaydada güzəştlər ediləcəkdir. Kənd icmalarında rayonların bölüşdürülməsi, əhalinin xahişi ilə təhlükəsiz yerlərdə torpaq sahələrinin könüllü dəyişdirilməsi imkan daxilində həyata keçiriləcəkdir.

Quberniya və qəza rəhbərliyinin və polisin yenidən təşkilinə gəlincə, Canişinin özü bu məsələdən narahatdır və onu həll edərkən iclas iştirakçılarının istəkləri nəzərə alınacaq; inzibati hakimiyyət orqanları və polis üçün ən yaxşı kadrları təmin etmək üçün artıq tədbirlər görülür və ciddi şəkildə görüləcəkdir. İclasın müəyyən etdiyi əsaslarla əhalinin tez bir zamanda ədalət məhkəməsi ilə təmin olunması məsələsi müxtəlif yollarla qaldırılacaqdır. Maarifləndirmə tədbirləri və müsəlmanların digər millətlərlə hüquqlarının bərabərləşdirilməsi ilə bağlı iclasda qeyd olunan məsələlər artıq mərkəzi hökumət tərəfindən hazırlanır və iclasın istəklərinə uyğun olaraq həll ediləcəkdir. Əhali arasında savadlılığın yayılması, məktəb işlərinin lazımi səviyyəyə çatdırılması üçün canişin  öz səlahiyyətləri daxilində bütün tədbirləri görəcəkdir. Eyni zamanda, qanunvericilikdə və inzibati sərəncamlarda müsəlmanlara qarşı mövcud olan məhdudiyyətləri müəyyən edilmiş qaydada dərhal aydınlaşdırmağa başlayacağıq ki, bu məsələdə canişinin səlahiyyətindən asılı olan hər şeyi və həll edilə bilməyən məsələlər onun gücü ilə dərhal düzəldiləcəkdir. Müsəlmanlar üçün Qori şəhərindən daha əlverişli yerdə müəllimlər seminariyasının açılması məsələsinin gündəmə gətirilməsi birinci prioritet məsələ olacaq. Nəhayət, köçərilərin oturaq həyata keçməsinə köməklik göstərilməsi üçün tədbirlər haqqında ümumi məsələni müzakirə etmək üçün dərhal canişin idarəçiliyi yanında komissiya təşkil ediləcəkdir”.

Qətnamə oxunub qurtardıqdan sonra Azərbaycan nümayəndələrindən Hacıyev Qafqazda ali təhsil ocağının açılması üçün dərhal ianələrin toplanmasına başlamağı təklif etdi.

Bu təklif ümumi alqışlarla qarşılandı.

Daha sonra sədr nümayəndələrə müraciət edərək dedi: "Bu görüşü bağlayaraq və beləliklə, erməni-tatar düşmənçiliyinə son qoymaq və Rusiya taxt-tacına eyni dərəcədə sadiq olan və əsrlər boyu bir yerdə yaşayan bu qonşu tayfalar arasında davamlı sülhün bərqərar olması üçün tədbirlər haqqında iclasımızı başa çatdıraraq, cənablar, sizdən bir daha xahiş edirəm ki, hər şeyi xalqa çatdırasınız. Burada deyilənləri və eşitdiklərinizi seçicilərinizə və hər vasitə ilə bizə burada bir sıra mürəkkəb məsələləri başa düşməyə, soydaşlarınızın şüuruna və qəlbinə hopmağa kömək edən dinc əhval-ruhiyyəni çatdırmağa çalışın. Bu, millətlərinizin ziyalı nümayəndələri kimi sizin müqəddəs borcunuzdur. Sülh elçiləri kimi buradan ayrılın! Zati-aliləri canişinin adından bu görüşdə göstərdiyiniz səylərə görə sizə minnətdarlığımı bildirirəm".

Uzun müzakirələrdən sonra martın 6-da iclas öz işini başa vurmuşdu[73].

Beləliklə, iclas öz işini yekunlaşdırdı. Lakin erməni-Azərbaycan nümayəndələrinin arasında keçirilən qurultayın sədri, general-leytenant Y.D.Malamanın təklifinə əsasən, martın 6-da digər məsələlərlə yanaşı əhali arasında seçkilər keçirilənə qədər Canişin Şurası yanında erməni və Azərbaycan nümayəndələrindən ibarət müvəqqəti olaraq Xüsusi Komissiya üzvlərinin seçilməsi qərara alındı. Bunun üçün həmin gün növbədən kənar iclas keçirilir və iclasa Q.Stepanov başçılıq etmişdir. İclasda İrəvan qubernatoru, qraf Tizenhauzenin başçılığı ilə Xüsusi Komissiyaya həm Azərbaycan nümayəndələrindən,

[73] Кавказ, 8-го марта 1906, №55, с.2

həm də ermənilərdən ibarət eyni sayda üzv seçilmişdi. Müvəqqəti Xüsusi Komissiyaya **Azərbaycan nümayəndələrindən seçilən həm həqiqi üzvlər və həm də namizədlər bunlar idi:** Əlmərdan bəy Topçubaşov, Əsildar bəy Qazanalipov, Allahyar bəy Zülqədarov, İbrahim bəy Vəkilov, Məmməd bəy Şahmalıyev; namizədlər- Mustafa bəy Eminov, İsmayıl bəy Ziyadxanov, Məmməd ağa Şahtaxtinski.

**Erməni nümayəndələrindən seçilən həqiqi üzvlər və namizədlər isə bunlar idi**: Aleksandr Ayrapetoviç Kələntər, Samson Stepanoviç Aryutunov, Gerasim Nikitıç Stepanov, Aleksandr İvanoviç Xatisov, Leon İvanoviç Quliyev; namizədlər-Leon Davıdoviç Sarkisyan, Ambarsum Boqdanoviç Arakelyan, Saruxanyan Arakel[74]. Beləliklə, müvəqqəti yaradılmış komissiyaya hər iki millətdən ayrı-ayrılıqda 8 nümayəndə (bunu 5-i həqiqi, 3-ü isə namizəd üzv idi), ümumilikdə isə 16 nümayəndə seçilmişdir.

İrəvan qubernatoru V.F.Tizenhauzenin başçılığı ilə yaradılan Komissiya martın 7-də iki məsələni həll etmək üçün bir araya gəldi. Keçirilən iclasda iki məsələ - mal-qaranın köçü və əhalinin tez bir zamanda maneəsiz tarla, çöl işlərinə cəlb edilməsinin həlli istiqamətində protokol hazırlandı. Protokolda bu məsələlər haqqında görüləcək işlərin layihəsi tərtib edildi. Mal-qaranın hərəkəti və yaylaqda qalma müddəti haqqında tərtib edilmiş layihə 9 bənddən ibarət idi. Həmin layihədə köçəriliklə məşğul olan yerlərdə komissiya tərəfindən qoyulmuş qayda-qanunlar, yerlərdə yaradılmış komissiyalarla iş birliyi, hətta qanunu pozanlara qarşı sərt cəza tədbirləri məsələləri öz əksini tapmışdır. Aşağıda bu haqda komissiyanın protokolunda ətraflı göstərilmişdir.

[74] Журнал Наместника его Императорского Величества на Кавказе / ЦГИАГ, фонд 13, опис 15, дело 353, л.49- л.49 об

Komissiyanın qəbul etdiyi ikinci məsələ- əhalini tarla, çöl işlərinə cəlb etmək üçün görülən tədbirlər haqqında idi. Çıxarılan qərarda ermənilərlə Azərbaycan türkləri arasında münasibətlərin gərgin olduğu yerlərdə asayişi və əmin-amanlığı qorumaq, əhalinin tarla, çöl işlərində qorxusuz işləməsi üçün hərbi hissələrin yerlərə təyin edilməsi, yerlərdə qarışıq komissiyaların yaradılması və toqquşmalar baş verən yerlərdə günahkarların cərimələnməsi məsələsi öz həllini tapmışdı[75].

1906-cı il fevralın 20-dən martın 7-dək ermənilərlə Azərbaycan türkləri arasında keçirilən qurultayın iclaslarında qaldırılan məsələlərə ümumi toxunduqdan sonra, iclasın təşkilatçılarının, burada olan hər iki millətin nümayəndələrinin "Qafqaz" və "Kaspi" qəzetlərinin fevral-mart aylarında nəşr olunan nömrələrində açıq çıxışlarını işıqlandırmaq istərdik. Bu çıxışlarda təqdim edilmiş proqramların bəndlərinə münasibətdə hər bir nümayəndə geniş çıxış etmiş və münasibətlərini bildirmişdilər.

## 2.2. "Barışdırıcı qurultay"ın geniş təsviri, nümayəndələrin çıxışları və Xüsusi komissiyanın protokolları

1906-cı ilin fevral-mart aylarında Tiflis şəhərində Canişinliyin sarayında Azərbaycan türkləri ilə erməni nümayəndələri arasında keçirilən "barışdırıcı qurultay"ın geniş təsviri "Qafqaz" və "Kaspi" qəzetlərində belə işıqlandırılmışdır:

**Kaspi, 23 fevral 1906-cı il, №42, səh.3.**

**"Erməni-Müsəlman qurultayı-(xüsusi müxbirdən)**

Fevralın 20-də günorta saat 1-də müsəlmanların və ermənilərin nümayəndələri (60 nəfər) bu millətlərin düşmənçilik

[75] Кавказ, 10-го марта, 1906, №57

münasibətlərinə nəhayət son qoymaq, radikal tədbirlər hazırlamaq üçün Canişin sarayında toplaşdılar.

Hər iki tərəfin demək olar ki, bütün seçilmiş nümayəndələri iştirak edirdi. Müsəlman əhalinin nümayəndələri bunlar idi: **Tiflis şəhərindən** vəkil Məhəmməd bəy Şahmalıyev, hüquqşünas Möhsün bəy Eminov, Hüseyn bəy Yediqarov, Şərif Mirzəyev, qazi Sübhanqulov və qazi Mövlazadə; **İrəvandan** Ağa xan İrəvanski, Abbasqulu bəy Hacıbəyov, şəhər mühəndisi şahzadə Şahqulu Mirzə; **Naxçıvandan** Eynalı bəy Sultanov, Məhəmməd ağa Şahtaxtinki; Sürməli qəzasından Əli ağa Akimov; **Yelizavetpol qəzasından** vəkil Ələkbər bəy Xasməmmədov, vəkil Adil xan Ziyadxanov; **Zəngəzur qəzasından** aqronom Cəlil bəy Sultanov; **Şuşa qəzasından** Cahangir xan Nurubəyov, Qalabəy İsabəyov, İsmayıl Quluyev; **Nuxa qəzasından** Hacı Cəlil; **Qazax qəzasından** polkovnik İbrahim ağa Vəkilov; **Ərəş qəzasından** Sultanbəy Sultanov; **Ahalkələki qəzasından** Məhəmməd ağa Palavandov; **Borçalı qəzasından** mühəndis Rəhim bəy Axundov, Abdurrəhman Haqverdi oğlu; **Bakıdan** Əhməd bəy Ağayev (redaktor), vəkil Əlimərdan bəy Topçubaşov, həkim Qarabəy Qarabəyov və Kərbəlayi İsrafil Hacıyev.

Erməni nümayəndələri bunlar idi: **Tiflisdən** A.A. Kələntər ("Mşak" qəzetinin redaktoru), A.A. Məlik Azaryans, A.İ. Xatisov və həkim Q.N. Stepanov; **Bakıdan** mühəndis K.İ. Xatisov, mühəndis S.Taqianosov və mühəndis Quqasov; **İrəvandan** İ.K.Məlik Ağamalov, Q.Z.Ter-Avatikyan və hüquq məsləhətçisi Muşeqyan; **Şuşa şəhərindən** arximandrit Nerses, D.İşxanov və mühəndis Quliyev; **Yelizavetpol şəhərindən** vəkili Məlik-Bəylərov, İ.N. Xocayev, M. Lazarev və L.T. Məlik-Mnasakanyanç; **Naxçıvan şəhərindən** L. Sarkisyan, A.B. Arakelyan; **Qars şəhərindən** arximandrit Muradyan Yeqişe; **Şulaverdən** B. Mehrabyan; **Qazax qəzasından** vəkili S.S. Arutyu-

nov; **Aleksandropol şəhərindən (Gümrü-E.Q)** şəhər Dumasının başçısı Ter-Petrosov; **Nuxa qəzasından** general Silikov.

İrəvan şəhərindən gəlməyən ermənilərdən birinin əvəzinə Tiflisdən hüquqşünas vəkil İ.S. Spendyarov namizəd seçilir.

Erməni-katolik nümayəndələrindən iştirak edənlər: arximandritlər Q. Naxapetyan və A. Saruxanyan, P. Queqenov və P.X. Qaramurza

Günorta saat 2-də İmperator Əlahəzrətlərinin Qafqazdakı Canişini qraf Voronsov-Daşkov zala daxil oldu, burada ermənilər və müsəlmanların nümayəndələri ilə yanaşı, qubernatorlar da vardı: Yelisavetpul (Gəncə-E.Q.) qubernatoru Kalaçev, İrəvan qubernatoru qraf Tizenhauzen və Tiflis qubernatoru baron Rauş-fon Traubenberg. Canişini şura üzvlərindən başqa köməkçiləri general-leytenant Y.D.Malama, gizli müşavir N.A. Sultan Krım Girey və general Şirinkin, kargüzarlar Kaxanovski, Medvediyev və dəftərxana müdiri Reterson müşayiət edirdilər.

Mətbuat nümayəndələri “Tiflis bülleteni”, “Qafqaz”, “Yeni təhsil”, “Mşak”, “Araç”, “Kaspi”, “İrşad” qəzetlərindən idi.

Əlahəzrət iclası aşağıdakı nitqlə açdı:

“Bir ildir ki, ermənilərlə müsəlmanlar arasında şiddətli qırğın gedir. Bütün bir il ərzində gördüyüm bütün tədbirlər yalnız qismən, müvəqqəti sakitliyə səbəb oldu. Mən dəfələrlə döyüşən millətlərin ruhanilərinə zorakılığa təsir etmək, müharibə edənləri sakitləşdirmək, davamlı sülh bağlamaq üçün bütün təsir imkanlarından istifadə etmək xahişi ilə müraciət etmişəm. Sülh bağlandı, andlı vədlər verildi, amma sonra bəzən eyni gündə yenə mənasız qırğın başladı. İndi mən sizə, ermənilərin və müsəlmanların seçilmiş nümayəndələrinə müraciət edirəm ki, öz nüfuzunuzla sülhə kömək edin və daimi nizamın bərpası-

na gətirib çıxara biləcək tədbirləri müzakirə edin. Köç vaxtıdır. Bu dövr həmişə cinayətlərin sayının artması ilə səciyyələnir və indi təhlükə yaradan fəlakətlərin qarşısını necə almaq barədə düşünmək lazımdır. Xahiş etdiyim, əsas məsələ odur ki, işin uğurlu olması, görüşlərinizin səmərəli keçməsi üçün məsələyə tam obyektiv yanaşmaq lazımdır. Keçmişi narahat etməyə, günahkar axtarmağa ehtiyac yoxdur. Bütün tərəfkeşliyi, bütün əvvəlki narazılıqları unudun və yalnız bölgənin maddi rifahını məhv edən pisliyi həqiqətən dayandırmaq üçün vasitələr tapmaq haqqında düşünün. İğtişaşların davam etməsi ancaq soyğunçuların və inqilabi təşkilatların xeyrinədir. Mən general Malamadan xahiş etdim ki, iclaslarınıza sədrlik etsin, iş başa çatdıqdan sonra o, fikirlərinizi mənə təqdim edəcək. Tezliklə razılığa gəlməyinizi arzulayıram".

Qrafın nitqinin sonunda arximandrit Muradyan qısa nitq söylədi və bölgənin tam sakitləşəcəyinə ümid etdiyini bildirdi, görüşü çağırdığına görə zati-alilərinə təşəkkür etdi, hər iki xalqın nümayəndələrinin bu qurultayının məhsuldar olacağına ümid etdiyini bildirdi.

Muradyanın qısa nitqindən sonra sədrliyi general-leytenant Malamaya verən əlahəzrət zalı tərk etdi.

**General Malama:** Cənablar, bu qurultay Qafqaz əhalisinə 17 oktyabr manifestində elan edilmiş vətəndaş azadlıqlarının imtiyazlarından istifadə etmək imkanını təmin etmək üçün, ermənilərlə müsəlmanlar arasında düşmənçilik münasibətlərinin qəti şəkildə dayandırılması üçün radikal tədbirlər hazırlamaq məqsədi daşıyır. Fikrinizi eşitmək istərdim: bu qanların səbəbkarlarını göstərmədən əsas səbəblər nə idi, çünki hesab edirəm ki, bu, səbəbə kömək etməkdənsə, münasibətləri daha da gərginləşdirər.

**Kələntər ("Mşak" qəzetinin redaktoru):** İlk növbədə, müzakirə edə biləcəyimiz əsas məqamları qeyd etməyi zəruri hesab edirəm, başqa sözlə, baxılacaq məsələlərin proqramını tərtib etməyi təklif edirəm. Xüsusi diqqət yetirməli olduğumuz birinci və əsas məsələ köç məsələsi ilə bağlı olmalıdır.

**İsrafil Hacıyev:** Bu qan tökülməsini doğuran səbəblər mənə, bakılılara çox yaxşı məlumdur. Lakin mən burada onlara toxunmaq istəməzdim, çünki bu, hər iki xalq arasında nifaq salmaq olardı, onların nümayəndələrinə yalnız ümumi və davamlı razılaşmaya aparan tədbirləri işləyib hazırlamaq lazımdır.

**Xatisov (həkim):** Həkim Xatisov Kələntərin qurultay proqramının əsas bəndlərini tərtib etmək təklifi ilə razılaşır. Onun fikrincə, hər kəsə tam söz azadlığı hüququ vermək lazımdır, çünki yalnız bu halda qanlı hadisələri doğuran səbəblərin həqiqətən nə olduğunu öyrənmək olar.

**Şahtaxtinski M.A.:** M.A.Şahtaxtinski razılığın daha tez əldə oluna biləcəyi təkbətək görüşün təşkilini məqsədəuyğun hesab edir.

**Əhməd bəy Ağayev:** Qanlı hadisələrin səbəblərindən danışmağa ehtiyac olacağını düşünmürdük və buna görə də buna hazır deyildik. Məncə, ilk növbədə səbəblərdən danışarkən aşağıdakı 4 bəndə aydınlıq gətirmək lazımdır: 1) Erməni və müsəlmanların məişət şəraiti və onların fərqliliyi; 2) Son bir ildə Rusiyada ümumi hərəkatlar; 3) Erməni və müsəlmanların bu hərəkatlara münasibəti; 4) Erməni təşkilatları.

**Arutyunov C.C.:** Şiə tatarları ilə erməni-qriqorianlar arasında qanlı hadisələr baş vermiş, lakin bura sünni tatarların və katolik ermənilərin nümayəndələri də dəvət olunublar və mən bu xalqların nümayəndələrini salamlayıram və ilk növbədə onları bitərəflərin xüsusi qrupuna ayrılmasını zəruri hesab

edirəm. O ki qaldı bu hadisələri doğuran səbəblərə, mən bunları dərhal izah etməyi zəruri hesab edirəm.

**Polkovnik İbrahim ağa Vəkilov:** Əvvəlki natiq sünniləri xüsusi bir qrup kimi qeyd edərək, onların hadisələrdə iştirak etmədiyini bildirdi. Mən bununla razılaşa bilmirəm. Mən bir sünni (Qazax mahalının sakini) olaraq bildirirəm ki, Tiflis və Bakı şəhərlərində ermənilərin ləzgilərə (onların sünni məzhəbinə mənsub olması bütün ermənilərə məlumdur) qarşı hücum halları olub, Qazax və Zəngəzur qəzalarında bir çox sünni kəndləri və obaları ermənilər tərəfindən dağıdılıb. Erməni-müsəlman toqquşmalarından danışarkən təkcə şiələri deyil, ümumilikdə bütün müsəlmanları nəzərdə tutmalıyıq, çünki bir çox sünnilər qan tökülməsinin qurbanı olublar.

**Şahtaxtinski M.A.:** Zati-aliləri! Görürsünüz, sünniləri xüsusi qrupa ayırmaq istəyirlər. Ermənilər bunu müsəlmanlar arasında ixtilaf salmaq üçün bilərəkdən edirlər.

**Xatisov K.İ.:** Burada sünniləri xüsusi neytral qrupa ayırmaqdan danışırlar. Biz ermənilər belə bir ayrı-seçkilik etməklə heç də müsəlmanlar arasında hər hansı nifaq salmaq niyyətində deyilik, əksinə, bu mənasız mübarizəsində mümkün qədər az iştirakçı görmək istəyirik. Qılıncları evdə qoyaq, yaxşısı budur ixtilafın əsas səbəblərini qeyd edək.

**Sarkisyan L.** əsas səbəblərdən biri kimi yerli hakimiyyət orqanlarının yarıtmaz fəaliyyətində görürdü.

**Ə.Topçubaşov:** Qazax dairəsinin nümayəndəsi polkovnik Vəkilov çox düzgün olaraq cənab Arutyunova cavab verdi ki, o, müsəlmanların sünni ilə şiə fərqi məsələsini boş yerə qaldırıb, onlar mənsub olduqları məzhəblərə biganədirlər, çünki baş verən toqquşmalarda ümumilikdə müsəlmanlar iştirak edib, əziyyət çəkiblər. Ona görə də bu hadisələr təkcə bütün Zaqafqaziya (Cənubi Qafqaz-E.Q.) deyil, Dağıstan və Şimali Qafqaz

müsəlmanları üçün eyni əhəmiyyətə malikdir. Bu hallarda müsəlmanların nümayəndələri artıq Dağıstan və Şimali Qafqaz nümayəndələrini qurultaya dəvət etmək xahişi ilə şəhər canişinin köməkçisi N.A.Sultan Krım Gireyə müraciət ediblər. Üstəlik, bu qurultayın bütün bölgə üçün ümumi maraqlarını nəzərə alaraq, Qafqazın bütün millətlərinin nümayəndələrinin iştirakı zəruri olardı. Əks halda, baş verən hadisələrin səbəbləri ilə bağlı verilən suala qənaətbəxş cavab almaq mümkün deyil. Bu səbəblər çoxşaxəlidir və müxtəlif millətlər arasında münasibətlərimizdə yaradılmış həyat şəraitinə əsaslanır. Bu səbəbləri tapmaq Qafqazın Rusiyaya birləşdirildiyi gündən bütün tarixini yazmaq deməkdir. Burada və indi bunun üçün kifayət qədər vaxtımız və gücümüz yoxdur. Təəssüf hissi yarana bilər ki, qurultayın konkret proqramı yoxdur və bu, təbii ki, onun fəaliyyətinin gedişatını çətinləşdirəcək. Əgər hadisələrin bilavasitə səbəbləri nəzərdə tutulursa, məsələn, senator Kuzminski səbəbləri burada yaradılmış iqtisadi, milli və inqilabi şəraitdə görür. Bu çərçivələr daxilində hadisələrin səbəbləri məsələsini müzakirə etmək olardı.

**Şahmalıyev M.** proqramların mübadiləsini, alt komissiyalarının və xüsusi komissiayların yaradılmasını təklif etdi.

**Əhməd bəy Ağayev:** Əgər biz təkbətək görüşlərdə bu hadisələrə səbəb olan məsələlərdən danışırıqsa, o zaman əminəm ki, bu, heç nəyə gətirib çıxarmayacaq, ancaq təkbətək görüşləri yalnız tədbirlər hazırlamaq üçün təşkil etsək, o zaman belə bir görüşü ürəkdən alqışlayıram.

**General Malama:** Biz keçmişə toxunmamalı və heç bir günahkarın adını çəkməməliyik.

**Doktor Stepanov:** Səbəbləri o dərəcədə aydınlaşdırmaq lazımdır ki, onlar davamlı sülhün bağlanmasına kömək etsin.

**İsrafil Hacıyev:** Keçmiş hadisələrin səbəblərindən danış-

maq istəmirəm (mən hamıdan çox bilirəm), lakin bu səbəblərin adını çəkməkdə israrlı olduqları üçün deyim ki, əsas, tək olmasa da, əsas səbəb erməni "Daşnaksutyun" təşkilatının mövcudluğudur.

**Xatisov K.İ.** Burada **t**əşkilatlardan, panislamizmdən danışmağın mənası yoxdur. Əsas tənzimləyici dövlətdir. 12 ay ərzində hakimiyyət heç nə etmədi. Bu xoşagəlməz hadisələrin əsas səbəbi hakimiyyətin cinayətkar hərəkətsizliyidir.

**Əhmədbəy Ağayev:** Unutmaq olmaz ki, tezliklə ermənilərin yaşadığı ərazilərdən 40 minlik köç keçəcək və bu halda mövcud münasibətləri nəzərə alsaq, qan tökülməsi qaçılmazdır. İlk növbədə, qarşıdan gələn bu bədbəxtliyin qarşısını almaq üçün tədbirlər hazırlamalıyıq.

**Peterson:** Deyilənlərin hamısını ümumiləşdirərək, mən Zati-aliləri canişininin sözlərinə uyğun belə bir nəticəyə gəlirəm, yəni, "keçmişdən narahat olmamaq", ancaq gələcək üçün tədbirlər hazırlamaq və əsasən, cənab Ağayevin qeyd etdiyi kimi köçərilərin hərəkəti məsələsini işləyib hazırlamaq lazımdır.

**Tiflis qubernatoru Rauş fon Traubenberq:** Keçmişə toxunmadığıma bütün qəlbimlə sevinirəm. Biz də gələcək üçün tədbirlər hazırlamalıyıq. Məncə, tədbirin gedişi belə olmalıdır. Hər iki tərəf ayrı-ayrılıqda proqram tərtib edəcək, sonra bizdən ayrı görüşəcəklər və sonra bir ümumi proqram tərtib edilə bilər.

**Muşeqyan** dava edən tərəfləri sakitləşdirmək üçün bir vasitə kimi səbəblərin aydınlaşdırılmasının zəruriliyində israr etdi.

Burada sədr Malama 15 dəqiqə fasilə təklif etdi.

**Qaramurza:** Problemlərin proqramlarını hazırlamaq üçün tez-tez görüşlər keçirmək lazımdır. Tədbirlərdən danışarkən, səbəblərdən danışmaq lazımdır. Burada ermənilərin siyasi təşkilatlarından, panislamizmdən, aqrar hərəkatdan danışırlar,

amma məncə, əsas səbəb yerli hakimiyyətin razılığıdır. Bütün qanlar hakimiyyət tərəfindən dayandırılır. Yerli hakimiyyət orqanları bu işin öhdəsindən gəlmədi. Bakı bunu sübut etdi.

**Əlimərdan bəy Topçubaşov:** Müsəlmanların nümayəndələri adından bəyan etmək səlahiyyətinə malikəm ki, onlar baş vermiş hadisələrin bütün səbəblərini ancaq təkbətək deyil, real görüşdə tam aydınlaşdırılmasını xahiş edirlər.

**Ağayev** Topçubaşovun sözlərini təkrarlayaraq, israrla keçmişə işıq salmağı tələb edir, belə ki, qarşı tərəf müsəlmanların nədənsə qətliamın səbəblərini gizlətməsindən şübhələnir.

**General Malama** iclası çərşənbə gününə təxirə salmağı və təkbətək görüş keçirməyi təklif etdi. İclasın fevralın 21-nə təsadüf etməsini nəzərə alaraq, görüşün fevralın 22-si çərşənbə gününə təxirə salınmasını, fevralın 21-i axşam isə iclasın sədrinə veriləcək proqramların müzakirəsi üçün erməni və müsəlmanların təkbətək görüşünün keçirlməsini təklif etdi.

**Qafqaz, 21 Fevral 1906-cı il, № 42, s.4.**

Dünən, fevralın 20-də günorta saat 14.4-də İmperator Əlahəzrətlərinin Qafqazdakı Canişini qraf İ.İ.Voronsov-Daşkov ermənilərdən və müsəlmanlardan ibarət nümayəndə heyətinin iştirakı ilə erməni-tatar silahlı toqquşması məsələlərini müzakirə etmək üçün Canişin Şurasının iclasını açdı. Çıxışdan sonra zati-aliləri iclasa sədrliyi Şuranın sədri, canişinin köməkçisi general-leytenant Malamaya təhvil verərək, iclası tərk etdi. Bu görüşün ətraflı hesabatı sabah veriləcəkdir. Yığıncaq sarayın bütün uzunluğu boyunca uzanan və qırmızı süfrə ilə örtülmüş bir stolun olduğu sarayın böyük Ağ zalında keçirilirdi. Sədrin yanındakı stolun başında canişinin köməkçisi gizli müşavir N.A.Sultan-Krım-Girey və general- leytenant E.N.Şirinkin, şura üzvləri və qubernator - Tiflis baronu Rauş-von-Trau-

benberq, İrəvan qubernatoru qraf Tizenhauzen və Yelizavetpol (Gəncə-E.Q.) qubernatoru Kalaçyev durmuşdular.

Müsəlman nümayəndələri Qolovinski küçəsinə baxan pəncərələr tərəfdə sədrdən stolun sağ tərəfində, erməni nümayəndələr isə solda əyləşmişdilər. İclas sədr general Malamanın çıxışı ilə başladı. Hər tərəfdən ümumilikdə 28 nümayəndə iştirak edirdi.

**Qafqaz, 23 Fevral 1906-cı il, №44, s.3.**

Erməni və müsəlman nümayəndələrinin iştirakı ilə baş tutan dünənki iclasda mahiyyəti üzrə heç bir məsələyə baxılmayıb, çünki məlum olub ki, nümayəndələr dünən gecə Duma zalında baş tutan, gündüz saat 7-dən gecə saat 2-yə qədər davam edən təkbətək iclasda çox danışdılar, lakin erməni nümayəndələrinin təqdim etdiyi proqramın birinci bəndinin müzakirəsindən uzağa getmədilər, çünki bu məsələdə razılıq əldə edilmədi. Dünən Canişin Şurasında bir saatdan çox davam edən müzakirədən sonra, sabah verəcəyimiz ətraflı hesabatda Şura hər iki tərəfin nümayəndələrinin xahişinə uyğun olaraq iclası bu günə, fevralın 23-ə təxirə saldı, onlara hazırladıqları məsələlərin proqramının surətlərini mübadilə etmək və onlarla tanış olmaq imkanı verildi. Nümayəndələr ümumi proqram hazırlamaqdan imtina etdilər.

**Qafqaz, 24 Fevral 1906-cı il, №45, s.2.**

**İclası çərşənbə günü fevralın 22-si saat 2:10-a təyin edən sədr general-leytenant Malama, nümayəndələrdən hazırladıqları məsələlərin proqramlarını təqdim edilməsini xahiş etdi.**

**Nümayəndə Stepanov:** Dünən gecə təkbətək görüşümüz saat 7-dən 2-yə qədər davam etsə də, hər zaman proqra-

mın yalnız birinci bəndini müzakirə etdik, lakin bu məsələdə razılığa gəlmədik. Biz müsəlman nümayəndələri tərəfindən təqdim edilmiş digər bəndlərin müzakirəsini belə bilmirik, ona görə də işimizi bitirmək və bəlkə də razılığa gəlmək üçün bugünkü iclası təxrə salmağı xahiş edirik.

**General-leytenant Malama:** Hesab edirəm ki, biz tələsməliyik, çünki siz, qonaq nümayəndələr, Tiflisdə uzun müddət qala bilməzsiniz və ümumiyyətlə, vaxtınız yoxdur. Siz heç vaxt gəlməyəcəksiniz və vaxt itkisinə səbəb olacaq razılaşmanı gözləyə bilməzsiniz. Üstəlik, sualların tərtibi ilə bağlı razılığınız vacib görünmür. Müsəlman nümayəndələri artıq mənə öz proqramlarımı təqdim etdilər, siz, erməni nümayəndələri, öz proqramınızı təqdim edin ki, biz hər iki proqramın bütün bəndlərini nəzərdən keçirək. Ümumiyyətlə, görüşümüzün məqsədindən yayınmamağınızı xahiş edirəm. Siz, cənablar, heç də bura sülh bağlamaq üçün deyil, siz bir növ bənd-bənd müzakirə etməklə sülh müqaviləsi hazırlayan kimi dəvət edilmisiniz. Sülh çox gözəl sözdür, amma təcrübə sübut etdi ki, ermənilərlə müsəlmanlar arasında sülh onların ziyalı nümayəndələrinin bağladığı sülh müqavilələri ilə bərqərar olmur və bu müqavilələr əhali arasında yeni qırğınlarla dərhal pozulur. İndi biz sizi ekspertlər şəklində çağırdıq ki, hansı inzibati tədbirlərin dayandırıla biləcəyi məsələsinin həllində bizə köməklik göstərəsiniz və müsəlmanların ermənilərə qarşı və əksinə, qarşılıqlı zorakılıq hərəkətlərini qeyri-mümkün edəsiniz. Bu xalq yığıncağının vəzifəsi bu tədbirləri göstərmək, tövsiyə etməkdir və müəyyən tədbirlərin görülüb-görülməməsi canişinin ixtiyarından asılı olacaq. Bu baxımdan hər hansı razılığa gəlmək üçün bütün şəxsi görüşləriniz tamamilə lazımsız görünür. Ona görə də inanıram ki, indi müsəlman nümayəndələrinin təqdim etdiyi proqramı oxuyub onun müzakirəsinə başlamaq tamamilə mümkündür.

**Nümayəndə Taqianosov:** Amma proqrama qulaq asmaq, onunla tanış olmaq demək deyil. Biz ermənilər yalnız müsəlman proqramı ilə tanış olmaq üçün vaxt verməyinizi xahiş edirik və hesab edirəm ki, bizim belə bir xahişimiz kifayət qədər başa düşüləndir və qanunidir.

**Nümayəndə Ağayev:** Dünən təkbətək görüşdə artıq bizimki kimi tam hazır formada ortaya çıxan vədə görə ermənilərin də öz proqramlarını təqdim edəcəyini düşünərək proqramımızı təqdim etdik. Amma indi ermənilər bu proqramı təqdim etməkdən çəkinirlərsə, biz xahiş edirik ki, bizim proqramımız da elan edilməsin, çünki hər iki proqram birlikdə və paralel olaraq elan olunmalı, müzakirə edilməlidir. Dünən ermənilərin proqramından fikir ayrılıqlarının səbəbi ilə bağlı ilk bənd aramızda 7 saat davam edən qızğın mübahisəyə səbəb oldu. Hesab edirəm ki, həm bu məqam, həm də onunla bağlı fikir ayrılığımız sizə, idarəyə məlum olmalıdır və heç bir sirr olmamalıdır. Hər şeyi bilməyiniz vacibdir, biz burada təkbətək yox, ümumi söhbət etməliyik. Niyə gecikməlidir? Proqramımızı təqdim edək, həm birlikdə, həm də açıq müzakirə edək.

**Nümayəndə Hacıyev:** Məncə, niyə bizim proqramımızı ictimailəşdirməyək, bunun nə zərəri ola bilər? Bunda heç bir sirr yoxdur. Bəzi proqramlar əvvəlcə oxunmalıdır! Sonra ermənilərin proqramını təqdim edəcəyik, onlarınkını oxuyacağıq. Sadəcə olaraq, ermənilər bilərəkdən məsələni yubatmaq, hansısa razılaşmaları gözləmək, şəxsi görüşlər keçirmək istəyirlər. Dünən kifayət qədər danışdıq. Proqramı niyə təqdim etmirlər? Bu gün təqdimat günüdür, onu dünən hazırlamışdılar və o, bu gün onlarda olmalı idi. Əgər ermənilərin xahişi ilə iclas təxirə salınarsa, onda mən zati-alilərindən xahiş edirəm ki, məndən nümayəndə səlahiyyətlərini götürsün, çünki bunun sonu olmayacağını gördüyümdən gedəcəyəm.

**Nümayəndə Stepanov:** Proqramımızda heç bir sirr yoxdur, amma müsəlmanlar razılığa gəlmək istəmədiyi üçün onların proqramı ilə tanış olmalıyıq. Tanış olduqdan sonra proqramımızda lazımsız görünən bir sıra bəndlərin üstündən xətt çəkə bilərik, çünki onlarla bağlı heç bir uyğunsuzluq yoxdur. Bu, yalnız bu görüşün işini xeyli asanlaşdıracaq və beləliklə, fasilə tələb etməklə biz vaxtı gecikdirmək yox, əksinə, ona qənaət etmək istəyirik.

**Nümayəndə Xatisov (mühəndis):** Görünür, müsəlmanlar hansısa hiyləyə görə bizi qınamaq istəyirlər, amma bizim tərəfimizdən heç bir hiylə və sirr yoxdur. Biz yalnız məsələyə diqqət yetirmək və hər cür anlaşılmazlıqları aradan qaldırmaq üçün indiki görüşü vaxt itirməkdən xilas etmək istəyirik. Müsəlmanlar proqramlarının indi oxunmasını istəyirlərsə, deməli, bizim heç niyyətimiz yoxdur. (Erməni nümayəndələrinin səsi: "Əlbəttə, oxuyun, xahiş edirik").

**General-leytenant Malama:** Ona görə də, oxuyacağam.

**Nümayəndə Ağayev:** Xeyr, mən müsəlman nümayəndələri adından acizanə xahiş edirəm ki, ermənilər öz proqramlarını təqdim etməyənə qədər bizim proqramımız elan olunmasın. Dünən 7 saat mübahisə etdiyimiz qırğınların səbəbləri (1905-1906-cı illər ermənilərlə Azərbaycan türkləri arasında olan qırğınlar-E.Q.) ilə bağlı proqramın elə ilk bəndindən müzakirə başlamalıdır və biz tələb edirik ki, burada müzakirələr də eyni əsas bənddən başlasın.

**Nümayəndə Qarabəyov da** ermənilər bu barədə şəxsi görüşdə deyil, burada danışmalıdır tələbini dəstəkləyir.

**Nümayəndə Taqianosov (və onun arxasında digər erməni nümayəndələrinin səsləri):** Bəli, danışacağıq, narahat olmayın!

**Nümayəndə Stepanov:** Oxuyub-oxumamağı müsəlmanlar özləri qərar versinlər. Onların proqramı, bizi maraqlandırmır! (Erməni nümayəndələrinin səsi: "İstədikləri kimi oxusunlar, etirazımız yoxdur").

**General leytenant Malama:** Yalnız müsəlman nümayəndələri arasında səsvermə keçirmək olar.

**Nümayəndə Kələntər:** Bizim görüşümüz həlledici səs hüququna malik deyil, yalnız məsləhət xarakteri daşıyır və ona görə də hər hansı məsələ ilə bağlı hər hansı səsvermə burada yersizdir. Ümumiyyətlə, onlar həqiqətən bizi sadəcə ekspert kimi dinləmək istəyirlər.

**Mülki müşavir Peterson:** Biz bununla razılaşa bilmərik. İclasımızın məsləhət xarakteri olması heç bir şəkildə bütün ortaya çıxan məsələlərin həllində səsvermədən istifadəni aradan qaldırmır, çünki səlahiyyətli orqanlar üçün hansı rəyin dəstəklədiyini bilmək nümayəndələrin əksəriyyəti üçün son dərəcə vacibdir.

**Nümayəndə Kələntər:** Əslində mən demək istəyirdim ki, hər hansı bir nümayəndə qrupunun ayrı-ayrılıqda səsverməsi mümkün deyil. Biz hamımız vahid nümayəndəyik və yalnız ümumi səsvermə ola bilər.

**Nümayəndə Hacıyev:** Dedim ki, bizim proqamımızı oxumaqla bərabər, fikirləşdim ki, o zaman ermənilərin də proqramını oxuyacaqlar, amma proqramlarını təqdim etməkdə gecikməli olsalar, təbii ki, bu gün proqramımızı açıqlaya bilməzlər. Biz hamımız buna etiraz edirik.

**Nümayəndə Ziyadxanov (Yelizavetpoldan (Gəncə-E.Q) gəlmiş nümayəndə):** Bəli, hamımız görürük ki, belə şəraitdə proqramımızı oxumaq mümkün deyil. Ermənilər əvvəlcə özlərininkini təqdim etsinlər, lakin bu günü boş yerə sərf etmə-

mək üçün proqramı oxumadan, bu görüşü qırğınların səbəbləri ilə bağlı sualın təhlilinə həsr edə bilərsiniz.

**Nümayəndə Stepanov:** Səbəblər məsələsi proqramlarda var və onu vurğulamaq üçün qətiyyən əsas yoxdur. Proqram bəndlərini müzakirə edərkən bu, eyni zamanda həll olunacaq.

**Nümayəndə Xatisov (şəhər duması üzvü):** Hesab edirəm ki, mənim təklifimi hamı yekdilliklə qəbul etməyə bilməz. Dünənki təkbətək görüş heç bir nəticə vermədi və biz hələ də hər bir tərəfin hazırladığı proqramlarla qarşılıqlı şəkildə tanış olmalıyıq. Ona görə də mən, bunları təklif edirəm: Sabah səhər saat 10-da biz öz proqramımızı zati-alilərinə təqdim edəcəyik və eyni zamanda onun bir nüsxəsini də müsəlman nümayəndələrə təqdim edəcəyik. Elə həmin saata qədər proqramlarının bir nüsxəsini bizə təhvil versinlər. Saat 2-yə qədər onlar da, biz də təhvil verilən nüsxələrdən proqramlarla tanış olacağıq, saat 2-də isə proqramların müzakirəsi üçün iclas başlaya bilər.

Bu təklif yekdilliklə qəbul edildi, bundan sonra general - leytenant Malama saat 4-də iclasda fasilə elan edərək, onun davamını cümə axşamı, fevralın 23-ü, günorta saat 2-yə təyin etdi.

**Qafqaz, 25 Fevral 1906-cı il, №46, s.2-3.**

**İclas 1906-cı il fevralın 23-də gündüz saat 2-də general-leytenant Malamanın başçılığı ilə davam etdi. İclas açılan zaman müsəlman və erməni nümayəndələri daha da təkmilləşdirilmiş proqramlar təqdim etdilər.**

**Müsəlman nümayəndələrinin proqramı: 1.** Erməni-müsəlman toqquşmalarına səbəb olan amillərin araşdırılması. 2. Bölgədə ümumi, məcburi və pulsuz ibtidai təhsilin tətbiqi. 3. Bütün əhali təbəqələrinin hüquqi baxımdan bərabərliyinin faktiki şəkildə təmin olunması. 4.Bölgədə sakitlik bərpa olunana qə-

dər, Canişinin yanında əhali tərəfindən seçilən nümayəndələrdən ibarət xüsusi müşavirənin yaradılması. 5. 6. Quberniya və qəza idarə orqanları yanında hər iki millətin nümayəndələrindən ibarət sülh komissiyaları yaradılır. 7. Bütün vəzifəli şəxslərin öz vəzifə funksiyalarını lazımi və maneəsiz şəkildə yerinə yetirməsini təmin edən tədbirlər görülməlidir. 8. Müsəlman əhalinin yaşadığı rayonlarda hərbi hissələrdə erməni əsgərlərin (əsgər heyətinin) saxlanmasına yol verilməməlidir. 9. Tərəflər milli zəmində digər tərəfə qarşı cinayət törətmiş şəxsləri təhvil verməyi və zərərçəkmişlərin ailələrinə yerli komissiyaların qərarına əsasən yardım göstərməyi öhdələrinə götürürlər. 10. Hərbi və inzibati tədbirlər — məsələn, cəza tədbirləri, inzibati sürgün və sair — yalnız yerli barışıq komissiyalarının razılığı ilə həyata keçirilə bilər. 11. Dağıdılmış bölgələrə qayıtmaq istəyənlərin geri dönməsini təmin etmək üçün tədbirlər görülməlidir. 12. Qeyd olunan şərtlər qəbul edildikdən və tədbirlərin faktiki həyata keçirilməsindən sonra ümumi əhalinin silahsızlaşdırılmasına başlanılmalıdır.

**Erməni nümayəndələrinin proqramı**

1. Erməni-tatar (Azərbaycan türkləri-E.Q.) toqquşmalarına səbəb olan amillərin araşdırılması; çünki bu səbəblərin aradan qaldırılması sülhün bərqərar olunmasına kömək edə bilər. 2. Quberniya və qəza idarəçiliyi, eləcə də polis orqanlarının yenidən təşkili. 3. Yerli inzibati və polis orqanları yanında erməni-tatar münasibətlərinə dair məsələlərin həll olunması üçün əhalidən seçilmiş nümayəndələrdən ibarət yerli şuraların təşkili. 4. Ədalət mühakiməsinin sürətləndirilməsi məsələsi; yerli arbitraj (hakimlik) məhkəmələrinin təşkili. 5. Kənd idarəçiliyi bölgələrinin yenidən bölgüsü. 6. İdarəetmə orqanları tərəfindən qəti tədbirlərin görülməsi zərurəti. 7. Şəhər və kəndlərdə dəymiş ziyanların təyin olunması və ödənilməsi; bunun üçün hakimiyyət

nümayəndələri və əhali tərəfindən seçilmiş şəxslərdən ibarət xüsusi komissiyaların yaradılması. 8. Köçərilik məsələsi. 9. Keçmiş yaşayış yerlərinə qayıtmağa imkanı olmayan kəndlər üçün təhlükəsiz yerlərdə torpaq sahələrinin ayrılması. 10. Talanların baş verdiyi bölgələrdə vergi yığımının yüngülləşdirilməsi; təsərrüfatların bərpası üçün hökumət tərəfindən borc (kredit) verilməsi. 11. Yelizavetpol (Gəncə-E.Q.) şəhərindən olan erməni nümayəndələrinin, dağıdılmış məhəllələrdə torpaq mübadiləsi məsələsində yardım göstərilməsi üçün etdikləri müraciət. 12. Nəqliyyat yollarının təhlükəsizliyinin təmin edilməsi.

**S.S. Peterson:** Hər iki proqramın ilk bəndləri ixtilafların səbəbləri məsələsini qaldırır. Bu barədə müzakirələr artıq ilk iclasda aparılmışdı və bu məsələyə biz hələ də tədbirləri müzakirə edərkən toxunacağıq. Buna görə mən təklif edərdim ki, birbaşa 2-ci bənddən başlayaraq, növbəti məsələlərin müzakirəsinə keçək.

**General-leytenant Malama:** 1-ci bəndi ayrıca müzakirə etməyə ehtiyac olub-olmadığı məsələsini ortaya qoyur.

**Nümayəndə Taqianosov:** Biz artıq proqramımızın 1-ci bəndində bildirmişik ki, səbəblər məsələsinə yalnız o dərəcədə toxunmaq lazımdır ki, bu, sülhü təmin edən və qarşısını alan tədbirlərin hazırlanması üçün zəruri olsun. Müzakirələr zamanı artıq aydın oldu ki, biz – ermənilər – əsas səbəb kimi hakimiyyətin fəaliyyətsizliyini görürük. Amma əlbəttə, başqa səbəblər də var. Müxtəlif millətlərin qonşuluğunda həmişə müəyyən gərginliklər olur — bu, daha mədəni xalqlarda da belədir, məsələn, Avropada, Avstriyada — almanlarla, macarlarla və slavyanlar arasında olduğu kimi. Dövlətin borcu isə bu gərginlikləri aradan qaldırmaq və onların silahlı toqquşmalara çevrilməsi-

nə yol verməməkdir. Aydın oldu ki, müsəlmanlar əsas səbəb kimi erməni inqilabi təşkilatını göstərirlər. Bu səbəbi hazırkı nümayəndə Topçubaşov hələ sağlığında Bakıdakı mərhum general-qubernator knyaz Amilaxvariyə də bildirmişdi və o vaxtdan bəri müsəlmanlar bu fikri davamlı şəkildə təkrar edirlər. Amma biz onlardan soruşuruq: öz məqsədləri naminə fəaliyyət göstərən erməni inqilabi təşkilatı nə ilə və hansı hərəkətləri ilə müsəlman əhalinin maraqlarına toxunmuş və onları qəzəbləndirmiş ola bilər? Əgər bu dəfə səbəblər barədə hökumət qarşısında sonuncu dəfə danışırıqsa, qoy bu dəfə müsəlman nümayəndələri açıq şəkildə desinlər: erməni komitəsinin hansı konkret fəaliyyəti bu qarşıdurmaya səbəb olmuşdur? Əgər siz bu mətnlərin hamısını bir araya gətirib tam bir sənəd kimi təqdim etmək istəyirsinizsə, kömək edə bilərəm.

**Nümayəndə Hacızadə:** Sülh danışıqları zamanı ermənilər özü bizə deyirdilər ki, onların inqilabi dəstələri — "Daşnaksutyun" və başqa hansısa can-fədailər — bizim xalqlar arasında qırğınlara səbəb olublar. Və həqiqətən də Bakıya bəzən xüsusi paltarlar geyinmiş, şübhəli adamlar gəlirdi; onlar bizə ölüm hədəsi verirdilər və şəhərdə soyğunçuluq və qətllər törədirdilər. Onlar bizim müsəlmanları öldürürdülər — biz buna laqeyd qala bilərdikmi? Əlbəttə, bizdə də quldurlar var, kimlərsə öldürür, amma onlar adi quldurlardır, inqilabi təşkilatlar deyillər. Təəssüf ki, bu gün general burada yoxdur; əgər o mənə desəydi ki, bizdə hansı təşkilatlar var, onda mən də müsəlman inqilabçılarımızı elə ermənilər kimi ifşa edərdim; amma mən belə təşkilatları tanımıram və onlardan eşitməmişəm. Gizli təşkilatlar olduğu müddətcə aramızda sülh bərpa olunmayacaq. Amma ermənilərdə çox cinayətkar bir təşkilatın mövcudluğunu sübut etmək üçün mən sənəd təqdim edirəm.

**(Bu sənəd mülki müşavir Peterson tərəfindən elan olunur və məlum olur ki, bu, erməni inqilabi ittifaqının, yəni onun döyüş təşkilatının nizamnaməsidir və burada döyüşən inqilabi qüvvələrin quruluşunu, iyerarxiyasını və nizam-intizamını, habelə döyüşçülərin vəzifələrini, cəza sistemini bənd-bənd müəyyən edir)**.

**Nümayndə Xatisov:** Bu hansı sənəddir? Bunlar "remingtonda" (çap mətbəəsi-E.Q) çap edilmiş vərəqlərdir, bir növ nüsxədir, orijinal deyil və dəqiq şəkildə təsdiqlənməmişdir.

**Nümayəndə Hacıyev:** Bu nüsxənin düzlüyünə görə həyatımla cavabdehəm. Əgər onun yalan olduğu üzə çıxarsa, and içirəm ki, özümü öldürərəm.

**General-leytenant Malama:** Bu sualı qaldırmağa dəyməz. Hamıya məlumdur ki, əhalinin müxtəlif təbəqələrində silahlı təşkilatlar var və əsas odur ki, onlar indi və həmişəlik ləğv olunsun və ləğv edilməlidir.

**Nümayəndə Xatisov:** Biz səbəblər haqqında az danışmaq istəmişdik, çünki artıq bu barədə danışmışıq, lakin biz müsəlmanlara cavab verməliyik ki, erməni xalqını həm onların, həm də cəmiyyətin, bütün idarənin və rus ordusunun gözündə müdafiə edə biləк. Hamı "Daşnaksutyun" təşkilatını bütün erməni xalqı ilə eyniləşdirir. İcazə istəyirəm ki, "Daşnaksutyun" nədir, izah edim.

(***Bütün nümayəndələrin səsləri: "Xahiş edirik, xahiş edirik"***).

Həyat özü həmişə inqilabi təşkilatlar yaradır, onlara quldurlar deyil, ideyalı insanlar daxil olur. "Daşnaksutyun" beş ildən artıq müddət əvvəl yaranıb və türk hakimiyyətlərinin vəhşi boyunduruğu altında olan soydaşlarını azad etmək kimi uca hisslərlə ruhlanıb. Bu hisslər vaxtilə Balkan yarımadasına gedən rus insanlarını da ruhlandırırdı. Necə ki, ruslar Balkanlara getmişdilər, eləcə də ermənilər "Daşnaksutyun" vasitəsilə Kiçik

Asiyaya gedib öz qardaşlarını müdafiə edirdilər. Elə bizim indiki canişinimiz, çox hörmətli qraf Vorontsov-Daşkov da, Balkan yarımadasına həmin uca və humanist məqsədlə gedən ruslardan biri idi. Ruslar və ermənilər eyni xristian hisslərinin təsiri altında birlikdə hərəkət edirdilər. Buna görə də San-Stefano müqaviləsində ermənilər unudulmamışdılar və həmin müqavilənin maddələrindən biri Türkiyənin onlara qarşı humanist münasibət göstərməsini, bu münasibətin isə Rusiya və digər dövlətlər tərəfindən nəzarətdə saxlanmasını təmin edirdi. Nümayəndə Hacıyev tərəfindən təqdim edilən sənədin isə əhəmiyyəti azdır. Hər təşkilatlanmış cəmiyyətin, əlbəttə ki, öz nizamnaməsi olur, lakin təqdim edilən nüsxənin dəqiqliyi şübhə altına alına bilər. Çünki Hacıyevin həyatı onun üçün dəyərli bir zəmanət sayılsa da nüsxənin həqiqiliyinə dair çox da etibarlı bir sübut deyil. Döyüş təşkilatı və intizam, əlbəttə ki, var idi — həm əsgərlər vardı, həm də onların üzərində komandirlər, habelə bu xidmətə dair bir nizamnamə mövcud idi. Amma bu dəstənin bütün fəaliyyəti yalnız Türkiyə ərazisində həyata keçirilirdi və yalnız erməniləri türklərin rejimindən qorumaq məqsədilə yaradılmışdı. Bu rejimdən təkcə ermənilər deyil, həm də öz hökuməti tərəfindən talan olunmuş və əzilmiş türk xalqı da əziyyət çəkirdi. "Daşnaksutyun" silahını həm də təhqir olunmuş və əzilmiş türklər naminə qaldırmışdı. Mən təəccüblənirəm ki, onların soydaşları — hazırkı müsəlman nümayəndələri, ziyalı insanlar, çoxu ali təhsil almış və humanist, liberal əqidələri olan şəxslər — bütün bunları yaxşı bildikləri halda, burada necə "Daşnaksutyun"u təhqir edə, onu hansısa bir quldur dəstəsi ilə eyniləşdirə bilirlər? Bu maarifçi müsəlman nümayəndələrinə, şübhəsiz ki, bu da yaxşı məlumdur: artıq Rusiya üçün başqa, anlaşılmaz bir dövr — insanlara nifrət edən bir irtica dövrü başlanıb və San-Stefano müqaviləsi, rus xalqının şöhrət və ali-

cənablıq abidəsi olan bu müqəddəs sənəd, unudulub. Və Qafqaza, bu bölgənin rəhbəri kimi, həmin rejimin seçilmiş və təyin olunmuş nümayəndəsi, knyaz Qolitsin gəldi. Onun adı bu çətinliklər və bədbəxtliklərin başlıca səbəbkarı kimi Qafqaz xalqlarının yaddaşında həmişəlik qalacaq. Məhz bu zalda ilk dəfə "erməni separatizmi" ifadəsi səsləndi və məhz buradan bizim xalqımıza qarşı bu böhtan Rusiya cəmiyyətinə yayıldı. Kiçik Asiyada kürdlərin vasitəsilə Türkiyə hakimiyyətinin vəhşilikləri yenidən başladı. Lakin bu dəfə nə rus, nə də Qafqaz hakimiyyəti məhv edilən xristianlara, öz təbəələrinin soydaşlarına bircə kəlmə ilə belə dəstək vermədi. Əksinə, Qafqaz hakimiyyəti onlara öz qardaşlarına müdafiə və maddi yardım göstərmək işində hər cür əngəl törətdi. Hətta qonşu vilayətlərdəki Türkiyə hakimiyyətini ermənilərə qarşı təqiblərdə və "Daşnaksutyun"la mübarizədə dəstəklədi. Türkiyədə vəhşiliklərdən qaçaraq aclıq içində Qafqaza sığınan ermənilərə sığınacaq verilmədi. Qanunla yox, inzibati üsulla onların azadlığı əllərindən alındı, ölkədən sürgün edildilər, halbuki bu ermənilər inqilabçı sayılmalı idisə belə, bu yalnız Türkiyə hökumətinin gözündə ola bilərdi, Rusiya hakimiyyətinin yox. Sonra isə artıq rus ermənilərinə qarşı birbaşa təqiblər, onların sıxışdırılması, ən müqəddəs hüquqlarının tapdanması, məktəb və kilsə əmlaklarının əllərindən alınması başladı. Belə çıxılmaz vəziyyətlə tam ümidsizliyə düşən erməni xalqı nə ilə günahkar olduğunu, bu cəzaları nə ilə haqq etdiyini və onlardan qurtulmaq üçün nə etməli olduğunu bilmirdi. Nəhayət, qanuni vasitələrin olmaması səbəbilə, gizli-inqilabi özünümüdafiəyə əl atmaqdan başqa çıxış yolu qalmadı. Bu an eyni zamanda rus cəmiyyətində də inqilabi hərəkatların oyanması ilə üst-üstə düşdü və irtica rejimdən əziyyət çəkmiş həmin xalqla, rus xalqı ilə ermənilər arasında heç bir ayrılma meyli olmadığı halda, qardaşlıq münasibətləri zərrə qədər də

zəifləmirdi. Belə şəraitdə nə möcüzədir ki, anti-türk inqilabi erməni təşkilatı anti-rus təşkilatına çevrildi, rus inqilabi partiyası ilə birləşdi və onunla əl-ələ verərək hərəkət etdi və "Daşnaksutyun" döyüş dəstəsi onların artıq Türkiyə ermənilərindən daha çox ehtiyacı olduğu yerlərdən Qafqaza keçərək burada yaşayan ermənilərin müdafiəsinə qalxdı? Müsəlman nümayəndələri şəxsi iclasda erməniləri tənqid edirdilər ki, yerli idarəçilik və polis orqanlarından bir neçə məmurun öldürülməsi, eləcə də Bakı qubernatoru knyaz Nakaşidzenin öldürülməsi erməni inqilabi təşkilatlarının işi idi, halbuki müsəlman xalqı heç vaxt rəhbərlikdə olanlardan heç kimin öldürülməsində əli olmayıb. Amma, birincisi, əgər bu hadisəni doğrudan da ermənilər törətmişdilərsə belə, bunun inqilabi komitənin birbaşa əməlinin olub-olmadığı hələ məlum deyil. İkincisi isə, əgər bu doğrudan da belə olsaydı, yəni inqilabi ermənilər tərəfindən həyata keçirilmişdisə, bunda təəccüblü bir şey yoxdur. Çünki vəziyyət elə gətirib ki, erməni inqilabçıları, bu da bütün xalq yox, sadəcə tanınmış bir partiyadır, rus inqilabi partiyası ilə əlbir hərəkət ediblər. Əgər müsəlman nümayəndələri bununla bizi hakimiyyət qarşısında qorxutmaq istəyirdilərsə, onda deməliyik ki, azadlıq və insanları köləlikdən qurtarmaq kimi müqəddəs ideallar uğrunda o qədər qan tökülüb ki, bununla heç kimi qorxutmaq mümkün deyil. Bu ideallar uğrunda keçmişdə Balkan yarımadasında, Kiçik Asiyada, və indi də son bir yarım il ərzində Rusiyada və Qafqazda həm rusların, həm də ermənilərin qanı axıdılıb. Hər halda, indi, xoşbəxtlikdən, nəhayət ki, bir sakitlik dövrü başlamalıdır, çünki artıq demək olar ki, “Daşnaksutyun” həm ədalətli ümumi ideallar, həm də xüsusi erməni tələbləri uğrunda mübarizə aparıb, çünki bu tələblərin hər ikisi Rusiya çarının iradəsi ilə təmin olunub. İ.İ. Voronsov-Daşkovun şəxsində Qafqazın taleyi maarifçi və humanist bir dövlət xadimi-

nin əllərinə tapşırılıb, Qafqaz xalqlarına qarşı hakimiyyətin bərabərhüquqlu və ədalətli münasibəti əsasında bizim üçün parlaq gələcək təmin olunub və bizim bu günümüz yalnız bir şeylə – müsəlmanlarla, əsrlərdir qonşuluqda yaşadığımız xalqlarla aramızda gedən bu mənasız və qardaş qanı tökülən qarşıdurma ilə pisləşdirilib. Əgər maariflənmiş müsəlman nümayəndələrinə yuxarıda deyilənlər aydındırsa və məlumdursa, əgər onlar, tam mədəni insanlar kimi, 17 oktyabr manifestində bəyan olunmuş böyük prinsiplərə rəğbətlə yanaşırlarlarsa, onda qoy bizə izah etsinlər ki, yalnız Rusiyada bu prinsiplərin bərqərar olunmasına inqilabi şəkildə can atan və bu arzuda rus cəmiyyəti və rus xalqı ilə birləşmiş "Daşnaksutyun" hansı hərəkətləri ilə müsəlmanların milli maraqlarına toxunmuş, onlarda bütün erməni xalqına qarşı düşmənçilik oyatmış və bu xalqlar arasında silahlı qarşıdurmanın ilkin səbəbinə çevrilmişdir? Bu qarşıdurma baş verdikdən sonra burada mövcud olan "Daşnaksutyun"un döyüş təşkilatı, təbii ki, həmişə yaxşı silahlanmış və döyüşkən tatarlar tərəfindən silahsız soydaşlarının qətlə yetirilməsinə biganə baxa bilməzdi və onların müdafiəsinə qalxdı, onların silahına qarşı öz silahını qoydu və artıq bu müharibə qan intiqamı, qohumluq instinktləri üstündə qızışdı. Lakin bu, ilkin səbəbi də izah etmir, çünki "Daşnaksutyun" əslində müsəlmanlara və onların maraqlarına qarşı çıxmamışdı, bu, ümumiyyətlə, erməni xalqının məqsədlərinə daxil deyildi. Ermənilərin nə erməni çarlığı yaratmaq, nə də erməni müxtariyyatı qurmaq fikri heç vaxt olmayıb. Biz bunun üçün heç bir ərazi yaratmaq istəməmişik və buradan müsəlmanları qovmaq kimi bir niyyətimiz də olmayıb. Rus hakimiyyətinin Qafqazda meydana çıxmasının ilk günlərindən, rus ordusunun Şərqi Zaqafqaziyanın – indiki erməni-tatar qarşıdurması bölgəsinin fəthi yolundakı ilk zəfərli addımlarından etibarən erməni xalqı Rus Taxtına ən sədaqətli xalq ol-

muşdur. Tarixi və mədəni maraqlarının ortaq olması səbəbindən o, rus xalqı ilə qırılmaz şəkildə birləşmişdir. Çünki ermənilər anlayırdılar ki, rus ordusu onları əsrlər boyu davam edən fars despotlarının əsarətindən azad edir və onları xristian mədəniyyəti və azadlıq yoluna çıxarır. Bütün sonrakı müharibələrdə, son türk müharibəsinə qədər, qəhrəman rus ordusu daim erməni xalqının maraqları naminə də vuruşmuşdur və erməni xalqı da öz sədaqətini rus ordusuna, rus xalqına və Rus Taxtına sübut etmişdir. Əgər o, son illərdə "Daşnaksutyun" timsalında inqilabi hərəkatlara və fəaliyyətlərə yol vermişsə, bu, Rusiya imperiyasından ayrılmaq məqsədilə deyil, əksinə, rus cəmiyyəti və xalqı ilə birlikdə, onlardan geri qalmadan, ümumrusiya maraqları naminə olmuşdur. Buna görə də ermənilərin Rusiyaya və rus ordusuna düşmən olduğu haqda bütün söhbətlər erməni xalqına böhtandır. Əksinə, erməni xalqı özünün milli məsəlinə sahib olmuşdur: "rus çarının qılıncı kəskin olsun" və erməninin əli heç vaxt rus əsgərinə qalxmayacaq. Qafqazda rus hakimiyyəti möhkəm və güclü olsun, amma ədalətli və mədəni olsun, şübhəsiz ki, yeni rejimdə Voronsov-Daşkov kimi bir Canişinin rəhbərliyində indi elə də olacaq. Bu hakimiyyət hər bir zorakını və cinayətkarı, hansı millətə məxsus olmasından asılı olmayaraq, sərt şəkildə cəzalandırsın. "Daşnaksutyun" özü-özlüyündə mövcudluğunu dayandıracaq və əkin və sənətdən çəkilmiş bu könüllü döyüşçülər sevə-sevə öz dinc məşğuliyyətlərinə qayıdacaqlar. Gəlin tezliklə, müsəlmanlar, tez bir zamanda ədavətə son qoyaq və bu aydın sülh və tərk-silah günü gəlsin.

**Nümayəndə Qarabəyov (həkim, müsəlman):** Həmkarım həkim Xatisov öznün əla və təsirli nitqində Daşnaksutyunun yaranması və bu təşkilatın xarakteri tarixini düzgün təsvir etdi. Mən özüm də bu əhvalatı yaxşı bilirəm və təsdiq edə bilərəm ki, Daşnaksutyunun Türkiyədə ilkin olaraq qarşısına qoy-

duğu məqsədləri bizlər, mədəni müsəlmanlar və mədəni türklərin özləri, bütün mədəniyyət adamları tərəfindən tam rəğbətlə qarşılanmışdır. San-Stefano sülh müqaviləsi imzalandıqdan sonra Berlin konfransında ermənilərin indiki katolikosu əlində xaçla görünəndə, Bismark özü ona Türkiyə ilə bağlı, ona qarşı beynəlxalq müqavilənin yeganə bəndinin yetərli olmadığını və buna görə də, erməni xalqı bir əlində xaçla yanaşı, digər əlində Türkiyəyə qarşı qılınc tutmalıdır demişdir. "Daşnaksutyun" Bismarkın məsləhəti ilə meydana çıxan bu qılınc idi. Biz mədəni rus müsəlmanları, təbii ki, ermənilər kimi, ifrat inqilabçı rus partiyalarına qoşulmasaq da, Rusiyanın azadlıq hərəkatına hüsn-rəğbət bəsləməməyə bilməzdik. Köhnə polis-bürokratik rejimdən hamı- ruslar, ermənilər və müsəlmanlar eyni dərəcədə əziyyət çəkmişdilər. Lakin 17 oktyabr manifesti bütün rus təbəələrinə hökumətdən ağlabatan şəkildə tələb edə biləcəkləri hər şeyi verdi. Biz ermənilərlə bütün bu olanlarla tam həmrəyik. Biz mədəni müsəlmanlar, ən azından mən şəxsən Xatisovun ifadə etdiyi bütün digər fikirləri yaxşı başa düşürəm və onlarla razıyam, lakin bizim savadsız insanlarımız başqa cür düşünür və burada təbii ki, onların fikirlərini, əhval-ruhiyyəsini nəzərə almalıyıq, çünki bir-birimizi döyən, öldürən və məhv edən biz deyilik, amma sülh və davamlı sülh bizim aramızda deyil, onların arasında bağlanmalıdır. "Daşnaksutyun"un son dövrlərdə Zaqafqaziya daxilindəki fəaliyyətini savadsız xalqımız, nəinki onlar, hətta onların bizdən daha az mədəniyyətə malik olan ən yaxın rəhbərləri də tamamilə başqa cür başa düşürlər, düşündükləri yanlış olsa da, bunu etməyə haqqları var. Budur, mənim yoldaşım, nümayəndə Hacıyev, o, müsəlman xalqının fikrini ifadə etdi və mən bunu daha ətraflı izah etməyi zəruri hesab edirəm. Müsəlmanlar bütün qüvvələrini Uzaq Şərqə yönəldən, bu uğursuz müharibənin nəticələrindən narahat

olan və daxili iğtişaşlara düçar olmuş Rusiya hökuməti müvəqqəti olaraq nizam-intizamı və ucqarlardakı qüdrətini qorumaqda aciz qaldığını, "Daşnaksutyun"un timsalında erməni xalqının inqilab yolu tutduğunu və bunun üçün rus hökumətinin ayrı-ayrı nümayəndəliklərinə soxularaq öz hərbi təşkilatını yaratmış, savadsızlıqlarına görə bunu başqa heç nə ilə izah edə bilmədiklərini, Rusiyadan ayrılmaq, burada öz muxtar səltənətini, erməni ərazisini yaratmaq arzusunda olduqlarını hesab edirlər. Yalnız müsəlmanları buradan köçürməklə və ya əsarət altına almaqla ermənilərin dövlət yarada biləcəyini anlayan yerli müsəlmanlar ermənilərə qarşı düşmənçilik hissləri ilə alovlanmaya bilməzdilər və necə olur ki, Qafqazda rus hökmranlığının hökm sürdüyü və həmişə Rusiya taxtının sadiq övladları olmuş biz müsəlmanlar bütün milli xoşbəxtliyimizi bu hakimiyyətdə görürük, o zaman baş verənləri bəlkə də səhvən başa düşərək, xalqımız təkcə öz milli varlığını deyil, həm də Rusiyanın qanuni hakimiyyətini müdafiə etməyə qalxaraq, müvəqqəti olaraq onun dəstəyinə ehtiyac duymuşdu.

**Nümayəndə Ağayev:** Tatar qəzetlərinə çox çətinliklə icazə verilirdi, senzura komitəsinin demək olar ki, hamısı ermənilərdən ibarət idi və ümumiyyətlə müsəlmanlar xristian dövlətinin ermənilərə daha çox rəğbət bəslədiyini görürdülər və bu arada ermənilər müsəlmanlarla qonşu kimi davranmır, onların daha aciz vəziyyətindən istifadə edirdilər. Bu, tamamilə təbiidir və mən buna görə erməniləri qınamıram, amma bunun sayəsində onlar daha böyük mədəniyyətə, daha böyük rifaha nail oldular. Knyaz Qolitsin rejimi ermənilərə zərər vurmaqla müsəlmanların vəziyyətini heç də yaxşılaşdırmadı, əksinə, onların vəziyyətini çox ağırlaşdırdı və bu səbəbdən də azadlıq hərəkatı bizi ermənilərlə müqayisə olunmayacaq dərəcədə acınacaqlı vəziyyətdə qoydu. Bütün bunlar müsəlmanları ermənilərə

qarşı sosial-iqtisadi düşmənçilik hisslərini oyantmaya bilməzdi və azadlıq hərəkatının qızğın vaxtında erməni yazıçısı Şirvanzadə Bakıda mənim yanıma gəldi, rus azadlıq hərəkatını dəstəkləmək üçün ümumi komitə yaratmaq məqsədilə onu və müsəlman nümayəndələri Topçubaşovu və burada oturan erməni Arutyunovu dəvət etdim. Onsuz da hər iki xalq rus xalqı ilə birgə hərəkət etmək istəyirdi, amma bizdən əvvəl yerli polis ikinci səbəbi, qondarma təxribatı yaratmış və biz hələ komitəyə toplaşmağa vaxt tapmamış bu xalqları bir-birindən ayırmağa çalışdı. İlk bəyannaməmizi yaydığımız gün Babayev öldürüldü, sonra isə qırğın başladı. Arutyunov və Şirvanzadə əvvəllər demişdilər ki, qırğın hazırlanır, bu o deməkdir ki, ziyalı ermənilər təxribatçı toxumların münbit torpağa düşdüyünü bilirdilər. Bu o deməkdir ki, qeyri-bərabər mədəniyyət yaratmaqda, sonra münasibətləri gərginləşdirməkdə ilk növbədə hakimiyyət günahkardır. Bu düşmənçiliyin kökünü kəsmək üçün, erməni, tatar kimi sözlər olmasın, ancaq bir kəlmə, qafqazlı sözü olsun. Siz indiki insanpərvər və mədəni hakimiyyətin nümayəndələri bizi məhv etməyin, bizə məktəb, savad verin, sonra biz bir-birimizi başa düşəcəyik və bir daha heç vaxt daxili çəkişmələrimiz bizi narahat etməyəcək **(Alqışlar)**.

**Nümayəndə Xatisov:** Bizə heç vaxt imtiyaz verilməyib. Müsəlmanlar geridə qalırsa, bu onların öz günahıdır. Onların savadlı olması bizim üçün daha yaxşıdır, mədəni qonşularla həyat daha yaxşıdır.

**Nümayəndə Ziyadxan:** Madam ki, ermənilər mədənidir, o zaman bizi mədəniyyətə aparacaqlar, gözdən salmayacaqlar. Biz bu istiqamətdə birgə çalışacağıq və çalışacağıq. Qraf Voronsov-Daşkovun rəhbərliyi altında yaxşı nəticələr əldə edəcəyik **(Deputatların səsi: Doğrudur, doğrudur)**. Amma indi sülhün bərqərar olması üçün "Daşnaksutyun" silahlı təşkilatını

məhv etmək lazımdır. Heç kimə imtiyaz lazım deyil. Müəyyən dərəcədə hər iki tərəf günahkardır və buna görə də kağız üzərində deyil, həqiqi sülhün bərqərar olmasına diqqət edilməlidir **(erməni deputatların səsi: Amin, Amin)**.

**Nümayəndə Taqianosov:** Təşkilatı mühit yaradır və hətta dəyişdirilmiş mühit onları məhv edə bilər. Bu gün çox şey aydınlaşdırılıb və tam inanmaq olar ki, zəmin dəyişəcək və bütün düşmən təşkilatlar öz-özünə yox olacaq.

**Nümayəndə Stepanov: "**Daşnaksutyun" bütün bəyannamələrində həmişə bütün Qafqaz xalqlarını öz aralarında sülhə çağırıb. Bu, milli deyil, ideoloji təşkilatdır.

**Nümayəndə Şahmalıyev:** Buna baxmayaraq, Daşnaksutyun tərksilah edilməlidir, çünki əks halda xalqımız silahlanıb döyüşə hazır olmaq istəyəcək.

**Nümayəndə Yediyarov:** Tiflisdə erməni Daşnaksutyun heç bir səbəb olmadan bombardmana başladı. Evimi bombaladılar, hətta məni ölümə məhkum etdilər. Nə qədər ki, Daşnaksutyun var, sülhdən söhbət gedə bilməz. Mən bura Borçalı tatarlarını çağırmamışam ki, sonra boş yerə məni bunda ittiham edərlər. Burada "Daşnaksutyun" gizli sənətkar adı altında yaşayıb müsəlmanları öldürür, Kür çayına atırlar... **(Həm erməni, həm də müsəlman deputatlarının səsi: "Bunlar ayrı-ayrı təsadüfü hadisələrdir, sübut olunmamış şayiələrdir, onlara toxunmayın, bəsdir, bəsdir!")** Mən nümayəndəyəm, lütfən, mənə icazə verin... **(Səslər: "Siz özünüzdən danışın, bu heç nəyə aydınlıq gətirmir").**

**Mülki müşavir Peterson:** Təbii ki, ayrı-ayrı təsadüfü hadisələrdir, hətta yoxlanılmamış təsadüfü hadisələrə də toxunmaq olmaz. Onların sorğu-sualı və istintaqı qanuni şəkildə yoxlanılmalıdır.

**Nümayəndə Xatisov (idarə heyətinin üzvü):** Biz ilk növbədə xalqlarımızın maarifləndirilməsi məsələsində bir-birimizə kömək etməliyik və bunun üçün bir-birimizə tam inamla yanaşmalıyıq. Düşünürəm ki, bugünkü fikir mübadiləsindən sonra bir-birimizə inamımız tam möhkəmləndi və bununla da xalqlarımız arasında sülh də möhkəmlənəcəkdir. Bizə bu salonda və Qafqazda ilk dəfə qorxmadan, çaşqınlıqdan azad, doğru söz demək imkanı verən canişin qraf Voronsov-Daşkova təşəkkür edək. Bu həqiqət sözü günəş kimi aramızdakı inamsız buzlaq divarını tez əritdi. Beləliklə, gəlin, bir-birimizə kömək edərək, qrafın rəhbərliyi altında yorulmadan işləyək.

**Nümayəndə Qarabəyov:** Hörmətli həmkarımın çıxışını bir daha alqışlayıram. Biz ilk dəfə olaraq ermənilərdən bizə, hələ də sıraları çox az olan müsəlman ziyalılarına kömək etməyə hazır olduqlarını bildirən xoş söz eşitdik. Elə bu yaxınlarda, şəxsi görüşümüzdə o, bizə etibar etmədi, dedi ki, biz hakimiyyətin gözündə özümüzü ləkələməmək üçün təxribatçılar və knyaz Qolitsın rejiminin əhəmiyyəti haqqında bütün həqiqəti demək istəmirik. Amma indi, deyəsən, biz ermənilərə sübut etdik ki, biz heç vaxt bu rejimə rəğbət bəsləməmişik və ermənilərlə birlikdə kilsə əmlakı onların əlindən alınanda onlarla birlikdə qəzəblənir, qraf Voronsov-Daşkov onu qaytaranda onlarla birlikdə sevinirdik. Bu gün biz bütün həqiqəti dedik və qrafa minnətdarlıq diləyi ilə ermənilərin səsinə qoşularaq, Qafqazın xristian xalqları ilə bizə tam bərabərlik verəcəyi ümidi ilə, uzun müddət bizim Canişin qalması diləyi ilə minnətdarlıq səsimizi əlavə edə bilərik.

**Nümayəndə Şahtaxtinski:** Beynəlxalq münasibətlərə və qanunlara görə Rusiya Kiçik Asiyada Daşnaksutyunu dəstəkləyə bilməzdi, ona görə də, ermənilər buna görə Rusiya hökumətini günahlandıra bilməzlər.

**Nümayəndə Xatisov (mühəndis):** Düşünürəm ki, guya ermənilərin öz dövlətlərini yaratmaq istədiyinin olmasını düşünən müsəlmanları Qarabəyovun belə sadəlövlüklə ittiham etməyi əbəsdir.

**Nümayəndə Vəkilov:** Daşnaksutyun heç də öz xalqına yad olan təşkilat deyil. Bu, millidir və Rusiya daxilində dözülə bilməz, burada rus ordusundan başqa hərbi təşkilat ola bilməz.

**Nümayəndə Taqianosov:** Türkiyədə Daşnaksutyunun ermənilərin Türkiyə imperiyasından ayrılması üçün səy göstərməsi, sadəcə olaraq ermənilərin həyatını və şəxsi hüquqlarını müdafiə etməsidir. Müsəlmanlar heç yuxuda da inana biməzlər ki, Daşnaksutyun Rusiyaya müharibə elan edə bilər? Onlar yaxşı bilirlər ki, erməni dövlətini yaratmaq üçün ermənilər Rusiyadan əlavə Türkiyə və Qacarlar dövlətlərini də məğlub etməlidirlər. Kim belə cəfəngiyyata inana bilər?

**Nümayəndə Ağayev:** Tərəflər bir-birinə güvənmədikdə, asanlıqla bir-birlərinə ən fantastik təklifləri təklif edə bilərlər. Səbəb, əlbəttə ki, daha dərindədir, yəni xristianlarla İslam arasında köhnə, indi köhnəlmiş barışmaz zidiyyətlərdir. Rusiya xristian dövlətidir və keçmişdə Rusiya hökuməti bizim dinimizə görə xristianlığa düşmən olduğumuzu düşünərək xristianları müsəlmanlardan ayırmağa və birincilərə imtiyazlar verməyə kömək edə bilməzdi. Müsəlmanları ermənilərdən daha aciz vəziyyətə salan Rusiya qanun məcəllələrinin səhifələrində gizlədilmiş, bu günə kimi köhnəlmiş o dövrün qanunları və hər cür qadağalarıdır. Ona görə də, antierməni siyasəti yürütməyə başlayan knyaz Qolitsından əvvəl müsəlmanlar depressiyaya düşmüşdü və ermənilər əslində Qafqazda əsas xalqa çevrilmiş, ticarət və sənayeni, yerli mətbuatı öz əllərinə alaraq məmurlar kimi bürokratik sahələrə nüfuz etmişlər. Əlbəttə ki, bu, müdafiə özünəməxsus şəkildə oldu, bəlkə də bir qədər barbar şəkil-

də, daha az maariflənmiş insanların başa düşdüyü kimi, lakin daha mədəni xalqların qanunları və inqilabi üsulları müsəlmanlara daha böyük insanlıq nümunəsi verə bilmədi. Daşnaksutyunun inqilabi qılıncı müsəlman şəhərlərinə dəydi, sonra təbii ki, qan davası, ailə və fitnə zəminində qırğın yarandı və davam edir. Məhz buna görə də Xatisovun bütün dediklərinə və bütün hadisələri işıqlandırmasına baxmayaraq, bizim hamımızın, müsəlman nümayəndələrinin hələ də ixtilafın bilavasitə səbəbinin Daşnaksutyun olduğunu və onu ləğv etmədən sülhün bərqərar olmasını iddia etmək ağılsızlıqdır.

Sonra birinci məsələnin həlli üçün komissiya seçildi, o komissiyaya aşağıdakılar daxil edildi: **ermənilərdən:** Xatisov (İdarə heyətinin üzvü), Taqianosov, Stepanov, Ter-Petrosyan, Arutyunov, Quqasov və Arakelyan və **müsəlmanlardan (Azərbaycan türklərindən-E.Q.)**: Topçubaşov, Ziyatxan, Qarabəyov, Şahtaxtinski, Şahmaliyev, Xasməmmədov və Ağayev. Daha sonra sədr fevralın 24-ü saat 2-dək fasilə elan etdi.

**Qafqaz, 26 Fevral 1906-cı il, №47, s.2-3.**

**İmperator Əlahəzrətlərinin Qafqaz üzrə Canişin Şurasının bu il fevralın 20-də başlayan erməni və müsəlman əhalisinin nümayəndələrinin iştirakı ilə bu millətlər arasında silahlı toqquşmalar məsələsi ilə bağlı iclasın hesabatı.**

**İclas general-leytenant Malamanın sədrliyi ilə bu il fevralın 24-də, cümə günü, saat 14-də davam etdirildi. Əvvəlki iclasda seçilmiş komissiya bildirir ki, səbəblərlə bağlı (hər iki proqramın 1-ci məsələsi) qərar qəbul olunmayıb.**

**Nümayəndə Ağayev:** Bu gün "Vozrojdenie" (İntibah-E.Q.) qəzetində ermənilərin "Araç" qəzetindən iqtibas edilərək götürdüyü məqalədə müsəlman nümayəndələrinin ünvanına

son dərəcə təhqiramiz məzmunlu bir parça dərc edilib **(Çıxarışı oxuyur-Haşiyə: Tiflisdə erməni və müsəlman qurultayının iclasında müxbirimizin şəxsi teleqramında qeyd etdiyi "Araç" qəzetinin ilk məqaləsinin "Vozrajdenie ("İntibah")" qəzetindən tərcüməsini təqdim edirik.**

**"Araç" qəzetinin 30 saylı ilk məqaləsində komissiyasının erməni-tatar toqquşmalarına son qoyulması məsələsi ilə ələqədar qurultayındakı müzakirələrlə bağlı belə deyilir: "Müsəlman nümayəndələrinin hər sözündə, hər cümləsində bir növ soyuq, xaincəsinə əsəbi bir nəfəs hiss olunur. İnsan isə belə düşünməyə məcbur olur ki, diyarımızın əzablarına, cəhənnəm vəziyyətinə son qoymaq yalnız cənab Ağayevlərin və Hacıyevlərin başları məşğuldurlar.**

**Erməni nümayəndələri hətta bölgənin ən yüksək hakimiyyət orqanları qarşısında belə, bu qan tökülmələrində əsas günahkarların çirkin bürokratiya olduğunu səmimi şəkildə bəyan etməyi özlərinə borc bilirlər. Onlar bu böyük cinayətin əsl müəlliflərini ifşa etməkdən çəkinmirlər. Onlar vicdanlarını dəyişmədən başqa cür hərəkət edə bilməzdilər. Onların günəş kimi aydın, həqiqət dilindən başqa dildə danışmağa haqqı yoxdur. Gözümüzün qabağında cərəyan edən kədərli hadisələrin sadə məntiqi belə bir fikrə təkan verir ki, əgər səmimiyyət cəsarəti onlara çətin gələrsə, bu aşkar həqiqət müsəlman nümayəndələri tərəfindən ən azı sükutla qəbul olunacaq. Heç olmasa "bəli" deyəcəklərini, günahın bir hissəsinin hakimiyyətin üzərinə düşdüyünü, onların fikrincə, daha müsbət, daha ciddi səbəblərin olduğunu düşünən adamı bağışlamaq olar. Təqsirləndirilən hökumət nümayəndələri, hətta senator Kuzminski də "qərəzsiz" təftişində belə bir günah payını etiraf edirdilər.**

**Boş ümidlər!**

Müsəlman nümayəndələri, üstəlik “Plus royalistes que le roi (Royalistlərdən daha çox kral tərəfdarıdırlar)”, etimadı itirmiş hökumət agentlərinin üzərinə atılan hər hansı ittihamı eşitmək istəmirlər.

Aydındır ki, bu o deməkdir ki, müsəlman “barışdırıcılar” Tiflisə sülh danışıqlarını ölməkdə olan rejimə pərəstiş etmək vasitəsinə çevirmək, ona köləliklə buxur yandırmaq məqsədilə gəliblər. Başa düşürük ki, bu, tatar avam xalqını istismar edən bəylərin və ağaların bu qədər məharətlə çıxış etdikləri şərq eybəcər taktikasının, qul ehtirasının saxta siyasətidir.

Bəs onsuz da müzakirə olunan rejim sayəsində avam tatar xalqının son şirəsini sovuran, onları öz ardınca sürükləyən və dinc erməni kəndlisinə qarşı qızışdırmaqda davam edən tatar “məşhurları” başqa necə hərəkət edə bilərdilər? “Tatar bəyi tatar xalqının nümayəndəsi deyil, onun cəlladı, qonşularının iqtisadi məhvinə görə məsuliyyət daşıyan əsas tərəf, bürokratiyanın əsl müttəfiqidir”...

“Araç” ön yazısını bu sözlərlə bitirir:

“Ona görə də biz istərdik ki, özünü tatar xalqının (Azərbaycan türkləri-E.Q.) nümayəndəsi adlandıran şəxslərin biabırçı bəyanatları, ləyaqətsiz hərəkətləri bəşəriyyətin hiss etdiyi və düşündüyü yerdə eşidilsin. Biz istərdik ki, dünya erməni xalqının kiminlə əlaqədə olduğunu, Rusiya bürokratiyasının bölgəmizin dinc inkişafına, onun çiçəklənməsinə və bununla da ermənilərin əsrlər boyu mədəniyyətinin və yaradıcı əməyinin vicdanlı bəhrələrinin kimlər tərəfindən xəyanət etdiyini eşitsin və öyrənsin. İstərdik ki, hər kəs ölüm ayağında olan bürokratiyanın Qafqazda hansı müttəfiqləri olduğunu bilsin. Ermənilər hakimiyyət orqanlarını günahlandırır, dodaqlarında mehriban şərq təbəssü-

**mü ilə tatarlar bunu onlarla tərənnüm edirlər. Hakimiyyət nümayəndələri isə bu əlamətdar tamaşaya soyuqqanlılıqla baxırlar. Baxır, dinləyir və susurlar.**

**Beləliklə, təbii ki, son nəticədə bölgəmizi məhv edən toqquşmalar, döyüşlər dayanmayacaq. "Parçala və hökm sür" prinsipi zərrə qədər dəyişməyəcək[76].**).

**Əhmədbəy Ağayevin nitqinin ardı:** Bu tərcümədən də göründüyü kimi, erməni qəzeti bizi bütün xalq arasında nüfuzu olmayan fırıldaqçılar adlandırır, bizi quldurluqda ittiham edir və s. Erməni mətbuatının bu davranışı hədsizdir. Ermənilər sülh istəyirlərsə, o zaman bu cür şıltaqlıqları necə izah etmək olar? İclas bizim səlahiyyətlərimizin qanuniliyini və heç kimə lütf bəsləmədiyimizi, həqiqəti açıq dediyimizi bilir. Bu barədə iclas, o cümlədən bütün erməni nümayəndələri “Araç” qəzetinə öz qəzəblərini bildirməsələr, biz bu görüşdə əlavə iştirakdan imtina edirik, çünki burada sülh və qardaşlıqdan danışmaq faydasız və ardıcıl deyildir. Ermənilər üzərimizə təhqirlər yağdırırlar, çağırış sözsüz ki, sülh üçün deyil, yeni dava-dalaşdır.

**General-leytenant Malama:** Nəyə görə məsələni qanuniləşdirmək və ağırlaşdırmaq lazımdır? Bununla bağlı yalnız təəssüfləndiyimi bildirirəm.

**Nümayəndə Taqianosov:** Ermənilərin müxtəlif istiqamətli bir neçə qəzetləri var. Onların heç birini nə erməni xalqı ilə, nə də bizimlə eyniləşdirmək olmaz. İndi mətbuat azadlığı var və hər kəs hər şeyi yaza bilər. Bizim xalq hər qəzet məqaləsindən narahat deyil.

**Nümayəndə Ağayev:** Qəzet yazıları ictimai rəy yaradır. Ermənilər də, müsəlmanlar da bu yazıları oxuyurlar və əgər iclas və əsasən də erməni nümayəndələri erməni mətbuatının bir

---

[76] «Арач» об армяно-мусульманском сьезде // Каспий, 26-го февраля 1906 г., №45, с.4.

orqanının bu şıltaqlığını təqdir etməsələr, bizim qərarımız əhalinin gözündə hansı hüquqi səlahiyyətə malik olacaq? Sülhün bərqərar olması üçün hansı əsas ola bilər?

**Nümayəndə Şahmalıyev:** Nümayəndə Xatisov da bizim xüsusi görüşümüzdə dedi ki, müsəlmanlar səmimi deyillər, yuxarıların rəğbətini qazanmağa çalışırlar. Dünən bu barədə danışmaq istəmədim, çünki dünənki sakit əhval-ruhiyyəni pozmaq istəmirdim və əmin idim ki, dünən həm Xatisov, həm də hər kəs öz gözləri ilə gördülər ki, biz açıq şəkildə, heç kimi utandırmadan, həqiqəti deyirik və heç bir gizli niyyətimiz yoxdur, ona görə də erməni nümayəndələri açıq şəkildə bizimlə danışığa gəldi. Bizim səmimiyyətimiz sülhə səbəb oldu. İndi erməni mətbuatının səhifələrindən “buxur çəkdiyimiz” kimi, ən təhqiramiz formada da bizi məzəmmət edirlər. Əgər erməni nümayəndələri bununla razılaşmırlarsa, o zaman bunu qəti şəkildə bəyan etməli və qəzetlərinin nalayiq davranışından təəssüfləndiklərini bildirməlidirlər.

**Nümayəndə Şahtaxtinski:** Bir qəzetin fikri cəmiyyətin fikri deyil, biz müsəlmanlar buna fikir verməməliyik **(erməni nümayəndələrinin alqışları)**.

**Nümayəndə Vəkilov:** Önəmli olan qəzet yazısı deyil, erməni nümayəndələrinin ona münasibətidir.

**Nümayəndə Qarabəyov:** Erməni nümayəndələrini birbaşa cavabdan yayınmağa nə məcbur edə bilər, onlar həmrəydirlər, ya yox?

**Nümayəndə Taqianosov:** Əgər biz sizi qanuni olaraq səlahiyyətli hesab etməsəydik, sizinlə nümayəndə kimi oturub söhbət etməzdik. Başqa nə cavab lazımdır?.

**Nümayəndə Ağayev:** Bu cavab deyil. Bu, səlahiyyət məsələsi deyil, hamı bilir ki, guya ədəbsizliyimizin əlaməti olaraq bizə qarşı təhqiramiz bir tonda deyilməsi, bu cəfəngiyyatdır,

amma erməni nümayəndələri deməlidirlər ki, onlar "Araç"ın fikrini bölüşürlər, ya yox? Burada vacib olan odur ki, məqalə erməni qəzetində çıxıb, biz ermənicə oxumağı bilmirik. Yaxşı ki, "Vozrojdenie" bir parça verib, rus dilinə tərcümə edib, yoxsa ermənilərin bizim haqqımızda öz xalqına nə dediyini hələ bilmirdik. Siz bunu edə bilməzsiniz.

**Nümayəndə Kələntər:** Biz vaxt itiririk və şuranın diqqətini başqa yerə yönəldirik. Heç bilmirsən ki, hər birimiz haqqında qəzetlərdə nələr yazıla bilər?! Kim istəsə qəzet gətirə bilər, biz səlahiyyətsiz nümayəndəyik. Biz mənasız qırğından əziyyət çəkən qara kütlələr üçün işə qayıtmalıyıq, tez sakitləşmək vacibdir, onlar qəzetlərə əhəmiyyət vermirlər, qəzet oxumurlar.

**Nümayəndə Şahmalıyev:** Bütün bunlar birbaşa cavabdan yayınmaqdır və buna görə də bu sual daha çox müzakirə tələb edir. Ermənilərin müsəlmanlara və sülh məsələsinə münasibətini xarakterizə etmək vacibdir.

**Nümayəndə Hacıyev:** Onlar öz qəzetlərinə cavabdeh olmalıdırlar. Onlardan soruşuruq, niyə cavab vermirlər? Mətbuat azadlığı təhqir və böhtan yazmaq üçün deyil.

**Nümayəndə Spendiyarov:** Açıqladığımız proqramda mətbuatla bağlı sual olmadığı üçün bu və ya digər qəzetə münasibətimizlə bağlı bu sualı müzakirə edə bilmərik.

**Nümayəndə Ziyadxan:** Keçən dəfə ermənilər polis təxribatları haqqında çox danışdılar. Bu isə qəzet təxribatıdır. Erməni qəzetləri bütövlükdə köşə yazılarında nifaq salmaqda, qızışdırıcı yazılar, şişirdilmiş, qərəzli və hətta uydurma faktlar dərc etməkdə böyük rol oynayıblar. Bu məsələ ilə bağlı belə təxribatçı qəzetləri pisləyən ümumi qərar qəbul edilməlidir.

**Nümayəndə Taqianosov:** Belə olan halda mətbuatla bağlı xüsusi sual qaldırmaq və konkret olaraq müzakirə etmək

lazımdır. Və bu, yeri gəlmişkən, mümkün deyil! Məsələn, mən və yəqin ki, ermənilərin çoxu və bütün müsəlman nümayəndələri “Araç” məqaləsini oxumamışıq. Bunu “Vozrojdenie” (İntibah-E.Q.) qəzetinin sitatına və tərcüməsinə görə qiymətləndirə bilməzsiniz!

**Nümayəndə Ağayev:** Biz mətbuatla bağlı məsələ qaldırmırıq. Biz tələb edirik ki, erməni nümayəndələri bizə açıq və birbaşa cavab versinlər: oxuduğum Vozrojdenienin təkrar nəşrindən göründüyü kimi, erməni “Araç” qəzetinin bizim haqqımızda dediyinə razılaşırlarmı, buna rəğbət bəsləyirlərmi? Yoxsa yox?

**Erməni nümayəndələri (birlikdə):** Xeyr, biz rəğbət bəsləmirik.

**Nümayəndə Ağayev:** Buyurunuz! Nəhayət! (digər müsəlman nümayəndələrinin səsi: “Niyə bu qədər uzun müddət cavab vermədilər?... Nəhayət!...” Hadisə bitdi).

**General leytenant Malama:** Buna görə də proqramları bənd-bənd müzakirə etməyə başlayaq (ibtidai məktəbdə ümumi, icbari, pulsuz təhsil haqqında müsəlman proqramının 2-ci bəndini oxuyur).

**Nümayəndə Ağayev:** Qətliamın əsas səbəbi xalqın savadsızlığındadır. Hökumət dərhal ümumi, pulsuz, icbari təhsili tətbiq etməli və məktəblərə pul xərcləməkdən çəkinməməlidir, çünki bu xərclər gələcəkdə xəzinəyə fayda verəcək. Müsəlmanlar xüsusi məktəb vergisi fondu yaratmağa çox razıdırlar.

**Nümayəndə Topçubaşov:** Və pedaqogika öyrədir ki, ibtidai təhsil ana dilində olmalıdır və canişin Voronsov Daşkov bu məsələni eyni mənada həll etdi, buna görə hamı ona həmişə dərin minnətdar olacaq. Bəs biz müsəlmanlar üçün rüşvətxoruq hardandır? Savad və elmin əsaslarını, eləcə də Şəriət qanununu və İslamı öyrətmək lazımdır. Bu məsələ bizdə inkişaf edə bil-

məzdi, çünki köhnə rejimdə müsəlman dini məktəblərinə icazə verilmirdi. İlk növbədə Tiflisdə ali ruhani-müsəlman məktəbi yaradılmalı və Qoridə müsəlmanlar olmadığına görə müəllimlər seminariyasının tatar şöbəsi buradan köçürülərək, müstəqil təhsil müəssisəsinə çevrilməlidir **(Erməni nümayəndələri müsəlmanların tələblərinə tam qoşulur, məktəbin vergisinin ümumi olması ilə razılaşırlar və beləliklə, bu məsələ ilə bağlı yekdilliklə qərar müsbət mənada qəbul edildi).**

**Nümayəndə Qarabəyov:** Məktəbə və təhsilə mane olan digər bir məqam əhalinin dağlıq ərazilərdə kiçik kəndlərə səpələnməsi, müsəlmanlarla ermənilərin bir kənddə yaşamasıdır. Köç məsələsi proqramda var, amma köç məsələsində buna da toxuna bilərsiniz.

**Tiflis qubernatoru baron Rauş fon Traubenberq** məcburi təhsil istəyini ürəkdən alqışladı və Finlandiya nümunəsi əsasında səyyar məktəbi tövsiyə etdi.

**Nümayəndə Topçubaşov:** Səyyar məktəbin xidmət göstərə biləcəyi yerlər var və hörmətli baronun fikri gözəldir. Amma əsas odur ki, dövlət məktəbinin işləri Xalq Təhsili Nazirliyinin orqanları ilə birlikdə cəmiyyət tərəfindən idarə olunmalıdır.

**Nümayəndə Qarabəyov:** İlk növbədə, səyyar məktəbə maneə müsəlman xalqı arasında hələ də az inkişaf etmiş təhsil istəyi olacaqdır.

**Nümayəndə Stepanov:** Biz ermənilər yalnız müsəlmanları bütün bu ilk başlanğıca görə alqışlayırıq və təbii ki, onlarla əl-ələ verib işləyəcəyik. Kəndli əhalisinin milliyyətinə görə məsələsi çox mürəkkəbdir və ətraflı təhlil tələb edir.

**Nümayəndə Kələntərov:** Amma bu məsələdə həyat məcburi səyyar prinsipini qeyd-şərtsiz rədd etməlidir. Biz əha-

linin buna can atdığı yerdə səyyar məsələsinə mane olmamaqla məhdudlaşdırmalıyıq.

**Nümayəndə Vəkilov.** Əhalisi qarışıq olan kəndlərdə qarışıq məktəb də ola bilər. O hökumət məktəblərində həmişə həm erməni, həm də tatar dillərini bilən, rus dilini öyrədən müəllim tapa bilərsiniz, lakin ilahiyyat dərslərini yerli molla və keşiş öyrədəcək **(Səyyar məsələsi ilə bağlı yekdilliklə qərar qəbul edilir; səyyar təşəbbüsü kənd icmalarının öz ixtiyarına buraxılacaq və mümkünsə, onların bununla bağlı istəklərini təmin edəcək)**.

**General-leytenant Malama:** Müsəlman proqramının 3-cü bəndini oxuyur: müsəlmanların hüquqlarının Rusiya dövlətinin digər şəxsləri ilə bərabərləşdirilməsinin faktiki həyata keçirilməsi haqqında.

**Nümayəndə Topçubaşov:** Qanunlarda müsəlmanların hüquqlarını məhdudlaşdıran birbaşa göstərişlər olmasa da, inzibati adət və hüquqi sənədlər bir sıra hüquqi məhdudiyyətlər yaratmışdır. Xristianlarla qeyri-xristianların hüquqlarındakı bərabərsizliyi, onlar arasındakı ziddiyyətin əsas səbəbidir. Biz bilirik ki, qeyri-xristianların hüquqlarını məhdudlaşdıran bu hüquqi sənədlər əsasən yəhudilər üçün nəzərdə tutulmuşdu, lakin rus vətənpərvərliyini və rus maraqlarını dar və yanlış anlayan son dövrlərin Qafqaz inzibati idarə orqanları bu hüquqi sənədləri, məsələn, şəhər Duma üzvlərinin əksəriyyətinin və bəlkə də yarısından çoxunun xristian olması ilə bağlı şəhər nizamnaməsinin məşhur maddəsini biz müsəlmanlara həvəslə tətbiq ediblər.

**Mülki müşavir Peterson:** Bu maddə ləğv edilib. Yelizavetpol şəhərində (Gəncə şəhəri-E.Q) yalnız müsəlmanların daxil olması ilə nəticələnən şəhər Dumasına son seçkilər buna sübut ola bilər.

**Nümayəndə Topçubaşov:** Qraf Voronsov-Daşkovun ədalətli, insanpərvər inzibati idarəçiliyi bu seçkiləri təsdiqlədi, amma başqa biri köhnə rəsmi qanuna görə onları təsdiqləməzdi. Müsəlmanlar bu cür özbaşınalıqlardan ancaq imperiyanın əsas qanunlarına qeyri-xristianların xristianlarla tam bərabərliyi haqqında müsbət qanun daxil edilsəydi, qoruna bilərdi.

**Nümayəndə Ter-Petrosyan (Aleksandropol şəhər (Gümrü-E.Q.) Duma başçısı):** Aydındır ki, manifestə belə bir qanun tətbiq olunacaq.

**Nümayəndə Ağayev:** Bir çox faktiki və hüquqi məhdudiyyətlər var. Belə ki, orta təhsil müəssisələrində müəllimlik vəzifəsi ali təhsilli müsəlmanlar üçün mümkün deyil.

**Mülki müşavir Peterson:** Və bu münasibətlə artıq nazirdən ləğvedici qanunlar var.

**Nümayəndə Ağayev:** Bütün bular rəsmi qanundur, ümumi qanun lazımdır.

**Nümayəndə Stepanov:** Biz ermənilər müsəlmanların bu tələbinə ürəkdən rəğbət bəsləyirik.

**Nümayəndə Artyunov:** Rusiya qanunlarında qəbilə və dini məhdudiyyətlər yoxdur. Bütün bunları eyni dərəcədə başqa şəhərlərdən gələn xristianları da unutmayan mürtəce rejimin hüquqi qanunları yaratmışdır. Biz isə ermənilər, gürcülər və bütün yerlilər onların sayəsində öz vətənimizdə xidmət etmək imkanından məhrum olduq. Əvvəllər savadlı yerlilər axtarılır və dəyərləndirilir, təqaüdlər verilir, onları xidmətə çağırırdılar. Amma bürokratik vətənpərvərlik bizi Rusiya liderləri sırasından qovdu, baxmayaraq ki, bizim heç bir günahımız yox idi. Bu müsəlman deyil, bu bizim ümumi, hətta Ümumrusiya dərdimizdir. Biz hələ də eyni gücsüz vəziyyətdəyik, lakin biz tam ümid edirik ki, yeni dövlət rejimində qanunlara zidd olan hüquqi sənədlərə yer olmayacaq və qraf Voronsov-Daşkov kimi bü-

tün millətlərə ədalətlə yanaşan belə bir Canişinin dövründə, Qafqazda bütün vətəndaşların hüquqları bərabər olacaqdır. Süni şəkildə düşmənçilik yaradan rejim bir silkələməklə artıq Rusiyaya böyük ziyan vurub və mahnısı bitib.

**Nümayəndə Ziyadxan:** Hətta and içmiş vəkil olmaq üçün müsəlmanın Ədliyyə nazirindən xüsusi razılığı lazımdır. Bu məhdudiyyət yəhudilər üçün qoyulmuşdu, amma birincisi, onlar üçün ədalətsizlikdir, ikincisi, qeyri-xristian sözü ilə nəzərdə tutulan bu, bizim üçün işi asanlaşdırmır.

**Nümayəndə Xocayev:** Yelizavetpolda şəhər Dumasına bir müsəlman daxil edilmişdir. Mən bunda ədalət və bərabərlik görmürəm.

**Nümayəndə Ziyadxan:** Əgər seçicilər məhz bu Duma üzvlərini seçmək istəyirdilərsə, bu, ədalətli olardı. Millətin bərabərliyi onların arasında nifaqın olmamasına gətirib çıxarır və bu da seçkilər zamanı namizədliyini irəli sürən şəxsin milliyyətinin qətiyyən nəzərə alınmaması ilə nəticələnir. Duma üzvlərinin bu və ya digər milli tərkibi təsadüf məsələsidir. İrəvanda daha çox erməni var, Tiflisdə isə ümumiyyətlə müsəlman yoxdur **(Erməni nümayəndələrinin səsi: Əlbəttə, bu, təsadüfdür, kifayət qədər ədalətlidir, amma bu, mənasızdır)**.

**Nümayəndə Xatisov:** Bəzən səsvermənin qiymət vermə sisteminin düzgün qurulmaması nəticəsində qəribə seçki nəticələri əldə edilir. Səsvermə hərtərəfli olduqda, Duma üzvlərinin düzgün sayı millətlər arasında əhaliyə uyğun bölünəcəkdir.

**Nümayəndə Şahtaxtinski:** Şəhər əhalisinin milliyyətinə görə Duma üzvlərinin sayının məcburi mütənasibliyini müəyyən etmək daha ədalətli olardı.

**Nümayəndə arximandrit Yeqişe Muradyan:** Bu, köhnə üsullara qayıtmaq, yenidən millətlər arasında parçalanma yaratmaq deməkdir. Millətlər bərabərdirsə, o zaman seçkilər

zamanı milliyyətə məhəl qoyulmamalıdır **(Müsəlman nümayəndələrinin mehriban alqışları. Borçalının tatar nümayəndəsi saqqallı, "əba" geyinmiş, başında çalma olan ağsaqqal qoca, Abdurrəhman Haqverdiyev general-leytenant Malamaya baş əyərək, zalın ortasına çıxdı və yanında oturan idarənin tərcüməçisi vasitəsilə onlara deyir).**

**Nümayəndə Abdurrəhman Haqverdiyev:** Xahiş edirəm ki, sülh bərqərar olduqdan sonra müsəlmanlarla eyni kəndlərdə yaşayan ermənilər tam inamla bu kəndlərə, öz köhnə yerlərinə, öz evlərinə qayıtsınlar **(Nümayəndə yenidən baş əyərək qayıdır və yerində oturur)**.

Millətlərin və dinlərin tam müxtəlifliyinin faktiki həyata keçirilməsinin zəruriliyi, hər hansı milli və ya dini imtiyazların, habelə şəhər seçkilərində hər hansı məcburi proporsional seçiciliyin ləğv edilməsinə dair qərar çar manifestinə zidd olduğuna görə yekdilliklə qəbul edildi.

**General-leytenant Malama** Şuranın tərkibində məsləhət komissiyasının yaradılması haqqında müsəlman proqramının 4-cü bəndini oxuyur: **Tam sülh olana qədər erməni və müsəlmanların nümayəndələrindən ibarət komissiya yaradılması canişinlikdən xahiş olunur.**

**Nümayəndə Topçubaşov:** İndi burada işlənib hazırlanmış tədbirlər həyata keçirilərkən bir sıra suallar yaranacaq ki, onları həll etmək üçün xalqlarımızın həyatını, xarakterini yaxşı bilmək lazımdır. Bunun üçün canişinə məsləhətçi orqanı kimi bir komitə lazımdır. Həm İmperator Əlahəzrətləri, həm də canişinimiz qraf Voronsov-Daşkov Qafqaz əhalisinə müraciətində inzibati-ictimai təşkilatlanma məsələsində əhali nümayəndələrinin iştirakını məqsədəuyğun və zəruri hesab edirlər. Erməni-tatar (Azərbaycan türkləri-E.Q.) münasibətləri məsələsi üzrə bizim bu müvəqqəti komitəmizdən, təbii ki, digər məsələlər və

məsələlər üzrə məsləhətləşmələr aparmaq üçün Qafqazın bütün millətlərinin nümayəndələrindən ibarət canişin yanında daimi kollegial qurum yaradıla bilər.

**Nümayəndə Ağayev:** Qraf Voronsov-Daşkovun müraciətindəki bu unudulmaz sözlər bütün Qafqaz xalqlarını, əsasən də bizimlə hakimiyyət orqanları arasında digər xalqlarla müqayisədə daha çox fikir ayrılığı olmasına baxmayaraq biz müsəlmanları sevindirdi. Xristian xalqları din, mədəniyyət və əxlaqın ümumiliyi sayəsində öz yüksək təbəqələrinin timsalında bizim, müsəlmanların adət-ənənələri, hər bir qanun və sərəncamdan fərqli həyat tərzi, inancları ilə tam tanış olmamasını əks etdirən daha çox inzibati orqanlara yaxın idilər.

**Nümayəndə Kələntər:** Ermənilər də petisiyalarında (kollektiv ərizə, xahişnamə-E.Q.) bunu istəyiblər. Şübhəsiz ki, Qafqazın bütün digər xalqları da buna qoşulacaqlar, lakin ona görə də biz burada bu məsələ ilə bağlı yalnız bir arzu ifadə edə bilərik və bu məsələni yalnız Ümumqafqaz nümayəndələrinin qurultayında müzakirə etmək olardı.

**Mülki müşavir Peterson:** Proqramda yalnız sülhə qədər müvəqqəti erməni-tatar məsləhət komissiyasının yaradılması məsələsi var və ona görə də indi danışa biləcəyimiz yeganə şey budur. Bunun üçün ermənilərdən və müsəlmanlardan bərabər sayda bir neçə nəfərdən ibarət komissiya yaratmaq lazımdır.

**Nümayəndə Ziyadxan və nümayəndə Arutyunov** belə kiçik bir komissiyanın yaradılmasının zəruriliyindən danışırlar **(Qətnamə yekdilliklə qəbul edilir, məsələ bitir)**.

**General-leytenant Malama** “Quberniya və qəza inzibati idarələrinin və polisin yenidən təşkilinin zəruriliyi haqqında” erməni proqramının 2-ci bəndini oxuyur.

**Nümayəndə Arutyunov**: Köhnə mürtəce rejim quberniya və qəza idarələrində və polis sahəsində ifrat düşkünlük ya-

ratmaya bilməzdi. Bu, Bakı quberniyasında senator Kuzminskinin təftişi nəticəsində əldə edilən və İrəvan quberniyasına münasibətdə knyaz Napoleonun hesabatlarında yer alan faktlarla müəyyən edilib. Burada bütün nümayəndələr yekdilliklə bildirdilər ki, qırğınların baş verməsinin bilavasitə əsas səbəblərindən biri olmasa da, məhz bu rejimdir. Quberniya və polisin tərkibi qraf Voronsov-Daşkovun yaddaqalan sələfindən hamımızın qəbul etdiyi çətin bir mirasdır, daha çətin, çünki hamısını bir anda dəyişmək, əlbəttə ki, mümkün deyil. Ancaq tədricən və səylə bu quruluşu yeni rejimin, fərqli bir ruhun açıq təzahürləri ilə, çar manifesti və hazırkı Canişinin planları ilə razılaşdırmaqla qismən yeniləmək, qismən yaxşılaşdırmaq lazımdır. İlk növbədə, inzibati idarə orqanlarına və polisə vəzifəyə təyin edərkən təhsil ixtisasını, belə desək, qüsursuz keçmişi və mənəvi keyfiyyəti nəzərə almaq lazımdır. Erməni-tatar vilayətində inzibati idarə orqanlarında idarə və polis rütbələri rus xalqından olmalıdır, lakin onlar bölgənin yaşayış şəraiti və yerli dilləri ilə tanış deyillərsə, belə olmadığı halda bu vəzifələrə ermənilər və müsəlmanlar bərabər halda ruslar tərəfindən təyin oluna bilər. Həm qubernatorların, həm də qəza rəislərinin yanında əhali arasından seçilən məşvərət komissiyalarına ehtiyac var və məmurların təyinatı və yüksəldilməsi zamanı onların rəyi nəzərə alınmalıdır. Biz hamımız qraf Voronsov-Daşkovun qərəzsizliyinə və ədalətinə o qədər inanırıq ki, onun canişinliyi dövründə biz bunu edə bilərik, sonra sülh və asayiş təmin olunar.

**Nümayəndə Xatisov (mühəndis):** Biz burada nə qədər o fikirlə razı olsaq da və tam həmrəy olsaq da, unutmaq lazım deyil ki, xalq kütlələrində hələ də çoxlu yanacaq materialı var və küldən alovlanma həmişə mümkündür. Qraf Voronsov-Daşkov humanist və ədalətli insandır, əsl cəngavərdir, lakin ona işçi tapmaq çətin olacaq. Ona görə də ilk növbədə güclü və möh-

kəm hakimiyyət lazımdır ki, o, ilkin mərhələdə şiddətli toqquşmaların, qırğınların, yanğınların qarşısını alsın və hər hansı bir qayda pozuntusuna görə millət fərqi qoyulmadan hər kəsi ciddi şəkildə cəzalandırsın. Cəmiyyət tərəfindən seçilən komitələr, təbii ki, radikal tədbir kimi zəruridir.

**Nümayəndə Muşeqyan:** Polis mühafizəçilərinin cəmiyyətlər tərəfindən tövsiyə olunan şəxslərdən işə götürülməsi və ümumilikdə sınaqdan keçirilməsi zəruridir.

**Nümayəndə arximandrit Yeqişe Muradyan:** Polisin sıralarını yaxşılaşdırmaq üçün onların maddi vəziyyətini düşünmək lazımdır. Onların aylıq əmək haqqı çox aşağıdır. Biz bunu artırmalıyıq.

**Nümayəndə Qarabəyov:** Biz müsəlmanlar ermənilərin tövsiyə etdiyi bu tədbirlərlə tam razıyıq. İnzibati idarə orqanları və polislər doğrudan da erməni-tatar toqquşmalarına biganə yanaşır, onların yatırılması üçün lazımi tədbirlər görmürlər.

**General-leytenant Malama:** Beləliklə, mən görürəm ki, erməni proqramının 2-ci və 3-cü bəndləri yekdilliklə həll olundu, yəni zəruri hesab olunur: inzibati idarələrin və polisin tərkibinin təkmilləşdirilməsi, hər hansı qınaq və ya qərəzli görünən məmurların sıradan çıxarılması, təhsil ixtisaslarını nəzərdə tutan ruslardan, mümkün deyilsə, eyni dərəcədə hər iki millətdən (Azərbaycan türklərindən və ermənilərdən-E.Q.) məmurlar təyin etmək, məmurların sıralarını artırmaq və rütbələri tövsiyə etmək və onların işdən çıxarılmasını tələb etmək hüququ ilə əhalidən seçilmiş məsləhət komissiyaları yaratmaq, məmurlar üçün yerli dili bilmək. Bu o deməkdir ki, əslində müsəlman proqramında eyni məsələyə toxunan 6-cı bənd də müzakirə olundu.

Nümayəndələr sədr tərəfindən verilən bu qərarı yekdilliklə təsdiq etdilər. General-leytenant Malama bununla da iclası 27 fevral bazar günü saat 14:00-a qədər təxirə salır.

**Tiflis qubernatoru baron Rauş fon Traubenberg:** İclasın ilk günündə mən burada olarkən etiraf etməliyəm ki, görüşümüzün könüllü sülhlə müsbət mənada hər hansı bir nəticə verəcəyinə şübhə edirdim. Amma dünənki görüşdə məhz tam sərbəst və səmimi izahatlar müzakirələrin xoş və isti tonuna, bu gün isə bütün məsələlərin yekdilliklə həllinə səbəb oldu.

Sizə, cənablar, yalnız arzu edə bilərəm ki, eyni isti tonda və eyni səmimiyyətlə bu zalın divarları xaricində, həm özünüzün, həm də seçicilərinizlə şəxsi söhbətlərinizi edəsiniz. Görüşümüzün işgüzar sakitliyini müvəqqəti pozan "İntibah" qəzetinin, ermənilərin "Araç" qəzetinin nəşr etməsi ilə bağlı hadisəyə gəlincə, hesab edirəm ki, hamınız həvəslə aşağıdakı qətnaməni imzalayacaqsınız: Məclis nümayəndələri öz səmimi **tonu** ilə, sülh məqsədilə, mətbuata töhfə verməklə səmimi və yekdil arzularını ifadə edir. **(Bütün nümayəndələrin ümumi səs-küylü və uzun sürən alqışları)**.

İclas axşam saat 6-da dayandırıldı.

**Qafqaz, 28 Fevral 1906-cı il, №48, s.2.**

**Sədr general-leytenant Malama fevralın 26-da günorta saat 2-də iclası açaraq köç məsələsi ilə bağlı müsəlman proqramının 5-ci və erməni proqramının 8-ci bəndinin müzakirəsinə başlamağı təklif etdi.**

**Nümayəndə Kələntər:** Buna görə də, Rusiya hökuməti daha sonra köç məsələsini düzgün tənzimləmək üçün tədbirlərə müraciət etdi. Bununla əlaqədar olaraq, köç məsələsi haqqında 1869-cu il tarixli fərmanını göstərə bilərik, lakin praktikada bu qanun özünü doğrultmadı. Bölgədə lazımi baytarlıq nəzarətinin

tətbiqi ilə köç məsələsi yenidən gündəmə gəlsə də, bu günə qədər bu sahədə heç bir irəliləyiş yoxdur. Təbii ki, bu proses İsveçrə və Avropanın digər dağlıq ölkələrindən nümunə götürərək, əsasən ən yaxın dağlıq ərazilərdə yaşayan sakinlərin maldarlıqla məşğul olmağı düzgün, mədəni, dağlıq iqtisadiyyatı ilə başa çatmalıdır. Əkinçilik və bağçılıqla isə əsasən iri çaylar boyu uzanan düzənliklərin sakinləri məşğul olurlar. Bütün hökumət tədbirləri buna səy göstərməlidir ki, bu da eyni istiqamətdə hərəkət edən təbii-tarixi təkamülü əhəmiyyətli dərəcədə sürətləndirə bilər. Görünür, Qafqazın tatar əhalisində köç mərhələsi artıq son günlərini yaşayır. Türkiyənin ona bitişik vilayətlərində, qismən də bizim ölkədə yaşayan kürdlər köçərilikdən əl çəkərək artıq bir çox yerlərdə məskunlaşıblar. Qafqazın bir çox tatar kəndləri indi zərurətdən deyil, sadəcə olaraq vərdiş üzündən köç həyatı sürürlər, onsuz da belə bir şəraitdə köç məsələsi elatların özləri üçün zərərlidir. Bəs cinayətlərin və toqquşmaların sayı iki dəfədən çox artıbsa, o zaman tatarlarla ermənilər arasında münasibətlərin bu qədər gərginləşdiyi bu ildən nə gözləmək olar? Toqquşma halları qaçılmazdır və onların hər biri asanlıqla hər yerdə fitnə və qırğınları yenidən alovlandıra bilər. Biz erməni nümayəndələri uzun müddət bu mürəkkəb məsələni və müsəlman nümayəndələrinin proqramında təklif olunan bütün tədbirləri bu ilki köç zamanı sülhün və asayişin qorunub saxlanmasını təmin etmək üçün müzakirə etdik və sonda belə qənaətə gəldik ki, bu tədbirləri həyata keçirmək həm çətin, həm də etibarsızdır. Onlar mühafizəçilərin və qoşunların sayıq nəzarətinə, repressiya tədbirlərinə köklənirlər, lakin hər biri ayrı-ayrı toqquşmalara səbəb ola biləcək qədər təcrid olunmuş toqquşmaların, qırğının qarşısını alacaq geniş köç yollarında belə bir nəzarətin qurulması həqiqətən mümkündürmü?. Ona görə də görürük ki, erməni-tatar iğtişaşlarının olduğu yerlərdə yalnız bu

il üçün köç məsələsinin ləğvi sülh və asayişi möhkəmləndirə bilər və edəcəkdir. Əgər bu il ora köçə icazə verilsə, biz indiki görüşdən əvvəl onun sayəsində yeni güclü qırğınların yenidən başlamayacağına hətta güclə də məsuliyyət daşıya bilmərik.

**Nümayəndə Ağayev:** Kələntər özü köç məsələsini xalq məişətinin və təsərrüfat həyatının tarixi mərhələsi kimi mükəmməl təsvir etdi, bəs o, necə fikrə gələ bilər ki, köçün inzibati hakimiyyət orqanlarının sərəncamı ilə ləğv oluna biləcəyini və bu ləğvin sülh və asayişi bərqərar edəcəyini iddia etsin? Tatarların mədəni inkişafını və aran yerlərində suvarma qurğularının olmadığını nəzərə alaraq, qeyd etmək lazımdır ki, onlar kef üçün köç etmirlər. Yayda bu aran yerlərində nə su var, nə ot, qızdırma tüğyan edir, həm uşaqları, həm də qoyunları məhv edir. Onlara deyin: burada qalı, bu, onları aclığa və ölümə məhkum etmə deməkdir. Müsəlmanlar özlərini qəddarcasına və haqsız yerə cəzalandırılmış hesab edəcəklər. Bu sülh və asayişə gətirib çıxararmı? Sülhün bərqərar olması üçün insanlar erməni nümayəndələrinin təklif etdiyi kimi ayrılmaq yox, birləşməlidir. Kələntər tarixi təkamüldən gözəl danışdı, biz özümüz buna can atırıq və istəyirik ki, xalqımız tamamilə oturaqlaşsın və mədəniyyətin növbəti mərhələsinə sürətlə daxil olsun, lakin indi köç məsələsi onun təcili ehtiyacıdır, bu, kortəbii bir hərəkatdır və nizam-intizamla bağlı olsa da, köç davam edəcəkdir. Onu saxlamaq üçün köç üzərində sadəcə nəzarət yaratmaq, müqayisə olunmayacaq dərəcədə böyük hərbi qüvvə tələb olunacaq. Bir tərəfə qarşı belə aşkar zorakı, ədalətsiz və qəddar tədbirlər sülh və asayişlə nəticələnə bilərmi?

**Nümayəndə Qarabəyov** da, eyni fikri bildirərək, belə bir tədbir yalnız müsəlmanların ermənilərə qarşı düşmənçiliyin ən yüksək səviyyədə inkişaf edə biləcəyində görürdü.

**Nümayəndə Vəkilov** Ağayev və Qarabəyovu dəstəkləyərək qeyd edir ki, təkcə müsəlmanlar deyil, aran yerlərində malqarası və sürüləri olan bütün çobanlar köçərilik edirlər.

**Nümayəndə Sərkisyan ("Murç" qəzetinin redaktoru)**: Köçəri həyat tatarlar və indi köçəri tayfalar tərəfindən buraya, dağlıq Qafqaza gətirilən çöllərin qızıdır, lakin burada onlar artıq yarımköçəriyə çevriliblər və nəhayət oturaqlaşıblar. Ona görə də, hakimiyyətin və ziyalıların fikri köçəriliyə qarşı yönəlməlidir. O zaman Kür ovalığında əsrlər əvvəl mövcud olmuş və Orta Asiya tatarları tərəfindən dağıdılan, suvarma qurğularını dağıdan, qafqazlıları dağlıq ərazilərə sıxışdıran zəngin mədəniyyət yenidən inkişaf edəcəkdir.

**Nümayəndə Şahmalıyev:** Həyat maraqlarından danışarkən tarixdən danışmağın mənası yoxdur. Köçərilik müsəlmanların əlindən alınarsa, qışda əksinə dağlardan arana enən xevsurlulardan da götürülməlidir. Amma ümumilikdə insanların gündəlik çörəyini əlindən almaq mümkün deyil.

**Nümayəndə Hacıyev:** Bizə köç zamanı hərbi müdafiə lazımdır, başqa heç nə.

**Nümayəndə Quluyev (erməni, mühəndis):** Təhlükənin gözünə baxmaq lazımdır və buna zəmanət verə bilmərik. Müsəlman nümayəndələri dedilər ki, onların qara kütləvləri elə bilirlər ki, ermənilər öz dövlətlərini qurmaq istəyirlər və mən gizlətməyəcəyəm ki, bizim qara kütlə də ermənilərin öz dövlətlərini qurmaq istədiyini düşünür, gizlətməyəcəyəm ki, bizim qara kütlə tatarların öz həmdinləri olan Türkiyə ilə birləşmək istədiklərini düşünürlər. Bu o deməkdir ki, düşmənçilik var və yəqin ki, köç zamanı alovlanacaq, çünki belə böyük bir məkanı qorumaq mümkün deyil.

**General-leytenant Malama (Ermənilərə xitabən):** Nəzəri mülahizələr yalnız məsələləri gecikdirir. Axı hakimiyyət

orqanları xalqın həyatını məhv edə bilməz. **(Müsəlman nümayəndələrinin səsi: "Doğrudur", "doğrudur"!)**. Köç zamanı tədbirlərdən danışmaq lazımdır.

**Mülki müşavir Peterson:** Qubernator sizin diqqətinizi tatarların (Azərbaycan türkləri-E.Q.) yeni mədəniyyətə keçidi məsələsinə deyil, bu il köç zamanı qarşıdurmaların qarşısının alınması məsələsinə yönəldib. Ona görə də bu mənada əməli tədbirlərdən danışmaq lazımdır, lakin tatarlardan əkinçiliyi dayandırmağı tələb etmək lazım deyil, onlara ilk növbədə başqa məşğuliyyət öyrədilməlidir. **(Müsəlman nümayəndələrinin səsi: "Tamamilə doğrudur, bəli, başa düşüləndir"!)**.

**Nümayəndə Xatisov (mühəndis):** Təbii ki, tatarlara köçərilik lazımdır. Biz ancaq deyirik ki, öz üzərimizə məsuliyyət götürə bilmirik, etibarlı tədbirlər tapa bilmirik. Əgər hakimiyyət orqanları müvafiq tədbirlər görə bilsələr, o zaman biz çox sevinəcəyik.

**General-leytenant Malama:** Əgər çətin olsa, hakimiyyət orqanları onları qəbul edəcək.

**Nümayəndə Hacıyev:** Biz bunu xahiş edirik.

**Nümayəndə Ziyadxan:** Yerli komissiyalar hakimiyyət orqanları ilə birlikdə tədbirlər hazırlaya bilərlər.

**Nümayəndə Məlik-Bəylərov:** Həmin yerlərdə quldur dəstələri də var. Hakimiyyət üçün çox çətin olacaq.

**General-leytenant Malama:** İnanıram ki, nümayəndələr məsələni belə həll edəcəklər: köçəriliyin ləğvi ağlasığmazdır, hakimiyyət orqanları ictimaiyyət nümayəndələrinin köməyi ilə təhlükəsizlik tədbirləri görməlidir.

**Nümayəndə Kələntər.** Lazımdır ki, köç məsələsi ümumi, tarixi baxımdan inkişaf etdirilsin.

**Tiflis qubernatoru Baron Rauş fon Traubenberq:** Baxmayaraq ki, bu gün nümayəndələrin çıxışlarında ziddiyyət

var, ancaq bu, göz qabağındadır, məsələlər iki hissəyə bölündü. Ümumi tarixi nöqteyi-nəzərdən erməni nümayəndələri oturaq, mədəni iqtisadiyyata təkamülün zəruriliyindən ən aydın şəkildə danışdılar. Lakin müsəlman nümayəndələri buna qarşı çıxmadılar. Digər tərəfdən, köç məsələsi baxımından bu il də, indi də müsəlman nümayəndələri daha aydın danışsalar da, ermənilər onların əleyhinə mübahisə etmədilər, lakin məsuliyyəti də üzərilərinə götürmədilər, bu da köç zamanı qırğınları alovlandırmaya bilməz. Lakin onlar, təbii ki, etiraf etməyə bilməzlər ki, köçəriliyin ləğvi təkamül deyil, inqilabdır və bu arada hər hansı bir inqilab tərəqqini ləngitmir. Bir fransız atalar sözündə deyilir: "Ən yaxşısı yaxşının əsas düşmənidir". Ən yaxşısı indi əlçatmazdırsa, yaxşılıq haqqında düşünmək lazımdır. Düşünürəm ki, hər iki məsələ hakimiyyət orqanları tərəfindən işlənib hazırlana bilər və Tiflis quberniyası üçün bu il köç məsələsi artıq işlənib hazırlanıb və qanun layihəsi var. Ancaq bizim nümayəndələrə kömək lazımdır və buna görə də iki komissiya seçməliyik: biri bu ilki köçün təhlükəsizliyini təmin etmək üçün tədbirləri nəzərdən keçirmək, digəri isə tatar yarımköçəri tayfasının təkamül prosesini, oturaq həyat mərhələsini sürətləndirmək üçün tədricən tədbirləri müzakirə etmək.

**Şura üzvü Junkovski:** Tədbirlərin təfərrüatları yerlərdə hazırlanmalıdır, lakin burada yalnız ümumi əsas müddəalar göstərilmişdir.

**Nümayəndə Xatisov (duma üzvü):** Müsəlman proqramında təklif olunan tədbirlərə qarşı heç bir iradımız yoxdur, amma biz həkim kimi ağır xəstənin çarpayısının yanında resept tələb edən qohumlarına deyirik: biz indi xəstəyə kömək edəcək resept tapmamışıq və yalnız şou üçün resept yazmaqdansa bunu daha dürüst hesab edirik.

**General-leytenant Malama:** Belə ki, aşağıdakı qərar qəbul edilməlidir: 1) köç dayandırılmasın; 2) tatar əhalisinin təkamül yolu ilə oturaq həyata keçməsinin arzuolunanlığını ifadə etmək və 3) əhalinin seçilmiş nümayəndələrinin iştirakı ilə tədbirlərin işlənib hazırlanmasını hakimiyyət oqanlarının öhdəsinə buraxmaq.

Daha sonra sədr fevralın 27-si günorta saat 2-də davam etdirilməsini təyin edərək, iclası saat 6-da bağladı.

**Qafqaz, 1 mart 1906-cı il, №49, s. 3**

General- leytenant Malama iclası fevralın 27-də günorta saat 2-də davam etdirdi və bildirdi ki, Qafqaz Canişini Zati-aliləri qraf Voronsov-Daşkov köç məsələsi ilə bağlı dünənki qərarla kifayətlənmək istəyir. Aşağıdakı şəxslərdən bu məsələ ilə bağlı daha dəqiq nəticə eşitdik, ona görə də bu il köç məsələsini təmin edə biləcək tədbirlərin hərtərəfli müzakirəsi və hər millətdən üç nəfərdən beş nəfərə qədər nümayəndələrdən ibarət komissiyanın seçilməsi zəruri görünür. Belə bir qarşıdurma zamanı silahlı toqquşma ehtimalının qarşısının alınması və belə bir komissiya işinin yaradılması, onun seçilməsi dünənki iclasda müzakirə edildi. **(Erməni nümayəndələr belə bir komissiyaya qarşı deməyə sözlərinin olmadığını bildirirlər).**

**Tiflis qubernatoru Baron Rauş fon Traubenberq:** Bu komissiya Tiflis quberniyasında builki köç ilə bağlı hazırlanmış və indi poçtla göndərilmiş qaydalar layihəsi ilə tanış olmalıdır **(Qubernator bu qaydaları oxuyur).** Gördüyünüz kimi, cənablar, burada imkan daxilində köç zamanı elatlarla oturaq əhali arasında münasibətləri gərginləşdirən hər hansı bir qarşıdurmanın qarşısını almaq üçün bütün tədbirlər görülür; mal-qaranı otarmaq üçün konkret yerlər və konkret vaxt göstərilir ki, bu şəraitdə hakimiyyət orqanları və polis tərəfindən köçərilərə

sayıq nəzarət mümkün olur, toqquşmaların qarşısını alır və yola bitişik köçəri otlaqları qorunur. Göründüyü kimi, hələ də xəstənin mənafeyini qoruyan və hər bir ən vicdanlı həkimin arxayınlıqla yaza biləcəyi bir resepti yazmaq olar **(Müsəlman nümayəndələrindən alqışlar).**

**General-leytenant Malama** müsəlman nümayəndələrinin proqramının 7-ci bəndinin müzakirəsinə keçməyi təklif edir və bunun erməni proqramının 3-cü bəndi ilə eyni vaxtda həll edilməli olduğunu xatırladır **(Bütün vəzifəli şəxslərin öz rəsmi işlərini lazımi və maneəsiz yerinə yetirməsinə təminat verən müsəlman "Tədbirlər" proqramının 7-ci bəndi oxunur)**.

**Nümayəndə Ağayev:** Xalqların tarixində elə hallar olur ki, ola bilsin ki, uca, ümumbəşəri məqsədlərə can atmaq üçün terrora haqq qazandırmaq olar və mən də, şəxsən bir publisist Ağayev kimi, müəyyən terrora rəğbətlə yanaşa bilərəm, lakin bir xalq öz milli maraqları naminə digər millətin zərərinə məmurları terror etdikdə və bunun sayəsində qorxunun təsiri altında millətlərlə ədalətli davranmaq qabiliyyətini itirdikdə, heç kim belə terrora rəğbət bəsləyə bilməz və müsəlman əhalimizin böyük bir hissəsi məhz belə terrordan əziyyət çəkmiş və bunu erməni inqilabi təşkilatlarına bağlamaq təbii ki, qəzəblənərək ermənilərə qarşı çıxmaq demək deyildir. Təbiətinə görə hakimiyyətə tamamilə tabe olan və heç bir inqilabi əhval-ruhiyyəyə malik olmayan müsəlman xalq kütlələrinin gözündə məmurların qətlə yetirilməsi, məmurları qorxudan, onların çağrışlarına uyğun gəlməməyə və asayişi kifayət qədər səylə bərpa etməməyə məcbur edən bombalar və hədələyici məktublar və elanlar, müsəlmanların terrorun qurbanı olduğu hallar da daxil olmaqla, günahı müsəlmanların üzərinə yıxmağa çalışırdılar. Bu, müsəlmanları erməni inqilabi təşkilat hesab etdikləri terrorçula-

ra qarşı qanlı mübarizə aparmağa məcbur etdi və buna görə də bu təşkilat var olduqca müsəlmanlar sakitləşib ermənilərlə barışa bilməzlər. Terrorun da bir həddi olmalıdır.

**Mülki müşavir Peterson:** Polis məmurlarının və hakimiyyət orqanlarının fəaliyyətində hər hansı ümumi nöqsanların olması məsələsi artıq yoxlanılıb və həll olunub, ona görə də eyni məsələnin sadəcə təkrarı olan 7-ci bəndin ayrıca müzakirəyə çıxarılmasına ehtiyac yoxdur. Nümayəndə Ağayevin indi verdiyi həmin dəqiqləşdirmələrə gəlincə, müəyyən xarakterli terror aksiyalarının dayandırılması tələbi yalnız bu aksiyaları həyata keçirən inqilabi təşkilata aid edilə bilər. Bütün hakimiyyət orqanları və məmurlar istisnasız olaraq bütün terroru dayandırmağa və bütün terrorçuları cəzalandırmağa borclu olduqlarından, terror təhdidlərinə qorxaqlıq olmadan yanaşmağa eyni dərəcədə borclu olduqlarından məclisə və hakimiyyət orqanlarına belə tələblər irəli sürmək yersizdir və bu, qətnamə şəklindədir, ona görə də, bunu onlardan ən mötəbər qanun və and kimi tələb etmək lazım deyil **(erməni nümayəndələrinin alqışları)**.

**Nümayəndə Hacıyev:** Bu bəndi daxil etməklə biz özümüzü müdafiə etmək istəyirik və ona görə də, qanuni hakimiyyət orqanlarının və məmurların qorxuya düşməsini istəmirik. Bütün üstünlükləri ermənilərə verə bilməzsiniz. Onların mədəniyyəti, təhsili, mətbuatı, hətta bombaları olan inqilabi təşkilatı var, amma bizim hakimiyyətdən qorunmağa ümidimiz yoxdur, hətta bunu terrorla da etmək olar. Bizi, əlimizə bomba götürməyi məcbur etməyin.

**Nümayəndə Spendiarov:** Onların burada dedikləri dəhşətdir! Daha dinləyə bilmirəm! Mən getməli olacam.

**Nümayəndə Hacıyev:** Və istəsəniz gedə bilərsiniz.

**Nümayəndə Taqianosov:** Mən Spendiarovla razı deyiləm, bu onun ağzından çıxdı və biz erməni nümayəndələr heç

getmək istəmirik. Əksinə, biz Hacıyevlə tam razıyıq ki, hər hansı terror cəmiyyətdə və dövlətdə dözülməz hadisədir və hakimiyyət bununla qorxmadan mübarizə aparmalıdır və hörmətli cənab Petersonun dediyi bu fikri alqışlayırıq. Nümayəndə Ağayev mahiyyətcə eyni nəzəri ideyanı işləyib hazırlayıb ki, onunla tamamilə razıyıq. O, sadəcə olaraq rəğbət bəslədiyi bir növ xüsusi terror olduğunu söylədi. Amma bütün bunlar sadəcə nəzəri mülahizələrdir, tamamilə lazımsızdır. Əgər onların arxasında hansısa gizli niyyətiniz varsa, açıq deyin, sonra sizə cavab verək.

**Nümayəndə Şahmalıyev:** Terror hakimiyyətə tamamilə tabe olan müsəlman əhalisini ruhdan salır.

**Nümayəndə Aryutunov:** İnqilabi terrorla mübarizə aparan jandarm idarəsi var və görəsən niyə müsəlmanlar bu məsələni ora yox, bizim toplantımıza gətiriblər. Ona görə də, bu sualı çıxarmağınızı xahiş edirəm.

**Nümayəndə Topçubaşov:** Əgər reallığa gözlərinizi yumsanız, deməli, bu sual həqiqətən mənasızdır, amma buna məhz reallıq, həyatın özü səbəb olur. Erməni-tatar davası terror zəminində yarandı və xalqımızın erməni təşkilatına aid etdiklərinə qarşı mübarizə şəklində tatar (Azərbaycan türk-E.Q.) qırğını başladı. Deməyə bilmərik ki, sülhün bərqərar olması üçün ilk növbədə bu təşkilatın reallığına son qoyulmalıdır.

**Nümayəndə Kələntər:** Bəs biz, nümayəndələr, hansı vasitələrlə terroru dayandıra bilərik? Ona görə də, hakimiyyət və onun xüsusi orqanları var.

**Nümayəndə Ziyadxan:** Biz bu məsələyə ciddi baxırıq və onu müzakirə etmək lazımdır.

**Nümayəndə Babov:** Bizə araşdırılmış və sübut olunmuş faktlar göstərilsin ki, bu və ya digər məmurları məhz bu və ya digər erməni inqilabi təşkilatları qətlə yetiriblər.

**Nümayəndə Merabyan:** Biz müsəlmanlardan tələb etmirik ki, onlar daim erməniləri qətlə yetirən çoxsaylı və vəhşi quldur dəstələrinin fəaliyyətini dayandırsınlar və biz bu dəstələri müsəlman xalqı ilə eyniləşdirmirik. Əgər bir təşkilat varsa, niyə erməni xalqı hər hansı bir təşkilatın əməllərinə görə məsuliyyət daşımalıdırlar? Sədr məsələni həll edilmiş hesab edir və o mənada qərar qəbul edir ki, müsəlman proqramının bu bəndi polis məmurları və idarə orqanlarının fəaliyyətində aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün tədbirlər artıq həll olunmuş məsələnin tərkib hissəsinə tabedir, hər cür terrorizmə qarşı güclü mübarizə şübhəsiz bütün dövlət orqanlarının borcudur. Müsəlman proqramının 8-ci bəndində qısa mübahisədən sonra qərara alınır: bu məsələ ilə bağlı heç bir xüsusi qənaətə gəlmək olmaz. Bunun üçün sədr sizə müsəlman proqramının 9-cu bənddidə göstərir: erməni-tatar ədavəti zəminində baş vermiş cinayətlərdə cinayət törədənlər təslim edilməli və həlak olanların ailələrinə kompensasiya verilməli və xüsusi yerli komissiyalar tərəfindən cəmiyyətə dəyən itkilər müəyyən edilməlidir.

**Nümayəndə Ziyatxan** bu mühüm məsələni ilkin olaraq komissiyanın müzakirəsinə çıxarılmasını təklif edir.

**Nümayəndə Xatisov (mühəndis):** Əslində, "Daşnaksutyun" təşkilatının ləğv edilməsi ilə bağlı 7, 8 və 9-cu bəndlərdə müsəlmanlar tərəfindən qoyulan tələblər, əvvəllər bəyan edilmiş tələblərdən qaynaqlanır. Biz bunu özümüz də istərdik, çünki bu təşkilatın yaranmasına səbəb olan şərtlər artıq mövcud deyil, amma illər ərzində yaradılmış bir şeyi birdən-birə necə məhv etmək olar? Necə ki, tanınmış siyasi partiyanı birdən-birə ləğv edə bilməzsən. Bütün millətlərin partiyaları var. Həmin Musa haradadır ki, narahat dənizə: "Sus!" deyə bilər. Bu Musa yalnız bir müddət olacaq. Cinayətkarları təslim etmək nə de-

məkdir? Bu, detektiv işlə məşğul olmaq deməkdir. Bu cəmiyyət üçün bir məsələdirmi? Bunu polisin və məhkəmənin öhdəsinə buraxaq. Onların səlahiyyətlərini zəbt etmək olmaz.

**Nümayəndə Hacıyev:** Biz özümüz də 17 oktyabr manifestinə sevinirdik – hadisələrdə iştirak etdik, sosial-demokratları öpürdük, lakin Daşnaksutyun bizi heç öpmədi. Biz tələb etmirik ki, "Daşnaksutyun" ləğv edilsin, erməni nümayəndələri onlara, öz qardaşlarına təsir göstərsinlər ki, nə hakimiyyətə, nə də biz müsəlmanlara toxunmasınlar. Əgər öz qardaşlarımıza təsir edə bilmiriksə, onda biz necə nümayəndəyik, niyə bura toplaşmışıq?

**Nümayəndə Taqianosov:** Cinayətkarların təslim edilməsi praktiki olaraq mümkün deyil. Qətlin səbəblərini necə müəyyən edə bilərik? Ümumiyyətlə, bu, məhkəmə hakimiyyəti dairəsinə müdaxilədir. Biz yalnız hakimiyyətdən bu məsələlərə mümkün qədər ciddi yanaşmalarını xahiş edə bilərik.

**Nümayəndə Qarabəyov:** Biz hakimiyyət orqanlarına kömək etməliyik. Günahkarı tanıyan hər kəs sülhü qorumaq üçün onu hakimiyyət orqanlarına təhvil verməlidir.

**Nümayəndə Xatisov (mühəndis):** Ancaq belə bir öhdəlik götürmək olmaz. Bu, yeni anlaşılmazlıqlara səbəb olacaq. Günahkarları tapmaq olmur, buna görə bütün xalqı günahlandırmağa başlayacaqlar.

**Nümayəndə Topçubaşov:** Bu bəndi həyat da təklif edir, çünki ört-basdır zamanı hakimiyyət günahkarları və təhrikçiləri aşkar etməkdə aciz olacaq.

**Nümayəndə Aryutunov:** 9-cu bənd hüquqi cəhətdən etibarsızdır, çünki cinayətin səbəbləri yalnız təfərrüatlı araşdırma yolu ilə müəyyən edilə bilər ki, bu da yalnız məhkəmə istintaq orqanları tərəfindən həyata keçirilə bilər. Bundan əvvəl hansı cinayətin milli çəkişmə zəminində baş verdiyini necə müəy-

yənləşdirilirdi? Bu arada, bunu həll etmək lazımdır, çünki cəmiyyət istintaq orqanlarının və prokurorluğun bütün işlərinə qarışa bilməz. Cinayətin səbəbləri adətən təqsirkar aşkar edildikdən sonra bəlli olur, lakin aşkar edildikdə artıq onun təhvil verilməsinə ehtiyac qalmır. Qanuna görə, cəmiyyət aşkar istintaqdan tamamilə kənarda qalıb və buna görə də cinayətkarların aşkarlanması və axtarışı məsələsində acizdir. Gizlətmə və məlumat verməməyə gəlincə, bu məsələdə vətəndaşın vəzifəsi qanunun özü tərəfindən qorunduğundan, gizlədənləri və xəbər verməyənləri ciddi şəkildə cəzalandırdığı üçün bu məsələ ilə bağlı hər hansı bir tənzimləmə aparmağımıza ehtiyac yoxdur. Beləliklə, 9-cu bənddə sadəcə xəbər verməyi tövsiyə etməkdən ibarətdir, lakin bütün əhalini xəbər verməyə və xəbərləri çoxaltmağa məcbur etmək hər cür iğtişaşları və fitnələri inkişaf etdirmək, onları sakitləşdirməmək deməkdir.

**Nümayəndə Ziyadxan:** Əsl günahkarların və təhrikçilərin aşkarlanmasına hər cür töhfə verəcəyimizə mənəvi söz verəcəyimiz kimi, biz təkzib etməyi tövsiyə etmirik, lakin daha çox məlumat istəyirik. Xüsusilə, indiki kimi anormal həyat şəraitində bu, vətəndaşların nəcib borcudur. Qanunun özü cəmiyyəti haqq işinə çağırır. Şahidlər xəbərçi deyillər, necə ki, andlılar da cəllad deyillər.

**Nümayəndə Babov:** Cinayətkarların təhvil verilməsi qeyri-mümkün tədbirdir. Nə erməni, nə də tatar kəndi günahkarları könüllü olaraq sizə təhvil verməyəcək. Bunun üçün ilk növbədə onların mədəniyyətini, vətəndaş şüurunun səviyyəsini yüksəltməliyik. Kənd cəmiyyətinin mülkiyyət məsuliyyəti yaxşı və ədalətli tədbirdir. Bir tərəf üçün həm cəza, həm də digər tərəf üçün məmnunluq təşkil edən bu tədbir toqquşmaların qarşısını alır. Bu tədbir əvvəllər də tətbiq edilib və əhali tərəfindən mənimsənilib.

**Nümayəndə Ağayev:** Ermənilər ilk əvvəl Bakıda öldürülən Babayevin qatillərini təhvil versəydilər, o zaman qırğın olmayacaqdı.

**Nümayəndə Hacıyev:** Biz qatillərimizi təhvil verəcəyik, siz isə onları təhvil verməyinizdən qorxursunuz.

**Arximandrit Yeqişe Muradyan:** Cinayətkarların yalnız müəyyən hallarda təhvil verilməsini tələb edə bilməzsiniz. Bu, cəmiyyətin vicdan məsələsidir və əmr etmək olmaz. Bütün cəmiyyətin cinayətkar üzvünə görə məsuliyyəti əmlak məsuliyyətindən kənara çıxa bilməz. Əmlak məsuliyyəti həm ədalətli, həm də məqsədəuyğun tədbirdir.

**General-leytenant Malama:** Təklif olunan bəndlər, bir qayda olaraq, aşağıdakı kimi formalaşdırıla bilər:

1) Hökumət dövlət daxilində onun icazə vermədiyi hər hansı hərbi təşkilata dözə bilməz və buna görə də hökumət hər hansı belə təşkilatı ləğv etmək və fəaliyyətini dayandırmaq üçün bütün tədbirləri görməlidir və cəmiyyət və ümumilikdə bu mövzuda bütün sadiq təbbələri hökuməti təmin etməyi və hər cür yardım etmələrinə borcludurlar.
2) Hər bir vicdanlı vətəndaş dövlət orqanlarına verdiyi düzgün məlumatlarla cinayətin açılmasına öz töhfəsini verməyə borcludur.
3) Cəmiyyətin üzvləri tərəfindən erməni-tatar düşmənçiliyi zəminində törədilmiş cinayətlərə görə əmlak məsuliyyəti ədalətli və məqsədəuyğun tədbir kimi tanınır və bu tədbir artıq keçmişdə uğurla tətbiq edilmiş və ona görə də bu tədbirin gələcəkdə də tətbiqi tövsiyə olunur **(Heç bir etiraz yoxdur).**

Sədr iclası fevralın 28-i saat 2-yə qədər təxirə saldı.

**Qafqaz, 2 mart 1906-cı il, №50, s.4**

**Çərşənbə axşamı, fevralın 28-də, günorta saat 2-də general-leytenant Malama qurultayın iclasını açdı və bildirdi ki, erməni nümayəndələrinin proqramının 4-cü bəndi - tezliklə ədalət məhkəməsi haqqında məsələ müzakirə ediləcək.**

**Nümayəndə Artyunov:** Müzakirə olunan məsələnin əhəmiyyəti şübhəsizdir. İki millət arasında kütləvi toqquşmalar, hüquq və mənafelərə kütləvi qəsdlər yalnız o zaman dayanacaq ki, qanunla qorunan əhali istənilən təcavüzün layiqli cəza alacağına əmin olsun. Bu prinsip yeni deyil, o, Böyük Pyotrun 1721-ci il aprelin 17-də verdiyi məşhur fərmanında öz ifadəsini tapıb, burada deyilir ki, "qanunlar icra olunmazsa, boş yerə yazılır". Lakin biz ədliyyə orqanlarının bütün fəaliyyətinə nüfuz etməli olan bu ideyanın həyata keçirilməsini görmürük. Haqqında danışdığımız işlərdə hökm tez yerinə yetirilmir, əgər hökm tez yerinə yetirilmirsə, yalnız bunun sayəsində digər ideal xüsusiyyətlərini itirəcək, həm haqlı, həm də mərhəmətli olmaqdan çıxacaq. Cinayətin kütlənin dəyərinə çevrildiyi, vərdişə çevrildiyi hallarda, ədalət məhkəməsinin fəaliyyətində hər hansı ləngimə, onun mexanizmindəki bütün dayanmalar xüsusilə fəlakətlidir. Əgər cinayətin kökünü kəsmək istəyirsənsə, ona dərhal cəza ilə cavab ver, əks halda cinayətin zəhəri ictimai orqanizmə getdikcə daha dərindən nüfuz edəcəkdir. Qırğınlar nəticəsində dəhşətli düşkünlük artıq göz qabağındadır və bu düşkünlüyün izləri Qafqazın həyatından silinənə qədər uzun illər keçəcəkdir. Təəssüflə qeyd etmək lazımdır ki, soyqırımlar zamanı bölgədə məhkəmə hakimiyyəti bu vəzifənin öhdəsindən gəlməyib. Cinayətlər, əksər hallarda, cəzasız qalır və əhalinin qara kütlələri arasında talanların "hakimiyyətin icazəsi ilə" baş verdiyinə inam yaradır və gücləndirir. Bu arada, son vaxtlar diyarın həyatını qaraltmış həmin kütləvi cinayətlərin mühakimə

olunması elə də çətin bir iş kimi görünmür. Hücum bütöv bir kütlə tərəfindən həyata keçirilərsə, ədalət naminə əsas günahkarlardan birinin, ikisinin və ya bir neçəsinin məhkəmə qarşısına çıxarılması və cəzalandırılması kifayət edər. Təəssüf ki, hətta bu da edilmədi. Belə anormal vəziyyətin qarşısını almaq üçün hansı tədbirlər görülməlidir? Onlardan ən mühümlərindən bəzilərinin adını çəkəcəyəm. Əvvəla, diyarın ədliyyə qurumlarının ştatında müvəqqəti də olsa, artımın olması. O zaman diyarın ali orqanlarının məhkəmə orqanlarına təlqin etmələri lazımdır ki, onların fəaliyyəti dayanmadan, kifayət qədər intensiv işləməlidir. Seçilmiş barışdırıcı hakimlər institutunu tez bir zamanda tətbiq etmək lazımdır, çünki indi hakimlər çox vaxt öz məhkəmə vəzifələrini yerinə yetirməli olduqları ərazinin dili və adət-ənənələri ilə tanış deyillər. Sonra arbitraj komissiyaları yaratmaq lazımdır ki, onların həyata keçirilməsinin mümkünlüyü artıq təcrübə ilə sübut olunsun.

**Mülki müşavir Peterson:** Ədliyyə orqanlarına edilən qınaq bir qədər qeyri-müəyyəndir. İbtidai istintaqda məhkəmə orqanları ilə yanaşı, inzibati hakimiyyət orqanları da iştirak edir. İstintaqdan əvvəlki sorğu tamamilə onların səlahiyyətlərinə aiddir. Burada deyilən qınaq məhkəməyə, yoxsa inzibati hakimiyyət orqanlara aiddir? Arbitraj məhkəməsinə gəlincə, o zaman ölkəmizdə qüvvədə olan qanunvericiliyə görə, ona daxil olmaq tamamilə tərəflərin qarşılıqlı razılığından asılıdır və ona görə də bu, məhkəmə dövlət hakimiyyətinin təsir dairəsindən kənardadır.

**Nümayəndə Arutyunov:** İbtidai istintaqda inzibati hakimiyyət orqanlarının rolu göründüyü qədər əhəmiyyətli deyil. Cinayətin izlərini aşkar etdikdən sonra polis 24 saatdan gec olmayaraq cinayət barədə istintaq orqanlarına məlumat verməlidir. Nəhayət, müstəntiq polisdən bildiriş gözləmədən istintaqa

başlaya bilər. Əksər hallarda cinayətlər o qədər açıq və aşkar şəkildə törədilir ki, müstəntiqlərə inzibati hakimiyyət orqanlarının təşəbbüsü ümumiyyətlə lazım deyil. Onlar öz öhdəliklərinə necə yanaşırdılar? Məsələn, Naxçıvanda bir dənə də olsun istintaq prosesi başa çatmayıb. Prokurorluq, istintaqa nəzarət edən bu "kral gözü" də fəaliyyətsiz qalıb. Arbitraj məhkəməsi üzərində dayanıram, çünki barışdırıcı münsifə seçilmiş hakimlər tezliklə meydana çıxmayacaq və barışdırıcı institutuna müasir şəraitdə düzəlişlər etmək lazımdır.

**Nümayəndə Topçubaşov:** Cənab Arutyunovun dilə gətirdiyi istəklərə qoşulmamaq mümkün deyil. Ədalət sahəsində nöqsanların aradan qaldırılması bütün məsələnin təməl daşıdır. Bölgədə andlılar məhkəməsinin tətbiqinin, məhkəmə polisinin yaradılmasının və bütün istintaq prosesinin daha düzgün təşkilinin məqsədəuyğunluğunu da qeyd edəcəm. Diyarda əsl müstəqil məhkəmə ekspertləri yoxdur. Onlar hakim vəzifələrinə namizədlər və barışdırıcı münsifin köməkçiləri ilə əvəz olunublar. İstənilən odur ki, Qafqazın ədliyyə sahəsində bu ciddi qüsura diyarın ali orqanları diqqət yetirsinlər.

**Nümayəndə Ziyadxanov:** Bizim məhkəmə prosesimizin əsas qüsuru onun ləng işləməsidir. Qafqazda yüz illərlə davam edən hallar var. Onları ulu babalar başlayıb, nəvələr bitirirlər. Məhkəmə-hüquq sahəsinin adətinə çevrilmiş bu cür ləngliklə fərdin cəhdləri çox vaxt uğursuzluqla nəticələnir. Bundan əlavə, bu ləngliyin çox vaxt real səbəbləri var. Müstəntiq özünü hansı vəziyyətdə aparır, məsələn, müstəsna yer və vaxt şərtlərini əsas gətirərək, kimin çağırışı ilə şahid gəlmir? Və bu hər zaman olur. Yerli ədliyyə sahəsində qüsur kimi onu da qeyd etmək lazımdır ki, barışıq məhkəmənin hakimləri adətən əhaliyə yaxın, onların dil və adət-ənənələrinə bələd olan şəxslərdən təyin olunmur.

**Nümayəndə Bəyliyarov:** Müstəntiqə geniş səlahiyyətlər verilir. Əgər şahidlər onun çağrışına gəlməzsə, onları yerində dindirə bilər, hətta başqasının məntəqəsində də istintaq apara bilər.

**Nümayəndə Ziyadxanov:** Nə isə, müstəntiq hadisə yerinə gəlir və xarabalığa çevrilmiş kənd görür, orada insanlıqdan əsər-əlamət belə qalmamışdır. O, bundan sonra nə etməlidir?

**Nümayəndə Hacıyev:** Mən belə bir mənzərənin şahidi olmuşam: cinayət faktı göz qabağında idi. Cinayət yerinə gələn müstəntiq izdihamın əhatəsindədir və bu izdihamın heç biri cinayətin açılması üçün heç bir məlumat vermir. Müstəntiq nə etməlidir?

**Nümayəndə Arutyuov:** Çağrılan müstəntiq istənilən vəziyyətdə çıxış yolu tapa bilər. Bu araşdırma sənətidir. Unutmaq olmaz ki, mühüm işlər istintaq dairə məhkəmələrinin üzvlərinə həvalə edilə bilər.

**Mülki müşavir Peterson:** Erməni nümayəndələrinin gəldiyi qənaəti müsəlman nümayəndələrinin bu məsələ ilə bağlı hökmlərindən fərqləndirən bir xüsusiyyəti qeyd etməmək mümkün deyil. Ermənilər ədliyyə sisteminin qüsurlarını göstərməklə kifayətlənirlər, müsəlmanlar bu məsələni daha ətraflı işıqlandırırlar. Onların fikrincə, hakimiyyət cəmiyyətdən lazımi dəstək almadığından kifayət qədər güclü deyil. Hakimiyyət orqanlarının fəaliyyətinə münbit şəraitin yaradılmasının az və ya çox dərəcədə cəmiyyətin də rolunun olması təklifi ilə razılaşmamaq olmaz. Nümunə olaraq İngiltərəni götürək. Orada hər bir vətəndaş cinayətin açılmasında səlahiyyətli orqanlara hər cür hüquqi yardım göstərməyi özünə borc bilir. “Mən kənardayam, heç nə bilmirəm” deyiminin çoxlu tərəfdar tapdığı cəmiyyətimizdə gördüyümüz az deyil.

**Nümayəndə Lazarev:** Çox vaxt bu işlərdə istintaqın gücü həqiqətən də acizdir. Amma bu, heç olmasa nəsə edə bilən və heç nə etməyənlərə haqq qazandırmır. Məsələn, Yelizavetpolda (Gəncədə-E.Q.) iğtişaşları dayandırmaq və soyğunçuları saxlamağa hərbi güc çağırmağa belə zəhmət çəkməyən prokurorun gözü qarşısında cinayətlər törədildi, evlər dağıdıldı, əmlak talan edildi. Bu arada hər hansı tədbir görülsəydi, dağıdılan 500-600 evdən 100-dən çoxu dağılmazdı.

**Nümayəndə Ter-Avatikyan:** Mən də öz növbəmdə qeyd etmək istərdim ki, müstəntiqlərin işləri həddindən çoxdur. Müstəntiqlərin sayını artırmaq lazımdır.

**Nümayəndə Xatisov (Duma üzvü):** Mənə elə gəlir ki, cəmiyyət biganəlik qınaqına layiq deyil. Cəmiyyətdən danışarkən, ümumiləşdirilə bilməyən bir şeyi ümumiləşdirmirikmi? Cəmiyyətin bu məsələyə laqeyd görünən münasibətini bildirən hər kəs hansı dövlət qurumlarını nəzərdə tutduğunu açıq şəkildə göstərməlidir. Mətbuat, məsələn, cəmiyyətin bu canlı səsi bu işdə ən fəal iştirakını göstərdi, şəhərlərimizin bələdiyyələri də bundan geri qalmayıb. Mən talanların birbaşa təsirinə düşməyən, şəxsən mənim kimi istintaq və prokurorluq orqanlarının ən fəal köməkçiləri olmağa hazır olan bir çox fərdi şəxslərin adlarını çəkə bilərəm, lakin təəssüf ki, bu hakimiyyət mövqeyindən asılı olmayaraq həmişə yüksək səviyyədə deyildir.

**Nümayəndə Hacıyev:** Cəmiyyətin fəaliyyətsizliyindən danışarkən mən erməni cəmiyyətini qınamaq fikrində deyiləm. Mən ümumi danışıram.

**Canişin dəftərxanasının müdiri Peterson:** Dövlət orqanlarının fəaliyyətinin müəyyən dərəcədə sosial elementlərin qarşılıqlı təsiri ilə müəyyənləşdiyini söyləməklə, mən heç bir korporasiyaları və ya korporativ qurumları heç nəyə görə qınamaq istəmirəm. Fikrim aydındır. Mən istərdim ki, bu məsələdə

cənab Xatisov və onun adlarını çəkə biləcəyi şəxslərin göstərdiyi fəallığı bütün cəmiyyət göstərsin.

**Nümayəndə Ağayev:** Məsələyə ədalətli yanaşma məhkəmə orqanlarının bu işdə üzləşməli olduğu çətinlikləri qeyd etməyi tələb edir. Məsələn, Bakıda fevral hadisələri zamanı heç kimin dərhal yerindəcə öldürülmə riski olduğundan evdən çıxmasına icazə verilmirdi. **Prosessual** həqiqətə çatmaq yolunda fərqli xarakterli bir çox maneələr dayanır. Sadəcə olaraq, çağırış zirvəsinə qədər dayanmaqdan uzaq olan vəkillik peşəmizi qeyd edim. Hüquq peşəmizdə korporativ struktur prinsipi tam həyata keçirilməkdən uzaqdır, nəticədə kimi istəsələr hüquqşünaslıq peşəsinə götürürlər. Təəccüblü deyil ki, ictimayət tərəfindən ciddi nəzarət olmadığı halda bəzi hüquqşünaslar peşə borcunu ciddi şəkildə pozurlar. Belə hüquqşünaslar çox vaxt öz fəaliyyətlərini məhkəməni və müştərini xroniki olaraq aldatmaq kimi qiymətləndirirlər. Ədalətə xidmət etmək əvəzinə, bir növ ikitərəfli aldatma olduğu ortaya çıxır. Bu cənabların belə hiylələrlə dolu əyləclərlə mübarizəsi ədalət üçün çox vaxt asan olmur. Yerli mətbuat da bu vəzifənin öhdəsindən gələ bilmir, tez-tez kifayət qədər dəqiq olmayan, bəzən isə tamamilə yalan məlumatlar verir. Məsələn, bir dəfə "Mşak" qəzetində çap olunub: iyunun 9-da Ağayev Şuşaya gəlib və o vaxtdan orda narahatçılıq yaranıb. Bu arada, iyunun 9-da mən Bakıda idim və hətta təsdiq edə bilərəm ki, həmin gün qəzetimlə bağlı Bakıdan teleqram da göndərmişəm.

**Nümayəndə Kələntər ("Mşaq" qəzetinin redaktoru):** İndi qəzet hesabı vaxtı deyil. Hər qəzetdə səhvlər olur, müsəlman mətbuatında da belə qüsurlara rast gəlmək olar. Burada, yeri gəlmişkən, erməni nümayəndələrinin hakimiyyətin hərəkətlərinə tənqidi yanaşdığı, müsəlman nümayəndələrinin isə bu mövqeyi bir az fərqli formada ifadə etdiyi göstərilib. Görüşləri-

mizin əvvəlində bizə dedilər ki, müzakirədə bizə tam sərbəstlik verilib. Mənə elə gəlir ki, hər kəs düşündüyü, hiss etdiyi hər şeyi desə, iclasda daha çox məqsədə çatmaq olar.

**General-leytenant Malama:** Məsləhət olar ki, iclas üzvləri sərt çıxış etməsinlər **(Yekdilliklə alqışlar)**. İclasda seçkili barışdırıcı münsiflərin yaradılmasının, andlılar məhkəməsinin tətbiqinin və məhkəmə idarəsi ştatlarının artırılmasının məqsədəuyğunluğu yekdilliklə dəstəkləndi. Erməni nümayəndə heyətinin itkilərin müəyyən edilməsi ilə bağlı proqramının 7-ci bəndi müzakirəyə çıxarılır.

**Nümayəndə Arutyunov:** İtkilər məsələsinə keçərək, ondan başlamaq lazımdır ki, qırğınlar diyarı viran qoyub. Bütün kənd əraziləri yandırılıb. Evlər, tikililər, hətta ağac tarlaları dağıdılıb. Qırğınların vurduğu itkilər ödənilməlidir. Zərərçəkmişin haqqının alınması lazımdır, təqsirkarın təkcə şəxsi deyil, həm də əmlak məsuliyyəti daşıması daha zəruridir. Zərər necə müəyyən edilməli və ödənilməlidir? Qanunun bir yolu var – məhkəmə. Amma təəssüf ki, məhkəmə qaydası çox mürəkkəbdir və qırğınların qurbanları üçün çox vaxt əlçatmaz olan xərclər tələb edir. Bundan əlavə, çox vaxt məhkəmənin cəza üsulu heç bir nəticə vermir. Cəmiyyət öz üzvlərinin hərəkətlərinə görə məsuliyyət daşımasa, zərərçəkən üçün hansı təminat ola bilər və qanuna görə, cəmiyyət yalnız üzvlərinin cəmiyyət adından hərəkət etdiyi sübuta yetirildikdə, öz üzvlərinin hərəkətlərinə görə məsuliyyət daşıyır. Deməli, məhkəmə yolu məqsədə aparmırsa, inzibati yol qalır. Əsl fövqəladə vəziyyətdə, güclü vasitə lazım olanda “İttiham etməkdənsə, bəraət almaq yaxşıdır” devizi ilə hakim öz yerini inzibati hakimiyyət orqanlarına verməlidir. Hökumət əhaliyə kömək edə bilər və etməlidir də, çünki iddialar o qədər böyükdür ki, cinayətkarların tutulması onları tamamilə məhv edə bilər. Köhnə xarabalığa yenisi qoşu-

lacaq və bölgə iqtisadi cəhətdən tamamilə məhv ola bilər. Zərərçəkmişlərə təqsirkarların hesabına tədricən ödənilən dövlət kreditləri şəklində dövlət yardımına ehtiyac var.

**Nümayəndə Ziyadxanov:** Mülkiyyət mübahisələrinin məhkəmə yolu ilə həlli bütün sivil dövlətlərin prinsipidir. Məhkəmə orqanlarının qərar və hökmlərində inzibati hakimiyyətin tamamilə çatışmadığı təminatlar sistemi var. Vəkil Arutyunovun göstərdiyi zərərin ödənilməsi üsulunun praktiki tətbiqi bu sahədə özbaşınalıq yaradır. Oğurluqda hər iki tərəfdən dələduzlar iştirak edib. Doğrudanmı hər kəsin onlara görə ayrı-seçkilik etmədən cavab verməli olması mümkündürmü? Təsəvvür etmək olar ki, dəymiş ziyanın müəyyən edilməsi və yığılması inzibati hakimiyyət orqanlarının əlinə keçsə, hansı mənzərə yaranacaq. Bu, bölgə üçün yeni bir dağıntı olacaq. Belə bir sistemin qaçılmaz nəticəsi olacaq, günahsızlardan cərimə alınması yeni iğtişaşlara, yeni ifratlara səbəb olacaq.

**Nümayəndə Xatisov (mühəndis):** İstisna şərtlər müstəsna tədbirlər tələb edir. Erməni nümayəndələrinin hüquq nəzəriyyəsi nöqteyi-nəzərindən proqnozlaşdırdıqları tədbir geriyə doğru addımdırsa, bu addım bölgəmizdən çay kimi axan o göz yaşları adına atılır.

**Nümayəndə Hacıyev:** Məsələn, min və ya milyon toplamaq çətin deyil. Bütün sual kimdəndir? Əgər bu məsələni çox sadə həll etsək, o zaman yalançı şahidlərdən istifadə olunacaq, yalan hesabtlar yazılacaq və vəziyyət daha da mürəkkəbləşəcək. Dövlət kreditinə gəlincə, kəndli bankının vəsaitini artırmaq daha yaxşı olmazmı?...

**Nümayəndə Arutyunov:** Zərərçəkmişlər üçün ədalət diləyirəm. Mənim layihəmin əleyhdarları onda həddən artıq hüquqi qüsur görürlər. Qafqaz xalqlarının hüquqi dünyagörüşü qarşılıqlı zəmanət, qarşılıqlı məsuliyyət anlayışına alışmışdır.

Digər tərəfdən, dəyən itkilər toplanana qədər qırğınların dayanmayacağı da göz qabağındadır. Kəndli bankı ilə bağlı suala gəlincə, bunun məsələ ilə heç bir əlaqəsi yoxdur. Heç kim bankla bağlı məsələ qaldırmayıb.

**Nümayəndə Qarabəyov (müsəlman):** İtkilər məsələsi qurultayın proqramından çıxarılmalı olan səbəblər məsələsi ilə sıx bağlıdır. Hələlik onu demək olar ki, qənimət bütünlüklə hər iki tərəfdən dələduzların əlinə keçmiş və bu əllərdən də hər şey haram olan kimi çoxdan getmişdir. Dələduzlara görə kim cavab verməli, kim cavabdehlik daşımalıdır?

**Nümayəndə Xatisov (mühəndis):** Müasir reallıq qarşılıqlı məsuliyyət daşıyan bu cür cəzaların bir çox nümunəsini təqdim etmişdir. Məsələn, bu üsul Şorapan qəzasının əhalisinə tətbiq edilib.

**Nümayəndə Ağayev:** Bizim müzakirəmiz müharibədən sonra sülh konfransı xarakteri almağa başlayır. Amma müharibə olmayıb. Ultimatum yoxdur, müharibə elanı yoxdur, müharibəyə hazırlıq yoxdur. Müharibə olmadığı üçün adətən yalnız müharibədən sonra yığılan və ödənilən təzminatın ödənilməsindən söhbət gedə bilməz. İnzibati hakimiyyət orqanları tərəfindən həyata keçirilən qarşılıqlı məsuliyyətlə təklif olunan vergi yığma ilk növbədə müsəlman mülki təbəqələrinə zərbə olacaq. Mən şəxsən bu təbəqələrin pərəstişkarı deyiləm, lakin bütün müsəlman ziyalıları onların içərisindən çıxıb və bu təbəqənin ölümü bütün Zaqafqaziya (Cənubi Qafqaz-E.Q.) müsəlmanları üçün ağır zərbə olacaq. Ona görə də mən erməni nümayəndələrinin layihəsinin əleyhinəyəm.

Sədr fasilə elan edir, sonra iclası bağlayır. Növbəti iclas 2 mart cümə axşamı saat 14:00-a təyin edilir.

**Qafqaz, 4 mart 1906-cı il, №52, s.2-3.**

**Əlahəzrət İmperatorun Qafqaz üzrə Canişin Şurasının bu il martın 2-də erməni və müsəlman əhalisinin nümayəndələrinin iştirakı ilə bu millətlər arasında silahlı toqquşmaların baş verməsi məsələsinə dair iclasının hesabatı.**

**Cümə axşamı, martın 2-də, günorta saat 2-də general-leytenant Malama iclası açaraq bildirdi ki, əvvəlki iclasda bəzi nümayəndələrin maddi itkilərin müəyyən edilməsi və ödənilməsi məsələsi ilə bağlı danışmağa vaxtı olmayıb. Məsələ bu iclasda müzakirə olunacaq. İlk söz mühəndis Xatisova verilir.**

**Nümayəndə Xatisov:** Biz bura sülh naminə toplaşmışıq. Sülh maraqları son zamanlar baş verən xoşagəlməz hadisələr nəticəsində pozulan iki millətin qarşılıqlı münasibətlərində balansın bərpasını tələb edir. Yalnız qənimət quldurdan alınaraq qurbana verildikdə balans bərpa oluna bilər. Biz burada sülh müqaviləsi bağlaya bilərik, bu hadisəyə sevinə bilərik, hətta öpüşə bilərik. Amma bütün bunlar, nə qədər ki, əhali kütləəri arasında inciklik hissi, tam komediya olacaq. Bu hissin kütlə arasında səngiyib susması üçün sadəcə Karapetin əlindən alınan inəyi, Həsənin isə ondan oğurlanan qoyunları geri qaytarması lazımdır. Nə qədər ki, bu və ya digəri öz malını quldurların əlində görür, qəlblərinin dərinliklərində heç bir sülh müqaviləsini tanımayacaq və ilk bəhanə olan kimi düşmənçilik yeni qüvvə ilə alovlanacaq.

**Canişin dəftərxanasının müdiri Peterson:** Qeyd etməyə bilmərəm ki, cənab Xatisov iclasda müzakirəyə çıxarılan məsələyə müəyyən qədər dəstək verir. Söhbət, nəhayət, oğurlanmış əmlakın sahibinə verilməsi üçün müsadirə edilməsi olan belə kompensasiyanın konkret formasından deyil, ümumilikdə itkilərin ödənilməsindən gedir.

**Nümayəndə Arutyunov:** Tamamilə doğrudur. Söhbət ümumilikdə bütün itkilərin ödənilməsindən gedir.

**Nümayəndə Arakelyan:** Yeni iğtişaşlara səbəb olmaması üçün itkilər mütləq kompensasiya edilməlidir. Ümumilikdə bütün inzibati tənbehlərə xas olan məlum nöqsanlara istinad edərək, dəymiş ziyanın inzibati üsullarla alınması metoduna etiraz etməklə, amma eyni zamanda itkilərin bərpasını müəyyən etməklə, tapşırılan komissiyanın tərkibinə məmurlarla yanaşı, yerli əhalinin, həm ermənilərin, həm də müsəlmanların nümayəndələrinin daxil ediləcəyini də gözdən qaçırırlar. İtkilər həm müsəlmanlardan, həm də ermənilərdən ödənilməlidir. O ki qaldı bu tədbirin bəylərin və ağaların mənafeyinə müəyyən qədər xələl gətirəcəyinə, çətin ki, bu hal bütün müsəlmanların kədərinə səbəb ola bilsin. Bəylər və ağalar müsəlman əhalisi üçün nə etdi? Onu maarifləndirdilər, iqtisadi cəhətdən gücləndirdilər? Onlar müsəlman ziyalıları üçün daha nə etdilər? Xeyr, bəylərin və ağaların maraqları bəzi müsəlman nümayəndələrinin iddia etdiyi kimi Zaqafqaziya müsəlmanları üçün heç də o qədər də əziz deyil.

**Nümayəndə Xasməmmədov:** Müsəlmanlar zərərin ödənilməli olduğunu inkar etmirlər. İtkilərin ödənilməsi zərurəti məsələsində onlar ermənilərlə tam həmrəydirlər və yalnız bu verginin yığılması üsulu məsələsində onlarla fikir ayrılıqları var. İcazə verin, sizə daha bir şəxsi fikrimi söyləyim. İtkilərin inzibati yollarla ödənilməsi layihəsini hazırlayan cənab Arutyunov, təbii ki, itkilərə görə sırf mülki iddiaları nəzərdə tutmuşdu. Amma artıq cinayət işlərində çoxlu mülki iddialar qaldırılıb. Doğrudanmı, artıq məhkəmə orqanları tərəfindən təqdim edilmiş və artıq baxılan bu iddialar indi məhkəmənin tabeliyindən çıxarılaraq inzibati orqanların tabeliyinə verilməlidir?

**Nümayəndə Qarabəyov (müsəlman):** Burada dedilər ki, qənimət quldurlardan alınıb sahibinə təhvil verilməyənə qədər dinclik ola bilməz. Bəs bu mümkün olanlar çərçivəsində həyata keçirilməyib və indiyə qədər həll edilməyib? Zərərin ödənilməsinə gəlincə, bu məsələ səbəblər məsələsi ilə ayrılmaz şəkildə bağlıdır. İtki yalnız günahkarlardan alına bilər və bu halda günahkarların adlarını çəkmək lazımdır.

**General-leytenant Malama:** Etiraf etməliyik ki, itkilər məsələsi ilə bağlı bugünkü müzakirələr əvvəlki iclasda deyilənlərə ciddi yeni heç nə əlavə etmir. İndiki vəziyyətdə ermənilərin və tatarların nümayəndələri itki məsələsində fərqli nəticələrə gəliblər, bu məsələ tamamilə canişinə təqdim olunacaq.

**Nümayəndə Xatisov (Duma üzvü):** Erməni nümayəndələri itkilər məsələsini açıq qoya bilməzlər. Biz erməni əhalisinin əhval-ruhiyyəsini yaxşı bilirik və bu əhval-ruhiyyəni nəzərə alaraq bildiririk ki, layihəmizə uyğun gəlməyən bu məsələnin həlli alovlanacaq, ilk dəfə çoxlu güclü problemlərin yığılmasına gətirib çıxaracaq. Məsələn, dəymiş ziyanın ödənilməsi məsələsi "conditio sine qua non" ("şərtsiz onsuz olmaz") deyimi ilə tərtib edilməlidir.

**Nümayəndə Ağayev:** Əgər "conditio sine qua non" ("şərtsiz onsuz olmaz") belədirsə, o zaman bəyan edirəm ki, görüşümüzün davamı nəticəsizdir.

**General-leytenant Malama:** Mən də öz növbəmdə məsələni həll olunmuş hesab edirəm.

**Nümayəndə Taqianosov:** İclasımızın açılışından indiyədək biz iclas sədrinin hamımıza qarşı dəyişməz humanist və deyə bilərəm ki, səbirli münasibəti ilə qarşılaşmışıq. Mövzunun vacibliyini nəzərə alaraq, hər iki tərəfə məsələnin hüdudları daxilində fikirlərini tam şəkildə ifadə etmələrinə icazə verilməsini xahiş edirəm.

**Nümayəndə Ağayev:** Bəli, fikir bildirmək lazımdır. Zərərin ödənilməsi məsələsinə onun tərkib hissəsi kimi təqsirkarlar məsələsi də daxildir. Bu məsələnin tam ciddiliyi, günahkarların müəyyən edilməsinə gəldikdə, dəqiq üzə çıxacaq. Ermənilər üçün bu, onların əlçatmaz təşkilatıdır, bu, anında ortaya çıxan, bir anda ortaya çıxan və bir anda yox olan naməlum təşkilatdır. Tarlada külək axtarın. Müsəlmanların işi başqa cürdür. Onların təşkilatı, qoşunları yoxdur, hər biri özünü müdafiə etməlidir. Burada demək olar ki, hər kəs günahkar olacaq və buna görə də hər kəs məhvlə üzləşəcək. Bu vəziyyətdə dəymiş ziyanın inzibati yolla ödənilməsi ədalətsizliyin yüksəkliyini ifadə edir.

**Nümayəndə Babov:** Müsəlmanlar nədənsə dəymiş ziyanın yığılmasının inzibati üsulunun tamamilə özbaşına olacağını güman edirlər. Bunun niyə belə olması tamamilə aydın deyil. Hər şey komissiyalara kimin və hansı məmurların təyin olunmasından asılıdır. Bunu əlavə etsək ki, onların tərkibində hər iki millətin nümayəndələri bərabər sayda olacaq, onda burada səslənən şübhələrin əhəmiyyətli bir hissəsi əsassız sayılmalıdır.

**Nümayəndə Topçubaşov:** Erməni nümayəndələrinin layihəsinin qeyri-qənaətbəxş olmasını oxşar hadisələrlə aydınlaşdırmaq olar. Rusiya daxilində aqrar iğtişaşlarda iştirak etmiş kəndlilərdən itkilərin alınmasının inzibati sistemi yeni problemlər yaratmadımı? Eyni şeyin burada da olacağı aydın deyilmi? Deyirlər ki, itki məsələsi "conditio sine qua non" ("şərtsiz onsuz olmaz") əsasında tərtib edilməlidir. Bəs pul məsələsi həqiqətən sülhün xoş niyyətlə həyata keçirilməsinə mane ola bilərmi?

**Nümayəndə Ter-Avatekyan:** Maraqlıdır ki, müsəlman nümayəndələri nisbətən əhəmiyyətsiz məsələlərdə ermənilərlə tam həmrəylik nümayiş etdirirlər. Amma zərərçəkənləri razı

salmağa gəlincə, onların fikirləri fərqlidir. Bizə pul ödəmək lazım olanda bizi elə məhkəməyə göndərirlər ki, onların nöqsanlarını öz nümayəndələri əvvəlki iclasda belə həvəslə izah etmişdilər. Ağayev üçüncü gün deyir ki, bu, işlərin yüz il uzandığı məhkəmədir, vəkillik peşəsinin fəaliyyət göstərdiyi məhkəmədir. Müsəlmanlar bu məsələdə öz mövqelərinə haqq qazandırmaq üçün qeyri-mütəşəkkil qırğınlara istinad edirlər. Bəs təcavüzkarların qəniməti aparmaq üçün əvvəlcədən hazırlanmış araba və arabalarla müxtəlif yerlərdən gətirilən kortəbii hücumdan söhbət gedə bilərmi? Bu, kortəbiilikdir, yoxsa əvvəlcədən düşünülmüş niyyətdir? Bu mənə gülməli bir zarafatı xatırladır. Oğru əlində torba bağçanın hasarını aşıb və torbanı xiyarla doldurur. Oğru tutulur və bağçaya necə düşdüyünü soruşurlar. "Külək məni gətirdi" deyə oğru cavab verir. "Niyə xiyar götürmüsən?" - "Külək məni daha da aparmasın deyə, onlardan yapışdım." "Yaxşı, torbanı niyə özünlə götürmüsən?" "Bunu mən bilmirəm." Bu məsələdə də belədir.

**Nümayəndə Ziyatxanov:** Şərqi Zaqafqaziyada çoxlu qurbanların olduğunu heç kim inkar edə bilməz. Mən özüm də onlardan biriyəm. Bununla belə, sülh naminə, hər iki xalqın mənafeyi naminə, zərərçəkmişlər, əgər məhkəmə yolu ilə təminat ala bilmirlərsə, öz itkiləri və iddialarından əl çəksinlər. Məhkəmədə iş uzun müddət uzansa belə, bilirik ki, bu müddət bahasına ədalət əldə edilir ki, bu böyük əhəmiyyət kəsb edən məsələ inzibati orqanlara keçəndə yox olacaq, bu da yeni iğtişaşlar yaradacaq. Bu iclasda bəylərə, ağalara qarşı səslənən ittihamlarla bağlı bir neçə kəlmə də demək istəyirəm. Bizim nəcib zadəganlar kəndli ünsüründən çox da fərqlənmir. Bunlar eyni kəndlilərdir, yalnız daha firavandırlar. Müəyyən bir ərazidə müsəlmanlar hücuma məruz qaldıqda, bəylər və ağalar başqaları ilə birlikdə silaha sarılmaqdan başqa çarələri qalmır. Əgər

Quberniya və qəza rəhbərliyinin və polisin yenidən təşkilinə gəlincə, Canişinin özü bu məsələdən narahatdır və onu həll edərkən iclas iştirakçılarının istəkləri nəzərə alınacaq, inzibati hakimiyyət orqanları və polis üçün ən yaxşı kadrları təmin etmək üçün artıq tədbirlər görülür və ciddi şəkildə görüləcəkdir. İclasın müəyyən etdiyi əsaslarla əhalinin tez bir zamanda ədalət məhkəməsi ilə təmin olunması məsələsi müxtəlif yollarla qaldırılacaqdır. Maarifləndirmə tədbirləri və müsəlmanların digər millətlərlə hüquqlarının bərabərləşdirilməsi ilə bağlı iclasda qeyd olunan məsələlər artıq mərkəzi hökumət tərəfindən hazırlanır və iclasın istəklərinə uyğun olaraq həll ediləcəkdir. Əhali arasında savadlılığın yayılması, məktəb işlərinin lazımi səviyyəyə çatdırılması üçün canişin öz səlahiyyətləri daxilində bütün tədbirləri görəcəkdir. Eyni zamanda, qanunvericilikdə və inzibati sərəncamlarda müsəlmanlara qarşı mövcud olan məhdudiyyətləri müəyyən edilmiş qaydada dərhal aydınlaşdırmağa başlayacağıq ki, bu məsələdə canişinin səlahiyyətindən asılı olan hər şeyi və həll edilə bilməyən məsələlər onun gücü ilə dərhal düzəldiləcəkdir. Müsəlmanlar üçün Qori şəhərindən daha əlverişli yerdə müəllimlər seminariyasının açılması məsələsinin gündəmə gətirilməsi birinci prioritet məsələ olacaq. Nə-

hayət, köçərilərin oturaq həyata keçməsinə köməklik göstərilməsi üçün tədbirlər haqqında ümumi məsələni müzakirə etmək üçün dərhal canişin idarəçiliyi yanında komissiya təşkil ediləcəkdir".

**Nümayəndə Hacıyev:** Biz buradan ayrılmaqla, zati-aliləri qraf Voronsovun gördüyü tədbirlərin davamlı sülh, tam əmin-amanlıq və yeni həyatla nəticələnəcəyinə, qanla sulanmış torpaqdan çiçək açan qızılgüllərin çıxacağına ən səmimi ümidimizi özümüzlə aparacağıq. Madam ki, bizim yenilənməmiz əsasən maarifləndirmə sayəsində baş verəcək, onda qoy bu qızılgüllərin buketi Qafqazda ali təhsil müəssisələri olsun ki, bu ali təhsil müəssisələri indi mütləq onun adından, indiki canişin qraf Voronsov-Daşkovun yanında açılmalıdır. Zati-aliləri bu ali təhsil ocağını açsın və o, Qafqazda onun humanist təhsil fəaliyyətinin canlı abidəsi kimi burada qalacaq. Bu məqsədlə pul yığmaq üçün dərhal imza toplamalıyıq **(ümumi yüksək səslə alqışlar).**

**General leytenant Malama:** Bu görüşü bağlayaraq və beləliklə, erməni-tatar düşmənçiliyinə son qoymaq və Rusiya taxtına eyni dərəcədə sadiq olan və əsrlər boyu bir yerdə yaşayan bu qonşu tayfalar arasında davamlı sülhün bərqərar olması üçün tədbirlər haqqında iclasımızı başa çatdıraraq, cənablar, sizdən bir daha xahiş edirəm ki, hər şeyi xalqa çatdırasınız. Burada deyilənləri və eşitdiklərinizi seçicilərinizə və hər vasitə ilə bizə burada bir sıra mürəkkəb məsələləri başa düşməyə, soydaşlarınızın şüuruna və qəlbinə hopmağa kömək edən dinc əhval-ruhiyyəni çatdırmağa çalışın.

Bu, millətlərimizin ziyalı nümayəndələri kimi sizin müqəddəs borcunuzdur. Sülh elçiləri kimi buradan ayrılın! **(bütün nümayəndələrdən səs-küylü və uzun sürən alqışlar başladı).**

Zati-aliləri canişinin adından bu görüşdə göstərdiyiniz səylərə görə sizə minnətdarlığımı bildirirəm.

İclas saat 4:35-də bağlandı.

**Qafqaz, 10 mart 1906-cı il, №57, s.3.**

**Erməni-müsəlman konfransının iclasları haqqında hesabata əlavə.**

**Köç məsələsinə baxılması üçün canişinin sərəncamı ilə yaradılmış komissiyanın protokolu**.

Komissiyaya İrəvan qubernatoru qraf V.F.Tizenhauzen başçılıq edir və onun tərkibinə üzvlərdən Tiflis qubernatoru baron P.A.Rauş-fon-Traubenberq, Yelizavetpol qubernatoru A.A.Kalaçyev, Qafqazda baytarlıq bölməsini idarə edən P.N.Zolotoryev, A.A.Kələntər, B.M.Mehrabyan, Ə.M.Topçubaşov, podpolkovnik A.P.Vəkilov, İ.B.Məlikbəylərov, M.C.Lazarev, L.İ.Quliyev, M.B.Eminov, C.B.Sultanov, M.B.Şahmalıyev, A.N.Ter-Avetisov, Ş.B.Mirzəyev və sahibkar A.B.Zülqədarovun katibi K.M.Ter-Petrocyanç daxil idilər.

28 fevral, 2-si və 4-ü mart tarixlərində əhalinin köç zamanı hərəkəti və örüş yerlərində qalma qaydası haqqında Tiflis qubernatorunun tərtib etdiyi məcburi qərar layihəsinə baxıldı və bu layihə 1905-ci ildə baş vermiş erməni-tatar toqquşmalarını nəzərə alaraq, ermənilərlə tatarlar arasında münasibətlərin çox gərgin olduğunu və bu toqquşmaların xırda səbəblərdən də olsa yenidən başlanması təhlükəsinin hələ də keçmədiyini nəzərə alaraq dəyişdirilmiş, yuxarıdakı məcburi qaydalar layihəyə əlavə edilmiş, yeni layihəyə uyğun olaraq 1906-cı ildə tatarlarla ermənilər arasında baş vermiş hazırkı toqquşmaların səbəblərini mümkün qədər aradan qaldırmaq üçün zəruri hesab edilən məcburi əsasnamələrin nəşrindən asılı olmayaraq, komissiya tərəfindən hazırlanmış aşağıdakı tədbirlər görülmüşdür:

1. Hər bir qəzada köç məsələsi işləri üzrə qəza rəisinin sədrliyi ilə barışdırıcı münsifin, baytar həkiminin və ermənilərdən və tatarlardan bərabər sayda maraqlı şəxslərdən seçilmiş vəzifəli şəxslərdən ibarət komissiya yaradılır. Zəruri hallarda hər qəzada qəza rəhbərinin köməkçisi və ya barışdırıcı münsifin rəhbərliyi ilə iki və ya daha çox belə komissiya yaradılsın. Bu komissiya köçlərin yola çıxma vaxtını, yolda qalma müddətini, hərəkət yollarını, dayanacaqların sayını müəyyən etmək, məskunlaşan və köçəri əhali arasında itkilərlə bağlı yaranan anlaşılmazlıqlar və mal-qaranın otarılması üçün dayanacaq yerlərə görə dəymiş ziyan və mükafatlar, mübahisələrə dair yekun qərarın verilməsinə cavabdehdir.

2. Köçərilərin yerləşdiyi yaylaqlarda anlaşılmazlıqların və mübahisələrin qarşısını almaq və həll etmək üçün kəndxudadan ya onun müvafiq 2-3 nəfərdən ibarət köməkçilərindən elat başçılarının sədrliyi ilə komissiyalar yaradılır.

3. Köçərilərin və onların mal-qarasının yerdəyişməsi zamanı zəhərlənmə, oğurluq və digər zədələnmələr nəticəsində yaranan mübahisələrin və anlaşılmazlıqların dərhal həlli, müvəqqəti otlaq yerlərinin əvəzinin ödənilməsi üçün yaxınlıqdakı polis məmurunun (pristavın, elat başçılarının və s.) sədrliyi ilə maraqlı şəxslər tərəfindən seçilmiş bərabər sayda üzvlərdən ibarət komissiya yaradılır, belə komissiyaların qərarları dərhal yerinə yetirilir və icra olunduqdan sonra qəza komissiyasına şikayət edilə bilər. Həmin komissiyalara yerlərdə toqquşmaların qarşısını almaq üçün tədbirlər görmək həvalə olunurdu.

4. Mümkünsə, xüsusən də toqquşmaların olduğu yerlərdə elatların adətən hərəkət etdiyi yolların sayı azaldılmalıdır.

5. Elatların və mal-qaraların yolda qalma müddəti də mümkün qədər azaldılmalıdır.

6. Elatlar eyni kənd cəmiyyətinə mənsub olan mümkün qədər böyük qruplar şəklində yaylaqlarda yerləşdirilməlidir.

7. Köç üzrə kənd məmurlarının olması məcburidir (kəndxuda və yaxud köməkçisi).

8. Kənd Təsərrüfatı və Dövlət Əmlakı Nazirliyinin üzvləri otlaqların sərhədləri ilə bağlı mübahisələri yerindəcə həll etmək üçün mütləq şəkildə yaylaqlara getməlidirlər.

9. Hal-hazırda bəzi otlaq sahələrinin onlara verilmiş şəxslər tərəfindən istismar edilməməsinin müşahidə edildiyini nəzərə alaraq, ayrılan otlaqların mübahisə kimi fəaliyyət göstərməməsi üçün otlaqlardan istifadə qaydalarına onlara ayrılmış dövlət torpaqlarının müəyyən şəxslər tərəfindən istismarına görə.yenidən baxılması arzu edilir. Eyni zamanda arzuolunandır ki, imkan daxilində çarpaz zolaqlar, eləcə də mal-qaranın ucqar yerlərə hərəkəti aradan qaldırılsın.

**Əhalinin tarla (çöl-E.Q) işlərinin maneəsiz aparılmasının təmin edilməsi məsələsinə baxılması üçün komissiyanın protokolu.**

Komissiyaya İrəvan qubernatoru qraf V.F.Tizenhauzen başçılıq edir və onun tərkibinə üzvlərdən Yelizavetpol qubernatoru A.A.Kalaçyev, Qafqazda baytarlıq bölməsini idarə edən P.N.Zolotaryev, A.A.Kələntər, B.M.Mehrabyan, Ə.M.Topçubaşov, podpolkovnik A.P.Vəkilov, İ.B.Məlikbəylərov, M.C.Lazerev, L.İ.Quliyev, M.B.Eminov, C.B.Sultanov, M.B.Şahmalıyev, A.N.Ter-Avetisev, Ş.B.Mirzəyev və sahibkar A.B.Zülqədarovun katibi K.M.Ter-Petrocyanç daxil idilər.

Martın 4-də əhalinin tarla işlərinin maneəsiz hazırlanmasının təmin edilməsi məsələsinə baxaraq, aşağıdakı tədbirlərin qeyd edilməsi zəruri bilindi:

1. Qonşu tatar və erməni əhalisi arasında münasibətlərin son dərəcə kəskinləşdiyi yerlərdə asayişi və əmin-amanlığı qorumaq üçün bir müddət tarla işləri üçün hərbi hissələr təyin edilsin.

2. Xırda anlaşılmazlıqların və toqquşmaların qarşısını almaq və yaranarsa onları həll etmək üçün qonşu kəndlərdən, əgər əhalinin qarışıq olduğu halda həmin kəndlərdən seçilənlərdən yerli qarışıq komissiyalar yaradılsın və onların qərarları inzibati qaydada icra edilsin.

3. Kütləvi və hətta böyük toqquşmalar baş verdikdə, bu cəmiyyətlərin günahkar üzvlərinin qanunsuzluqlarına və digər hərəkətlərinə görə, general-qubernatorların əmri ilə müəyyən edilmiş cərimələrin miqdarı ilə cəmiyyətlər maddi məsuliyyətə cəlb edilsin.

**Köç məsələsi üçün məcburi qaydalar layihəsi:**

1. Köçərilər qəza başçısının sədrliyi ilə qəza komissiyasının müəyyən etdiyi müddətdə mal-qaranı qışlaqlardan yaylağa və əksinə yola salır və aparırlar.
2. Köçərilərin və onların mal-qarasının hərəkəti əvvəlcədən həmin komissiya tərəfindən müəyyən edilmiş yollarla həyata keçirilir.
3. Köçərilərin yolda dayanmasına yalnız həmin komissiyanın əvvəlcədən müəyyən etdiyi yerlərdə icazə verilir.
4. Komissiyanın müəyyən etdiyi müddətdən artıq yolda qalmağa icazə verilmir.
5. Hər bir kəndin köçlərinin və mal-qarasının çıxışını eyni vaxtda və ya eyni tərkibdə qəza komissiyası müəyyən edən ayrı-ayrı böyük qruplarda həyata keçirir.
6. Hər bir ayrı-ayrı qrup və ya dəstəni qəza rəisi tərəfindən təsdiq edilmiş köçəri qrupların seçilmiş nümayəndələri ilə

birlikdə kənd rəhbərliyinin məmuru müşayiət etməlidir. Eyni vəzifəli şəxslər müvafiq köçdə iştirak etməlidirlər.

7. Heyvan sahibləri köçəri mal-qaraya birbaşa nəzarəti böyüklərə həvalə etməyi öhdələrinə götürürlər.
8. Maraqlı tərəflər arasında könüllü razılıq əldə olunmadıqda, itkilərə və digər itkilərə görə kompensasiyanın köçərilər tərəfindən ödənilməsi polis məmurunun sədrlik etdiyi komissiyanın müəyyən etdiyi məbləğdə həyata keçirilir.
9. Bu qaydaların pozulmasına görə məsul şəxslər yerli qubernatorun əmri ilə inzibati tənbeh, 3 aya qədər həbs və ya 500 rubl cərimə edilir, mal-qara sahibləri isə çobanlara və digər muzdlu şəxslərə görə məsuliyyət daşıyırlar.

**Kaspi, 23-ü mart 1906-cı il, №66, s.3.**
**Erməni-müsəlman işləri üzrə Xüsusi Komissiya**
**(Xüsusi müxbirindən)**

Zaqafqaziya (Cənibi Qafqaz-E.Q.) erməniləri və müsəlmanları nümayəndələrinin keçmiş qurultayında söylənilən və canişin tərəfindən qəbul edilən istəklər arasında qraf İ.İ. Voronsov-Daşkovun rəhbərliyi altında erməni-müsəlman işləri üzrə xüsusi komissiya yaradıldı.

Bu arzu müsəlman proqramında irəli sürülmüş və Bakı nümayəndəsi A.M.Topçubaşov bu istəyi izah edərək bildirdi ki, təklif olunan görüş bütün Qafqaz bölgəsi üçün mühüm əhəmiyyət kəsb etməklə bərabər, millətindən və dinindən asılı olmayaraq bütün bölgə əhalisinə aiddir. Müsəlmanlar bu məsələni öz proqramlarına daxil edərkən onu rəhbər tutdular ki, Qafqaz kimi bir bölgənin idarə olunması kimi mürəkkəb və çətin işdə əhalinin real iştirakı hakimiyyətə yalnız mövcud yerli xüsusiyyətlərə malik bütün kütləni idarə etməyə kömək edə bilər. Bu

əhali Xüsusi Komissiyada lazımi qaydada seçilmiş nümayəndələr vasitəsilə iştirak etməlidir ki, bu da bölgədə dövlət qurumlarının mövcud strukturuna zəruri düzəliş olacaqdır. Həmin izahatda cənab Topçubaşov 17 oktyabr manifestinə və canişinin Qafqaz əhalisinə müraciətinə istinad edərək, burada qraf Voronsov-Daşkovun bölgənin ən yaxşı adamlarını Qafqazda sülhə və idarə etməyə çağırdığını bildirmişdi. Sonda müsəlman nümayəndəsi əmin olduğunu bildirdi ki, təklif olunan görüş sonradan Ümumqafqaz hökumət idarələrinin yaradılması üçün bir rüşeym rolunu oynayacaqdır.

Lakin sonrakı anlamda konfransın rolu və əhəmiyyəti məhdudlaşdırılmış və son nəticədə bölgədə əmin-amanlıq yaranana qədər canişin idarəsi altında müvəqqəti bir qurum olan Erməni-Müsəlman İşləri üzrə Xüsusi Komissiya səviyyəsinə endirilmişdir. Eyni mənada bu məsələ Əlahəzrət İmperatorun Qafqazdakı canişini tərəfindən həll edilib və qurultayı bağlamazdan əvvəl general Malama elan etdi ki, qraf Vorntsov-Daşkov nümayəndələrə müvəqqəti olaraq konfransa ermənilərdən və müsəlmanlardan beş nəfər seçməyə icazə verib. Sonuncular martın 6-da keçirilən xüsusi iclasda seçilmişdilər: müsəlmanlardan- Əlimərdan bəy Topçubaşov, Aslan bəy Kazanalipov, İbrahim bəy Vəkilov, Həmid Zülqədərov və Məhəmməd bəy Şahmalıyev; namizədlər: İsmayıl xan Ziyadxanov və Mustafa bəy Eminov; ermənilərdən: A.A.Kələntər, S.S.Arutyunov, A.İ.Xatisov, A.İ.Stepanov və L.İ. Quliyev; namizədlər: A.Saruhanyats və Sarkisyants.

Martın 8-də Xüsusi Komissiyanın ilk iclası baş tutdu. Təbii ki, həmin iclasda konfransın hüquq və vəzifələri, Qafqazın hakimiyyət orqanlarına və yerli hakimiyyət orqanlarına münasibəti barədə bir sıra suallar yarandı.

Lakin sonuncular Komissiyanın tərkibinin müvəqqəti xarakterini nəzərə alaraq, ilk növbədə, qubernatorlar, qəza rəis-

ləri və sahə polis pristavları yanında erməni və müsəlman nümayəndələrindən ibarət komissiyanın tezliklə formalaşdırılması ilə bağlı nümayəndələr qurultayının göstərişini yerinə yetirməyi zəruri hesab etdilər. Bu mənada növbədənkənar komissiyanın ilk qətnaməsi qəbul edildi və nümayəndələrin sayı da göstərildi: sahə pristavlarının yanında 2, qəza rəislərinin yanında 3, qubernatorların yanında 4 nümayəndə. Sonra qubernatorlar yanında komissiyalar Canişin idarəsinə Xüsusi Komissiyadan 5 nəfər, o cümlədən: Tiflis, İrəvan və Bakı quberniyalarından hərəyə bir, Yelizavetpol quberniyasından erməni və müsəlmanlardan iki nümayəndə seçdilər. Yerli komissiyaların yaradılması ona görə daha zəruri oldu ki, onlar olmadan Xüsusi Komissiya Zaqafqaziya qəzalarında erməni-müsəlman münasibətləri haqqında hər hansı məlumat almaq imkanından məhrum idi.

Martın 10-da keçirilən növbədənkənar Komissiyanın səlahiyyətli müvəkkilləri Arutyunov və Vəkilov tərəfindən yerli komissiyaların formalaşdırılması və Xüsusi Komissiyanın daimi üzvlərinin seçilməsi zərurəti barədə Əlahəzrətə məruzə etmək xahişi ilə canişin dəftərxanasının direktoruna qərar təqdim olundu. Sonra dəftərxananın direktoru cənab Peterson müvəkkillərə izah etdi ki, qaldırılan məsələ ilə bağlı onlar yəqin ki, ən yüksək ruhani orqanlara - katolikosa, şeyxülislama və müftiyə müraciət etməli olacaqlar.

Eyni zamanda konqresin keçmiş sədri kimi general Malamaya Xüsusi Komissiyanın üzvlərinin siyahısı təqdim olundu. General Malama siyahını qəbul edərkən, digər məsələlərlə yanaşı, qurultayın üzvü doktor Stepanova dedi ki, ermənilərlə müsəlmanlar arasında münasibətlər getdikcə daha dinc xarakter aldığından qurultay üzvlərinin tezliklə görüşə dəvət edilmədikləri təqdirdə inciməsinlər.

Martın 17-də qurultay üzvləri Topçubaşov və Zülqədərov quberniya  və qəza komissiyalarının formalaşdırılması ilə bağlı hələ heç bir sərəncamın olmadığını bildirən canişin dəftərxanasının müdirinə baş çəkdilər. Xüsusi Komissiyanın vəzifələrinə gəlincə, qətnamələrin müddəalarına görə, Zati-alilərinin fikrincə, erməni-müsəlman münasibətlərinə aid hər hansı bir məsələ Xüsusi Komissiyanın səlahiyyətlərinə aid edilməlidir. Komissiya toplansın, müzakirə etsin və nəticələrini qraf Canişinə təqdim etsin. Nəticələrin Komissiyaya kimin vasitəsilə təqdim etmələri və ümumiyyətlə Zati-aliləri ilə necə əlaqə saxlamaları, bu nəticələrin əhəmiyyəti nədir, Xüsusi Komissiyada hakimiyyətin müəyyən qərarlarını, məsələn, rəhbərin qərarlarını müzakirə edib-etməyəcəyi ilə bağlı suallara, Qazax qəzasının çevik dəstəsinin rəisi general-mayor Levitskinin qərarları və s. haqqında bütün bu məsələlərlə bağlı dəftərxana idarəsinin direktoru cənab Peterson Xüsusi Komissiyada müzakirə edilməsini, qərarların ertəsi gün ona təqdim olunmasını bildirdi.

Həmin gün, yəni martın 17-də axşam Ə.Topçubaşovun sədrliyi ilə Xüsusi Komissiyanın iclası oldu. Bu iclasda Xüsusi Komissiya yenidən canişindən yerli komissiyaların yaradılması barədə göstəriş verməsini xahiş etmək qərarına gəldi. Bundan əlavə, Komissiya yerli komissiyaların formalaşmasını və Komissiyanın daimi tərkibini gözləmədən, canişindən general Malamanın Xüsusi Komissiyanın sədri təyin edilməsini xahiş etməyi faydalı hesab etdi.

Bu gün çevik dəstənin rəisi general-mayor Levitskinin Qazax qəzasının sakinlərinə qarşı həyata keçirdiyi son dərəcə sıxışdırıcı tədbirlərlə bağlı daxil olan bir neçə bəyanatını nəzərə alaraq, Komissiya bu tədbirlərin mahiyyəti ilə tanış olmağı zəruri hesab etdi. General-mayor Levitskinin Qazax qəzasının kəndlərinin

“azad vətəndaşlarına” müraciət etdiyi “elan və müraciətləri” oxuduqdan sonra, “elan və müraciətlər”in müzakirəsinə başlamadan, Komissiya general-mayor Levitskinin bu “elan və müraciətləri”ndə çox hissəsi nəinki son dərəcə qəddar, lakin praktiki olaraq qeyri-mümkün və xüsusən də qəzanın sakitləşdirilməsi məqsədlərinə xidmət etmədiyini bildirdi. Ermənilərin müsəlmanlara və əksinə vurduğu zərərin ödənilməsi tələbinin görünməmiş forması qurultayı xüsusilə heyrətləndirdi. Canişinin qərarına əsasən, zərərin miqdarının toplanması üsülunun Rusiyanın daxili quberniyaları üçün işlənib hazırlanmış üsulla məhdudlaşdırılmış, general-mayor Levitski isə bütün qəza üzrə 600 min rubldan çox olan itkilərin miqdarını kəndlər üzrə müəyyənləşdirmiş, onları kəndlər üzrə hesablamağı əmr etmişdir. Qazax qəzasının kəndlərinin “azad vətəndaşları” isə martın 20-dək bu məbləğin hamısını ödəməlidirlər, əks halda kəndlər tamamilə dağıdılacaq, “azad vətəndaşların” torpaqları alınaraq məskunlaşmaq üçün köçürmə idarəsinə veriləcək, daxili quberniyalardan olan köçkünlərin və “azad” vətəndaşların” Qazax qəzasında yaşaması qadağan ediləcəkdir.

Bu tədbirlər haqqında daha sonra danışacağıq, general-mayor Levitski. İclasda onlar da müzakirə olunacaq. Bu arada, vaxtın azlığına görə, bu məsələ ilə bağlı Xüsusi Komissiya yekunlaşana qədər, cənab Levitskidən belə bir tədbirin həyata keçirilməsini dayandırmağı xahiş etmək qərarına gəldi. Nəhayət, hakimiyyət orqanları tərəfindən silahların müsadirə edilməsi ilə bağlı müxtəlif qəzalardan daxil olan xəbərləri nəzərə alaraq, Komissiya zati-aliləri canişinin qərarına əsasən, canişindən əhalidən silahların müsadirə edilməsinin dayandırılması barədə əmr verməsini xahiş etmək qərarına gəldi.

Martın 18-də növbədənkənar iclasın bütün bu qərarlarının qəbul edilməsi haqqında Komissiyanın səlahiyyətli nümayəndələri Topçubaşov və Arutyunov tərəfindən canişin dəftərxanasının

müdiri, cənab Petersona məruzə edildi. Sonuncu, həmin gün qraf İ.İ.Voronsov-Daşkova məlumat verdi və Komissiyada bildirildi ki, cənab Levitskinin Qazax qəzasında gördüyü, yuxarıda qeyd olunan tədbirlə əlaqədar olaraq, zərərin ödənilməsinin dayandırılması barədə dərhal göstəriş veriləcək. General Malamanın Xüsusi Komissiyaya sədrliyinə gəlincə, qraf Canişinin bununla heç bir əlaqəsi yoxdur, lakin Komissiyanın özü müvafiq xahişlə general Malamaya müraciət etmişdir.

Martın 18-də axşam saatlarında Xüsusi Komissiyanın yeni iclası keçirildi, orada canişinin qətnaməsi dinlənildi. Nümayəndələr Arutyunov və Topçubaşova Komissiyanın sədri vəzifəsinin icrasına başlamaq və Xüsusi Komissiyanın qətnamələrində qaldırılan məsələləri müzakirə etmək üçün martın 20-də, bazar ertəsi komissiya iclasını təyin etmək xahişi ilə martın 19-da general Malamaya baş çəkmək səlahiyyəti verildi.

Beləliklə, Tiflis şəhərində yerləşən Qafqaz Canişinliyində Azərbaycan türkləri ilə ermənilər arasında baş tutmuş "barışdırıcı qurultay" 1906-cı ilin fevralın 20-də baş tutmuş, martın 6-da yekunlaşmışdır. Martın 6-da qurultayın məntiqi nəticəsi olaraq hadisələrə nəzarət üçün həm erməni nümayəndələrindən, həm də Azərbaycan nümayəndələrindən ibarət Xüsusi Komissiya yaradılmışdır. Xüsusi Komissiyanın tərkibinə Azərbaycan nümayəndələrindən 5 həqiqi üzv, 2 namizəd və eyni sayda erməni nümayəndələrindən seçilmişdir. Bu Komisiyanın əsas işi hakimiyyət orqanları ilə əhali arasında əlaqə yaratmaq, hüquq mühafizə orqanlarına kömək və yerlərdə baş vermiş problemlərin həlli ilə bağlı məsələlərə müdaxilə etmək idi. Xüsusi Komissiyanın ilk iclası martın 8-də başlamış, köç məsələsi və əhalinin tarla işləri ilə bağlı protokollar tərtib etmiş, protokollarda bu məsələlərlə bağlı şəraitə uyğun olara qayda-qanunlar tərtib etilmişdir. Ondan sonra martın 17-də və martın 18-də Xüsusi Komissiyanın iclasları keçirilmişdi.

**Azərbaycanlılarla ermənilər arasında keçirilən**
**“Barışdırıcı qurultay”**
**(Qafqaz Canişinliyi, 20 fevral- 6 mart 1906-cı il)**

## NƏTİCƏ

Qafqaz Canişinliyi nəzdində 1906-cı ilin fevral-mart aylarında keçirilən “barışdırıcı qurultay” 1905-1906-cı illərdə Cənubi Qafqazda Azərbaycan türkləri ilə ermənilər arasında baş vermiş qırğınların, qarşıdurmanın qarşısını almaq və gələcəkdə tərəflər arasında sülh bağlamaq üçün atılan bir addım idi. Bu qurultay haqqında tarixi ədəbiyyatda xeyli məlumatlar öz əksini tapmışdır. Lakin monoqrafiyasında əsas məqsəd arxiv mənbələrinə və dövrü mətbuata əsaslanaraq qurultayın iclaslarını tam göstərmək, burada müzakirə edilən məsələlərə münasibət bildirən nümayəndələrin və digər səlahiyyətli şəxslərin açıq çıxışlarını, Xüsusi Komissiyanın protokollarını ətraflı təsvir etməkdir. Monoqrafiyada qurultayın təşkili, qurultaya rəhbərlik edən qrupun tərkibi, qurltayda iştirak edən hər iki millət nümayəndələrinin sayı, qurultay başlayarkən hər iki millət tərəfindən ortaya atılan proqramlar, bu proqramın bəndlərinin müzakirəsi zamanı ayrı-ayrı nümayəndələrin çıxışları, yaradılan Xüsusi Komissiyanın qəbul etdiyi protokolları işıqlandırılmışdır.

Qeyd etmək lazımdır ki, Qafqaz Canişinliyində ermənilərlə Azərbaycan türkləri arasında baş tutmuş “barışdırıcı qurultay” çox gərgin və qarşılıqlı ittihamlar əsasında keçmişdir. Nazim Mustafa haqlı olaraq yazır ki, “Erməni-müsəlman qurultayının başlıca əhəmiyyəti ondan ibarət olmuşdur ki, keçirilən iclaslarda azərbaycanlı nümayəndələr ermənilərin iç üzünü açmış, Cənubi Qafqazdakı bütün qırğınların baiskarının “Daşnaksutyun“ partiyasının olduğunu ermənilərin üzünə söyləmiş,

rəsmi hakimiyyət dairələrinin erməni terroru qarşısında acizlik göstərdiklərini sübuta yetirmişlər”[78]. Həqiqətən də, qurultayın gedişindən məlum olur ki, Azərbaycan nümayəndələri bu tədbirə əla hazırlaşmışdılar. Onlar qurultaya hazırıqlı getmiş, ermənilərdən əvvəl siyasi, iqtisadi və mədəni tələbləri özündə əks etdirən proqram tərtib etmişdilər. Ermənilərin isə qurultayın ilk günündə hərəkət istiqamətini tənzimləyən proqramları belə olmamışdır. Bəzi məsələlərdə hətta, Azərbaycan nümayəndələri erməniləri ifşa ermiş, onları fakt qarşısında qoymuşdular. Məsələn, Azərbaycan nümayəndələri ermənilərlə azərbaycanlılar arasında olan qırğınların baş verməsində əsas səbəbkarların erməni terror təşkilatlarında, əsasən də “Daşnaksutyun”un fəaliyyətində görürdülər. Qurultyın gedişində bu terror təşkilatının nizamnaməsi ortaya qoyulmuş, onların xüsusi silahlı qüvvəyə və güclü silsah-sursata malik olması və bu terror təşkilatının dövlət yaratmaq istəyi Azərbaycan nümayəndələri tərəfindən ifşa edilmişdir. Ə.Ağayev, İ.Hacıyev, M.Şahtaxtinski, Ə.Topçubaşov, Q.Qarabəyov və b. öz çıxışlarında dönə-dönə bildirmişdilər ki, bu təşkilatın fəaliyyəti ləğv olunmadan, onun silahlı qüvvələri tərki-silah edilmədən sülhdən danışmaq mümkün deyil. Erməni nümayəndələri hər vasitə ilə bu müddəadan yayınaraq, guya erməni xalqının ağır vəziyyətinə görə belə təşkilatların yarandığını bildirmiş, guya vəziyyət yaxşılaşarsa belə təşkilatların öz-özlüyündə ləğv ediləcəyi fikrini yeritməyə çalışmışdılar. Onların çıxışlarına fikir verdikdə görmək olar ki, erməni nümayəndələri öz çıxışlarında xristian həmrəyliyindən, guya hər hansı hadisədə ermənilərin rus xalqı ilə bir olmalarından danışır, yersiz olaraq canişinə yaltaqlanır və hər vasitə ilə əsas məsələlərdən yayınmağa çalışmışdılar. Onlar qır-

[78] Mustafa N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.272-273.

ğının əsas səbəbini yerli hakimiyyət orqanlarının yarıtmaz siyasətində görür, "Daşnaksutyun" və digər erməni terror təşkilatlarının fəaliyyətini və günahını hər vasitə ilə inkar edirdilər. Qurultayda iştirak edən bir-çox erməni nümayəndələri "Daşnaksutyun"la yaxından əlaqəli olsa da, bu təşkilatın tərki-silah edilməsi və fəaliyyətinə son qoyulmasına qarşı çıxır və guya xalqın vəziyyəti yaxşılaşdıqdan sonra belə təşkilatların öz-özünü buraxacağı kimi əfsanələr uydururdular.

Azərbaycan nümayəndələri bu qurultayda cəsarətlə yerli hakimiyyət və hüquq mühafizə orqanlarını da günhlandırmışdılar. Onlar bildirirdilər ki, qəbul edilən qanunlar müsəlman əhalisi ilə xristianlar arasında ayrı-seçkilik yaradır, verilən qanunlarda fərq olmamalı, qanun dinindən, millətindən asılı olmayaraq hamı üçün eyni olmalıdır. Hətta Canişin dəftərxanasının müdiri, mülkü müşavir Peterson öz çıxışında Azərbaycan nümayəndələrinin hüquq sisteminə yaxşı bələd olması, ədliyyə orqanlarının fəaliyyətinə münasibətini yüksək qiymətləndirmişdi. O çıxışında qeyd etmişdi: "ermənilər ədliyyə sisteminin qüsurlarını göstərməklə kifayətlənirlər, müsəlmanlar bu məsələni daha ətraflı işıqlandırırlar. Onların fikrincə, hakimiyyət cəmiyyətdən lazımi dəstək almadığından kifayət qədər güclü deyil. Hakimiyyət orqanlarının fəaliyyətinə münbit şəraitin yaradılmasının az və ya çox dərəcədə cəmiyyətin də rolunun olması təklifi ilə razılaşmamaq olmaz".

Hətta Azərbaycan nümayəndələri xalqın maariflənməsi üçün icbari, məcburi və pulsuz ibtidai məktəblərin açılması üçün hakimiyyət orqanları qarşısında məsələ də qaldırmışdılar. Qurultayın materiallarına baxdıqda Azərbaycan nümayəndələri bu bəndə çox ciddi yanaşmış, xalqın maariflənməsi üçün ibtidai məktəblərin açılmasının vacib olduğunu hakimiyyət nümayəndələrinə çatdırmışdılar. Azərbaycan nümayəndələrinin bu

qurultayda qaldırdığı ən əhəmiyyətli məsələlərdən biri, Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin (həmin dövrdə tatar bölməsi-E.Q.) Azərbaycan türklərinin daha sıx yaşadığı ərazilərə köçürülməsi məsələsidir. İlk dəfə bu məsələ bu qurultayda qaldırılmış, uzun müddət gündəmdə olmuş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1918-ci ildə Qori Müəllimlər Seminariyasının bu bölməsi Qazaxa köçürülmüşdür.

"Barışdırıcı qurultay"ın sonunda qətnamə qəbul edilmiş, həmin qətnamədə bölgədə sabitlik yaratmaq üçün yerli hakimiyyət orqanlarının dəstəyi ilə həm Azərbaycan türklərindən, həm də emənilərdən ibarət müxtəlif komissiyaların, sülh bərpa edilənə qədər Qafqaz canişinliyi yanında hər iki millətdən seçilmiş nümayəndələrdən ibarət Xüsusi Müşavirənin yaradılması, bölgələrdə günahkarların sərt cəzalandırılması, yollarda təhlükəsizliyin bərpa edilməsi və s. məsələlər öz həllini tapmışdı.

"Barışdırıcı qurultay" sona çatdıqdan sonra nümayəndələrdən ibarət Xüsusi Komissiya yaradılmış və bu komissiya ermənilərlə Azərbaycan türkləri arasında sülh yaratmaq üçün müxtəlif məsələləri həll etməli idi. Hətta, Xüsusi Komissiya həmin dövr üçün aktual olan köç məsələsi və tarla işləri ilə qələqədar olaraq protokol qəbul etmiş və həmin protokollarda bu məsələlərin həlli mexanizmi göstərilmişdir.

Beləliklə, Qafqaz Canişinliyində ermənilərlə Azərbaycan nümayəndələri arasında keçirilən bu "barışdırıcı qurultay" gərgin və qarşılqlı ittihamlar şəraitində keçməsinə baxmayaraq, hər iki millət arasında baş vermiş qırğınların dayandırılmasında əhəmiyyətli rol oynamışdır. Bu qurultaydan sonra Cənubi Qafqazda, əsasən də Azərbaycanda qırğınlar yavaş-yavaş səngimiş, dayanmış və bölgədə sabitlik yaranmışdır.

## Azerbaycanlılar ve Ermeniler arasında "Uzlaşma Kongresi" (Kafkasya Valiliği, 20 Şubat – 6 Mart 1906)

## SONUÇ

Şubat-Mart 1906'da Kafkasya Naibliği'nin idaresinde toplanan "uzlaşma kongresi", 1905-1906 yıllarında Güney Kafkasya'da Azerbaycan Türkleri ile Ermeniler arasında yaşanan katliam ve çatışmaların önlenmesi ve ileride taraflar arasında barış sağlanması amacıyla atılan bir adımdı. Bu kongreye ilişkin çok sayıda bilgi tarih literatüründe yer almaktadır. Ancak monografinin asıl amacı, arşiv belgeleri ve dönemin basınına dayanarak kongre toplantılarını tam olarak tanıtmak, orada görüşülen konularda görüş bildiren delegelerin ve diğer yetkili kişilerin yaptıkları açık konuşmaları ve Özel Komisyon tutanaklarını ayrıntılı olarak anlatmaktır. Monografide kongrenin organizasyonu, kongreyi yöneten grubun oluşumu, kongreye katılan her iki milletin temsilcilerinin sayısı, kongre başlangıcında her iki milletin ortaya koyduğu programlar, bu program maddelerinin görüşülmesi sırasında bireysel temsilcilerin yaptığı konuşmalar ve kurulan Özel Komisyon tarafından kabul edilen protokoller ayrıntılı olarak anlatılmaktadır.

Kafkasya Naipliği'nde Ermeniler ile Azerbaycan Türkleri arasında yapılan "uzlaşma kongresi"nin oldukça gergin geçtiğini ve karşılıklı suçlamalara dayandığını belirtmek gerekir. Nazım Mustafa haklı olarak, "Ermeni-Müslüman kongresinin başlıca önemi, Azerbaycan temsilcilerinin, yapılan görüşmelerde Ermenilerin iç yüzünü deşifre etmeleri, Ermenilere Taşnaksutyun partisinin Güney Kafkasya'daki bütün katliamların kışkırtı-

cısı olduğunu söylemeleri ve resmi hükümet çevrelerinin Ermeni terörü karşısında çaresiz olduklarını kanıtlamalarıydı" diye yazıyor. Nitekim kongrenin gidişatından Azerbaycan temsilcilerinin bu olaya iyi hazırlanmış oldukları anlaşılmaktadır. Kongreye hazırlıklı gitmişler ve Ermenilerin siyasi, ekonomik ve kültürel taleplerini yansıtan bir program hazırlamışlardı. Ermenilerin kongrenin ilk gününde hareketlerinin yönünü belirleyecek bir programları bile yoktu. Hatta bazı konularda Azerbaycan temsilcileri Ermenileri teşhir edip gerçeklerle yüzleştirdiler. Örneğin Azerbaycan temsilcileri, Ermeniler ile Azerbaycanlılar arasında yaşanan katliamların arkasındaki asıl suçlunun Ermeni terör örgütleri, özellikle de "Taşnaktsutyun"un faaliyetleri olduğunu düşünüyorlardı. Kongrede bu terör örgütünün tüzüğü ortaya konulmuş, özel silahlı bir güce ve güçlü silahlara sahip olduğu, ayrıca bu terör örgütünün devlet kurma isteği Azerbaycan temsilcileri-A.Agayev, İ.Hacıyev, M.Şahtahtinski, A.Topçubaşov, G.Garabeyov ve diğerleri tarafından deşifre edilmiştir. Bu örgütün faaliyetleri ortadan kaldırılmadan ve silahlı kuvvetleri silahsızlandırılmadan barıştan söz etmenin mümkün olmadığını konuşmalarında defalarca dile getirdiler. Ermeni temsilciler, bu hükmü her ne pahasına olursa olsun geçiştirmeye çalışmış, bu tür örgütlerin Ermeni halkının içinde bulunduğu zor durumdan dolayı kurulduğunu ileri sürmüş ve durum düzeldiği takdirde bu tür örgütlerin kendiliğinden dağılacağı düşüncesini aşılamaya çalışmışlardır.

Konuşmalarına baktığımızda Ermeni temsilcilerinin, konuşmalarında Hıristiyan dayanışmasından, her halükarda Ermenilerin Rus halkıyla sözde birliğinden söz ettiklerini, asıl meselelerden mümkün olduğunca kaçınmaya çalıştıklarını görüyoruz. Katliamın asıl sebebini yerel yönetimlerin beceriksiz politikasında görmüşler, "Taşnaktsutyun" ve diğer Ermeni terör ör-

gütlerinin faaliyetlerini ve suçlarını her ne pahasına olursa olsun inkar etmişlerdir. Kongreye katılan Ermeni delegelerin birçoğu "Taşnaktsutyun" ile yakın ilişki içinde olmalarına rağmen, bu örgütün silahsızlandırılmasına ve faaliyetlerinin durdurulmasına karşı çıkmışlar ve halkın durumu düzelince bu örgütlerin kendiliğinden dağılacağı yönünde söylentiler üretmişlerdir.

Bu kongrede Azerbaycan temsilcileri yerel yönetimleri ve kolluk kuvvetlerini sert bir dille suçladılar. Çıkarılan yasaların Müslüman halk ile Hıristiyan halk arasında ayrımcılık yaptığını, çıkarılan yasalar arasında fark olmaması gerektiğini, din ve milliyet farkı gözetmeksizin herkes için aynı kanunun uygulanması gerektiğini belirttiler. Hatta Cumhurbaşkanlığı Ofisi Başkanı, Sivil Müşavir Peterson bile yaptığı konuşmada, Azerbaycan temsilcilerinin hukuk sistemine ilişkin iyi bilgilerinden ve yargı makamlarının faaliyetlerine yönelik tutumlarından övgüyle söz etti. Konuşmasında, "Ermeniler adalet sistemindeki aksaklıkları dile getirmekle yetinirken, Müslümanlar bu konuya daha fazla ışık tutuyor" ifadelerine yer verdi. Onlara göre hükümet yeterince güçlü değil çünkü toplumdan gerekli desteği almıyor. "Toplumun da, az veya çok, devlet organlarının faaliyetleri için elverişli koşulların yaratılmasında bir rolü olduğu önerisine katılmamak mümkün değildir."

Azerbaycan temsilcileri, halkın eğitimi için zorunlu, mecbûrî ve parasız ilkokulların açılması konusunu bile yetkililere ilettiler. Kongre materyallerine bakıldığında Azerbaycan temsilcilerinin bu hususu çok ciddiye aldıkları ve halkın eğitimi için ilkokulların açılmasının önemli olduğunu hükümet temsilcilerine ilettikleri görülmektedir.

Azerbaycan temsilcilerinin bu kongrede gündeme getirdikleri en önemli konulardan biri de Gori Öğretmen Okulu'nun

Azerbaycan şubesinin (o zamanki adıyla Tatar şubesi - E.G.) Azerbaycan Türklerinin daha yoğun yaşadığı bölgelere taşınması meselesiydi. Bu konu ilk kez bu kongrede gündeme gelmiş ve uzun zamandır gündemdeydi. Azerbaycan Halk Cumhuriyeti döneminde, 1918'de Gori Öğretmen Okulu'nun bu şubesi Kazak bölgesine devredildi.

"Uzlaşma Kongresi"nin sonunda, bölgede istikrarın sağlanması için yerel yönetimlerin desteğiyle hem Azerbaycan Türklerinden hem de Ermenilerden oluşan çeşitli komisyonların kurulması, Kafkasya Naipliği'nin yönetimi altında her iki milletin seçilmiş temsilcilerinden oluşan Özel Konsey'in kurulması, bölgelerdeki faillerin ağır şekilde cezalandırılması, yollarda güvenliğin yeniden sağlanması vb. konularda karar alındı. Sorunlar çözülmüştü.

"Uzlaşma Kongresi"nin sona ermesinin ardından temsilcilerden oluşan Özel Komisyon kuruldu ve bu komisyonun Ermeniler ile Azerbaycan Türkleri arasında barışı sağlamak amacıyla çeşitli konuları çözüme kavuşturması öngörüldü.

Böylece Kafkasya Naipliği'nde Ermeni ve Azerbaycan temsilcileri arasında düzenlenen bu "uzlaşma kongresi", gergin atmosfere ve karşılıklı suçlamalara rağmen, iki ülke arasında yaşanan katliamların durdurulmasında önemli rol oynamıştır. Bu kongreden sonra Güney Kafkasya'da, özellikle Azerbaycan'da katliamlar giderek yatışmış ve durmuş, bölgede istikrar sağlanmıştır.

## «Примирительный съезд» между азербайджанцами и армянами
## (Кавказское наместничество, 20 февраля — 6 марта 1906 г.)

### Резюме

«Согласительный съезд», состоявшийся в феврале-марте 1906 года при Кавказском наместничестве, был шагом, предпринятым с целью предотвращения резни и конфликтов, происходивших между азербайджанскими турками и армянами на Южном Кавказе в 1905-1906 годах, и заключения мира между сторонами в будущем. Об этом съезде сохранилось много сведений в исторической литературе. Однако главная цель монографии — наиболее полно представить заседания съезда на основе архивных материалов и прессы того периода, подробно описать публичные выступления делегатов и других уполномоченных лиц, высказывавших свои мнения по обсуждавшимся на нем вопросам, протоколы Особой комиссии. В монографии освещаются организация съезда, состав руководящей группы съезда, число представителей обеих наций, участвовавших в съезде, программы, выдвинутые обеими нациями в начале съезда, выступления отдельных представителей при обсуждении пунктов этой программы, а также протоколы, принятые созданной Специальной комиссией.

Следует отметить, что «примирительный съезд», состоявшийся между армянами и азербайджанскими турками в Кавказском наместничестве, был весьма напряженным и основывался на взаимных обвинениях. Назим Мустафа справедливо пишет, что «главное значение армяно-мусульманского съезда состояло в том, что на прошедших

заседаниях азербайджанские представители раскрыли внутреннее лицо армян, заявили армянам, что партия «Дашнакцутюн» является зачинщиком всех погромов на Южном Кавказе, и доказали беспомощность официальных правительственных кругов перед армянским террором». Действительно, по ходу съезда видно, что представители Азербайджана были хорошо подготовлены к этому событию. Они отправились на съезд подготовленными и составили программу, отражавшую политические, экономические и культурные требования, выдвинутые армянами. В первый день съезда у армян не было даже программы, регулирующей направление их движения. В некоторых вопросах представители Азербайджана даже разоблачали армян и предъявляли им факты. Например, азербайджанские представители главными виновниками резни между армянами и азербайджанцами считали армянские террористические организации, в первую очередь деятельность «Дашнакцутюн». В ходе съезда был раскрыт устав этой террористической организации, а также факт наличия у них особой вооруженной силы и мощной амуниции, а также стремление этой террористической организации создать государство были разоблачены азербайджанскими представителями. А.Агаев, И.Гаджиев, М.Шахтахтинский, А.Топчубашев, К.Карабеков и др., в своих выступлениях они неоднократно заявляли, что говорить о мире невозможно без прекращения деятельности этой организации и разоружения ее вооруженных сил. Армянские представители пытались всячески обойти это положение, утверждая, что подобные организации были созданы из-за тяжелого положения армянского народа, и пытаясь внушить мысль, что подобные организации

распадутся сами собой, если ситуация улучшится.

Армянские представители в своих выступлениях говорили о христианской солидарности, о мнимом единстве армян с русским народом во всяком случае и излишне льстили своему наместнику, стараясь всеми способами обойти главные вопросы. Главную причину резни они видели в бездарной политике местных властей и всячески отрицали деятельность и виновность «Дашнакцутюн» и других армянских террористических организаций. Хотя некоторые представители армян, присутствовавшие на съезде, были тесно связаны с «Дашнакцутюн», они выступали против разоружения и прекращения деятельности этой организации, а также фабриковали легенды о том, что подобные организации распадутся сами собой, как только положение народа улучшится.

Азербайджанские представители на этом съезде смело обвинили местные власти и правоохранительные органы. Они заявили, что принятые законы дискриминируют мусульманское население и христиан, что не должно быть никаких различий в принимаемых законах и что закон должен быть одинаковым для всех, независимо от религии или национальности. Даже глава президентской канцелярии, гражданский советник Петерсон в своем выступлении высоко оценил хорошее знание представителями Азербайджана правовой системы и их отношение к деятельности судебных органов. В своей речи он отметил: «Армяне довольствуются указанием на недостатки системы правосудия, в то время как мусульмане проливают больше света на этот вопрос. По их мнению, правительство недостаточно сильно, поскольку не получает необходимой поддержки со стороны общества. Нельзя не

согласиться с тем, что общество в большей или меньшей степени также участвует в создании благоприятных условий для деятельности органов власти».

Азербайджанские представители даже подняли перед властями вопрос об открытии обязательных, обязательных и бесплатных начальных школ для обучения народа. Ознакомившись с материалами съезда, азербайджанские представители отнеслись к этому вопросу очень серьезно и довели до представителей правительства важность открытия начальных школ для просвещения народа.

Одним из важнейших вопросов, поднятых азербайджанскими представителями на этом съезде, был вопрос о переезде азербайджанского отделения Горийской учительской семинарии (в то время татарского отделения— Э.Г.) в районы компактного проживания азербайджанских тюрков. Этот вопрос был впервые поднят на этом съезде, и он долгое время стоял на повестке дня. Во времена Азербайджанской Демократической Республики, в 1918 году, это отделение Горийской учительской семинарии было переведено в город Казах.

По итогам «Примирительного съезда» была принята резолюция, в которой содержался призыв к созданию различных комиссий, состоящих как из азербайджанских тюрков, так и армян при поддержке местных властей с целью создания стабильности в регионе, созданию Особого совета из выборных представителей обеих наций при Кавказском наместничестве до восстановления мира, строгому наказанию виновных в регионах, восстановлению безопасности на дорогах и т. д., проблемы были решены.

После завершения «Примирительного съезда» была создана Специальная комиссия, состоящая из

представителей, которая должна была решать различные вопросы с целью установления мира между армянами и азербайджанскими турками.

Таким образом, этот «примирительный съезд», проведенный между армянскими и азербайджанскими представителями в Кавказском наместничестве, несмотря на напряженную обстановку и взаимные обвинения, сыграл значительную роль в прекращении резни, происходившей между двумя народами. После этого съезда массовые убийства на Южном Кавказе, в основном в Азербайджане, постепенно пошли на убыль и прекратились, в регионе установилась стабильность.

## "Reconciliation Congress" held between Azerbaijanis and Armenians
## (Caucasian Viceroyalty, February 20-March 6, 1906)

## THE CONCLUSION

The “peace-maker congress” held in February-March 1906 under the Caucasus Viceroyalty was a step taken to prevent the massacres and conflicts that occurred between Azerbaijani Turks and Armenians in the South Caucasus in 1905-1906 and to conclude peace between the parties in the future. A lot of information about this congress has been reflected in historical literature. However, the main goal of the monograph is to fully present the meetings of the congress based on archival materials and the press of the time, to describe in detail the public speeches of representatives and other authorized persons who expressed their views on the issues discussed there, and the protocols of the Special Commission. The monograph highlights the organization of the congress, the composition of the group leading the congress, the number of representatives of both nations participating in the congress, the programs put forward by both nations at the beginning of the congress, the speeches of individual representatives during the discussion of the points of this program, and the protocols adopted by the established Special Commission.

It should be noted that the “peace-maker congress” held between Armenians and Azerbaijani Turks in the Caucasus Viceroyalty was very tense and based on mutual accusations. Nazim Mustafa rightly writes that “the main importance of the

Armenian-Muslim congress was that during the meetings held, Azerbaijani representatives revealed the inner face of Armenians, told the Armenians that the “Dashnaktsutyun” party was the instigator of all the massacres in the South Caucasus, and proved that the official government circles were helpless in the face of Armenian terror.”[79] Indeed, it is clear from the course of the congress that the Azerbaijani representatives were well prepared for this event. They went to the congress well-prepared, and had drawn up a program reflecting political, economic and cultural demands before the Armenians. The Armenians, on the other hand, did not have such a program regulating the direction of action on the first day of the congress. In some issues, Azerbaijani representatives even exposed the Armenians and confronted them with the facts. For example, Azerbaijani representatives saw the main culprits in the massacres between Armenians and Azerbaijanis in Armenian terrorist organizations, mainly in the activities of “Dashnaktsutyun”. During the congress, the charter of this terrorist organization was revealed, the fact that they had a special armed force and powerful weapons, and the desire of this terrorist organization to create a state were exposed by Azerbaijani representatives. A. Agayev, I. Hajiyev, M. Shahtakhtinsky, A. Topchubashov, G. Garabeyov and others repeatedly stated in their speeches that it was impossible to talk about peace without the liquidation of the activities of this organization and the disarmament of its armed forces. Armenian representatives avoided this provision by all means, stating that such organizations were created due to the difficult

[79] Mustafa N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906), s.272-273.

situation of the Armenian people, and tried to instill the idea that such organizations would be liquidated on their own if the situation improved.

If we pay attention to their speeches, we can see that the Armenian representatives spoke in their speeches about Christian solidarity, about the supposed unity of the Armenians with the Russian people in any event, unduly flattered their viceroy and tried to evade the main issues by all means. They saw the main reason for the massacre in the incompetent policy of the local authorities, and denied the activities and guilt of the "Dashnaktsutyun" and other Armenian terrorist organizations by all means. Although many Armenian representatives participating in the congress were closely associated with the "Dashnaktsutyun", they opposed the disarmament and cessation of the activities of this organization and supposedly invented legends that such organizations would leave on their own after the people's situation improved.

Azerbaijani representatives at this congress boldly blamed local authorities and law enforcement agencies. They stated that the adopted laws discriminate between the Muslim population and Christians, that there should be no differences in the laws issued, that the law should be the same for everyone, regardless of religion or nationality. Even the head of the president's office, civil adviser Peterson, in his speech highly appreciated the Azerbaijani representatives' good knowledge of the legal system and their attitude to the activities of the judicial bodies. He noted in his speech: "Armenians are content with pointing out the shortcomings of the judicial system, while Muslims shed more light on this issue. In their opinion, the authorities are not strong enough

because they do not receive the necessary support from society. One cannot disagree with the proposal that society should play a greater or lesser role in creating favorable conditions for the activities of the authorities.”

Even the Azerbaijani representatives raised the issue of opening compulsory, compulsory and free primary schools for the enlightenment of the people before the authorities. Looking at the materials of the congress, the Azerbaijani representatives approached this item very seriously and conveyed to the authorities that it was necessary to open primary schools for the enlightenment of the people.

One of the most important issues raised by the Azerbaijani representatives at this congress was the issue of relocating the Azerbaijani branch of the Gori Teachers’ Seminary (at that time the Tatar branch - E.G.) to areas where Azerbaijani Turks live more densely. For the first time, this issue was raised at this congress, it was on the agenda for a long time, during the Azerbaijan Democratic Republic, in 1918, this branch of the Gori Teachers' Seminary was transferred to Kazakh.

At the end of the “peace-maker congress” a resolution was adopted, in which various commissions consisting of both Azerbaijani Turks and Armenians were established with the support of local authorities to create stability in the region, a Special Council consisting of representatives elected from both nations under the Caucasus Viceroyalty until peace was restored, strict punishment of criminals in the regions, restoration of safety on the roads, etc. issues were resolved.

After the end of the “peace-maker congress”, a Special Commission consisting of representatives was established, and

this commission was to resolve various issues to create peace between Armenians and Azerbaijani Turks.

Thus, this “conciliatory congress” held between Armenians and Azerbaijani representatives in the Caucasus Viceroyalty, despite the tense atmosphere and mutual accusations, played a significant role in stopping the massacres that occurred between the two nations. After this congress, the massacres in the South Caucasus, especially in Azerbaijan, gradually subsided and stopped, and stability was established in the region.

# ƏLAVƏLƏR

## "BARIŞDIRICI QURULTAY"DA İŞTİRAK EDƏN BƏZİ NÜMAYƏNDƏLƏRİN BİOQRAFİYASI HAQQINDA[80]

**"Barışdırıcı qurultay"ı təşkil edən idarə heyətin qısa bioqrafiyası haqqında məlumat:**

1. **Qafqaz Canişini Voronsov- Daşkov İllarion İvanoviç ( 27 may 1937, Sankt-Peterburq-15 yanvar 1916, Alupka, Tavriya qəzası, Yalta qəzası)-** İ.İ.Voronsov-Daşkov 1837-ci il mayın 27-də Sankt- Peterburqda anadan olmuşdur. O, ilk təhsilini evdə aldıqdan sonra 1855-ci ildə Moskva Universitetinə daxil olmuş və bir neça ay burada oxuduqdan sonra Krım müharibəsində iştirak etmək xahişi ilə 1856-cı ildə süvari alayının leyb-qvardiyasına daxil olmuşdur. 1858-ci il martın 25-də Qazqaza təyinat almış və Qafqaz müharibəsində fəal iştirak etmişdir. Bir neçə il burada qulluq etdikdən sonra, 1865-ci ildə Türküstana general D.İ.Pomanovskinin yanına göndərilmiş və burada qərargah rəisi işləmişdir. 1866-cı il oktyabrın 28-də general-mayor rütbəsi alaraq Türküstan vilayətinin hərbi qubernatorunun köməkçisi olmuşdur. Türküstanda hərbi əməliyyatlarda fəal iştirakına görə İ.İ.Voronsov-Daşkov 1867-ci ildə 4-cü dərəcəli "Müqəddəs Georgi" medalı ilə təltiv edilmişdir. Tezliklə, İ.İ.Voronsov-Daşkov Sankt-Peterburqa qayıdır. Müxtəlif vəzidələrdə işlədikdən sonra, 1905-ci ildə imperiyada inqilabi yüksəlişin qızgın çağında, həmin il

[80] "Barışdırıcı qurultayda iştirak edən bəzi nümayəndələrin bioqrafiyası haqqında məlumat olmadığından, bu "Əlavə" bölməsi natamamdır. Ola bilsin ki, qurultayda iştirak edən bəzi nümayəndələr sonradan ictimai-siyasi fəaliyyətdən uzaqlaşdıqlarından onlar haqqında məlumat əldə edə bilmədik.

fevralın 27-də İ.İ.Voronsov-Daşkov Qafqaz Canişini təyin olunmuş və fəaliyyəti dövründə ermənipərəst siyasət yürütmüşdür. O, bu vəzifədə 1915-ci ilin sonuna qədər işləmişdir. İ.İ.Voronsov-Daşkov 1916-cı il yanvarın 15-də Tavriya quberniyasının Yalta qəzasının Alupka şəhərində vəfat etmiş və Şaskova qəzasının Novotominkova kəndində Blaqoveşenski kilsəsinin yaxınlığında ata-baba mülkündə dəfn olunmuşdur (indiki Morşan rayonu, Tanbov vilayəti).

**1906-cı il fevralın 20-də Qafqaz canişinliyində Azərbaycan türkləri ilə ermənilər arasında olmuş "barışdırıcı qurultay" İ.İ.Voronsov-Daşkovun göstərişi ilə baş tutmuş və həmin qurultayın həqiqi sədri olmuşdur.**

2. **1906-cı il fevralın 20-də Qafqaz Canişinliyində çağrılmış "barışdırıcı qurultay"ya sədrlik etmiş Qafqaz Canişininin hərbi işlər üzrə köməkçisi, general-leytenant Malama Yakov Dmitreviç - (4 noyabr (16 noyabr) 1841, Poltava quberniyasının Dnepr şəhəri (Ukrayna)-24 dekabr 1912 (6 yanvar 1913), Sankt-Peterburq)-** O, 1841-ci il noyabrın 4-də Poltava quberniyasının Yekaterinslav şəhərində zadəgan ailəsində anadan olmuşdur. Y.T.Malama təhsilini Petrovkada Poltava kadet (çar Rusiyasında orta hərbi məktəb tələbəsi-E.Q.) korpusunu və Konstantinovkada hərbi məktəbi bitirmiş və buradan Leben qusar (süvari-E.Q.) alayına daxil olmuşdur. Onun bütün həyatı hərbi qulluqda keçmişdir. Y.D.Malama 1881-ci ildə Kuban əyalətinə ezam olunmuş, 1892-1904-cü illərdə Kuban əyalətinin rəisi və Kuban kazak dəstəsinin atamanı, 1904-1905-ci illərdə Qafqaz hərbi dairəsi qoşunlarının komandanı və

1905-1906-cı illərdə İmperator Həzrətlərinin Qafqazdakı Canişininin hərbi işlər üzrə köməkçisi olmuşdur. 1907-ci il yanvarın 12-də general kavaleri rütbəsinə keçirilmiş və Hərbi Şuranın üzvü təyin edilmişdir O, 1912-ci il dekabrın 24-də, bəzi məlumata görə isə 1913-cü il yanvarın 6-da Sankt-Peterburqda vəfat etmişdir.

**İştirakçılar**

3. **1906-cı il fevralın 20-də Qafqaz Canişinliyində çağrılmış "barışdırıcı qurultay"da iştirak etmiş Qafqaz Canişininin mülki işlər üzrə köməkçisi, gizli müşavir Girey Sultan Krım (1836, Krım-13 fevral 1920, Petroqrad)-** Sultan Krım 1836-cı ildə Tavriçecki quberniyasının zadəgan ailəsində anadan olmuşdur. Pavlovski kadet korpusunda təhsil almış və 1860-cı ildə Nikolayevski akademiyasının Baş ştabını bitirmişdir. 1855-ci il iyunun 16-dan hərbi xidmətə başlamış, 1860-cı ildə xəstəliyi ilə əlaqədar olaraq praporşik rütbəsində xidmətdən uzaqlaşdırılmışdır. O, 1863-1868-ci illərdə məhkəmədə müstəntiq, 1868-1871-ci illərdə Feodosiya şəhərində sahə üzrə barışdırıcı hakim işləmişdir. Daha sonra o, 1971-1875-ci illərdə Feodesiya şəhər başçısı, 1875-1886-cı illərdə Feodesiya qəzasının zemsto idarəsinin sədri olmuşdur. 1886-cı ildə mülki müşavir və Yekoterinslav xəzinə Palatasına təyin olunmuşdur. 1890-cı il aprelin 1-dən-1895-ci ilə qədər Taviçeski quberniyasının həqiqi gizli müşaviri işləmişdir. 1895-ci ildə Maliyə nazirliyi tərəfindən Qafqaz baş Rəisliyində 1903-cü il aprelin 6-a qədər gizli müşavir kimi çalışmışdır. 1905-ci il fevralın 26-da İ.İ.Voronsov-Daşkov Qafqaz Canişini təyin olunduqdan sonra Sultan Krım Canişin

köməkçisi və gizli müşavir təyin olunur. 1906-cı il aprelin 2-də bu vəzifədən azad olunan Sultan Krım 1917-ci ilə qədər Senatda Məhkəmə departamentində çalışmışdır. Sultan Krım Girey 1920-ci il fevralın 13-də Petroqradda vəfat etmiş və Aleksandr Nevski monastrının qəbirsanlığında dəfn olunmuşdur.

4. **1906-cı il fevralın 20-də Qafqaz Canişinliyində çağrılmış "barışdırıcı qurultay"da iştirak etmiş Qafqaz Canişininin köməkçisi, polis rəisi general-leytenant Şirinkin Yevgeni Nikoforoviç (1843-?)-** Onun haqqında məlumat çox azdır. Y.N.Şirinkin 1884-cü ildən çarın sarayında polis rəisi olmuşdur, 1902-ci ildə general-mayor rütbəsi almışdır. O, 1905-ci ildə Qafqazda canişinlik rejimi yaradıldıqdan sonra İ.İ.Voronsov-Daşkovun polis rəisi kimi köməkçisi olmuşdur. **1906-cı ilin fevralın 20-də başlayan Azərbaycan türkləri ilə ermənilər arasında "barışdırıcı qurultay"a sədrlik edən idarə heyətinin üzvündən biri olmuşdur.**

**Şura üzvləri**

5. Medvedyev Yakov Sergeyeviç (1848-1823)- O, Sankt-Peterburqda Torpaqşünaslıq İnstitutunda oxumuş və 1869-cu ildə oranı qurtarmışdır. O, Qafqazda meşəbəyi işləmiş, sonra bir neçə il Yer quruluşu və Əkinçilik rəisi, gizli müşavir təyin olunmuşdur. O, həm də, Qafqaz Canişinliyi Şurasının üzvü və eyni zamanda Zaqafqaziya (Cənubi Qafqaz-E.Q.) Statistika komitəsi sədrinin köməkçisi idi. 1908-1915-ci illərdə Moskvada işləmiş, 1915-ci ildə yenidən Qafqaza qayıtmışdır. Y.S.Medvedyev Qafqaza qayıtdıqdan sonra Tiflis Botanika bağında məsləhətçi, sonra isə Əkinçilik nazirliyinin meşə böl-

məsində məsləhətçi olmuşdur. 1921-ci ildən sonra Tiflisdə qalmış, Əkinçilik Komisarlığında və meşə komitəsində məsləhətçi işləmişdir. 1923-cü ildə Tiflisdə vəfat etmişdir. **Y.S.Medvedyev də 1906-cı ilin fevralın 20-də başlayan Azərbaycan türkləri ilə ermənilər arasında "barışdırıcı qurultay"a sədrlik edən idarə heyətinin üzvündən biri olmuşdur.**

**Xüsusi dəvət olunanlar**

6. **Qraf Tizenhauzen Vladimir Feodoroviç (1844-1919)-** Eslandiya quberniyasının zadəganlarındandır. O, Derp universitetinin hüquq fakültəsini bitirmiş, 1868-ci il dekabrın 1-dən Zaqafqaziya diyarının Kutaisi hərbi qubernatorluğunda xüsusi tapşırıqla kiçik məmur vəzifəsində qulluğa başlamış və 1870-ci ildə həmin quberniyada baş məmur vəzifəsində işləmişdir. 1876-cı ildə Sığnaq qəzasının rəisi təyin olunmuşdur. 12 il Sığnaqda fəaliyyət göstərən Tizenhauzen 1888-ci ildə Axalkələki qəzasının rəisi təyin olunur və eyni zamanda Axalkələki şəhər məktəbinin fəxri nəzarətçisi seçilmişdir. V.F.Tizenhauzen 1890-1892-ci ildə İrəvan quberniyasının vitse-qubernatoru, 1892-1896-cı ildə Tiflis quberniyasının vitse-qubernatoru, 1896-1914-cü illərdə isə İrəvan qubernatoru işləmişdir. Görkəmli dövlət xadimi, gizli müşavir V.F.Tizenhauzen 1919-cu ildə vəfat etmişdir.

**V.F.Tizenhauzen 1906-cı il fevralın 20-də Qafqaz Canişinliyində Azərbaycan türkləri ilə ermənilər arasında olmuş "barışdırıcı qurultay"a xüsusi dəvət olunan şəxslər arasında olmuş və hətta komissiya sədri olmuşdur.**

7. **Baron Aleksandroviç Pavel Rauş fon Traubenberq (1858-1923)-** Pajski (çar Rusiyasında zadəgan balalarına məxsus imtiyazlı orta hərbi məktəb-E.Q.) korpusunu qurtarmış, 1877-ci ildə Preobrajenski alayında praporşik kimi fəaliyyət göstərmişdir. 1881-ci ildə buradan tərxis olunmuş, sarayda böyük knyaz Konstantin Konstantinoviçin yanında ştalmeystr (çar sarayında saray rütbələrindən biri-E.Q.) vəzifəsində çalışmış, Xalq təhsil nazirliyinə cəlb olunmuş, bu nazirlikdən Daxili işlər Nazirliyinin mülki məsləhətçisi kimi üzv olmuşdur. O, 1905-1907-ci illədə Tiflis qubernatoru seçilmişdir. 1923-cü ildə vəfat etmişdir.

**Pavel Aleksandroviç Baron Rauş fon Traubenberq də 1906-cı il fevralın 20-də Qafqaz Canişinliyində Azərbaycan türkləri ilə ermənilər arasında olmuş "barışdırıcı qurultay"a xüsusi dəvət olunan şəxslər arasında olmuş və bu qurultayda fəal iştirak etmişdir.**

**"Barışdırıcı qurultay"da iştirak etmiş bəzi Azərbaycan nümayəndə heyətinin qısa bioqrafiyası**

8. **Ağayev (Ağaoğlu) Əhməd bəy Mirzə Həsən oğlu (1869, Şuşa-1939, İstanbul-** Azərbaycanda türkçülük hərəkatı ideoloqlarından biri. Görkəmli ictimai-siyasi xadim, publisist, yazıçı, hüquqşünas, şərqşünas-islamşünas alim. Əsilzadə ailəsində anadan olmuşdur. Valideynləri Qarabağ xanı Pənahəli xanın nəslindəndir. Əhməd bəy ilk təhsilini Şuşadakı rus məktəbində və Tiflis gimnaziyasında almışdır. Peterburq Mühəndis-Texniki İnstitutuna daxil olmuş, lakin təhsilini yarımçıq qoymuş, Parisə gedərək, hüquq məktəbini və Sorbonna

Universitetini bitirmişdir. 1894-cü ildə vətənə qayıdan Əhməd bəy Ağayev Azərbaycan dilində "Məşriq" qəzetini çıxarmaq üçün hökumətdən icazə istəsə də, rədd cavabı almışdır. 1896-cı ildə Şuşaya gedərək, realnı məktəbində (çar Rusiyasında orta məktəb-E.Q.) fransız dilində dərs demiş, qiraətxana-kitabxana açmış, ilk teatr tamaşaları təşkil etmişdir. 1897-ci ildə məşhur milyonçu-xeyriyyəçi Hacı Zeyalabdin Tağıyevin dəvəti ilə Bakıya gələrək, realnı məktəbində fransız dili müəllimi işləmiş, "Kaspi" qəzetində əməkdaşlıq etmiş, Əlimərdan bəy Topçubaşovun redaktorluğu (1898-1907) dövründə qəzetin ədəbi şöbəsinin müdiri olmuşdur. Bu illərdə onun Məhəmməd ağa Şahtaxtinskinin Tiflisdə nəşr etdiyi "Şərqi-Rus" qəzetində, habelə Kəlküttədə və Qahirə mətbuatlarında da məqalələri dərc olunmuşdur. 1905-ci ilin iyunundan Əli bəy Hüseynzadə ilə birlikdə "Həyat" qəzetinin redaktoru idi. 1905-ci il dekabrın 19-dan "İrşad"qəzetini, 1907-ci ildə isə, eyni zamanda rus dilində "Proqress" qəzetini nəşr etdirmişdir. 1908-ci ilin iyunundan "Tərəqqi" qəzetini çıxarmağa başlamış və Türkiyəyə gedənə qədər (1909) onun naşiri olmuşdur. **Əhməd bəy Ağayev 1906-cı il fevralın 20-də Qafqaz Canişinliyində çağrılmış "barışdırıcı qurultay"da fəal iştirak etmişdir. O, bu qurultaya Bakıdan nümayəndə seçilmişdir.** Əhməd bəy Ağayev Azərbaycan xalqının hüquqlarını qorumaq məqsədilə 1905-1906-cı illərdə "Difai" partiyasını yaratmışdır. Təqiblər üzündən 1909-cu ildə Türkiyəyə mühacirət etmiş, burada "Gənc türklər"lə yaxınlaşmış, "İttihad və tərəqqi" partiyasına daxil olmuşdur. Türkiyənin ictimai-siyasi və mədəni

həyatında iştirak edən Əhməd bəy Ağayev 1939-cu ildə İstanbulda vəfat etmişdir.

9. **Ziyadxanov Adil xan Əbdülfət oğlu (1877, Gəncə-1957, İstanbul)-** ictimai-siyasi və dövlət xadimi, Azərbaycan milli istiqlal hərəkatının görkəmli nümayəndələrindən biri. Onun atası Gəncəli Cavad xanın nəticəsi, anası isə Qacar şahzadəsi Bəhmən Mirzənin qızı idi. Adil xan Gəncə klassik gimnaziyasını və 1902-ci ildə isə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Bakıda vəkil, Gəncə dairə məhkəməsində və onun Şuşadakı şöbəsində andçı müvəkkil vəzifəsində çalışmışdır. **1906-cı il fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə Canişin Şurasında keçirilən "barışdırıcı qurultay"da Yelizavetpol qəzasından Adil xan da fəal iştirak etmişdir.** A.Ziyadxanov "Difai" partiyasının təşkilat komitəsinin üzvü olmuşdur. O, 1917-ci il Fevral inqilabından sonra Gəncədə yaradılmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin 7 üzvündən biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918-ci ilin sentyabrın oratalarında Bakıya köçdükdən sonra A.Ziyadxanovun fəaliyyəti AXC-nin xarici işlər nazirliyi ilə bağlı olmuşdur. Sonradan AXC-nin Qacar dövlətində diplomatik nümayəndəsi təyin edilən A.Ziyadxanov 1920-ci ilin yanvarında başçılıq etdiyi missiya ilə Tehrana yola düşmüşdür. 1921-ci ilin iyunun 23-də rəsmi nümayəndə statusunu itirən Adil xan 1924-cü ildən Qacar dövlətinin müxtəlif idarə və nazirliklərində işləmişdir. 1934 ildə İstanbula köçmüş, universitetdə müəllim işləmiş, ömrünün sonunadək burada yaşamışdır. 1957-ci ildə İstanbulda vəfat etmişdir.

10. **Topçubaşov Əlimərdan bəy Ələkbər bəy oğlu (04.05.1863, Tiflis- 05.11.1934, Paris, Sen-Deni)-** Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, AXC-nin parlamentinin sədri (1918, 7 dekabr-1920, 28 aprel). Rusiyanın müsəlman-türk xalqlarının milli azadlıq hərəkatının liderlərindən biri. O, 1884-cü ildə Birinci Tiflis gimnaziyasını və 1888-ci ildə Peterburq Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Təhsilini başa vurduqdan sonra bir müddət Rusiyada işləmiş, 1894-cü ildə Bakıya gələrək, hüquq-mühafizə orqanlarında çalışmış, sonralar müstəqil vəkil kimi çalışmışdır. Hüquq elmlərinə dərindən bələd olan, Azərbaycan və rus dillərindən əlavə, fars, fransız, ingilis və gürcü dillərini də mükəmməl bilən Topçubaşov Hacı Zeynalabdin Tağıyevin diqqətini cəlb etmiş və 1897-ci ildə "Kaspi" qəzetinin redaktorluğu ona tapşırılmışdır. Ə.Topçubaşov Bakı Şəhər Dumasının üzvü seçilmiş, bir müddət onun sədri olmuşdur. Sonralar Ə.Topçubaşov Ümumrusiya müsəlmanlarının qurultaylarında iştirak etmiş və hətta 1905-ci il avqustun 15-də Nijni Novqorodda keçirilən birinci qurultaya sədrlik etmişdir. O, **1906-cı il fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə Canişin Şurasında keçirilən "barışdırıcı qurultay"da Bakı şəhərindən nümayəndə kimi fəal iştirak etmişdir.** Bakı quberniyasından 1-ci Dövlət Dumasıına deputat seçilən (1906) Ə.Topçubaşovun təşəbbüsü ilə Dumada müsəlman fraksiyası yaradılmışdır. Topçubaşov həm fraksiyanın sədri, həm də 7 nəfərlik büro üzvlərindən biri idi. O, Duma üzvü kimi bir müddət Moskvada fəaliyyət göstərmişdir. Lakin 1905-1907-ci illər inqilabının məğlubiyyə-

tindən sonra irticanın yenidən baş qaldırması nəticəsində Ə.Topçubaşov Moskvanı tərk edərək, Bakıya dönməli olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra Ə.Topçubaşov Fətəli xan Xoyskinin 1918-ci il iyunun 17-də Gəncədə təşkil etdiyi 2-ci hökumət kabinəsi tərkibində əvvəlcə portfelsiz nazir, avqustun 20-dən xarici işlər naziri olmuş, avqustun 23-də isə AXC-nin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula göndərilmişdir. 1918-ci ilin dekabrın 7-də öz işinə başlayan AXC-nin Parlamenti ilk iclasda Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə bu zaman İstanbulda olan Topçubaşov qiyabı olaraq Parlamentin sədri seçilmişdir. Dekabrın 28-də Azərbaycan Hökumətinin və Parlamentin Ağsaqqallar Şurasının birgə iclasında Ə.Topçubaşov Paris Sülh konfransına (1919-1920) göndərilən AXC-nin nümayəndə heyətinin sədri təyin olundu və İstanbuldan birbaşa Parisə yola düşdü. Aprel işğalından sonra (1920, 28 aprel) Parisdə qalıb, mühacirət həyatı yaşamağa məcbur olan Ə.Topçubaşov siyasi fəaliyyətini dayandırmamış, AXC hökumətinin ona verdiyi mandatla 1920-ci ilin noyabrında London və Genuya, 1923-cü ildə isə Lozanna konfranslarında iştirak etmişdir. Ə.Topçubaşov 1934-cü ildə Azərbaycan Milli Mərkəzinin divan üzvü kimi, M.Ə.Rəsulzadə ilə birlikdə Gürcüstan və Şimali Qafqaz xalqları təmsilçilərinin iştirakı ilə Brüsseldə "Qafqaz Konfedrasiyası bəyannaməsi"ni imzalamışdı. Azərbaycanın bu görkəmli oğlu 1934-cü il noyabrın 5-də Parisdə vəfat etmişdir.

11. **Sultanov Eynəli bəy Çölü bəy oğlu (05.05.1866, Naxçıvan-05.06.1935, Tiflis)-** yazıçı, publisist. Naxçıvanda mollaxanada, qəza məktəbində oxumuş, İrəvan kişi gim-

naziyasında təhsil almışdır (1880-1886). 1880-ci illərdən Naxçıvanda maarif və mədəniyyət sahəsində fəaliyyət göstərmişdir. Onun təşəbbüsü ilə burada "Ziyalı məclisi", Naxçıvan teatrının təməlini qoyan Müsəlman şiə incəsənəti və dram cəmiyyəti yaradılmışdır. Cəlil Məmmədquluzadə Eynəli bəyi əməl dostu, ilk müəllimi adlandırmışdır. Qars şəhər idarəsində mühüm işlər məmuru (1886-1891), İrəvan quberniya idarəsində birinci dərəcəli dəftərxana xidmətçisi, İrəvan dairə məhkəməsində tərcüməçi, məhkəmə katibinin köməkçisi, mühüm işlər üzrə masa rəisi (1892-1897), dairə məhkəməsində prokror köməkçisi və prokrorun Naxçıvan qəzası üzrə köməkçisi (1897-1908) işləmişdir. 1908-ci ildən Tiflisdə yaşayan Eynəli bəy Sultanov burada çıxan dövrü mətbuatla sıx əməkdaşlıq etmişdir. 1912-1916-cı illərdə Tiflisdə qadın gimnaziyasında rus dilindən, ibtidai sinifində ana dilindən dərs demiş, sinif nəzarətçisi olmuşdur. AXC-nin dövründə Tiflisdə "Vozrojdenye" qəzetinin redaksiyasında işləmiş, digər qəzetlərlə əməkdaşlıq etmiş, AXC-i Hökuməti haqqında məqalələr yazıb, Qafqaz oxucularını məlumatlandırmışdır. Eynəli bəy ömrünün sonuna qədər Tiflis şəhərində yaşamış və 1934-cü il iyunun 5-də Tiflisdə vəfat etmişdir.

**Eynəli bəy də 1906-cı il fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə Canişin Şurasında keçirilən "barışdırıcı qurultay"da Naxçıvan şəhərindən nümayəndə kimi iştirak etmişdir.**

**12. Şahtaxtinski (Şahtaxtlı) Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu (1846, Naxçıvan, indiki Naxçıvan MR, Şərur rayonunun Şahtaxtı kəndi-12.12. 1934, Ba-**

**kı)-** görkəmli Azərbaycan publisisti, maarifçi, şərqşünas, dilçi, pedaqoq və ictimai xadim. Naxçıvan şəhər məktəbini və Tiflis kişi gimnaziyasını (1863) bitirdikdən sonra Peterburqda müstəqil yolla alman dilini öyrənmişdir. 1969-cu ildə Leypsiq Universitetinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmişdir. 1873-1876-cı illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fransız dilini öyrənmişdir. Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb, türk və fars dillərində ədəbi, elmi əsərlər yazmışdır. 1891-1893-cü illərdə "Kaspi" qəzetinin müvəqqəti redaktoru təyin edilmişdir. 1898-ci ildə Azərbaycan dilində "Tiflis" adlı qəzet çıxarmağa çalışmış, lakin çar senzurası buna imkan vermədiyindən yenidən Parisə getmiş, 1902-ci ilə qədər Parisdə yaşamışdır. 1902-ci ildə Şahtaxtinski Tiflisdə xüsusi mətbəə açmış, 1903-cü ilin martından "Şərqi-Rus" qəzetinin nəşrinə başlamışdır. 1907-ci il İrəvan gimnaziyasından 2-ci Dövlət Dumasına deputat seçilən M.Şahtaxtinski Duma buraxıldıqdan sonra "Possiya" (Peterburq) qəzeti redaksiyasında işləmiş, 1908-1918-ci illərdə mühacir həyatı keçirmiş, Türkiyə, Qacar dövləti və İraqda yaşamışdır. O, 1919-cu ildə vətənə qayıtmış, Bakı Dövlət Universitetinin yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. 1922-ci ildə Məhəmməd ağa Şahtaxtinski fərdi pensiya təyin olunmuşdur. O, 1934-cü il dekabrın 12-də Bakıda vəfat etmişdir.

**Məhəmməd ağa Şahtaxtinski də 1906-cı il fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə Canişin Şurasında keçirilən "barışdırıcı qurultay"da Naxçıvan şəhərindən nümayəndə kimi fəal iştirak etmişdir.**

13. **Hacıyev Kərbəlayı İsrafil (1870, Bakı-1940, Ənzəli)-** Kərbalayı İsrafil Hacıyev 1870-ci ildə Bakının Dağlı məhəlləsində anadan olmuşdur. O, çox varlı adam olub. Onun neft mədənləri, Xəzər dənizində ticarət gəmisi, Bakıda 17 mülkü, bağı, Soçidə torpq sahəsi var idi. Kərbalayı İsrafil 1920-ci ildə ticarət məqsədilə Qacar dövlətinə getmiş, geri qayıtmamışdır və 1940-cı ildə Ənzəlidə vəfat etmişdir. Kərbalayı İsrafil Hacıyev Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü və eyni zamanda **1906-cı il fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə Canişin Şurasında keçirilən "barışdırıcı qurultay"da Bakı şəhərindən nümayəndə kimi fəal iştirak etmişdir.**
14. **Qarabəyov Qarabəy İsmayıl ağa oğlu (14 yanvar 1874, Yelizavetpol qəzası, Şiştəpə kəndi- 27 sentyabr, 1953, Səmərqənd)-** Qarabəy Qarabəyov 1874-cü il yanvar ayının 14-də Yelizavetpol quberniyasının Yuxarı Ayıblı (indiki Şiştəpə) kəndində anadan olmuşdur. Şəmkir alman-rus liseyini, daha sonra Tiflis klassik gimnaziyasını bitirmişdir. 1892-ci ildə Mockva Universitetinin Tibb fakültəsinə daxil olmuşdur. O, təhsilini H.Z.Tağıyevin hesabına alırdı. 1896-cı ildə "inqilabi" fəaliyyətinə görə bir il həbs cəzsına məhkum edilib, həbsdən sonra təhsilini Yuriyev (Tartu) Universitetinin tibb fakültəsində davam etdirmişdir. 1899-cu ildə universiteti bitirdikdən sonra iki il Moskvada işləyib. 1901-ci ildə Bakıya qayıtdıqdan sonra şəhərdə ilk dəfə olaraq zöhrəvi xəstəliklərin müalicəsi üzrə kabinet açmışdı. Qarabəy Qarabəyov "İttifaqi Müslümün" üzvü, "Difai" Partiyasının rəhbərlərindən biri olub. Həmin dövrdən publisist fəaliyyətinə başlayıb, "Həyat", "İrşad", "Kaspi" və s., kimi qəzetlərlə

əməkdaşlıq edib. 1906-cı ildə Qacar dövlətinə mühacirət edərək inqilabi fəaliyyətini davam etdirmişdir. Rəşt tutulduqdan sonra Avropaya mühacirət etmək məcburiyyətində qalmışdır. 1908-ci ildə İstanbula gəlib, burada "Səadət" adlı təşkilat yaratmışdır. Lakin o, 1911-ci ildə Bakıya qayıdaraq, həkimlik və publusistik fəaliyyətini davam etdirmişdir. O, həmçinin Azərbaycanda ilk iki cildlik türk-rus lüğətini nəşr etdirmişdi. I Dünya müharibəsinin (1914-1918) başlaması ilə cəbhəyə yollanmış, rus ordusunun tərkibində müsəlmanlardan ibarət "Vəhşi diviziya"nın baş həkimi olmuşdur. Fevral inqilabından (1917) sonra Bakıya qayıtmış, bir müddət "Kaspi" və "Yeni həyat" qəzetlərinin baş redaktoru olmuşdur. Qara bəy Qarabəyov Mart soyqrımından sonra İmam Nəcməddin Qotsinskinin dəstəsi ilə birlikdə Dağıstana getmiş və bir müddət aullarda yaşamışdır. Bakı azad edildikdən sonra (1918, sentyabr 15) vətənə qayıdan Qarabəyov Bakı bələdiyyəsi tərəfindən türk ordusu şəninə təşkil olunan tədbirlərin rəsmi rəhbəri təyin edilmiş, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə keçirilən əlavə seçkilərdə onun üzvü seçilmiş, "İttihad" partiyası rəhbərlərinin xahişi ilə bu partiyaya daxil olmuş, parlamentdə onun fraksiyasına rəhbərlik etmiş, 1919-cu ilin aprelində onun rəhbəri seçilmişdir. Aprel işğalından sonra (1920) Qarabəyov bir neçə dəfə həbs edilmiş, əvvəlcə Arxangelsk vilayətindəki Solovki həbs düşərgəsinə göndərilmişdir. Nərimanovun xahişindən sonra, Leninin müdaxiləsi nəticəsində 1923-cü ildə sürgündən azad olmuş, Moskvaya köçərək, Rusiya Fövqəladə Komissarlığının xəstəxanasında həkim işləmişdir. 1924-cü ildə Qırgızıstana köçərək, burada ilk mamalıq tibb texnikomunun əsasını qoymuşdur. 1932-ci ildə

Qırğızıstanda ilk retgeneloji kabinet təşkil etmişdir. 1933-cü ildə Özbəkistana gəlmək məcburiyyətində qalan Qarabəyov Səmərqənd xəstəxanasında baş həkimin müavini vəzifəsində işləmişdir. 1934-cü ildə gizli olaraq Bakıya qayıdarkən bir ermənini döydüyü üçün həbs edilmiş, həbsdən buraxıldıqdan sonra yenidən Səmərqəndə qayıtmışdır. 1936-cı ildə Səmərqənddə vərəm sanatoriyasının baş həkimi işləmişdir. Lakin bir həkimin şikayət məktubu əsasında "pantürkist, panislamist" kimi həbs edilərək, 10 il müddətinə Kolımaya (Rusiya, Maqadan vilayəti) sürgün olunmuşdur. 1947-ci ildə Bakıya qayıtsa da, burada iş və qeydiyyat problemləri ilə üzləşdiyindən yenidən Səmərqəndə qayıtmış, 1953-cü ildə burada vəfat etmişdir.

**Qarabəy Qarabəyov da, 1906-cı il fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə Canişin Şurasında keçirilən "barışdırıcı qurultay"ında Bakı şəhərindən nümayəndə kimi fəal iştirak etmişdir.**

15. **İrəvanski Ağa xan Abbasqulu xan oğlu (4 yanvar 1865, İrəvan-19 avqust 1920, Tiflis)-** Ağa xan Abbasqulu xan oğlu İrəvanski 4 yanvar 1865-ci ildə İrəvan şəhərində zadəgan ailəsində dünyaya gəlmişdir. Atası Abbasqulu xan İrəvanski İrəvan şəhər Dumasının üzvü, şəhərdəki rus-tatar məktəblərindən birinin fəxri rəhbəri və Qacarlar soyunun İrəvan qolunun nümayəndəsi, yəni İrəvan xanlarının nəslindən idi. Anası Tərlan xanım Kəngərli Naxçıvan xanları nəslindən və İsmayıl xan Naxçıvanskinin qızı idi. Ağa xan İrəvan şəhər Gimnaziyasında oxusa da, oranı bitirməmişdi. Məktəbdən ayrıldıqdan qısa müddət sonra imtahan vermiş və III dərəcəli dövlət qulluqçusu olmuşdur. Daha sonra İrəvan qu-

bernatorunun xüsusi tapşırıqları üzrə əsas köməkçisi olmuşdur. 1878-ci ildə atası ilə birlikdə İrəvan quberniyasına aid məsələlərin müzakirə edildiyi quberniya kollegiyasına qatılmışdır. 1904-cü oldə Ağa xan İrəvanski İrəvan şəhər Dumasının üzvü olmuşdur. **13 fevral 1906-cı ildə İrəvanda Azərbaycan türkləri icması adından ermənilərlə toqquşmanı dayandırılmasını və quberniyada nizam-intizamın bərpa edilməsini nəzərdə tutan razılaşmanı imzalayanlardan biri olmuşdur.** 16 may 1906-cı ildə İrəvan quberniyasından Rusiya I Dumasına deputat seçilmişdir. 1907-1908-ci illərdə bir neçə Azərbaycan türkü ilə birlikdə İrəvan şəhər Dumasının üzvü seçilmişdir. 1919-cu ilin fevralında İrəvan Müsəlmanları Milli Şurasının rəhbəri olmuşdur. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Tiflisə köçməyə məcbur olmuşdur. Həmin ilin avqustun 19-da burada vəfat etmiş və Tiflis müsəlman qəbirstanlığında dəfn olunmuşdur.

**Ağa xan İrəvanski də, 1906-cı il fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə Canişin Şurasında keçirilən "barışdırıcı qurultay"ında İrəvan şəhərindən nümayəndə kimi fəal iştirak etmişdir.**

16. **Sultanov Cəlil bəy (?-?)-** Çox təssüf ki, Cəlil bəyin uşaqlığı və gəncliyi haqqında məlumat əldə edə bilmədik. Onun haqqında məlumat yalnız Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır. Cəlil bəy AXC-i Parlamentinin deputatı olmuşdur. Əvvəlcə "Bitərəflər" fraksiyasına daxil olmuş, 1919-cu ildə bu fraksiya parçlandıqdan sonra 8 nəfərdən ibarət böyük əksəriyyətlə birlikdə "Müsavat" fraksiyasına keçmişdir.

**Cəlil bəy Sultanov da, 1906-cı il fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə Canişin Şurasında keçirilən "barışdırıcı qurultay"da Zəngəzur qəzasından nümayəndə kimi iştirak etmişdir.**

17. **Şahmalıyev Məhəmməd bəy Nəsrullah bəy oğlu (1870, Səfərəliyev, Samux rayonu- 1924, Bakı)-** Məhəmməd bəy ilk təhsilini Samuxda öz ailəsində alıb, 1877-ci ildə atası tərəfindən Tiflisə oxumağa göndərilib. Tiflisdə o, Şahmalıyevlər ailəsinin yaxın dostu knyaz Orbelianinin himayəsi altında olub. 1891-ci ildə Tiflis klassik gimnaziyasını bitirən Məhəmməd bəy Novorossiysk Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur. O, bu universitetdə yaradılmış Azərbaycan Həmyerlilər Təşkilatının bir üzvü idi. 1896-cı ildə universiteti başa vuran Məhəmməd bəy hüquqşünas diplomu alaraq dövlət qulluğuna başlayıb. Rusiya imperatorunun qardaşı, böyük knyaz Nikolay Nikolayeviç Romanov Məhəmməd bəyin atası Nəsrulla bəylə dostluq edirdi. Böyük knyaz Samuxda Nəsrulla bəyin qonağı olarkən bəy ona cins atlar, o isə bəyə işində çox bahalı brilyant qaşlı üzük olan qızıl burnotu qabı-tabakerka bağışlamışdır. Məhəmməd bəy ayrı-ayrı dövrlərdə müxtəlif vəzifələrdə işləmişdir. O, 1913-cü ildə Şəki qəzasının, 1914-1915-ci illərdə Ərəş qəzasının rəisi olub. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra, Azərbaycan hökumətinin qərarı ilə 1919-cu il martın 16-da M. Şahmalıyev Zaqatala quberniyasının qubernatoru təyin olunmuşdur. O, bu vəzifədə 1920-ci il yanvarın 16-a qədər çalışmışdır. 1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hakimiy-

yəti qurulduqdan sonra M. Şahmalıyev bolşeviklər tərəfindən əmlakı müsadirə edilməklə həbs olunmuşdur. 1920-ci ildə məhkəməsi keçirilmiş, N.Nərimanov işə qarışdıqdan sonra güllələnməkdən qurtarmış, lakin ev dustağı edilmişdir. Bakıda, indiki Sabir bağının yerindəki mənzildə 4 il dustaq kimi yaşayan görkəmli dövlət xadimi 1924-cü ildə vəfat etmişdir.

**Məhəmməd bəy Şahmalıyev də 1906-cı il fevralın 20-də Canişin Şurasında Azərbaycan türkləri ilə ermənilər arasında keçirilən "barışdırıcı qurultay"da digər nümayəndələrlə birlikdə fəal iştirak etmişdir.**

18. **Xasməmmədov Ələkbər bəy Hacıbaba bəy oğlu (3 mart 1870, Gəncə- 28 iyun 1925, Bakı)-** Ələkbər bəy Xasməmmədov 1870-ci il martın 3-də Gəncədə anadan olub. Moskvada hüquq təhsili alıb, Gəncə şəhər Dumasının, Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin və onun təftiş komissiyasının üzvü olub. 1905-ci ilin yayında Qafqazda yerli idarəetmə orqanlarının təşkili ilə bağlı yaradılan üç nəfərdən ibarət idarə heyətinin (Əlmərdan bəy Topçubaşov və Adil xan Ziyadxanovla birlikdə) üzvü seçilib. Ələkbər bəy 1905-ci ildə Gəncədə yaradılmış Qeyrət partiyasının qurucularından biri, 1906-cı ildə qurulmuş Diafi Partiyasının Mərkəzi Komitəsinin üzvü olmuşdur. **1906-cı ildə fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə keçirilən "barışdırıcı qurultay"ında Yelizavetpol qəzasından Ələkbər bəy Xasməmmədov da təmsil edilib.** Fevral inqilabından sonra Gəncədə qurulmuş Müsəlman Milli Komitəsinin 14 üzvündən biri olub. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan son-

ra 1918-ci il iyulun 15-də Mart soyqrımını araşdırmaq üçün hökumətin qərarı ilə yaradılmış Fövqəladə Tədqiqat Komissiyasının sədri təyin olunub. 1919-cu ildə vəkil Ə.Xasməmmədov Azərbaycan Məhkəmə Palatasının böyük sədri təyin olunub. Zəngəzur qəzasından parlament üzvlüyünə seçilib və sənədləri etibarnamə komissiyasına təqdim olunub. Lakin daha sonra istintaq məhkəməsinin sədri təyin olunduğu üçün parlamentin 1919-cu il martın 10-da baş tutmuş 21-ci iclasında Ə.Xasməmmədov dövlət qulluğuna qəbul olunması səbəbi ilə martın əvvəllərindən üzvlükdən xaric olunduğu elan olunub. Aprel işğalından sonra, 28 iyun 1925-ci ildə həbs olunaraq güllələnmişdir.

19. **Vəkilov İbrahim bəy (7 may, 1853, Qazax qəzasının Qıraq Salahlı kəndi-2 iyun, 1934, Bakı)-** İbrahim bəy Vəkilov 1853-cü il mayın 7-də Yelizavetpol quberniyasının Qazax qəzasının Qırax Salahlı kəndində anadan olmuşdur. O, 1866-cı il sentyabrın 6-da Tiflisdəki 3-cü Mejavoy (mərz çəkmə, sərhəd çəkmə, mərzlə ayırma-E.Q.) Hərbi gimnaziyasına daxil olub. Bu məktəbdə 9 il oxuduqdan sonra həmyerlisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin məsləhəti ilə İbrahim ağa Vəkilov Peterburqdakı hərbi topoqrafiya (geodeziyanın yerin səthini ölçməklə və onun şəklini planda və ya xəritədə göstərməklə məşğul olan şöbə-E.Q.) məktəbinə daxil olur, 1879-cu ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib, praporşik rütbəsi alır. Qulluq üçün Tiflisə göndərilən cənc zabit bir müddət Qafqaz hərbi dairəsinin topoqrafiya şöbəsində çalışır. 1883-cü ildə Rusiya-Qacar komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiq-

ləşdirilməsində iştirak edir. İbrahim bəy Vəkilovun xidməti yüksək qiymətləndirilir və Qacar dövlətinin ən yüksək "Şiri-Xurşid" ordeninə layiq görülür. 1891-ci ildə Türkiyəyə ezam olunan İbrahim ağa Vəkilov dörd il rus səfirliyində yaşayaraq xüsusi tapşırığı yerinə yetirir. 1901-ci ildən şöbə rəisi podpolkovnik İbrahim ağa Qars Vilayətini Rus-Türk sərhədlərində topoqrafik çəkilişə rəhbərlik edir və Bosforun hərbi xəritəsini hazırlayır. 1912-1913-cü illərdə Rus-Qacar hökumətinin danışıqlarına əsasən polkovnik İ.Vəkilov Cənubi Azərbaycanın Təbriz, Urmiya və Xoy şəhərlərində keçirilən topoqrafik çəkilişlərinə də başçılıq edir. I Dünya müharibəsi illərində döyüşən ordu qərargahında fəaliyyət göstərən polkovnik İbrahim ağa 1817-ci il inqilabından sonra Tiflisə qayıdır. Bir müddət Zaqafqaziya Federasiyasında və Zaqafqaziya Xeyriyə Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. İbrahim ağa sonralar Bakıda və Gəncədə fəaliyyət göstərmişdir. 1918-ci ildə o, Azərbaycan Milli Ordusunun təşkilində fəal çalışanlardan olmuşdur. Azərbaycan hökumətinin 1919-cu il 30 mart tarixli qərarı ilə İbrahim ağaya general-mayor rütbəsi verilmişdir. 1919-cu il 6 may tarixində general-mayor İbrahim ağaya hökumətin 248 nömrəli əmri ilə Baş Qərargahda hərbi topoqrafiya şöbəsinin rəisi tətin olunmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra İbrahim ağa öz işini davam etdirmişdi. O, iyunun 2-si 1934-cü ildə Bakıda vəfat etmişdir.

**1906-cı ildə fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə keçirilən**

**“barışdırıcı qurultay”ında Qazax qəzasından İbrahim ağa Vəkilov da təmsil olunmuşdur.**

20. **Movlazadə (Şəkuvi) Qazi Axund Məhəmmədhəsən İsmayıl oğlu (1854, Şəki-1932, Tiflis)-** Məhəmmədhəsən Movlazadə 1854-cü ildə Şəkidə anadan olmuşdur. O, ilk təsilini Şəkidə mollaxanada almışdır. Təhsilini sonra Gəncə mədrəsəsində davam etdirmişdir. Mədrəsəni bitirdikdən sonra Məhəmmədhəsən Movlazadə bir il Gəncə Cümə məscidində molla kimi çalışmışdır. O, sonra təhsilini davam etdirmək qərarına gəlir və bu məqsədlə İraqa gedir. Burada Məhəmmədhəsən dini təhsilini daha da zənginləşdirir. 1891-ci ildə Qafqaza qayıdır və Hicri və Miladi təqvimlərini birgə olaraq fars dilində çap etdirir. 1893-cü ildə Tiflisdə yerləşən “Müsəlman dini məktəbi”ndə İslam dini qaydaları (Şəriət qanunları) üzrə dərs deməyə başlamışdı. Sonralar o, Qazi kimi Cəbrayıl, Gəncə, Tiflis və Kutaisidə çalışır. Axund rütbəsi alan Hacı Məhəmmədhəsən bir müddət qazi, 1907-ci ildən Şeyxülislam əvəzçisi olub, 1908-ci ildə Şeyxülislam seçilib (1908-1909). Həmin il onun “Kitab əl-bəyan fi təfsir əl-Quran” adlı kitabı nəşr olunmuşdur. 1932-ci ildə Tiflisdə vəfat etmişdir.

**1906-cı ildə fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə keçirilən “barışdırıcı qurultay”ında Tiflisdən Qazi Axund Movlazadə də təmsil olunmuşdur.**

21. **Mirzəyev Mirzə Şərif (1860, Tiflis - 1937, Tblisi)-** Mirzə Şərif Mirzəyev 1860-cı ildə Tiflisdə anadan olmuşdur. Mədrəsədə aldığı təhsilini bitirdikdən sonra 1882-ci ildə Qori şəhərində yerləşən Zaqafqaziya (Cənubi Qafqaz-E.Q.) Müəllimlər Seminariyasında təhsil

almışdır. 1882-ci ildə Tiflis şiə məktəbində rus dili müəllimi kimi işləməyə başlamışdır. 1888-ci ildə Qafqaz Hərbi Dairəsi qərargahında Şərq dilləri üzrə tərcüməçi kimi fəaliyyətə başlayıb. Uzun müddət burada çalışan M.Ş.Mirzəyev tez-tez Qacar dövləti, Türkiyə ilə aparılan diplomatik danışıqlarda tərcüməçi kimi iştirak edib. Avropaya səyahətə çıxmış, Qacar şahının, Buxara əmrinin və başqa ölkələrin dövlət xadimlərinin Qafqaz ərazisində müşayətçisi və tərcüməçisi olub. 1906-cı ildə Tiflis mətbuat işləri komitəsində aparılan yenidənqurma işləri zamanı M.Ş.Mirzəyev təhsil aldığı seminariyada məzmunların böyük bir dəstəsinin ciddi təzyiqi, təhdidi ilə oraya yerli və şərq dilləri üzrə kiçik senzor vəzifəsinə təyin edilmiş, 1908-ci ildə isə həmin dillər üzrə böyük senzor vəzifəsinə keçmişdir. O, bu vəzifədə 1917-ci ilə qədər, komitə ləğv edilənədək çalışmışdır. Azərbaycan ədəbiyyatı və mədəniyyətinin tərəqqisi və təbliği yolunda böyük xidmətlər göstərmiş M.Ş.Mirzəyev 1937-ci ildə repressiya qurbanı olmuşdur.

**1906-cı ildə fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə keçirilən "barışdırıcı qurultay"ında Tiflisdən Mirzə Şərif Mirzəyev də təmsil olunmuşdur.**

22. **Nurubəyov Cahangir xan Hacı Böyük bəy oğlu (1861, Şuşa-1934, Bakı)-** Cahangir xan Hacı Böyük bəy oğlu 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Ata tərəfdən Qatırçı Murad bəyin, ana tərəfdən Bəhmən Mirzə Qovanlı-Qacarın nəslindəndir. Şuşa realnı məktəbini bitirmişdi. Mülkədar idi. Şuşa şəhərində karvansarayı, Cavanşir, Şuşa və Zəngəzur qəzalarında xeyli mülkləri vardı. Maarifpərvər bir adam idi. Şuşa şəhər

dövlət ibtidai məktəbinin fəxri nəzarətçisi vəzifəsini daşıyırdı. O, "Difai" təşkilatının və onun qolu "Qarabağ məclisi"nin üzvü idi. **Cahangir xan 1906-cı il fevral-mart ailarında Tiflisdə keçirilən "barışdırıcı qurultay"da iştirak etmişdi.** Cahangir xan 1934-cü ildə Bakı şəhərində vəfat etmişdir.

### "Barışdırıcı qurultay"da iştirak edən bəzi erməni nümayəndələrinin bioqrafiyası haqqında:

23. **Xatisyan (Xatisov) Aleksandr İvanoviç (1874, 17 fevral, Tiflis-1945, 10 mart, Paris)-** A.İ.Xatisov məmur ailəsində anadan olmuşdur. 1891-ci ildə Tiflis gimnaziyasını bitirmiş, Moskva və Xarkov universitetlərində tibb fakültəsində oxumuş, 1897-ci idə universiteti bitirərək həkim diplomu almışdır. 1898-ci ildə İtaliya, Fransa və Almaniya kimi Avropa dövlətlərinə gedərək, təhsilini davam etmişdir. O, 1900-cu ildə Tiflisə qayıdaraq siyasi fəaliyyətlə məşğul olmuşdur. 1902-ci ildə Tiflis şəhər dumasının "qlasnı"sı (üzvü), 1905-ci ildə Tiflis şəhər idarəsinin üzvü seçilən A.İ.Xatisov, 1905-ci il inqilabında iştirak etmiş və "Daşnaksutyun" terror təşkilatı ilə yaxın olmuşdur. Daha sonra, o, 1907-ci ildən Tiflis şəhər duma başçısının müavini, 1916-1917-ci illərdə isə Tiflis şəhər qalavası (başçısı) olmuşdur. I Dünya müharibəsi dövründə Xatisov Şəhərlər İttifaqının Qafqaz Komitəsinin sədri olmuşdur. Eyni zamanda Xatisov Qafqaz ordusunun baş komandanı qraf İ.İ.Voronsov-Daşkovun, Tiflis erməni yepiskopu Ter-Movsesyanın və həkim Akop Zavriyevin ermənilərdən könüllü dəstələlərin təşkil edilməsi üzrə məsləhətçi olmuş,

1915-ci ildə Tiflisdə Erməni Milli Bürosunun sədr müavini seçilmişdir. 1917-ci il Fevral inqilabından sonra A.İ.Xatisov rəsmi olaraq “Daşnaksutyun” terror təşkilatına daxil olmuşdur. 1918-ci ilin aprelində Zaqafqaziya Demokrativ Fedrativ Respublikasının maliyyə və ərzaq naziri, Zaqafqaziya Seymində Himayədarlıq naziri təyin olunmuşdur. 1918-ci il iyunun 4-də Xatisov Ovanes Kaçaznuni ilə birlikdə Batumda Osmanlı Türküyəsi ilə sülh müqaviləsi bağlamışdır. Daha sonra o, 1918-cu ilin oktyabrından Ermənistan Respublikasının xarici işlər naziri, 1919-cu ilin mayın 20-dən isə baş nazir olmuşdur. A.İ.Xatisov 1920-ci il dekabrın 2-də Ermənistan Respublikası adından Aleksandropol (Gümrü-E.Q.) müaviləsinə imza ataraq hakimiyyəti bolşeviklərə vermişdir. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra A.İ.Xatisov Farnsaya, Paris şəhərinə mühacirət etmiş, 1923-cü ildə Lozanna konfransında iştiak etmişdir. 1940-cı ilin yayında Paris almanlar tərəfindən işğal edildikdən sonra onlarla yaxınlaşmış, hətta Portuqaliyaya getmişdi. Almanlarla əməkdaşlığa görə 1944-cü ildə Portuqaliyada yerli hakimiyyət tərəfindən həbs edilmişdi. Lakin istintaq zamanı lazımi sübut olmadığından həbsdən buraxılmışdır. A.İ.Xatisov 1945-ci il martın 10-da Parisdə vəfat etmişdir.

**1906-cı ildə fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə keçirilən “barışdırıcı qurultay”ında Tiflisdən Aleksey İvanoviç Xatisyan (Xatisov) da təmsil olunmuşdur.**

**24. Silikyan Movses Mixayloviç (yaxud Moisey Mixayloviç Silikov-2 (14) sentyabr, 1862-ci il, Yelizavetpol (Gəncə-E.Q.) quberniyasının Vartaşen kəndi- 10 de-**

**kabr, 1937, İrəvan) udin əsilli erməni hərbi rəisi-** O, 1862-ci ilin 2-si (14) sentyabrında Vartaşen kəndində udun ailəsində anadan olmuşdur. 16 (28) avqust 1882-ci ildə hərbi xidmətə başlamış, 3-cü Aleksandrovski hərbi məktəbini bitirmiş və 155-ci piyada Quba alayında xidmətə başlamışdır. M.M.Silikov polkovnik rütbəsi almışdır. I Dünya müharibəsi illərində polkovnik Silikov 2-ci Qafqaz atıcı briqadasının (sonradan diviziya) 6-cı alayının rəisi kimi müxtəlif döyüşlərdə iştirak etmişdir. 1916-cı il fevralın 3-də (16) Ərzurum qalası rus qoşunları tərəfindən işğal edildikdən sonra, qalanın hərbi komendantı təyin olunmuşdur. 1918-ci il yanvarın 1-dən I piyada diviziyasının "erməni korpusu"nun rəsi olmuşdur. Ermənistan müstəqil dövlət elan edildikdən sonra M.M.Silikov general adı ilə təltif edilmişdir. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra M.M.Silikov Aleksandropolda (Gümrü-E.Q.) "Baltik" firmasının İsveç bölməsində kənd təsərrüfatı əşyalarının satışı ilə məşğul olur. 1923-1930-cu illərdə "Near East Relief" firmasının amerkan bölməsində işləyir. O, bir neçə dəfə həbs olunur. 1937-ci ildə həbs olunan M.M.Silikov həmin il dekabrın 10-da güllələnmişdir.

**1906-cı ildə fevralın 20-də Azərbaycan türkləri ilə erməni nümayəndələrinin Tiflisdə keçirilən "barışdırıcı qurultay"ında Yelizavetpol quberniyasının Nuxa qəzasından Movses Mixayloviç Silikyan (yaxud Moisey Mixayloviç Silikov) da təmsil olunmuşdur.**

# MÜNDƏRİCAT

**GİRİŞ** .......................................................................... 3
**I FƏSİL.** 1905-1906-cı illərdə baş vermiş Azərbaycan türkləri ilə ermənilər arasında olan qırğınlar ərəfəsində Azərbaycanda siyasi vəziyyət haqqında qısa məlumat .............................................. 7
**II FƏSİL.** Azərbaycanlılarla ermənilər arasında keçirilən "Barışdırıcı qurultay" ........................................................ 29
2.2. "Barışdırıcı qurultay"ın geniş təsviri, nümayəndələrin çıxışları və Xüsusi komissiyanın protokolları ......................................... 65
**NƏTİCƏ** ....................................................................... 177
**ƏLAVƏLƏR** .................................................................... 195

**Elçin Qarayev**

# Azərbaycanlılarla ermənilər arasında keçirilən "Barışdırıcı qurultay" *(Qafqaz Canişinliyi, 20 fevral- 6 mart 1906-cı il)*.

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Leyla Məmmədli, Ömər Qasımlı

Çapa imzalanmışdır: 19.11.2025
Format: 60x84 1/16; şərti çap vərəqi 13,875
Sifariş № 1020; tiraj 100 nüsxə
“Füyuzat” nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com